**CƏLİL XƏLİLOV**

# Azərbaycan veteranı: böyük yolun 30 ili

**BAKI- 2017**

**Məsləhətçi:** Bədirxan Əhmədov, filologiya üzrə elmlər doktoru, professor

**Redaktor:** Lətif Babayev, Respublika Veteranları Təşkilatının şöbə müdiri, ehtiyatda olan polkovnik

Arxiv, rəsmi dövlət sənədləri və dövri mətbuata istinadən hazırlanmış kitabda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradıldığı 30 ildə keçdiyi tarixi yol və ən mühüm məqamlardan söhbət açılır. Görkəmli şəxsiyyət, böyük siyasətçi Heydər Əliyevin Azərbaycan Respublikasına ikinci dəfə rəhbərlik etdiyi 1993-2003-cü illər fəaliyyətində veteran hərəkatında canlanma yaratması və bu istiqamətdə vahid dövlət siyasətinin tərkib hissəsinə çevirməsi nəzərə çatdırılır. Ümmumilli lider Heydər Əliyevin birbaşa dəstəyi və tövsiyəsi ilə 1994-cü ildə "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanununun qəbulundan sonra təşkilatın öz fəaliyyətini daha səmərəli qurması xüsusi qeyd edilir. Ümmumilli liderin və Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin müxtəlif dövlət tədbirləri, bayram mərasimlərindəki çıxışları, müraciətlərində veteranlarla bağlı səsləndirdikləri müdrik fikirlər də kitaba daxil edilmişdir.

Kitab gənc nəslin azərbaycançılıq məfkurəsinə uyğun, vətənə, xalqa məhəbbət, öz tarixi keçmişinə hörmət ruhunda tərbiyə olunması, vətəndaş kimi formalaşmasında əhəmiyyətli olacaqdır.w

**"Vətən" nəşriyyatı -2017**



# ÖN SÖZ

Ümummilli lider Heydər Əliyevin Azərbaycan və onun xalqı qarşısında tarixi xidmətlərindən bəhs edənlər iki məsələni xüsusi vurğulayırlar. Bunlardan birincisi, bu böyük dövlət xadiminin öz ölkəsini və xalqını zamanın ən ağır sınaqlarından çıxarmaq, ən ciddi təhlükələrindən qorumaq üçün xalqı məharətlə səfərbər etməyi bacarması, ikincisi isə dünyada çox az siyasi liderinə qismət olan dövlət qurucusu olmasıdır. Heydər Əliyevin böyük dövlət xadimi kimi bu xidmətləri hətta opponentləri tərəfindən də etiraf edilən danılmaz həqiqətdir. Təkcə bu keyfiyyətlər Heydər Əliyevin hələ sağlığında xalqın ümummilli sevgisini, əbədiyaşarlıq qazanması üçün kifayət idi.

Azərbaycanın xilaskar oğulu, ümummilli lideri, görkəmli dövlət xadimi Heydər Əliyevin zəngin ictimai-siyasi fəaliyyəti 45 illik bir epoxanı əhatə edir. Bu epoxanın birinci 35 ilə yaxın hissəsi hələ sovet dönəmində Azərbycanın geri qalmış aqrar əyalətdən sürətlə inkişaf edib ölkənin ən qabaqcıl, böyük sənaye potensialına malik respublikasına çevrilməsi, dünyaya tanıdılması ilə əlamətdar olmuşdur. Bu epoxanın ikinci hissəsi isə yenicə qazanılmış dövlət müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qalan ölkənin xilası naminə atılan və milli dövlətçilik ənənələrinə əsaslanan addımlarla başlanmışdı. Həmin qətiyyətli addımlar yeni müstəqillik dönəmində müasir dövlətinin qurulub möhkəmləndirilməsi və inkişaf etdirilməsi, beynəlxalq təhlükəsizlik sistemlərinə uğurla inteqrasiya olunması ilə tarixə çevrilmişdir. Ermənistanla atəşkəs sazişinin imzalanması, iqtisadi islahatların gerçəkləşdirilməsi, hüquqi,



demokratik dəyərlərə əsaslanan milli Kostitusiyanın qəbulu, mütəşəkkil, nizami ordu quruculuğu, ölkədə ictimai-siyasi sabitliyin qorunması, elmin, təhsilin, mədəniyyətin sürətlə inkişaf etdirilməsi yeni inkişaf mərhələsinə çıxarılmasına hərtərəfli imkanlar yaratdı.

Bu böyük insanın ömrünün hər anı, hər dəqiqəsi vətənə, millətə sədaqətlə xidmətin əsl təntənəsi idi. Azərbaycanlı olmağı ilə həmişə qürur duyan Heydər Əliyev hələ sağlığında





xalqın xilaskar oğlu, 50 milyonluq dünya azərbaycanlılarının ümummilli lideri adını qazanmışdı. Onun: “Hamımızın bir vətəni var. Bu - Azərbaycandır!” sözü xalqın müdrik kəlamına çevrilməsi məhz Azərbaycanın böyük liderinin tarixi xidmətlərin məntiqi nəticəsidir.

Heydər Əliyev müdrikliyi elə bir zəngin və əvəzolunmaz mənbədir ki, Azərbaycanın istənilən inkişaf mərhələsində onun fikirlərinə, tövsiyələrinə daim ehtiyac duyulur. Geniş mənada xalqın, eləcə də dövlət və ictimai xadimlərin, adi insanların, böyüməkdə olan yeni nəslin bu dahi şəxsiyyətin həyatından, idarəetmə təcrübəsi və təfəkküründən, müdrik fikir və tövsiyələrindən bir sözlə, istiqamətverici ideyalarından bəhrələnməyə, hadisə və proseslərə münasibətdə daha düzgün qərarlar qəbul etməyə hazır olmağa həmişə böyük ehtiyacı vardır. Heydər Əliyevin Azərbaycan qarşısındakı xidmətlərindən danışarkən onun ölkədə veteran hərakatının inkişafına göstərdiyi böyük dəstək də yada düşür. İndiyədək barəsində az yazılmış, az deyilmiş bu mövzu xüsusi tədqiq obyekti kimi öyrənilmədiyindən geniş oxucu kütləsi dahi şəxsiyyətin Azərbaycanda veteran hərakatının canlanmasına göstərdiyi böyük dəstək barəsində o qədər də məlumatlı deyildir. Bu baxımdan, hazırkı kitabda biz bu məsələni qismən də olsa əhatə etməyə, Heydər Əliyevin Respublika Veteranlar Təşkilatının fəaliyyətinə, bütün veteranlara göstərdiyi qayğıdan, diqqətdən rəsmi dövlət sənədlərinə və arxiv materiallarına istinadən söhbət açacağıq.

Heydər Əliyevin müxtəlif çıxışları, nitqləri, müraciətləri, müsahibələri və söhbətlərindən seçilərək oxuculara təqdim olunan bu faktkların özünəməxsus belə bir cəhəti vardır ki, onlar konkret vaxt, hadisə, hətta dövrlə bağlı olaraq qalmayaraq, ümumiləşdirici xarakterinə görə zaman və məkan məhdudiyyətlərinin fövqündə dayanır. Oxuculara təqdim olunan bu kitabda həmçinin ölkədə veteranlarla bağlı

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla aparılan siyasətdən, veteran hərakatına son dövrlədə verilən əvəzsiz töhfələrdən də bəhs olunur.

Heydər Əliyev siyasi kursu bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yaradıcı şəkildə və böyük səriştə ilə davam və inkişaf etdirir. Azərbaycanı yeni üfüqlərə ucaldan müasir inkişaf modelinin gələcəkdə daha böyük uğurlar qazanacağının ən etibarlı təminatçısı isə üzərində dayandığı möhtəşəm bünövrədir. Azərbaycanın çoxsaylı veteranlar ordusu bu bünövrə üzərində inamla dayanmış dövlətindən, onun möhtərəm prezidentindən, Ali Baş Komandanından daim böyük qayğı və diqqət görür və şübhə yoxdur ki, gələcəkdə də görəcəkdir.

Kitabda veteranlarla bağlı Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müxtəlif çıxışlarında, nitqlərində, müraciət və müsahibələrində səsləndirdiyi fikirlər də seçilərək oxuculara təqdim olunur. Bu fikirləri birləşdirən, onların başlıca qayəsini təşkil edən cəhətlərdən biri dövlət başçısının veteranlara, ölkənin inkişafında, bugünki səviyyəyə çatmasında xidməti olan insanlara böyük etiramdır. Veteranlar bu münasibəti yüksək qiymətləndirir, göstərilən qayğı və diqqəti məmnunluqla qeyd edirlər.

***C.Xəlilov***
***Azərbaycan Respublikası Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik***





## Azərbaycan xalqının ümmumilli lideri Heydər Əliyevin Veteranlar haqqında müdrik fikirləri

Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, II Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır.

***

Veteranlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanın, hər bir Azərbaycan vətəndaşının borcudur.

***

Biz cəmiyyətimizdə Vətən, torpaq yolunda, torpaqlarımızın müdafiəsi yolunda vuruşan insanların hamısına hörmət və ehtiramla yanaşmalıyıq.

***

Veteranların təcrübəsindən biz daim bəhrələnməliyik, istifadə etməliyik. Həm cəbhədə, həm də arxada çalışmış, şücaətlər, əmək fədakarlığı göstərmiş veteranların qəhrəmanlığı Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

***

Muharibə dövründə Vətənin müdafiəçilərinin bir qismi döyuşlərdə aldığı yaralardan şikəst, əlil olmuşdır. Onlar cəmiyyətimizdə ən hörmətli adamlardır. Bu adamlara qayğı gostərmək, onların problemlərini həll etmək hamının borcudur.

***

Vətən müharibəsinin qəhrəmanları həmişə cəmiyyətin ən mötəbər, ən sayılan adamları idi.

## Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı 4 noyabr 1993-cü il

Əfqanıstan müharibəsinin iştirakçısı olan hörmətli veteranlar!

Azərbaycanın müdafiəsi ilə əlaqədar çağırışa cavab verərək belə bir təşəbbüs qaldırdığınıza görə sizə öz təşəkkürümü bildirirəm. Noyabr ayının 2-də televiziya və radio vasitəsilə xalqa müraciət edərkən mən Azərbaycan Respublikasının bütün vətəndaşlarını həmrəyliyə, birliyə dəvət etdim və bütün Azərbaycan xalqını Vətənin müdafiəsi işində iştirak etməyə çağırdım. Siz bu çağırışa cavab olaraq mənə müraciət etmisiniz. Öz xidmətlərinizi göstərmək, vətənin, torpağımızın müdafiəsində iştirak etmək istəyirsiniz.

Bu, əsl vətənpərvərlik təşəbbüsüdür. Bu, sizin torpağımıza, Vətənimizə, müstəqil Azərbaycana qəlbən bağlı olduğunuzu bir daha nümayiş etdirir. Eyni zamanda bu təşəbbüs bütün Azərbaycan xalqı üçün, Azərbaycan vətəndaşları üçün gözəl bir nümunədir. Güman edirəm ki, sizin təşəbbüsünüz öz davamını tapacaqdır. Azərbaycanın indiki ağır vaxtında onun müdafiəsində iştirak etmək üçün minlərlə qəhrəman oğullar ordu sıralarına gələcək və hamımız birləşib Vətənimizin müdafiəsini təmin edə biləcəyik.

Noyabrın 2-dəki müraciətimdə qeyd etdim və bir daha bildirmək istəyirəm ki, Azərbaycan Respublikasının öz torpaqlarını müdafiə etmək üçün böyük potensialı var. Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, onu sevməsi və qorumaq hissidir. Bu, xalqımızın





tarixi ənənələrindən irəli gələn hissdir. Güman edirəm ki, xalqımız tarixi ənənələrimizi, keçmişimizi yada salaraq, Azərbaycanın bu ağır vəziyyətdən çıxması üçün bundan sonra səmərəli tədbirlər görəcəkdir. Ordumuz, müdafiə qüvvələrimiz möhkəmləndirilməlidir. Bunu da xalq etməlidir. Bu, bütün vətəndaşların işidir. Bunu ordunun özü, ordunun rəhbərləri etməlidirlər. Nəhayət, bunu biz etməliyik. Bu, bizim borcumuzdur. Ancaq hamımız birlikdə, sizinlə bərabər etməliyik.

Bu günlərdə bir çox yerlərdən məktublar alırıq, bizə təşəbbüslərlə müraciət edirlər, Azərbaycan vətəndaşları bizim çağırışımıza cavab verirlər, Vətənin müdafiəsində iştirak etmək istəyirlər. Güman edirəm ki, bütün bunlar Azərbaycan xalqında yeni əhval-ruhiyyə, vətənpərvərlik hissləri, vətənpərvərlik əhval-ruhiyyəsi yaradacaqdır. Bəzi adamlar indiyədək olan biganəlikdən əl çəkəcək və başa düşəcəklər ki, Azərbaycandan başqa Vətənimiz yoxdur. Azərbaycan torpaqlarını biz özümüz qorumalıyıq. Azərbaycanın müstəqilliyini biz özümüz qorumalıyıq, özümüz saxlamalıyıq.

Mən bu gün sizin qarşınızda bir daha qeyd edirəm: Bütün vətəndaşlarımız Azərbaycan Respublikasında beş ildən artıq müddətdə gedən müharibəyə, nəhayət, son qoyulmasını istəyirlər. Biz də müharibəyə son qoyulmasınım istəyirik. Ancaq Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini təmin etmək yolu ilə. Buna sülh yolu ilə nail olmaq tərəfdarıyıq. Lakin danışıqlar aparmaq üçün, barışıq əldə etmək üçün, yəni məsələnin həllini sülh vasitəsilə tapmaq üçün biz gərək müdafiə qüvvələrimizi möhkəmləndirək. Biz müdafiə olunuruq. Beş ildən artıqdır ki, Azərbaycan Respublikasına qarşı hərbi təcavüz davam edir. Torpaqlarımızın bir qismi işğal olunubdur. Buna baxmayaraq, indiyədək etibarlı surətdə müdafiə olunmamışıq. Bunun nəticəsində də ərazimizin bir hissəsi düşmən tərəfindən işğal edilmişdir.

Bir daha qeyd edirəm ki, bizim imkanlarımız böyükdür. Burada verilən məlumata görə vaxtilə Əfqanıstanda gedən müharibədə iştirak etmiş minlərlə Azərbaycan vətəndaşı indi respublikamızda yaşayır. Əgər Azərbaycanın oğulları, Azərbaycanın yetirmələri başqa bir ölkədə Sovet Ordusunun tərkibində vuruşa bilirdilərsə, qəhrəmanlıq nümunələri göstərə bilirdilərsə, deməli, onlar öz torpaqlarını daha cəsarətlə, ürəklə qoruya bilər və torpaqlarımız uğrunda döyüşə bilərlər. Əfqanıstan müharibəsinin veteranları böyük qüvvədir. Onlar hərbi xidmətdə olmuş, müharibəni görmüş, döyüşün nə olduğunu hiss etmiş adamlardır.

Respublikamızın malik olduğu böyük imkanlardan, təəssüf ki, indiyədək istifadə edilməyibdir. Bəzən deyirlər ki, biz ordu yarada bilmirik. Ola bilsin ki, bu veteranların təxminən 10-15 faizi hərbi xidmət üçün yaramır. Lakin onların əksər hissəsinin hərbi xidmət etmək imkanı var. Bax, bu döyüşçülərdən indiyədək istifadə edilməyibdir. Burada verilən məlumatlar da bunu göstərir. Həmin məlumatlarla yanaşı, sizin mənə müraciətiniz də göstərir ki, siz Azərbaycanın indiki vəziyyətində respublikanı müdafiə etmək üçün, onu bu ağır vəziyyətdən qurtarmaq üçün doğrudan da çox iş görə bilərsiniz. Bunun üçün biz sizə lazımi şərait yaratmalıyıq. Bu məqsədlə biz sizin xahişinizlə buraya, sizinlə görüşə gəlmişik. İnanırıq ki, sizin müraciətiniz, nümayəndələrinizin burada verdiyi vədlər, dedikləri sözlər həqiqətdir, qəlbinizi bürüyən hisslərin ifadəsidir. Biz bunu belə qəbul edirik. Odur ki, sizə minnətdarlığımı bildirir və eyni zamanda əmin olduğumu demək istəyirəm ki, siz bu təşəbbüsünüzü davam etdirəcəksiniz, ittifaqınızda, yəni Əfqanıstan Müharibəsi Veteranları İttifaqında olan döyüş qabiliyyətli, hərbi xidmətə qadir adamların hamısını toplayacaqsınız, Azərbaycanın Silahlı Qüvvələri tərkibində layiqli yer tutacaqsınız və Vətənin müdafiəsində qəhrəmancasına iştirak edəcəksiniz.





Tam əminəm ki, siz öz sözünüzün və vədlərinizin sahibisiniz. Mən sizə inanıram. Ona görə ki, siz döyüşlərdən, tufanlardan, sınaqlardan keçmiş adamlarsınız. Ona görə inanıram ki, siz o ağır müharibədən keçib öz Vətəninizə qayıtmısınız. Ona görə inanıram ki, siz Vətəninizi sevən adamlarsınız. Əgər sizdə Vətən sevgisi, Vətən məhəbbəti olmasaydı, öz təşəbbüsünüzlə buraya toplaşmazdınız. Əgər sizdə Vətən eşqi olmasaydı, belə narahatlıq keçirməzdiniz.

Mən bunları yüksək qiymətləndirirəm. Bir daha sizə öz minnətdarlığımı bildirirəm. Müdafiə Nazirliyinin rəhbərliyi qarşınızdadır. Mən onlara əmr vermişəm ki, bu təşəbbüsünüzlə əlaqədar lazımi təşkilati tədbirlər görsünlər və sizin qüvvələrinizdən respublikanın müdafiəsinin təmin olunması üçün istifadə etsinlər.

Bir də qeyd edirəm: biz Vətənimizi müdafiə edirik, torpağımızı müdafiə edirik, dövlətimizi müdafiə edirik. Ona görə də bizim işimiz haqq işidir və Vətənini sevən hər bir adam bu işə qoşulmalıdır, dövlət qarşısında, xalq qarşısında öz vətəndaşlıq borcunu ödəməlidir.

Sizə bir daha təşəkkür edir və cansağlığı, xoşbəxtlik arzulayıram. Tutduğunuz bu yolda, Vətənin müdafiəsində sizə uğurlar arzulayıram.

Sağ olun.

## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin faşizm üzərində Qələbənin 50 illiyinə hazırlıqla əlaqədar müharibə, əmək və silahlı qüvvələrin veteranları ilə görüşdə çıxışı Prezident Sarayı, 7aprel 1995-ci il

Əziz veteranlar!

1941-1945-ci illər müharibəsinin veteranları, bizim hörmətli, dəyərli dostlarımız!



Müharibənin başa çatmasından 50 il keçir. Mayın 9-da 1941-1945-ci illər müharibəsində əldə edilmiş qələbənin 50-ci ildönümü qeyd olunacaqdır. Bu yubileyi bütün dünya, xüsusən qələbənin çalınmasında iştirak etmiş dövlətlər yüksək səviyyədə bayram edəcəklər. Biz də bunu qeyd etmək fikrindəyik. Bilirsiniz ki, bu məqsədlə lazımi hazırlıq işləri görülür.





Bu qələbənin 50 illiyinin layiqincə qeyd olunması üçün Azərbaycanda dövlət komissiyası yaradılıb. Dövlət komissiyasına baş nazirin vəzifəsini icra edən Fuad Quliyev başçılıq edir, yüksək vəzifəli bir sıra şəxslər, müharibə veteranları bu komissiyanın tərkibindədirlər. Qələbənin 50 illiyinin qeyd olunmasına, əlamətdar günə az vaxt - bir ay qalır. Mən arzu etdim ki, sizinlə görüşüb söhbət edək, məsləhətləşək. Şübhəsiz ki, dövlət komissiyası sizin fikirlərinizi öyrənir, onları nəzərə alır. Ancaq güman edirəm, komissiya veteranları bu cür geniş tərkibdə dəvət etməyib. Mən istədim ki, şəxsən görüşüb söhbət edək. Əvvəla, mən sizi ürəkdən salamlayıram. Sizə və sizin, şəxsinizdə 1941-1945-ci illərin Böyük Vətən müharibəsində, İkinci dünya müharibəsində iştirak edənlərin hamısına hörmət və ehtiramımı bildirirəm.

Əminəm ki, Azərbaycan xalqı, ictimaiyyət bu 50 ildə sizi yüksək qiymətləndirdiyi kimi, sizin fəaliyyətinizi, əməyinizi, xidmətlərinizi, rəşadətinizi bu gün də qiymətləndirir və bundan sonra da qiymətləndirəcəkdir. Müharibədə sizin xidmətləriniz, rəşadətiniz, qəhrəmanlığınız bu müharibənin, Azərbaycan xalqının tarixində əks olunub. Siz xoşbəxt adamlarsınız ki, 50 il bundan əvvəl qələbənin əldə olunmasına və bu 50 ildə xalqınıza, ölkənizə, millətinizə xidmət etmisiniz, indi sizə qələbənin 50 illik yubileyində iştirak etmək nəsib olub.

Mən sizi qələbə münasibətilə təbrik edirəm. O qələbədən keçən 50 ilin hər biri xalqımız üçün böyük bir mərhələ olub. Xalqımız bu 50 il içərisində böyük bir tarix yaşayıb və nəhayət, milli azadlığına nail olub. Azərbaycan xalqı öz müstəqil dövlətini yaradıb. İndi Azərbaycan müstəqil dövlətdir və nə qədər çətin olsa da, xalqımız müstəqillik şəraitində özü öz taleyinin sahibidir. Sizin xoşbəxtliyiniz bir də ondan ibarətdir ki, 50 il bundan əvvəl Azərbaycanın bugünkü gələcəyi üçün döyüşmüsünüz, vuruşmusunuz, qan tökmüsünüz, rəşadət göstərmisiniz. 50 ildən sonra bu gün Azərbaycanı müstəqil bir

dövlət kimi görürsünüz. Bu, böyük xoşbəxtlikdir, səadətdir və bu da sizə nəsib olubdur. Bax, bunların hamısı münasibətilə mən sizi ürəkdən təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzu edirəm. Sizin simanızda 1941- 1945-ci illər müharibəsində iştirak edənlərin, o qələbənin çalınmasında xidmət göstərənlərin hamısını ürəkdən təbrik edirəm, hörmət və ehtiramımı bildirirəm.

Mən istərdim ki, bu gün bizim sərbəst söhbətimiz olsun. Bir neçə məsələ ətrafında, şübhəsiz ki, əsasən qələbənin 50 illik yubileyinin hazırlanması, keçirilməsi ətrafında söhbət edək. Bu sizin yubileyinizdir. Ona görə də bu yubileyin necə, hansı şəkildə keçirilməsi üçün sizin fikriniz əsasdır. Sizin nə arzunuz olsa, şübhəsiz ki, biz hamısını nəzərə almalıyıq və onların əsasında öz tədbirlərimizi qurmalıyıq.

Bir daha qeyd edirəm ki, dövlət komissiyası bu işlə məşğul olur. Ancaq mən bu məsələyə xüsusi münasibət göstərdiyimə, fikir verdiyimə görə istərdim ki, sizinlə şəxsən görüşəm. Bu qələbə haqqında son illərdə cürbəcür söhbətlər gedir. Hətta xatirimdədir ki, deyəsən, ya 1991-ci, ya da 1992-ci ildə bu bayramı Azərbaycanda heç qeyd etməmişdilər. Hər halda dəqiq xatirimdədir ki, demişdilər belə bir qələbə yoxdur. Ancaq mən o vaxt Naxçıvanda yaşayırdım və biz bu qələbəni orada qeyd edirdik. Sovet İttifaqı Qəhrəmanı, hörmətli Ziya Bünyadov da gördü ki, burada qeyd etmirlər, Naxçıvana gəldi ki, bayramı heç olmasa orada keçirsin. Yəni belə yaramaz fikirlər də meydana çıxmışdı.

Fuad Quliyev indi mənim yanıma gəlib məsləhət almaq istəyir ki, bu qələbənin adını necə yazmaq lazımdır. Çünki komissiyada cürbəcür fikirlər söylənilir. Rusiyada 1941-1945-ci illərin Böyük Vətən müharibəsində qələbə yazılır. Kimsə hesab edir ki, bu, Böyük Vətən müharibəsi olmayıb. Yaxşı, bəs nə müharibəsi olub? Ona görə də komissiya üzvləri çaşbaş qalıblar ki, bunu nə cür yazaq.





Bu, nədən əmələ gəlir? Son illərdə tariximizi təhrif etməyə cəhdlər çox olub. Ancaq bu da yeni bir şey deyil. Təəssüf ki, elə XX əsrin əvvəllərindən, daha dəqiq desək, ola bilər, 1920-ci ildən tariximizi təhrif edə-edə gəlmişik. Tariximizi müəyyən dövrdə bir qüvvələr təhrif edirdi, son illərdə, xüsusən 1991, 1992, 1993-cü illərdə isə başqa cür təhrif etməyə başladılar. Yenə də deyirəm, 1992-ci ildə eşitdik ki, bu qələbə bayramını Azərbaycanda heç yerdə qeyd etmirlər. Mən təəccübləndim. Naxçıvanda biz veteranlarla görüşdük, danışdıq, hazırlıq gördük və bayramı qeyd etdik.

Sonra mən araşdırmağa başladım ki, bəs bunu niyə qeyd etmirlər? Bildirdilər ki, o vaxt hakimiyyətdə olan adamlar deyirdilər ki, bu, Vətən müharibəsi, qələbə deyil. O vaxt mən də ordan-burdan eşidirdim, bəziləri deyirdilər ki, faşistlər gəlib Azərbaycanı tutsaydı, yaxşı olardı. Belə sözlər də danışanlar var idi. Yəni belə ideoloqlar meydana çıxmışdılar və tarixi təhrif edirdilər. Axı bundan da böyük cinayət ola bilməz.

Özü də biz gərək tarixi təcrübədən dərs götürək. Əgər 1920-ci ildən sonra - kommunist, sosialist rejimi vaxtında keçmiş tariximiz təhrif olunmuşdursa, marksizm-leninizm ideologiyasına uyğunlaşdırılmışdısa, uyğun gəlməyənlər tarix kitablarımızdan çıxarılmışdırsa və biz indi bunu etiraf ediriksə, deməK, bundan sonra təhrifə yol vermək olmaz.

Tariximiz o vaxt bir cür təhrif olunub, indi isə meydana yeni ideoloqlar çıxıb. Hansılar ki, dünyanı görməyiblər, əgər bizim veteranların sözü ilə desək, barıt qoxusu iyləməmiş, oddan keçməmiş adamlar gəlib başlayıblar ki, yox, müharibə də olmayıb, müharibədə qələbə də olmayıb, heç bu, Vətən müharibəsi də deyildir və sairə. Fuad Quliyev gəlib mənə deyəndə, doğrusu, təəccübləndim. Axı bundan niyə narahat olursunuz? Bu qələbəni indi bütün dünya qeyd edir. Onu da bilməlisiniz ki, bu qələbəni Rusiya, MDB-yə daxil olan dövlətlərin hamısı qeyd edir. Biz dekabrın 10-da Almatıda

MDB ölkələri dövlət başçılarının görüşündə qərar qəbul etdik ki, qələbənin 50 illiyi geniş qeyd olunsun.



Bu, bizim birgə qərarımızdır. Doğrudur, orada söhbət düşdü ki Rusiya MDB-nin bütün ölkələrinin dövlət başçılarının mayın 9-da toplaşmasını istəyir. Bir az mübahisə getdi, sonra razılıq əldə olundu. Axı dövlət başçıları öz ölkələrində də bu bayramda iştirak etməlidirlər. Söhbət ondan gedirdi ki, bəs bu necə olsun?

Qələbənin 50 illiyi, məsələn, İngiltərədə də qeyd olunur. Bizim ölkəmizə, şəxsən mənə rəsmi dəvət gəlibdir. Bu bayram mayın 6-7-də Böyük Britaniyada, Londonda, mayın 8-də Fransada, habelə Amerika Birləşmiş Ştatlarında qeyd olunacaqdır. Avropa Şurasına daxil olan 52 dövlətin başçılarının hamısı İngiltərəyə, Fransaya dəvət edilib. O cümlədən Azərbaycan dövlətinin başçısı da dəvət olunub.

Televiziyadan, mətbuatdan aldığınız məlumatlardan sizə məlumdur ki, mayın 9-da keçmiş koalisiya dövlətləri başçılarının hamısı Moskvaya gedəcək, Qələbə günü orada qeyd ediləcəkdir. Qələbənin bir neçə böyük mərkəzlərdə qeyd olunması barədə Almatıda söhbət getdi. Bəs nə cür olsun ki, hərə öz ölkəsində də bunu qeyd edə bilsin? Bu, başqa məsələ. Hər halda bunu müzakirə və həll etmək olar. Ancaq qələbənişübhə altına almaq, yaxud adının dəyişdirilməsinə cəhd etmək tamamilə yaramaz bir şeydir.





Ona görə də mən istədim ki, bu barədə öz fikirlərimi sizə deyəm və sizin də fikirlərinizi bilək, komissiya da bu barədə öz prinsipial mövqeyini tutsun, öz işini aparsın. Şübhəsiz ki, qələbənin 50 illik yubileyi münasibətilə veteranlara müəyyən güzəştlər, mükafatlar, yardımlar da olmalıdır. Komissiya bu barədə öz təkliflərini hazırlayıbdır. Yəqin ki, bunları da indi müəyyən qədər nəzərdən keçirmək olar. Sonra komissiya bu təklifləri tamamilə hazırlayıb təqdim edər və bütün bunlar mənim fərmanımda öz əksini tapa bilər.

Kimin ürəyində başqa nə söz varsa, deyə bilər. Şübhəsiz ki, sizin də, bizim də o qədər vaxtımız yoxdur. Ona görə də çox vaxt sərf etmədən bu gün ancaq yığcam fikir mübadiləsi aparıb, söhbət edib qarşıdakı bir ay müddətində görüləcək hazırlıq işlərini gücləndirmək məqsədi ilə mən bu gün sizi buraya dəvət etmişəm.

Müharibənin bitməsindən 50 il keçib. Azərbaycan xalqı bu müharibədə iştirak edib, qurbanlar verib. 1941-1945-ci illər müharibəsində həlak olmuş soydaşlarımızın, vətəndaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad etməyinizi rica edirəm.

Allah bütün həlak olanlara rəhmət eləsin! Yekun sözü Bilirəm ki, burada söz demək istəyən çoxdur. Hamının ürəyində səmimi sözlər var, ancaq əsas təkliflər olundu. Mən hiss edirəm ki, bu təkliflər əsasında işləmək olar. Gələcəkdə öz işlərimiz olacaq, yenə də görüşəcək, danışacağıq. Bu gün kim danışa bilmədisə, gələcək görüşlərimizdə danışa bilər. Etiraz etmirsinizsə, bu görüşü sona çatdıraq.

Mən bir daha məmnuniyyətlə qeyd etmək istəyirəm ki, bu görüş bizə nəsib oldu, biz Azərbaycan xalqının çox dəyərli insanları ilə görüşdük. Şəxsən mənim üçün bu, böyük

bir hadisədir. Burada hamımızın eyni bir fikri hasil oldu ki,1941- 45-ci illər müharibəsi Azərbaycan üçün də Böyük Vətən müharibəsidir. Bu, İkinci dünya müharibəsidir. Dünya tarixində, bəşəriyyət tarixində bu, ən dəhşətli, ən ağır, ən geniş miqyaslı müharibə olubdur. Burada nə qədər insanlar tələf olubdur. O vaxt biz hamımız Sovet İttifaqına daxil idik. Son tədqiqatlar göstərir ki, Sovet İttifaqının ərazisindən 27 milyon adam bu müharibədə həlak olubdur. Şübhəsiz ki, Avropa ölkələrindən də, digər ölkələrdən də çox adamlar həlak olublar.

Bu müharibə Hitler faşizminə qarşı müharibə idi. Bu qələbə Hitler faşizmi üzərində qələbə idi. Bu, böyük qələbədir. Tarixdən bunu heç kəs silə bilməz və silməyə haqqı da yoxdur. Bu gün söhbətimizə başlayarkən mən dedim ki, tarixi təhrif edənlər keçmiş tariximizdən özlərinə dərs götürməlidirlər. Tarixi heç kəs təhrif etməməlidir. Heç kəs tarixi dəyişdirməyə çalışmamalıdır. Tarix necə varsa, elə də var. Həyatda nə olubsa, olubdur. Tarixin o parlaq səhifələrini bu gün kimsə utana-utana, çəkinə-çəkinə xatırlamamalıdır, əksinə, biz bu bayramı qürur hissi ilə qeyd etməliyik. Elə olmamalıdır ki, qələbə, müharibə haqqında söhbət gedəndə kimsə hansı sözü necə deməki haqqında fikirləşsin. Dürrə xanım burada çıxışında söylədi: ona deyiblər ki, bu medallarını ayaqlarının altına sal, tapdala. Bilirsiniz, belə insanlar sadəcə olaraq ya həyatı başa düşməyən adamlardır, ya da xalqına, millətinə xəyanət edənlərdir. Nə cür ola bilər ki, insanların canı, qanı bahasına aldığı mükafatlar, ordenlər bu gün gözdən düşsün?

Bilirsiniz, hər dövlətin öz medalı, öz ordeni var. Yenə də tarixə qayıdaq. 1917-ci il oktyabr inqilabından, Azərbaycanda da sovet hakimiyyəti qurulduqdan sonra çar dövlətinin bütün ordenlərin, medalları, mükafatları qadağan, yasaq olundu.

Bunlar kimdə var idisə, yazıq qorxusundan gizlədirdi, aşkara çıxarmırdı. Qohumu-əqrəbası olanlar onun adını çəkməyə də qorxurdular. Məgər bu düz idimi? Xeyr. Bu da





ədalətsizlik idi Bəs sonra nə oldu? Birinci dünya müharibəsində rus ordusunda, çar Rusiyası ordusunda qəhrəmanlıq göstərən adamlar sonra həmin bu Böyük Vətən müharibəsi vaxtında, İkinci dünya müharibəsində də qəhrəmanlıq göstərdilər və onların çar Rusiyası ordusunda aldığı orden və medallar böyük hörmətlə qaldı.

Doğrudur, bütün bu təhriflərin çoxu oktyabr inqilabından, sovet hakimiyyəti qurulandan, bolşevizmin qələbəsindən sonra oldu. Amma eyni zamanda bilirsiniz ki, Kremldə böyük-böyük salonlar var. Onlardan biri də Georgiyevsk salonudur. Məsələn, Georgiyevsk salonunda olanlar bilirlər, - hansı hərbi hissənin hansı döyüşdə iştirak etdiyi, hansı ordeni, medalı, nişanı aldığı orada həkk olunub və heç kəs də bunu pozmur.

Tarix tarixdir və 1941-1945-ci illər Azərbaycan xalqının tarixində də çox görkəmli yer tutur, xalqımızın tarixinin parlaq səhifələridir. Biz bunları böyük hörmət və ehtiramla xatırlamalıyıq. Bu dövrün insanlarını - həm həmin dövrdə döyüşən, həlak olanları, cəbhədə yaralananları, həm də rəşadət göstərib bu gün yaşayanları həmişə xatırlamalı, onlara böyük hörmət və ehtiramımızı bildirməliyik.

Burada tamamilə doğru deyildi ki, 1941-1945-ci illər müharibəsində Azərbaycan xalqının iştirakı təkcə cəbhədə döyüşməkdən ibarət olmayıb. Bəli, Azərbaycanın nefti həmin müharibədə qələbənin əldə olunmasının əsasını təşkil edən amillərdəndir. Təsadüfi deyildir ki, Hitler və Hitler ordusu gəlib Bakını işğal etməyə, zəbt etməyə can atırdı. Hitler ordusu Bakını işğal edə bilsəydi, vəziyyət bəlkə də bambaşqa ola bilərdi. Tamamilə doğru deyildi ki, o vaxt Sovet İttifaqında hasil olunan neftin 75 faizini Azərbaycan verirdi. Bizim Azərbaycan neftçiləri bu nefti nə qədər əzab-əziyyətlə çıxarırdılar. Bilirsiniz ki, Qafqaza yol bağlanmışdı, Hitler ordusu gəlib Mozdokda durmuşdu. Burada dəmir yolu yox idi. Ancaq Xəzər dənizi, Orta Asiya vasitəsilə o dövrdə - o

dövrü indiki dövrlə müqayisə etmək olmaz, çünki çətinliklər daha da çox idi - bütün çətinliklərin öhdəsindən gələrək neft də çıxarılırdı, cəbhəyə də göndərilirdi. Təkcə neft deyildi. O vaxt Azərbaycanın maşınqayırma zavodlarında silah istehsal olunurdu. Bu, Azərbaycan xalqının tarixidir.

Azərbaycanın tarixində ən çox neft 1941-1945-ci illərdə çıxarılmışdır. Burada bizim insanlar - fəhlələr, mühəndislər, texniklər çalışıblar, bunları unutmaq olarmı? Həzi Aslanovu, Azərbaycan xalqının o cür qəhrəmanlıq göstərmiş nümayəndəsini biz unuda bilərikmi? Bu gün deyə bilərikmi ki, Həzi Aslanov canını elə-belə veribdir? Yox, o, canını Vətən yolunda veribdir.

Siz Stalinqradda, Mamay təpəsindəki muzeydə yəqin ki, olmusunuz. Məsələn, mən həmin muzeyi ziyarət edərkən Həzi Aslanovun familiyasını başqa Sovet İttifaqı qəhrəmanları ilə bir yerdə görəndə çox böyük fəxr etdim ki, burada bizim azərbaycanlının da adı var. Yaxud Mehdi Hüseynzadəni götürün: o vaxtlar döyüşdü, döyüşdü, əsir düşdü, əsirlikdən qaçıb Yuqosloviyada, İtaliyada böyük igidliklər göstərdi və qəhrəmancasına da həlak oldu. Biz onu unuda bilərikmi?

Amma təkcə bunlar deyil. Vaxt alıb hamısının adını çəkmək istəmirəm. Güman edirəm ki, bu bayram ərəfəsində, yubiley günlərində Böyük Vətən müharibəsinin qəhrəmanları mütləq təbliğ olunmalı, yada salınmalıdır. Onlar haqqında televiziyada, radioda verilişlər təşkil edilməli, qəzetlərdə yazılar verilməlidir. Yenə də deyirəm, bunlar tariximizin ən parlaq, ən gözəl səhifələridir. Biz onları heç vaxt unuda bilmərik.

Yaxud neftçilər, ümumiyyətlə, arxa cəbhədə çalışanlar unudulmamalıdır. Məsələn, yadınızdadır ki, o vaxtlar böyük alimlərimiz Yusif Məmmədəliyev, Əli Quliyev yüksək keyfiyyətli benzin ixtira etdikləri üçün Dövlət mükafatı almışdılar. Biz bunu unuda bilərikmi? Unuda bilmərik. Mənim





xatirimdədir ki, böyük neftçi, çox təcrübəli insan Süleyman Vəzirov, Rüstəm İsmayılov müharibə vaxtı məhz neft hasilatı və cəbhəni neftlə təmin etmək sahəsindəki xidmətlərinə görə Sosialist Əməyi Qəhrəmanı adı almışdılar.



Bilmirəm, Əliş Ləmbəranski buradadır, ya yox? Mən onu buraya dəvət etmişdim (yerdən səs: xəstədir). Xahiş edirəm, mənim salamımı ona çatdırasınız. Məsələn, Əliş Ləmbəranski o vaxtlar cəbhədə olmuşdu. Bakıya qayıtdıqdan sonra neft sənayesində çox böyük fəaliyyət göstərmişdir. İndi də yaşayır. Çoxlarının adlarını çəkmək olar.

Bəs necə demək olar «bu qələbə bizim qələbə deyil» ki, böyük bəstəkarımız Üzeyir Hacıbəyov o vaxt öz şəxsi məvacibi, pulu ilə bir təyyarə alıb cəbhəyə göndərmişdi? Məgər Üzeyir Hacıbəyov bilmirdi ki, bunu nədən ötrü edir? Azərbaycandan müharibəyə tank alıb göndərənlər var idi. Respublikanın qabaqcıl əmək adamları, kəndlilər öz pulları ilə tank alırdılar, təyyarə alınmasına pul verirdilər, nə qədər vəsait toplanırdı. Bunların hamısını unutmaqmı olar? Bunlar bizim qardaşlarımız, atalarımız, babalarımız, vətəndaşlarımızdır, azərbaycanlılardır.

Burada dedilər ki, Böyük Vətən müharibəsində 400, 500, 600 min nəfər azərbaycanlı həlak olub. Onların xatirəsini unutmaqmı olar? Yenə də deyirəm, o vaxtlar arxa cəbhədə, Azərbaycanda ağır şəraitdə neft çıxarılırdı, sənaye işləyirdi, kənd təsərrüfatı məhsulları istehsal olunurdu. Şairlərimiz, bəstəkarlarımız Vətən müharibəsinin qəhrəmanlarına həsr olunan, xalqı döyüşə çağıran, xalqda vətənpərvərlik ruhu yaradan nə qədər gözəl mahnılar yazdılar, əsərlər yaratdılar. Bunlar hamısı bizim tariximizdir.

İndi mövcud olmuş, küçədən gəlib hakimiyyəti müvəqqəti olaraq əlinə keçirmiş iki-üç nəfər gəlib onu da, bunu da qaralayır. Azərbaycanın tarixində heç nə qalmır. Özü də Azərbaycan xalqı üçün bir qəpiklik iş görməyib. Əgər bir qəpiklik iş görmüş olsaydı, deyərdim ki, bəli, o da bu işi görüb, ona görə də onun nəyisə qaralamağa haqqı var. Hakimiyyətdə müvəqqəti olan bu adamlar tariximizə zərbə vurmaq istədilər, öz hərəkətləri ilə Azərbaycan xalqı qarşısında böyük cinayətlər etdilər. Eyni zamanda gedib o dövrdə faşizmin yuvası olan Berlində Hitlerlə, Göbbelslə görüşüb söhbət edən adamları təbliğ etməyə başladılar. Axı bu yaramaz! Tarix tarixdir. O da olub, bu da olub. Ancaq azərbaycanlı kimi biz burada özümüzü qorumuşuq, öz Vətənimizi qorumuşuq. Bizim o vaxt da bir vətənimiz var idi. Bəli, 1922-ci ildə Azərbaycan başqa respublikalarla birlikdə Sovetlər İttifaqına daxil olmuşdu. O vaxt Azərbaycana rəhbərlik edən adamlar bunu münasib bildilər, bu da oldu və o dövrdə Azərbaycan böyük nailiyyətlər əldə etdi. Bunu nə unutmaq olar, nə də qaralamaq, pozmaq olar.Ona görə də güman edirəm ki, bu cür hallar tamamilə aradan qaldırılacaqdır. Cəmiyyətimizdə belə hallara yol vermək olmaz. Heç də mübahisə aparmaq lazım deyildir ki, medalın üzərində nə yazılsın. Necə var, elə də yazılsın: 1941-1945-ci illərin Böyük Vətən müharibəsində qələbə. Ancaq olanı geriyə qaytarmaq mümkün deyil. O vaxt nə cür olub,





olub. Adı da nə cür olub, onu dəyişdirmək mümkün deyil. Orada kim necə vuruşub, onu da dəyişdirmək mümkün deyil. Kimin hansı ordeni, medalı, nişanı var, onu böyük iftixar hissi ilə daşıya bilər. Heç kəs nə utansın, nə çəkinsin. O qədər böyük bir ölkənin, savaşın, vuruşun, böyük bir müharibənin qəhrəmanı olub fərqlənəsən, orden, medal alasan, 50 ildən sonra fikirləşəsən ki, mən bunu bu gün saxlamalıyam və ya saxlamamalıyam? Əksinə, onları siz də daşımalısınız, sizdən sonra nəvələriniz də böyük yadigar kimi saxlamalı və nəsillərdən-nəsillərə çatdırmalıdırlar.

Bizim tariximiz elə belə olub. Götürək çar Rusiyası ordusunu, orada bizim nə qədər generallarımız olmuşdur.

Sovet İttifaqı vaxtında bunların hamısının üstündən qələm çəkildi. Sonradan-sonraya, o da Böyük Vətən müharibəsindən sonra iki general - Mehmandarov və Şıxlinski yada düşdü. O vaxta qədər onların adı heç yerdə çəkilmirdi. Onlar xalq düşməni kimi idilər. Böyük Vətən müharibəsindən, 1941-1945-ci illər müharibəsindən sonra ab-hava bir az dəyişildi, onlar yada düşdü və onların haqqında yazmağa başladılar. Amma bizim generallarımız tək bunlar idimi? Xeyr. Hüseyn xan Naxçıvanski, Kəlbəli xan Naxçıvanski, Talışınski - çar Rusiyasında bizim nə qədər generallarımız olub. Şıxlinski Port-Arturda olmuşdurmu? İndi gəlin, Əliağa Şıxlinskini günahlandıraq ki, Port-Artur müharibəsində iştirak edib, çar Rusiyasını müdafiə edib. Biz onu günahlandırmalıyıqmı?

Rus ordusunda Əliağa Şıxlinskiyə «Artilleriya allahı» deyirdilər. O bizim fəxrimizdir. Eləcə də 1941-1945-ci illər müharibəsində iştirak edən qəhrəmanlar - generallar da, zabitlər, adi döyüşçülər də - burada kimsə mənə Gəncədən Məhərrəm Ocaqverdiyevi təqdim etmək istədi, Məhərrəm Ocaqverdiyev də, - hamısı fəxrimizdir.

Biz Qələbə bayramına böyük iftixar hissi ilə hazırlaşmalıyıq, bu bayramı layiqincə keçirməliyik. Bu

bayramın keçirilməsi, qələbənin təbliğ olunması Azərbaycan xalqının qəhrəmanlıq nümunələrinin gənc nəslə çatdırılmasına, müstəqil Azərbaycan Respublikasının Milli Ordusunun yaranmasına, inkişaf etməsinə çox böyük fayda verəcəkdir. Bəli, gənclərimiz bilməlidirlər ki, vaxtilə çar Rusiyası ordusunda da bizim çox görkəmli zabitlərimiz, generallarımız, çox böyük şücaət, qəhrəmanlıq göstərən insanlarımız, azərbaycanlılar var idi.

Gənclər bilməlidirlər ki, 1941-1945-ci illər müharibəsində, dünya, bəşəriyyət tarixində ən dəhşətli müharibədə Azərbaycan xalqının qəhrəmanlıq göstərən generalları, zabitləri, sıraviləri olub. Onlar öz qəhrəmanlıqları ilə xalqımızın hörmətini qaldırıblar, Azərbaycan xalqını tanıdıblar. Bunların hamısı gənc nəslimiz üçün örnəkdir və örnək olmalıdır. İndi yaratdığımız, qurduğumuz Milli Ordunun yaranmasında, qurulmasında bu təcrübədən istifadə edilməlidir.

Bunlar hamısı bir-birinə silsilə ilə bağlı tariximizdir və biz bu tariximizə həmişə böyük hörmətlə yanaşmalı, onu qiymətləndirməliyik.

Qələbənin 50 illiyi ilə əlaqədar mənim fərmanımla yaradılan, Fuad Quliyevin başçılıq etdiyi komissiya müharibə, əmək veteranlarına əlavə güzəştlər, qayğılar, maddi yardımlar göstərilməsi və başqa tədbirlər üzərində işləyir. Fuad Quliyev burada qısa məlumat verdi. Güman edirəm ki, yaxın günlərdə onlar sizinlə birlikdə (bu komissiyanın tərkibində veteranlar da var) bu təklifləri tamamlayacaq, təqdim edəcəklər və mən bu barədə xüsusi fərman verəcəyəm. Mən fikirləşirəm ki, müharibə, əmək veteranlarına indi maksimum imkanlarımız daxilində - siz bunu da bilməlisiniz - maddi yardım edək, onların həyat tərzini, yaşayışını yüngülləşdirmək, yaxşılaşdırmaq üçün lazımi tədbirlər görək. Bunu mütləq edəcəyik. Burada muzey haqqında söhbət qaldırıldı. Bilirsiniz, Səlimov tamamilə doğru





deyir, o muzeyin necə yaranmasının indi böyük əhəmiyyəti yoxdur. Həmin muzey 1974-cü ildə yarandı, adı da 18-ci ordunun Döyüş Şöhrəti muzeyi oldu. Bu muzey Fəvvarələr meydanının yanındakı döngədə xırda bir otaqda yarandı. Amma ilbəil muzeydən xahiş etdilər, biz də göstəriş verdik, əlavə yer ayrıldı, muzey genişləndi, əlavə ekspozisiyalar toplandı. Böyük Vətən müharibəsində Azərbaycan xalqının iştirakı burada çox



yaxşı əks olunurdu. Bilirsiniz, o muzeyi qurmaq üçün bir çox il lazım oldu. Amma onu dağıtmaq üçün böyük qəhrəmanlıq lazım deyildi. Bir-iki günün, bir ayın içərisində o muzeyi vurub dağıtdılar. Mən hesab edirəm ki, muzey yaranmalıdır. Onun adı necə olacaq - bunu özünüz müəyyən edərsiniz. Hər halda 1941-45- ci illər müharibəsində Azərbaycan xalqının həm ön cəbhədə, həm də arxa cəbhə tarixinə həsr olunmuş muzey yaranmalıdır, eksponatlar toplanmalıdır. Mənə elə gəlir ki, veteranların da bir çoxu bu işdə həvəskardırlar, həvəskar da olacaqlar və bu muzeyin işində yaxından iştirak edəcəklər.

Həmin muzeyin yeri münasib olsa - elə orada olsun, yaxud başqa təklif də olsa komissiya bunu müzakirə etsin. Biz lazımi tədbir görərik. Yadımdadır ki, vaxtilə Səlimov böyük

həvəslə bu muzeyin yaradılması ilə məşğul olurdu. Hələ indi də deyəsən həvəsi var. Bizim aramızda Səlimov kimilər çoxdur, bu muzeyi yaradarlar, düzəldərlər.



Moskvada qələbənin bayram edilməsinə respublikamızdan 30 nəfərlik nümayəndə heyəti dəvət edilib, onlar müəyyən olunub. Londona mən və beş nəfər veteran dəvət olunmuşuq. Həmin beş nəfəri biz müəyyən edəcəyik. Oraya Sovet İttifaqı Qəhrəmanı Ziya Bünyadov, Məlik Məhərrəmov gedəcəklər, gərək Məzahir Abbasov da getsin. Üç nəfərin adını dedim, qalanlarını da deyəcəyəm.

Digər nümayəndə heyətlərinin tərkibi də yaxın günlərdə müəyyən olunar. Respublikada da bu tədbirləri keçirərik. Çalışarıq ki, başqa ölkələrdə də Azərbaycanı yaxşı təmsil edək. İndi burada qələbə münasibətilə respublikamızda keçiriləcək tədbirlər haqqında da, təntənəli yığıncaq haqqında da söhbət oldu. Bəziləri dedilər olsun, bəziləri dedilər olmasın. Moskvada qələbənin 50 illiyi münasibətilə parad olacaq, bizdə olmayacaq. Şübhəsiz ki, buna ehtiyac da yoxdur. Amma nəsə bir tədbir lazımdır.





Xatirinizdədir ki, bizdə adətən mayın 9-da Həzi Aslanovun qəbrini, Mehdi Hüseynzadənin abidəsini, bu müharibədə həlak olanların qəbirlərini ziyarət edirdik. Görünür, bizim proqramda bunlar da olmalıdır. Ancaq Moskvadakı kimi hərbi parad keçirməsək də, respublikamızda nəsə bir mərkəzi tədbir olmalıdır. Əgər veteranların hamısı belə bir arzudadırlarsa, onda respublikada təntənəli yığıncaq keçirmək mümkündür. Bu, çətin bir şey deyil. Biz veteranlar üçün belə bir tədbirin keçirilməsindən çəkinməməliyik.

**Yerdən səslər:** Veteranlar sizinlə görüşmək üçün belə bir tədbirin keçirilməsini istəyirlər.

Heydər Əliyev: Söhbət təkcə mənimlə görüşməkdən getmir, yəqin ki, həm də bir-birləri ilə görüşmək, gəlib orada qürur hissi ilə oturmaq istəyirlər. Bunu da etmək olar, fikirləşmək lazımdır. Hər halda bu tədbirləri ümumiləşdirib son qərar qəbul edəcəyik.

**Yerdən səs:** Hörmətli prezident, 9 May iş günü hesab olunacaqmı? Heydər Əliyev: Yaxşı, bu məsələyə də baxarıq. Dövlət komissiyasının sədri Fuad Quliyev bu təklifi qeyd etsin, ona baxarıq.

**Yerdən səs:** Hörmətli prezident, bizim belə bir təklifimiz də var ki, 1941-45-ci illərdə arxa cəbhədə çalışanların da statusu qaldırılsın və onlara müharibə iştirakçısı statusu verilsin.

**Heydər Əliyev:** Yaxşı, qoy komissiya bu məsələyə də baxsın.

**Yerdən səs:** Hörmətli prezident, müharibə dövrünün orden və medallarının satın alınması barədə qəzetlərdə tez-tez elanlar verilir. Məncə, bu, düzgün məsələ deyildir.

**Yerdən səs:** Burada heç bir qanunsuzluq yoxdur. Kolleksiyaçılar və bu işlə məşğul olan təşkilatlar belə elanlar verirlər. Kim istəyir satsın, kim istəyir satmasın, bu işə müdaxilə etmək olmaz.

**Yerdən səs:** Hörmətli prezident, müharibə iştirakçıları üçün Jukov ordeni və medalı yüksək təltiflər hesab olunur. Görəsən biz müharibə iştirakçılarına da Jukov ordeni və medalı veriləcəkmi?

**Heydər Əliyev:** Dekabrın 10-da Almatıda MDB ölkələri dövlət başçılarının görüşündə bu məsələ qaldırıldı. Jukov ordenini və medalını Rusiya Federasiyası təsis edib. Yəqin ki, Sovet İttifaqı qəhrəmanları Jukov ordeni ilə təltif olunacaqlar. Yerdən səs: Hörmətli prezident, respublikadakı müvafiq qanunvericilikdə vəfat etmiş müharibə veteranlarının dəfninin təşkili üçün müəyyən imtiyazlar nəzərdə tutulur. Lakin bəzənyerlərdə buna lazımınca əməl edilmir.

**Heydər Əliyev:** Əgər qanunun hansı hissəsisə yerinə yetirilmirsə, dövlət komissiyası bu məsələyə də baxsın. Yoxlasın görək, əlavə nə tədbir görmək lazımdır ki, qanun həyata keçirilsin. Yaxud o qanunu bir az da təkmilləşdirmək lazımdır.

Başqa sözünüz varmı? Gələcək bayram münasibətilə sizi bir daha təbrik edirəm. Hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram. Gələn görüşlərədək!





## Azərbaycan Prezident Heydər Əliyevin tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun Bakıdakı məzarı yanında xatirə mitinqində çıxışı

**9 may 1996-cı il**

Böyük Vətən müharibəsində qəhrəmancasına həlak olmuş Həzi Aslanovun məzarı önündə mən sizin hamınızı Böyük Vətən müharibəsində, alman faşizminə qarşı müharibədə qələbə bayramı münasibətilə təbrik edirəm, hamınıza cansağlığı, xoşbəxtlik arzulayıram.

Azərbaycanın on minlərlə, yüz minlərlə qəhrəman oğulları alman faşizminin qarşısına çıxaraq, Sovet Ordusunun tərkibində Vətənin müdafiəsində həlak olmuşdur. Həlak olanların ruhunu bu gün biz böyük minnətdarlıq hissi ilə yad edirik. Həzi Aslanov da o həlak olanlardan biridir, o qəhrəmanlardan biridir.

Bu gün Azərbaycanın bütün guşələrində Böyük Vətən müharibəsinin qəhrəmanları xatırlanır, bu müharibədə çalınmış zəfər şərəfinə şəhər və qəsəbələrdə ucaldılmış abidələr önündə Qələbə bayramı qeyd olunur. Biz bu bayramı böyük iftixar hissi ilə qeyd edirik. Çünki Azərbaycan xalqı öz qəhrəman oğullarının cəbhədə igidlikləri ilə bu qələbənin çalınmasında böyük xidmət göstərmişdir, bu qələbədə onun böyük payı var. Eyni zamanda Azərbaycan xalqı Sovet Ordusunun və ümumiyyətlə, o vaxt alman faşizminin təcavüzünə qarşı ayağa qalxmış bütün ölkənin, bütün xalqın neft ilə, neft məhsulları ilə təmin olunmasında, bu qələbənin çalınmasında arxa

cəbhədə xüsusi xidmətlər göstərmişdir. Ona görə də bu Qələbə bayramını hər il qeyd etməyə mənəvi haqqımız var. Bu, bizim əziz bayramımızdır. Çünki, bir daha qeyd edirəm, on minlərlə, yüz minlərlə azərbaycanlı, Azərbaycan oğulları bu qələbənin əldə olunması uğrunda canlarını qurban vermişlər.



Bu gün biz Böyük Vətən müharibəsində həlak olanların hamısının ruhu qarşısında baş əyirik, yaşayan veteranlara onların qəhrəmanlığına və şücaətinə görə bir daha təşəkkür edirik. Bütün müharibə veteranlarına ən əvvəl cansağlığı, səadət və suveren Azərbaycanın müstəqilliyinin qorunub saxlanmasında və Azərbaycan xalqının xoşbəxt gələcəyi naminə işlərimizdə uğurlar arzulayıram.

Sizi bir daha təbrik edirəm. Sizinlə bir də görüşəcəyik. Lakin bu müqəddəs yerdə həm həlak olanların ruhunu yad edərək, həm də yaşayanlara müstəqil Azərbaycan dövlətinin təşəkkürünü bildirərək, ürəyimdən gələn bu sözləri sizə çatdırıram. Sağ olun.

«Müstəqilliyimiz əbədidir» Heydər Əliyev, Azərnəşr, VI cild, səh 258, Bakı-1998.





## Azərbaycan Prezidenti Heydər Əliyevin Böyük Vətən Müharibəsində - İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 53-cü ildönümü münasibəti ilə təntənəli mərasimdə nitqi – 9 may 1998-ci il

Əziz və hörmətli veteranlar!

Mən sizi, Azərbaycan Respublikasının bütün müharibə veteranlarını alman faşizmi üzərində qələbənin 53-cü ildönümü münasibətilə ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uzun ömür və gələcək fəaliyyətinizdə uğurlar arzulayıram.

XX əsrin ən dəhşətli səhifələri olan İkinci dünya müharibəsi və Böyük Vətən müharibəsi bizim üçün çoxlu qurbanlarla başa çatdı. Amma eyni zamanda, bu müharibə dünyada misli görünməmiş qələbə ilə başa çatdı və alman faşizminə qarşı müharibəyə qalxmış xalqlar, ordular 1945-ci ildə tarixi bir qələbə çaldılar. Zaman keçdikcə, illər ötdükcə bu qələbənin mənası, mahiyyəti və tarixi əhəmiyyəti daha da aydın olur, bütün dünya üçün daha da açılır.

Azərbaycan xalqı da İkinci dünya müharibəsində - Böyük Vətən müharibəsində qurbanlar vermişdir. Böyük Vətən rnüharibəsinə Azərbaycandan 600 minə qədər insan cəlb olunmuşdu. Onlardan 300 min Azərbaycan vətəndaşı müharibədə həlak olmuş, geriyə dönməmişdir. Azərbaycanın qəhrəman oğulları Böyük Vətən müharibəsində şücaət göstərmiş, xalqımızın qəhrəmanlıq nümunələrini dünyaya nü mayişetdirmişlərvəalmanfaşizmiüzərindəçalmanqələbədə

Azərbaycan xalqının da böyük payı vardır. Biz bu gün - Qələbə günü Böyük Vətən müharibəsində, alman faşizminin qarşısını almaq uğrunda gedən müharibədə həyatlarını qurban vermiş Azərbaycan vətəndaşlarının xatirəsini böyük minnətdarlıq hissi ilə yad edirik.

Bu gün biz İkinci dünya müharibəsində həlak olmuş, alman faşizminə qarşı vuruşaraq həlak olmuş insanların hamısının xatirəsini yad edirik. Onların qəhrəmanlığı heç vaxt unudulmayacaqdır. Çünki bəşəriyyəti faşizmdən xilas etmək tarixi bir qəhrəmanlıq nümunəsidir. Biz bütün həlak olanların xatirəsini həmişə yad etmişik və yad edirik.

Biz bu gün Azərbaycanın qəhrəman oğlu general Həzi Aslanovun qəbrinin önündə toplaşmışıq. İki dəfə Sovet İttifaqı qəhrəmanı Həzi Aslanovun qəbri eyni zamanda Böyük Vətən müharibəsində həlak olmuş bütün Azərbaycan övladlarının, Azərbaycan vətəndaşlarının qəbirlərini təmsil edir. Biz qəhrəman general Həzi Aslanovun qəbrinin qarşısında, Böyük Vətən müharibəsində həlak olmuş bütün Azərbaycan övladlarının qəbirləri qarşısında, mübarizlərin xatirəsi qarşısında dərin minnətdarlıq hissi ilə baş əyirik. Onların qəhrəmanlığı heç vaxt unudulmayacaqdır. Onların qəhrəman simaları bizim qəlbimizdə daim yaşayacaqdır.

Qələbə günündən 53 il keçibdir. Biz xoşbəxtik ki, bu 53 ili o dəhşətli müharibənin sona çatmasından indiyə qədər yaşamışıq və Azərbaycan xalqı bu illərdə böyük imtahanlardan keçərək nəhayət, öz milli azadlığına, dövlət müstəqilliyinə nail olubdur, indi öz taleyinin sahibidir. Bu gün bizi ən çox sevindirən cəhətlərdən biri də odur ki, Böyük Vətən müharibəsində, İkinci dünya müharibəsində qələbə üçün vuruşanların, döyüşənlərin böyük bir dəstəsi indi də bizim sıralarımızdadır. Onlar yaşayırlar, müstəqil Azərbaycanın həyatında, dövlət quruculuğu prosesində, respublikamızda həyata keçirilən müxtəlif proseslərdə fəal iştirak edirlər.





Əziz bacılar, qardaşlar!

Bu gün buraya - bu müqəddəs yerə toplaşan müharibə veteranları, sizlər Azərbaycan xalqının ən mötəbər insanlarısınız, ən hörmətli insanlarısınız. Sizi cəmiyyətimiz, xalqımız həmişə yüksək qiymətləndirib və bu gün də yüksək qiymətləndirəcəkdir. Sizin Böyük Vətən müharibəsindəki rəşadətiniz, şücaətiniz və qələbənin çalınmasındakı xidmətləriniz bütün Azərbaycan xalqının milli, mənəvi sərvətidir.

Əziz bacılar, qardaşlar!

Siz Böyük Vətən müharibəsinin cəbhələrində, döyüşlərdə iştirakınızla, göstərdiyiniz qəhrəmanlıqla, şücaətlə Azərbaycan xalqının nəyə qadir olduğunu bütün dünyaya sübut etmisiniz. Siz Azərbaycan xalqının hörmətini ucalara qaldırmısınız. Siz Azərbaycan xalqını dünyaya tanıtmısınız. Sizin döşünüzdəki dövlət ordenləri, medalları, nişanları mənim dediyim bu sözlərə əyani sübutdur. İndi Müstəqil Azərbaycan Respublikasında Böyük Vətən müharibəsinin, İkinci dünya müharibəsinin veteranlarına xüsusi qayğı göstərilir və bundan sonra da göstəriləcəkdir. Siz əmin ola bilərsiniz ki, Azərbaycanın dövləti, Azərbaycanın prezidenti sizin probleminizlə daim məşğul olur və bundan sonra da məşğul olacaqlar. Biz həyatın bu çətin, ağır dövründə bütün imkanlarımızdan istifadə edərək Böyük Vətən müharibəsinin veteranlarına lazımi qayğılar göstərmişik və göstərəcəyik də. Mən bu gün bir daha bəyan edirəm ki, bizim üçün İkinci dünya müharibəsində, faşizmə qarşı aparılan Böyük Vətən müharibəsində iştirak etmiş hər bir şəxs yüksək hörmətə malikdir. Bizim cəmiyyətdə sizin xüsusi yeriniz vardır. Biz heç vaxt sizin xidmətlərinizi unutmayacağıq. Azərbaycanda ictimai-siyasi vəziyyət dəyişəndən sonra, Azərbaycan öz dövlət müstəqilliyini əldə edəndən sonra Böyük Vətən müharibəsinin veteranlarına və ümumiyyətlə, ikinci Dünya

müharibəsinin qəhrəmanlarına müəyyən bir dövrdə nümayiş etdirilən etinasızlıq və bəzən də hörmətsizlik halları indi aradan götürülübdür. O insanlar ki, müvəqqəti olaraq Azərbaycanda hakimiyyətə gəlmişdilər və Azərbaycanın keçmiş tarixinin hamısını inkar etməyə çalışırdılar, o cümlədən yüz minlərlə Azərbaycan övladlarının Böyük Vətən müharibəsində, İkinci dünya müharibəsində, faşizmə qarşı müharibədə tökülən qanını, aldıqları yaraları, verilən qurbanları unutdurmağa çalışırdılar və onlara qarşı hörmətsizlik edirdilər, artıq bunların hamısı aradan götürülübdür. Sadəcə olaraq, bunlar o dövrün ayrı-ayrı adamları tərəfindən xalqa qarşı hörmətsizlik və deyə bilərəm ki, vəfasızlıqdır.

Siz bilin, bu gün də, müstəqil Azərbaycanın gələcək nəsilləri də sizləri sevəcək, həmişə sizlərə hörmət edib və edəcəklər. Siz bu gün Azərbaycanın həyatında fəal iştirak edirsiniz, müstəqil Azərbaycanın dövlət quruculuğu prosesində öz təcrübənizi, biliklərinizi əsirgəmirsiniz. Mən bütün bunlara görə sizə təşəkkür edirəm və əmin olduğumu bildirmək istəyirəm ki, siz, müharibə veteranları Azərbaycanın hörmətli, ağsaqqal insanları bundan sonra da müstəqil Azərbaycanın dövlətçiliyinin qorunmasında, dövlətçiliyin inkişaf etdirilməsində fəal iştirak edəcəksiniz və öz xidmətlərinizi göstərəcəksiniz.

Mən sizə öz hörmət və ehtiramımı bildirirəm. Sizin hamınıza keçmiş xidmətlərinizə görə, Böyük Vətən müharibəsində göstərdiyiniz qəhrəmanlıq nümunələrinə görə, tökdüyünüz qanlara görə bütün Azərbaycan xalqı, dövləti adından təşəkkür edirəm. Sizə bir daha cansağlığı, uzun ömür arzu edirəm. Həyatınızda, gələcək işlərinizdə sizə uğurlar arzulayıram.

Bayramınız mübarək olsun! Qələbə günü mübarək olsun!

Sağ olun.





## Stalinqrad vuruşmasında qələbənin 60 illiyinə həsr olunmuş təntənəli yığıncağın iştirakçılarına - 1 fevral 2003-cü il

Hörmətli yığıncaq iştirakçıları!

Böyük Vətən müharibəsində əsaslı dönüşün başlanğıcını qoymuş Stalinqrad vuruşmasında qələbənin 60 illiyi münasibətilə sizi ürəkdən təbrik edirəm.



Stalinqrad vuruşması bəşəriyyəti faşizm zülmündən xilas etmək amalı ilə birləşmiş xalqlarımızın şanlı döyüş salnaməsinə qızıl hərflərlə yazılmışdır. Stalinqradın mərd və mətin müdafiəçiləri bu döyüşlərdə əsl qəhrəmanlıq və mərdlik nümunəsi göstərərək, faşist ordusunun məğlubedilməzliyi mifini darmadağın etmişlər. Stalinqrad döyüşlərində digər xalqların nümayəndələri ilə çiyin-çiyinə vuruşaraq canından keçmiş Azərbaycanın minlərlə qəhrəman övladı böyük hərbi,

siyasi və strateji əhəmiyyəti olan bu tarixi qələbəyə öz layiqli töhfəsini vermişdir.

Əminəm ki, bu gün ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərini möhkəmləndirməklə biz faşizmə qarşı mübarizədə xalqlarımızın nümayiş etdirdiyi sarsılmaz birliyi əbədi yaşadacağıq.



Bu əlamətdar gündə Stalinqrad vuruşmasında həlak olanların xatirəsini dərin minnətdarlıq hissi ilə yad edir, bu döyüşlərin iştirakçılarına, bütün müharibə veteranlarına böyük ehtiramımı bildirirəm.

Sizi bir daha təbrik edir, sizin hər birinizə möhkəm cansağlığı, uzun ömür və uğurlar arzulayıram.

Hörmətlə,

Heydər Əliyev,
Azərbaycan Respublikasının Prezidenti.





## Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin faşizm üzərində qələbənin 58-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciəti - 8 may 2003-cü il

Əziz həmvətənlər!

Hörmətli müharibə veteranları!

Bu il İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 58-ci ildönümü tamam olur. Bu müharibə miqyasına, vurulan maddi zərərin həcminə və həlak olmuş insanların sayına görə bəşər tarixində baş vermiş müharibələrin ən böyüyü və ən dəhşətlisidir. Məlumdur ki, İkinci Dünya müharibəsi Yer üzünə hökmranlıq etmək iddiasında olan militarist qüvvələr, ilk növbədə isə faşist Almaniyası tərəfindən törədilmişdi. 1939-cu ilin sentyabrında başlanan müharibə qısa müddətdə bütün Avropanı bürümüş, daha sonra digər qitələrə də yayılaraq altı il davam etmişdir. 1941-ci il iyunun 22-də SSRİ üzərinə faşist Almaniyasının hücumu ilə Azərbaycanın da mənsub olduğu Sovet İttifaqı faşizmlə ölüm-dirim mübarizəsinə qoşulmuş, tarixə sovet xalqının Böyük Vətən müharibəsi kimi daxil olan müharibə başlanmışdı.

Müharibənin gedişində təcavüzkarlar ağlagəlməz vəhşiliklər törədərək milyonlarla insanı qətlə yetirmiş, şəhər və kəndləri xarabazara çevirmiş, istehsal müəssisələrini və mədəniyyət abidələrini darmadağın etmişdilər. Lakin bəşəriyyətə fəlakət gətirən faşistlərin ağalığı uzun müddət davam edə bilməzdi. Müharibə illərində formalaşan anti-Hitler koalisiyası ölkələrinin, ilk növbədə ABŞ-ın, Sovet İttifaqının,

İngiltərənin və Fransanın birgə səyləri nəticəsində 1945- ci ildə faşist Almaniyası və onun müttəfiqləri darmadağın edildi, İkinci Dünya müharibəsi başa çatdı. Bu müharibədəki qələbə mütərəqqi qüvvələrin irtica, sivilizasiyanın barbarlıq və insanlığa nifrət ideologiyası üzərində təntənəsi oldu.

Faşizm üzərində qələbənin qazanılmasına Azərbaycan xalqı da öz sanballı töhfəsini vermişdir. Rusiya, Ukrayna, Moldova və Belarusun, Baltikyanı respublikaların, Şərqi Avropa ölkələrinin hitlerçilərdən azad edilməsində, Qərbi Avropada genişlənən Müqavimət Hərəkatının uğur qazanmasında həmvətənlərimiz mühüm rol oynamışlar. 1941-1945-ci illərdə 600 min həmvətənimiz ön cəbhəyə yollanmış, qəddar düşmənlə mərdliklə vuruşmuşdur. Onların yarıdan çoxu döyüş meydanlarında qəhrəmancasına həlak olaraq geri qayıtmamışdır.

Azərbaycanlılar ön cəbhədə qəhrəmanlıq göstərməklə yanaşı, arxa cəbhədə də misilsiz fədakarlıq nümayiş etdirmiş, döyüşən ordunun yanacaq, silah, ərzaq və geyimlə təchiz olunmasına böyük kömək göstərmişlər. Məlumdur ki, İkinci Dünya müharibəsi əvvəlki müharibələrdən fərqli olaraq, süvari və piyadaların deyil, ilk növbədə motorların, tankların, qırıcı və bombardmançı təyyarələrin, digər döyüş maşınlarının müharibəsi olmuşdur. Neft və neft məhsulları olmadan hərbçilər bu texnikanı hərəkətə gətirib düşmən üzərində qələbəni təmin edə bilməzdilər. Müharibə illərində Azərbaycan neftçiləri bütün çətinliklərə baxmayaraq, silahlı qüvvələri kifayət qədər yanacaqla təmin edə bilmişdilər. Bu gün hər bir azərbaycanlı fəxr edir ki, o dövrdə Sovet İttifaqında hasil edilən neftin 70 faizindən çoxu məhz bizim respublikanın payına düşmüşdür.

Müharibənin məşəqqətlərini və məhrumiyyətlərini görmüş xalqımız yeni qanlı müharibələrin və münaqişələrin əleyhinə çıxış edir, müstəqil Azərbaycan dövləti regionda və bütün dünyada möhkəm və davamlı sülhün bərqərar olması





uğrunda ardıcıl mübarizə aparır. Biz qonşu dövlətin ərazi iddiaları nəticəsində başlanmış Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc şəkildə, danışıqlar yolu ilə həllinə tərəfdar olduğumuzu dəfələrlə bəyan etmişik. Biz inanırıq və İkinci Dünya müharibəsinin tarixi də göstərir ki, zora söykənən siyasət, işğala və təcavüzə əsaslanan, başqa xalqlara nifrət və düşmənçilik təbliğ edən ideologiya gec-tez məhvə məhkumdur.

Bu gün Azərbaycan xalqının güclü ordusu, müasir tələblərə cavab verən Silahlı Qüvvələri vardır. Xalqımız bilməlidir ki, Azərbaycan rəhbərliyi ərazilərimizin azad edilməsi üçün beynəlxalq hüququn və diplomatiyanın bütün imkanlarından istifadə edəcək. Ordumuzun gücü, insanlarımızın vətənpərvərliyi isə bu haqq işimizdə etibarlı təminat və səmərəli vasitə olacaqdır.

Faşizm üzərində Qələbə günü - Azərbaycan Respublikasının mühüm dövlət bayramlarından biridir. 58 ildir ki, biz bu günü unutmur, qazanılmış qələbə ilə fəxr edir və hər il mayın 9-nu bayram kimi qeyd edirik. Bu əziz gündə Azərbaycan xalqının bütün qəhrəmanlarının, həyatını qurban vermiş oğul və qızlarının xatirəsini dərin ehtiramla yad edirəm. Əlamətdar hadisə münasibətilə həm ön cəbhədə vuruşmuş, həm də arxada fədakarlıq göstərmiş müharibə veteranlarını, Azərbaycanın hər bir vətəndaşını səmimi qəlbdən təbrik edir, xalqımıza sülh, əmin-amanlıq, yüksək rifah və firavanlıq arzulayıram.

## Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Veteranlar haqqında müdrik fikirləri



Biz veteranlarımıza çox mehriban münasibət bəsləyirik.





…Onlar xalqımızın fəxridir. Biz həlak olanların xatirəsinə də ehtiramla yanaşırıq və əminik ki, gənc nəslin qəhrəmanlıq və Vətənə məhəbbət ənənələrini davam etdirməsi üçün onlar məhz bu cür fədakar qəhrəmanlıq və Vətənə məhəbbət ruhunda tərbiyə olunmalıdırlar.

***

Mən istəyirəm ki, yüksək nəticələr göstərmiş, Vətənimizə ləyaqətlə qulluq edən insanlar, onların əməyi, xidməti layiqincə qiymətləndirilsin.

***

Biz öz gücümüzə arxalanırıq. Bütün məsələlərdə öz gücümüzə, Azərbaycan xalqının iradəsinə və Azərbaycan Ordusunun gücünə güvənirik. Müharibə zamanı şəhid olmuş, öz sağlamlığını itirmiş vətəndaşlarımız cəmiyyətin dəyərli insanlarıdır, bizim qəhrəmanlarımızdır. Biz sizinlə fəxr edirik. Gənc nəsil də sizinlə fəxr etməlidir. Gənc nəslimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında sizin kimi insanların rolu çox böyükdür. Mən çox istəyirəm ki, siz tez-tez gənclərlə görüşəsiniz, məktəblərdə, ali məktəblərdə görüşlər keçirəsiniz. Müharibə haqqında, erməni vəhşiliyi haqqında həm gənc nəslə, eyni zamanda, bütün dünyaya daha da geniş məlumat çatdırasınız.

***

Müharibə zamanı şəhid olmuş, öz sağlamlığını itirmiş vətəndaşlarımız cəmiyyətin dəyərli insanlarıdır, bizim qəhrəmanlarımızdır. Biz sizinlə fəxr edirik. Gənc nəsil də sizinlə fəxr etməlidir. Gənc nəslimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında sizin kimi insanların rolu çox böyükdür. Mən çox istəyirəm ki, siz tez-tez gənclərlə görüşəsiniz, məktəblərdə, ali məktəblərdə görüşlər keçirəsiniz. Müharibə haqqında, erməni vəhşiliyi haqqında həm gənc nəslə, eyni zamanda, bütün dünyaya daha da geniş məlumat çatdırasınız.

***

Faşizm üzərində Qələbənin təmin edilməsində Azərbaycanın müstəsna rolu olmuşdur.

***



Mən çox şadam ki, bu gün birlikdəyik, bu qələbəni qeyd edirik. İstəyirəm biləsiniz ki, mən veteranlara bundan sonra da böyük qayğı ilə yanaşacağam. Sizin böyük xidmətləriniz olubdur, böyük yol keçmisiniz. Azərbaycan üçün, dövlətçiliyin inkişafı üçün böyük töhfələr vermisiniz.





## Böyük Vətən müharibəsində Qələbənin 60 illik yubileyinə həsr olunmuş mərasim keçirilmişdir Azərbaycan Prezidenti İlham Əliyevin nitqi

Əziz veteranlar! Əziz dostlar! Hörmətli xanımlar və cənablar!

Mən sizin hamınızı İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 60-cı ildönümü münasibətilə ürəkdən təbrik edirəm, sizə cansağlığı, uzun ömür arzulayıram. Mən çox şadam ki, biz bu gün birlikdəyik, bu qələbəni qeyd edirik. İstəyirəm biləsiniz ki, mən veteranlara bundan sonra da böyük qayğı ilə yanaşacağam. Sizin böyük xidmətləriniz olubdur, böyük yol keçmisiniz. Azərbaycan üçün, dövlətimizin inkişafı üçün böyük töhfələr vermisiniz.

Hər bir vətəndaş, hər bir insan, xüsusilə vəzifəli şəxs sizə böyük diqqət və qayğı göstərməlidir. Mən tabeliyimdə olan bütün məmurlara da tapşırmışam ki, sizin problemlərinizlə məşğul olsunlar, lazımi işləri görsünlər ki, siz rahat yaşayasınız. Sizin buna haqqınız çatır. Siz Azərbaycan xalqının rifahı naminə fədakarcasına çalışmısınız.

İkinci Dünya müharibəsi bəşər tarixində ən dəhşətli müharibə idi, ən qanlı müharibə idi. Azərbaycan Sovet İttifaqı tərkibində bu müharibədə fəal iştirak etmişdir. 700 minə yaxın Azərbaycan vətəndaşı müharibədə iştirak etmiş, qəhrəmancasına vuruşmuş, onların yarısı geri dönməmiş, həlak olmuşdur. Bu, böyük qəhrəmanlıqdır. Heç kim bu qəhrəmanlığı unutmamalıdır. İkinci Dünya müharibəsindən sonra, qələbədən sonra Avropada yaşayan bir çox xalqlar azadlıq əldə etmişlər. Ancaq Azərbaycanın əsil azadlığı müstəqilliyimiz bərpa

olunandan sonra əldə edildi. Ağır, çətin dövrdə Azərbaycan müstəqil dövlət kimi yaşamağa başlamışdır.

Müstəqilliyimizin ilk illəri də ölkəmiz üçün çox çətin keçirdi, böyük təhlükələr mövcud idi. Yalnız və yalnız xalqımızın ümummilli lideri Heydər Əliyevin Azərbaycana rəhbərliyə qayıdışından sonra vəziyyət dəyişdi, bütün təhlükələr aradan götürüldü və ölkəmiz inamla inkişaf etməyə başladı.



Bu illər ərzində, son 10-11 il ərzində Azərbaycan böyük uğurlar əldə etmişdir. Ölkəmiz dünyadakı mövqelərini möhkəmləndirmiş, iqtisadi islahatlar prosesi daha da sürətlənmişdir. BugünAzərbaycanregiondatutduğumövqelərə görə lider ölkədir. Bilirsiniz ki, İkinci Dünya müharibəsində arxa cəbhədə fəaliyyət göstərən insanların əməyindən çox şey asılı idi. Onu da hamımız bilirik ki, İkinci Dünya müharibəsi motorlar, tanklar, təyyarələr müharibəsi idi.

O vaxt Sovet İttifaqının neft potensialının demək olar ki, böyük əksəriyyəti Azərbaycanda cəmləşmişdi. Sovet İttifaqında hasil olunan neftin 75 faizini Azərbaycan neftçiləri çıxarmışdı. Həmin neft emal olunub, yanacağa çevrilib ümumi





qələbəmizə xidmət etmişdir. Bunu indi hamı etiraf edir, bütün dünyada etiraf edirlər ki, əgər Azərbaycan nefti olmasaydı, müharibənin nəticələri tam başqa ola bilərdi.

Ön cəbhədə vuruşmuş, arxa cəbhədə çalışmış bütün insanlar böyük hörmətə layiqdirlər. Gələcək nəsillərin formalaşması üçün sizin nümunəniz çox önəmlidir. Bizim gənc nəslimiz vətənpərvərlik ruhunda tərbiyə olunmalıdır, böyüməlidir. Bu istiqamətdə sizin müharibədən sonrakı fəaliyyətiniz, ocümlədənictimaifəaliyyətinizböyükəhəmiyyət kəsb edir. Mən çox şadam ki, Azərbaycanda xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuş ənənələr bu gün davam etdirilir. Bilirsiniz ki, müstəqilliyimizin ilk illərində bəzi qüvvələr 9 May bayramını da ləğv etmək istəmişdilər və veteranlara münasibət dəyişmişdi. Biz bunu indi də bəzi ölkələrdə görürük. Görürük ki, bəzi ölkələrdə veteranlara münasibət o qədər də ədalətli deyildir. Amma xalqımızın ümummilli lideri 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdandan sonra vəziyyət tamamilə dəyişdi, bütün o mənfi meyillər aradan götürüldü və veteranlara layiq olduqları münasibət göstərilməyə başladı. Ədalət bərpa edildi və 9 May Qələbə günü Azərbaycanda geniş qeyd olunur. Bu gün bu siyasət Azərbaycanda davam etdirilir. Mən dəfələrlə bəyan etmişəm ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin siyasəti bütün sahələrdə davam etdiriləcəkdir. Bu bizə yeni uğurlar, yeni qələbələr gətirəcək, Azərbaycan xalqı daha yaxşı yaşayacaq, sosial məsələlər daha sürətlə öz həllini tapacaqdır. Xüsusilə sosial müdafiəyə ehtiyacı olan təbəqələrə daha böyük yardımlargöstəriləcək, əməkhaqları, pensiyalarqaldırılacaqdır. Əlbəttə, veteranlara diqqət bundan sonra da yüksək səviyyədə olacaqdır. Mən çox şadam ki, bu gün Heydər Əliyev Fondu belə gözəl tədbir keçirir. Heydər Əliyev Fondu Azərbaycanın ictimai həyatında çox fəal iştirak edir, çoxlu proqramlar həyata keçirir, xüsusilə əsas diqqət sosial məsələlərə göstərilir.

Kimsəsiz uşaqlara, çətin vəziyyətdə yaşayan insanlara yardım olunur. Hesab edirəm ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin adı verilmiş Fondun fəaliyyəti daşıdığı ada layiqdir.



Mən bu gün çox şadam ki, biz burada sizinlə birlikdəyik, Qələbə gününü birlikdə qeyd edirik. Mən sizin hamınızı yenidən görməyimə çox şadam. Çox şadam ki, siz gümrahsınız, həmişə olduğu kimi cavansınız. Arzu edirəm ki, həmişə belə qalasınız. Mən sizin hamınızı Qələbə günü münasibətilə bir daha ürəkdən təbrik edirəm. Arzu edirəm ki, ömrünüz uzun olsun, çox yaşayasınız və doğma xalqımıza, millətimizə bundan sonra da ləyaqətlə xidmət edəsiniz. Bayramınız mübarək olsun!





## Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışındakı nitqi 7 may 2015-ci il

Bakıda Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışı olub. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və xanımı Mehriban Əliyeva yeni inzibati binanın açılışında iştirak ediblər.



Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Böyük Vətən Müharibəsində Qələbənin 70 illiyi münasibətilə veteranları təbrik etdilər, ən xoş arzularını bildirdilər və onların ürək sözlərini dinlədilər.

Veteranlar ulu öndər Heydər Əliyev ilə görüşlərini dərin ehtiram hissi ilə xatırladılar.

Sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binası ilə tanış oldular.



Bina dövlətimizin başçısının müvafiq sərəncamı əsasında yaradılıb. Girişdə Ulu Öndərin büstü qoyulub. Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri general-mayor Dadaş Rzayev bildirdi ki, inzibati binadakı muzeydə elektron məlumat mərkəzi vasitəsilə Ümummilli Liderin veteranlarla görüşləri, Azərbaycan İkinci Dünya müharibəsi illərində, Azərbaycan Böyük Vətən müharibəsindən sonra, Prezident İlham Əliyevin veteranlarla görüşləri, Azərbaycan Qarabağ savaşında, ölkəmizin dünəni və bu günü mövzularında sənədlər, foto və videoarxivlə tanış olmaq mümkündür.

Heydər Əliyev guşəsində müxtəlif fotolar və eksponatlar yer alıb. Burada veteranların və qonaqların müxtəlif kitabları mütaliəsi üçün də müvafiq şərait var. Prezident İlham Əliyevin veteranlarla görüşləri, veteranlara dövlət qayğısından bəhs edən guşədə də zəngin eksponatlara yer ayrılıb.





Dövlətimizin başçısına məlumat verildi ki, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasında səmərəli fəaliyyət üçün hərtərəfli şərait yaradılıb. Qeyd olundu ki, müşavirə otağında da informasiya-kommunikasiya texnologiyalarının geniş tətbiqi maksimum diqqətdə saxlanıb. Müasirliyi ilə diqqəti çəkən akt zalında da müxtəlif tədbirlərin keçirilməsi üçün hərtərəfli şərait var. Binanın təchizatı ən yüksək standartlara cavab verir. Veteranlar burada gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi üçün silsilə tədbirlər keçirə biləcəklər. İnzibati binanın dəhlizində Azərbaycanın Milli Qəhrəmanları və Sovet İttifaqı Qəhrəmanlarının şəkillərindən ibarət fotoguşələr yaradılıb. Ümumilikdə, yeni inzibati bina səmərəli fəaliyyət üçün hər cür şəraitə malikdir.

Bina ilə tanışlıqdan sonra Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva veteranlar ilə görüşdülər.

Dövlət başçısı görüşdə çıxış etdi.

## Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı

- Əziz veteranlar, İlk növbədə, sizi qarşıdan gələn 9 May – Qələbə Günü münasibətilə ürəkdən təbrik etmək, sizə cansağlığı arzulamaq istəyirəm.



Mən mayın 9-da Moskvada keçiriləcək bayram tədbirlərində iştirak edəcəyəm. Ona görə, bizim ənənəvi görüşümüzü bu gün - mayın 7-də keçiririk. Hər il biz sizinlə görüşürük və bu görüşlərin çox böyük mənası var.

Eyni zamanda, bu gün veteranların həyatında əlamətdar gündür. Çünkiveteranlarüçünyenigözəlinzibatibinaistifadəyə verilir. Keçən il veteranlar təşkilatının nümayəndələri mənə müraciət etmişdilər. Dərhal qərar qəbul edildi və gözəl iş yeri tikildi.





Ən yüksək standartlara cavab verən bu mərkəzdə veteranlar çalışacaqlar. Burada bütün şərait yaradılıb və biz bunu qısa müddət ərzində etmişik. Yəni, bu, bir daha onu sübut edir ki, Azərbaycan dövləti öz veteranlarına böyük qayğı və diqqət göstərir. Veteranlar yüksək mükafatlarla təltif olunur, onlara minik maşınları verilir. Növbədə duran bütün veteranlara avtomobillərin verilməsi prosesi bu il başa çatacaq. Mənzillər, pul mükafatı verilir. Onu da qeyd etməliyəm ki, MDB məkanında ən yüksək pul mükafatı məhz Azərbaycanda verilir. Siz buna layiqsiniz. Siz Vətəni müdafiə etmisiniz, qəhrəmanlıq göstərmisiniz və Azərbaycan dövləti sizin fəaliyyətinizi çox yüksək qiymətləndirir. Ulu öndər Heydər Əliyevin siyasəti də məhz ondan ibarət idi ki, biz müharibə veteranlarına daim diqqət göstərək.

Əfsuslar olsun ki, müstəqilliyimizin ilk illərində o vaxt hakimiyyətdə olan AXC-Müsavat cütlüyü Qələbə Gününü bayram günləri siyahısından çıxarmışdı. Yəni, bu bayram ləğv edilmişdi. Onlar elə bil ki, sizin qəhrəmanlığınızı tarixdən silmək istəyirdilər. Ancaq onların özləri tarixdən və siyasi səhnədən silindi, Azərbaycan xalqı o antimilli hakimiyyətə dözə bilmədi. Xalqın tələbi ilə ulu öndər Heydər Əliyev hakimiyyətə gələndən sonra tarixi ədalət bərpa edildi, 9 May

– Qələbə Günü rəsmi bayram kimi təsdiq olundu və o gündən bu günə qədər biz bu bayramı qeyd edirik. Bu, bizim dövlət bayramımızdır, əziz bayramımızdır.

Azərbaycan faşizm üzərində Qələbənin əldə edilməsinə çox böyük töhfələr verib. Azərbaycandan 700 minə yaxın insan müharibədə iştirak edib, onlardan 300 mini həlak olub. 123 nəfər ən yüksək ada – Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. 30 nəfər "Şöhrət" ordeninin hər üç dərəcəsi ilə təltif edilib. 170 min nəfər isə müxtəlif orden və medallarla təltif olunub. Bu, Azərbaycan xalqının qəhrəmanlığını təsdiq edən statistik göstəricilərdir.

Eyni zamanda, Azərbaycan alman faşizmi üzərində Qələbənin əldə edilməsində həlledici rol oynayıb. Mən bunu tam məsuliyyətlə deyirəm. Çünki Azərbaycan nefti, Azərbaycan neftçilərinin əməyi olmasaydı, müharibənin nəticələri tam fərqli ola bilərdi. O vaxt - müharibə illəri zamanı Sovet İttifaqında 110 milyon ton neft hasil edilmişdi. Ondan 75 milyon tonu Azərbaycan neftçiləri tərəfindən hasil edilmişdi. Təsadüfi deyil ki, alman faşizmi Bakını zəbt etmək üçün çox böyük səylər göstərmişdi. Çünki əgər Bakını zəbt etsəydilər, o zaman bütün Sovet İttifaqının əksər enerji resurslarına sahib çıxmış olacaqdılar və beləliklə, yanacaq qıtlığı ucbatından müharibənin nəticələri tam başqa ola bilərdi.

Bakını sovet ordusu müdafiə etdi və bu, xalqımızı böyük bəlalardan xilas etdi. Azərbaycanın 300 min nümayəndəsi qəhrəmancasına həlak oldu. Ancaq əgər Hitlerin ordusu Bakını zəbt etsə idi, xalqımıza qarşı soyqırımı törədilərdi. Çünki faşizm ideologiyası irqçilik, ayrı-seçkilik, ksenofobiya, başqa millətlərə qarşı nifrət üzərində qurulmuşdu. Bakının qəhrəmanlığı bu gün dünya üçün də artıq sirr deyil və biz çalışmalıyıq ki, Azərbaycan xalqının, Azərbaycan zəhmətkeşlərinin qəhrəmanlığını bütün dünyaya nümayiş etdirək. Bu yaxınlarda çəkilən və nümayiş etdirilən sənədli film də Azərbaycanın ümumi Qələbəmizə nə qədər böyük töhfə verdiyini əyani şəkildə göstərir. Azərbaycan neftçiləri ilə bərabər Azərbaycan zəhmətkeşləri də böyük fədakarlıq göstərmişlər. Müharibə zamanı Azərbaycanın sənaye müəssisələrində 130 növ silah-sursat istehsal olunurdu ki, bu da Qələbəmizin əldə edilməsində mühüm rol oynamışdı.

Biz bütün bu tarixi faktları bilirik. Bizim gənc nəslimiz də, dünya da bilməlidir. Biz Azərbaycanın faşizm üzərində Qələbənin əldə edilməsindəki müstəsna rolu haqqında danışırıq, danışacağıq və bundan sonra da bu tarixi həqiqətləri dünya ictimaiyyətinə çatdıracağıq.





Əfsuslarolsunki, bugünfaşizmideologiyasıbəziyerlərdə yenə də baş qaldırır. Biz buna imkan verə bilmərik, biganə qala bilmərik. Müharibə haqqında həqiqətlər təhrif olunur. Sanki kimsə tarixi yenidən yalan, siyasi sifariş üzərində yazmaq istəyir. Sovet ordusunun Qələbənin əldə edilməsində həlledici rolunu bəzi qüvvələr danmaq istəyirlər. Bu, dözülməzdir, qəbuledilməzdir. Ona görə hamımız - veteranlar, siyasətçilər, ictimaiyyət, dünya ictimaiyyəti bu məsələ ilə bağlı öz sözünü deməlidir və biz bu sözü deyirik.

Tarixi təhrif etməklə yanaşı, faşistlərin qəhrəmanlaşdırılması prosesi də gedir. Biz buna da dözə bilmərik. Çünki faşizm ideologiyası Yer kürəsində ən çirkin, təhlükəli, dəhşətli ideologiyadır. Bu gün müxtəlif ölkələrdə neofaşizm meyillərinin güclənməsi bizi haqlı olaraq narahat edir. Bizə elə gəlirdi ki, faşizm ideologiyası ilə artıq məsələ bağlandı. Bundan sonra bu, heç vaxt baş qaldırmayacaq. Ancaq əfsuslar olsun ki, biz görürük, yürüşlər, müxtəlif tədbirlər keçirilir. İndi həmin ideologiya başqa adlarla pərdələnərək dirçəlməyə başlayır.

Avropada antimiqrant hərəkatı də məhz faşizm, irqçilik, ayrı-seçkilik ideologiyası üzərində qurulur. Hesab edirəm ki, dünya siyasətçiləri öz sözünü deməlidirlər. Biz neofaşizmin nə qədər böyük fəlakət olduğu haqqında öz sözümüzü deyirik və deyəcəyik.

Ona görə mən çox şadam ki, siz veteranlar həmişə olduğu kimi, öz fəal mövqeyinizlə seçilirsiniz və sizin sözünüzün çox böyük mənası var. Siz müharibənin, o tarixin canlı şahidlərisiniz, onun iştirakçılarısınız.

Əfsuslar olsun ki, Azərbaycan xalqı da XX əsrin sonlarında faşizm ideologiyasının nəticəsi olan Qarabağ fəlakəti, işğalı ilə üzləşmişdi. Biz XX əsrin sonlarında erməni faşizmi ilə üzləşdik. Bizə qarşı aparılan işğalçı siyasət, xalqımıza qarşı törədilən Xocalı soyqırımı məhz erməni

faşizminin təzahürüdür. Bu gün dünyada erməni faşizmi haqqında kifayət qədər sənədlər, kitablar, məqalələr dərc edilir



Erməni faşizmini ifşa etmək üçün əsas yükü biz öz üzərimizə götürmüşük. Günahsız insanlar, qadınlar, uşaqlar ona görə öldürülürdü ki, onlar azərbaycanlıdır.

Biz erməni faşizminə qarşı mübarizə aparırıq və qurbanlarımızın qanını yerdə qoymuruq. Biz lazımi tədbirləri görürük və görəcəyik ki, faşistləri layiqincə cəzalandıraq. Azərbaycan Ordusu indi bütün lazımi tədbirləri görür. Eyni zamanda, Ermənistanda Hitlerə qulluq edən faşistlərin xatirəsinəhörmətgöstərilir, onlarınadlarıküçələrə, meydanlara, parklara verilir. Siz veteranlar bir neçə ölkənin dövlət başçısına məktubla müraciət etmisiniz, erməni faşizmi haqqında yazmısınız, Ermənistanda faşistlərin qəhrəmanlaşdırılması haqqında yazmısınız. Mən bunu alqışlayıram. Bunu hər kəs bilməlidir. Bu, dözülməzdir.

Ona görə, Azərbaycanın həm İkinci Dünya müharibəsindəki rolu, həm bu gün bizim mövqeyimiz haqqında dünya bilir və bilməlidir. Bəzi ölkələr indi tarixi həqiqətləri danmaq istəyirlər. Bir daha demək istəyirəm ki, tarixi təhrif





etmək, faşizmi kommunizmlə bərabərləşdirmək istəyirlər. Bu, dözülməzdir.

Bu gün biz əlbəttə ki, azad cəmiyyətdə yaşayırıq. Bazar iqtisadiyyatı, siyasi plüralizm, demokratiya, çoxpartiyalı sistem - bunlar sovet dövründə mümkün deyildi. Ancaq, eyni zamanda, Sovet İttifaqını faşist Almaniyası ilə müqayisə etmək həm ədalətsizlikdir, həm də böyük cinayətdir.

Biz öz tarixi keçmişimizə hörmətlə yanaşırıq. Keçmişdə yaxşı hallar da, acınacaqlı məqamlar da olub. Azərbaycan xalqı da bir çox hallarda ədalətsizliklə üzləşib. Ancaq biz tarixi heç vaxt saxtalaşdırmamalıyıq.

Bu gün yeni tarix yazılır. Müstəqil Azərbaycan öz tarixini yazır. Bu tarix şərəfli tarixdir. Bu gün Azərbaycan dünya miqyasında çox böyük hörmətə malik olan ölkədir. Azərbaycan böyük beynəlxalq tədbirlərə ev sahibliyi edir. Azərbaycanın iqtisadi inkişafı bu gün nümunə ola bilər. Böhranlı illərdə biz öz prinsipial siyasətimizdən kənara çıxmırıq. Biz xalqın rifah halını yaxşılaşdırmaq üçün əlimizdən gələni edirik. Bu gün Azərbaycanın dünyadakı rolu kifayət qədər böyükdür, mövqelər möhkəmdir, daxildə sabitlik, xalqla iqtidar arasında vəhdət var. Azərbaycan çoxmillətli ölkə kimi dinlərarası, mədəniyyətlərarası münasibətlərin tənzimlənməsi işində nümunədir. Bu gün müstəqilliyimizin tarixini biz - siz veteranlar, gənc nəsil yazırıq. Bu gün biz azadıq, müstəqilik və bu, bizim ən böyük sərvətimizdir. Müstəqil Azərbaycan dövləti öz veteranlarına çox böyük hörmətlə yanaşır. Bu, dövlət siyasətidir, ədalətli siyasətdir.

Mən Sizi qarşıdan gələn gözəl bayram münasibətilə bir daha ürəkdən təbrik etmək istəyirəm. Sizə bir daha cansağlığı, yeni uğurlar arzulamaq istəyirəm. Sağ olun.

Böyük Vətən Müharibəsi veteranı Fatma Səttarova çıxış etdi.

O, dövlətimizin başçısı İlham Əliyevə və xanımı

Mehriban Əliyevaya onlara hərtərəfli qayğıya, eləcə də Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının ən müasir standartlara cavab verən yeni inzibati binasına görə veteranlar adından dərin təşəkkürünü bildirərək dedi:



- Əziz Prezidentimiz İlham Əliyev və Heydər Əliyev Fondunun prezidenti, xanımlar xanımı Mehriban Əliyeva.

Mən veteranlar adından və şəxsən öz adımdan Sizə böyük təşəkkürümü bildirirəm. Siz bu şad günümüzdə bizi çox sevindirdiniz. Biz Qələbənin 70 illiyini qeyd edirik. Bu, müharibə iştirakçıları üçün böyük bayramdır. Bizi sevindirən ikinci məsələ odur ki, Siz bu gün bizə bu gözəl binanı bəxş edirsiniz. Sizə "Çox sağ olun" deyirik. Allah Heydər Əliyevə rəhmət etsin. O, zəmanəmizin peyğəmbəri idi. Mən ancaq bunu deyə bilərəm. O, özündən sonra Sizin kimi bir oğul, xalqını, torpağını, millətini sevən bir şəxsi qoyub getdi. Allah Ulu Öndərimizə qəni-qəni rəhmət eləsin. Sizə böyük təşəkkürümüzü bildiririk.

Mehriban xanım, Siz həm bizim Prezidentin həyat yoldaşı, həm də onun balalarının anasısınız. Mən Sizin bütün fəaliyyətinizi televizordan izləyirəm. Mən burada olan və





olmayan veteranlar adından Sizə təşəkkürümü bildirirəm. Çox sağ olun.

Sonra çıxış edənlər ölkədə veteranlar üçün görülən işləri yüksək qiymətləndirdilər, yeni inzibati binanın veteranlara göstərilən dövlət qayğısının təzahürü olduğunu dedilər.

Professor, Prezident təqaüdçüsü və əməkdar incəsənət xadimi Musa Bağırov uluöndər Heydər Əliyevin veteranlara qayğısından danışdı, bu siyasətin Prezident İlham Əliyev tərəfindən yüksək səviyyədə davam etdirildiyini bildirdi.

Sonra hazırda SOCAR-ın "Ekol Mühəndislik Xidmətləri"ndə baş direktorun müşaviri vəzifəsində çalışan Kamil Hakimov çıxış edərək dedi:

- Möhtərəm Prezident, hörmətli Mehriban xanım, Mən 1943-1947-ci illərdə Neft Texnikumunda oxuya-oxuya neft emalı zavodunda işləmişəm və neftçilərin fədakarlığının şahidi olmuşam. Möhtərəm Prezident, Siz bizim neftçilərin gördüyü işlərə çox düzgün qiymət verdiniz. Siz haqlı olaraq dediniz ki, Qələbənin qazanılmasına Bakı neftçiləri mühüm töhfələr veriblər. O vaxt Sovet İttifaqında hasil olunan neftin 70-80 faizini Bakı neftçiləri təmin edirdi. Mən öz əllərimlə ordu üçün neft məhsulları, sürtgü yağları hazırlamışam. Müharibədən sonra biz çörəkbişirmə müəssisələri üçün yağ istehsal edirdik. Bunu da Azərbaycan alimləri ixtira etmişdilər.

Möhtərəm Prezident, mən ömrüm boyu neft emalı sənayesində çalışmışam. 1970-1980-ci illərdə ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi altında nazir işləmişəm, neft emalı sənayesinə rəhbərlik etmişəm. Sonra məni Fidel Kastronun xahişinə və Moskvanın göstərişinə əsasən Kubaya göndərib. Dörd il Kubada Fidel Kastronun aparatında nazirin müşaviri işləmiş və eyni zamanda, bütün zavodlarda çalışan sovet mühəndislərinərəhbərliketmişəm. 1982-ciilinaprelayında Ulu Öndərimiz Meksikadan qayıdarkən Havanada məni aeroporta dəvət etdirdi. Soruşdu ki, bilirsən niyə dəvət etmişəm? Cavab

verdim ki, bilmirəm. Ancaq iki ildir ki, respublikadan, Sizdən ayrılmışam. Çox darıxırdım. Bu görüşə görə Sizə minnətdaram. Sonra işimlə, vəziyyətimlə maraqlandı.

Möhtərəm Prezident, bunları söyləməklə demək istəyirəm ki, Ulu Öndərin diqqət və qayğısını həmişə hiss etmişəm. O böyük insanın xatirəsi mənim qəlbimdə həmişə yaşayıb və yaşayacaq. Mən fəxr edirəm ki, o böyük insanın rəhbərliyi altında 10 il nazir işləmişəm.

Bir peşəkar neft emalı işçisi kimi Sizə də minnətdaram ki, Ulu Öndərin neft strategiyasını uğurla davam etdirirsiniz. İndi böyük neft emalı zavodları tikilir. Bütün bunlar çox qürurvericidir.

Mən Sizin bayramınızı təbrik edirəm, Mehriban xanıma minnətdarlığımı bildirirəm. Sizə möhkəm cansağlığı diləyirəm. Sağ olun.

Daha sonra Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri general-mayor Dadaş Rzayev çıxış edərək dedi:- Hörmətli cənab Prezident, icazə verin, Sizi və Mehriban xanımı Qələbənin 70 illiyi münasibətilə ürəkdən təbrik edim, Sizə cansağlığı, uzun ömür arzulayım.

Cənab Prezident, 1994-cü il iyunun 28-də Ulu Öndər tərəfindən veteranların hüquqları bərpa olunmuşdur və o dövrdən başlayaraq veteranlara böyük diqqət və qayğı göstərilir. Siz o qayğını bu gün davam etdirirsiniz. Veteranlar təşkilatı üçün yeni inzibati binanın istifadəyə verilməsi bunun bariz nümunəsidir. Buna görə Sizə çox minnətdarıq.

Cənab Prezident, Sizin işiniz göz qabağındadır. Bakı dünyanın ən gözəl şəhərlərindən birinə çevrilib. Siz Azərbaycanı bütün dünyaya tanıtmısınız.

Dadaş Rzayev müharibə veteranlarına göstərdiyi diqqət və qayğıya görə dövlətimizin başçısı İlham Əliyevə bir daha minnətdarlığını bildirdi.





General-mayor Dadaş Rzayev veteranlara göstərilən müstəsna diqqət və qayğıya görə "Veteran Həmrəyliyi" medalını və vəsiqəsini dövlətimizin başçısına təqdim etdi.

Dadaş Rzayev respublikamızda veteran hərəkatının gücləndirilməsinə və veteranlara göstərdiyi yüksək diqqət və qayğıya görə birinci xanım Mehriban Əliyevaya Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının Rəyasət Heyəti adından "Veteranların qayğıkeşi" diplomunu təqdim etdi.



Sonra dövlət başçısına yenicə nəşr olunan "Azərbaycanlılar Böyük Vətən müharibəsində" kitabı, "İgid oğullarla bir cərgədə" ensiklopedik toplusu və iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanova həsr olunmuş "Sərkərdənin taleyi" kitabı, həmçinin yeni çap olunmağa başlayan "Azərbaycan veteranı" qəzetinin Böyük Vətən müharibəsində Qələbənin 70 illiyinə həsr edilmiş nömrəsi hədiyyə olundu.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının bayrağı da Azərbaycan Respublikası Prezidentinə təqdim edildi.



Görüşün sonunda Prezident İlham Əliyev və xanımı Mehriban Əliyeva veteranları bir daha təbrik etdilər və ən xoş arzularını bildirdilər.







## İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 71-ci ildönümü münasibətilə Bakıda təntənəli mərasim keçirilib

**9 may 2016-cı il**

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev və xanımı Mehriban Əliyeva mərasimdə iştirak ediblər.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı qarşıladı.

Müharibə veteranları ilə görüşən Prezident İlham Əliyev onları Qələbə bayramı münasibətilə təbrik etdi və ən xoş arzularını çatdırdı.

Dövlətimizin başçısına xatirə hədiyyələri təqdim olundu. Azərbaycan faşizm üzərində tarixi Qələbəyə mühüm töhfələr verib. Bu şanlı Qələbədə böyük payı olan Azərbaycan xalqı cəbhəyə 600 mindən çox oğul və qızını yola salıb. Onların təxminən yarısı döyüş meydanlarından geri qayıtmayıb. Müharibə illərində göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb, 170 mindən çox əsgər və zabitimiz müxtəlif orden və medallarla təltif edilib. Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçib. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və irili-xırdalı digər yüzlərlə yaşayış məntəqəsi uğrunda rəşadətlə döyüşüblər.

Qəhrəman azərbaycanlılar Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak ediblər. Partizan hərəkatında iştirak edən soydaşlarımızın da qəhrəmanlıq nümunələri saysız-hesabsızdır.



İkinci Dünya müharibəsində şərəfli döyüş yolu keçən Azərbaycan övladlarının heç vaxt yaddaşlardan silinməyən qəhrəmanlıq və şücaəti gənc nəsil üçün əsl vətənpərvərlik nümunəsidir. Xalqımız faşizmə qarşı müharibədə döyüş meydanları ilə yanaşı, arxa cəbhədə də əsl əzmkarlıq nümayiş etdirib. İkinci Dünya müharibəsində Qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynayıb. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının sərf etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşüb. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçan 7 min hərbi təyyarənin yanacaq təchizatında mühüm rol oynayıb. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərib, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəal mövqeyi ilə seçilib. Azərbaycan faşizm üzərində Qələbə naminə bütün imkanlarını maksimum səfərbər edib.





Ümummilli lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirib, onlara hərtərəfli qayğı ilə yanaşıb və sosial məsələlərinin həlli istiqamətində mühüm addımlar atıb. Məhz Ulu Öndərin ədaləti uca tutması sayəsində İkinci Dünya müharibəsi iştirakçılarının mənəvi haqları müstəqilliyin ilk illərində özlərinə qaytarılıb və 1994-cü ildən başlayaraq Azərbaycanda 9 may - Qələbə Günü qeyd olunur. Ulu öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır.

Qələbə bayramı ərəfəsində Prezident İlham Əliyevin müharibə veteranlarına qayğının artırılması, onların sosial müdafiəsinindahadamöhkəmləndirilməsiiləbağlısərəncamlar imzalaması artıq ənənə halı alıb. Dövlətimizin başçısının bu il imzaladığı Sərəncamla 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarına 1 000 manat məbləğində, Böyük Vətən müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, Böyük Vətən müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, Böyük Vətən müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 500 manat məbləğində birdəfəlik maddi yardım verilib. Prezident İlham Əliyevin digər Sərəncamı ilə isə Böyük Vətən müharibəsi iştirakçılarına, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin mühasirəsi zamanı şəhərin müəssisələrində, idarə və təşkilatlarında işləmiş və “Leninqradın müdafiəsinə görə”

medalı, "Leninqrad mühasirəsində yaşayan" döş nişanı ilə təltif edilmiş şəxslərə Prezidentin təqaüdünün aylıq məbləği10 faiz artırılaraq, 2016-cı il fevralın 1-dən 110 manat müəyyən edilib. Həmçinin dövlətimizin başçısının 2016-cı il 9 may tarixli Sərəncamı ilə Azərbaycan Respublikası Veteranlar Təşkilatına dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 500 min manat ayrılıb. Bütün bunlar bir daha göstərir ki, müharibə veteranlarına qayğı və diqqət Azərbaycanda dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Azərbaycan Prezidenti iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun ailə üzvləri ilə görüşdü, onları Qələbə bayramımünasibətilə təbrik etdi.



İki dəfə Sovet İttifaqı Qəhrəmanı, tank qoşunları general-mayoru Həzi Aslanovun abidəsi önünə əklil qoyan Prezident, Ali Baş Komandan İlham Əliyev İkinci Dünya müharibəsində qəhrəmanlıq göstərən cəsur sərkərdənin, xalqımızın igid oğul və qızlarının, tarixi Qələbənin qazanılmasında payı olan milyonlarla insanın əziz xatirəsini dərin ehtiramla yad etdi.

Dövlətimizin başçısı İkinci Dünya müharibəsi veteranları ilə xatirə şəkli çəkdirdi.





Fəxri qarovul dəstəsi hərbi marşın sədaları altında Ali Baş Komandanın qarşısından keçdi.



Prezident İlham Əliyev veteranları Qələbə bayramı münasibətilə bir daha təbrik etdi, ən xoş arzularını çatdırdı.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri Dadaş RZAYEV dedi: Cənab Prezident, 1 milyon 300 min pensiyaçı və veteran həmişə Sizin xarici və daxili siyasətinizi dəstəkləyir, Sizin arxanızdadır. Sizin cəbhə bölgəsinə səfəriniz bütün Azərbaycan xalqını, biz veteranları çox sevindirdi.

**Prezident İlham ƏLİYEV**: Çox sağ olun. Mən həmişə sizi dəstəkləyirəm. Çalışıram ki, sizə öz köməyimi göstərim. Bayram ərəfəsində bütün veteranlara mükafat verildi. İldən-ilə mükafatları artırırıq.

**VETERAN**: Bəli, 1000 manat, 500 manat. Hər şeyimiz var. Heç yerdə belə bir şey yoxdur.

**VETERAN (qadın)**: Sağ olsun, bizim Prezidentimiz. Yenə də sağ olsun. Onu da deyim ki, mənim balam, Sizi Mehriban xanımla birgə cəbhə xəttində görəndə ürəyim dağa döndü. Dedim, halal olsun sizə. Azərbaycan xalqı bəxtəvərdir

ki, bizim belə Prezidentimiz, xanımlar xanımı Mehribanımız var. Allah sizi qorusun.

**Dadaş Rzayev:** Cənab Prezident, bizə bağışladığınız inzibati bina muzey olub.



**Prezident İlham ƏLİYEV**: Keçən il bərabər açmışdıq.

**VETERAN (qadın):** Bizim Prezidentdən yoxdur, ola da bilməz.

**Prezident İlham ƏLİYEV**: Mən sizi bu gün rəsmi ziyafətə dəvət edirəm. Heydər Əliyev Mərkəzində rəsmi ziyafət olacaq. Mən sizi oraya dəvət edirəm. Gəlin, görüşümüzü orada da davam etdirərik.

Mərasimdə Baş nazir Artur Rasizadə, Milli Məclisin sədri Oqtay Əsədov, Prezident Administrasiyasının rəhbəri Ramiz Mehdiyev və digər rəsmi şəxslər iştirak edirdilər.





## Veteran hərakatı tarixindən
## Qədim Romada veteran hərakatı

Veteran sözü latın dilindən götürülüb, “yaşlı, qocaman əsgər” mənasını verir. Antik Romada veteran adını hərbi xidməti başa vurmaqla azı 20 il xidmət etmiş, yaxud bu müddət tamam olduqdan sonra da hərbi xidmətini davam etdirən əsgərlər daşıyırdılar. Sezarın “dəmir döyüşçülər” adlandırılan veteran legionları hərbi bacarığı və şücayəti ilə böyük şöhrət qazanmışdı. Həmin vaxtlar Roma respublikasında hərbi vəziyyətin davam etdiyi illərdə müharibədən sonra dərhal buraxılan vətəndaş ordusu yaradılıdı.Eramızdan əvvəl 1-2-ci əsrlərdə tədricən daimi ordu və donanma yaradılmasına başlandı. Peşəkar əsgərlər müqavilədə nəzərdə tutulmuş xidmət müddətləri başa çatdıqdan sonra İtaliyada, yaxud digər əyalətlərdə torpaq alır, ya pulla mükafatlandırılır, ya da Roma vətəndaşı olmaq hüququ qazanaraq, köləlikdən qurtulurdular. Qədim dövrdə hərb işi ağır və məhrumiyyətli iş sayılırdı.

Döyüşən ordunun ruh yüksəkliyini saxlamaq üçün Roma imperatorları müasir dünyada sosial təminat adlandırılan məsələyə xüsusi diqqət göstərirdilər. Ehtiyata buraxılan hərbi qulluqçular əməlli-başlı maddi mükafata və vətəndaşlıq statuslarını dəyişməyə nail olurdular. Bu üstünlüklər cəmiyyətdə layiqli yer tutmaq üçün tamamilə yetərli idi. Nəticədə bütün imperiya boyu səpələnmiş Roma veteranları nəhəng dövlətin birliyini möhkələndirən özünəməxsus rol oynayırdılar.

## Veteranların statusu

Roma ordusunda veteran kateqoriyaları onun peşəkar əsasa keçməsi ilə yaranmışdır. Hərbi işin nüfuzunu yüksəltməyə çalışan imperatorlar ehtiyatda olan əsgərlərə bir sıra imtiyazlar verirdilər, məsələn veteranı və onun ailə üzvlərini bütün vergilərdən və bələdiyyə öhdəliklərindən azad edirdilər. Xidmətini başa çatdırdıqdan sonra veteranlar rəsmi nigaha daxil ola bilir, həmin vaxta qədər doğulmuş uşaqları qanuni vətəndaş statusu alır və valideynlərinin əmlakına varislik hüququ əldə edirdilər. Köməkçi dəstələrdə xidmət etmiş veteranlar da özləri və ailə üzvləri üçün Roma vətəndaşlığı hüququ qazanırdılar. Məskunlaşdıqları əyalətlərdə veteranlar yerli icmanın yüksək təbəqəsinə çevrilir və romalılaşdırma siyasətinin əsasını təşkil edirdilər. Veteran övladları Roma ordusunun yeni heyətinin əsasını təşkil edirdilər.

Yunan tarixçisi Polibiy qeyd edir ki, Roma vətəndaşları orduda 46 yaşınadək xidmət etməyə borclu idilər və xidmət müddətində 10 süvari, 20 piyada yürüşündə iştirak etməli idilər. Bizim eradan əvvəl 2-ci əsrin ortalarına qədər Roma vətəndaşları adətən orduda 4-6 il ərzində xidmət edir, sonra istefaya çıxır, onları əsasən gənc nəsil əvəz edirdi. Könüllülər, peşəkar hərbçi həyatı seçənlər daha artıq müddət xidmət edirdilər. Onların arasında torpağını itirmiş, hərbi xidmətə başlıca gəlir mənbəyi və həyati perspektiv kimi görən yoxsullar çoxluq təşkil edirdilər. Buna geniş yayılmış misal 50 yaşına qədər 22 il, əvvəl sıravi, sonra senturion kimi xidmət etmiş Spuriy Liqustin sayıla bilər. Roma ordusunun say tərkibinin artırılması hərbi xidmətə çağrılanların sayartımını da şərtləndirirdi. Əgər bizim eradan əvvəl 2-ci əsrin başlanğıcında





hərbi xidmətçilər Roma və İtaliyanın xidmətə yararlı əhalisinin təqribən dörddə birini təşkil edirdisə, 1-ci əsrin əvəllərində əhalinin 3-də birindən yarısına qədəri hərbi xidmət keçmiş şəxslər idi. Vətəndaş müharibəsi zamanı Roma ordusunun proletarlaşması, əsgərlər arasında heç nəyi olmayanların sayının kəskin artması baş verdi. Öz sərkərdələrinin ardınca oda, suya baş vuran əsgərlər öz hamilərinin köməyi ilə maddi vəziyyətlərini düzəltməyə ümid edirdilər. Öz növbəsində ambisiyalı hərbi rəhbərlər torpaq vədləri ilə ordunun itaətinə nail olmaqla, artıq onu istənilən rəqibə qarşı qaldırmağa, hətta Respublikaya qarşı çevirməyə qadir idilər. Əsgərlər üçün ən arzuolunan mükafat pul və torpaq idi. Qalib hərbi komandanlar istafada olan əsgərlərini İtaliya kaloniyalarında və ondan kənarda yerləşdirməyə cəhd göstərirdilər. Eradan əvvəl 81-79-cu illərdə Lutsiy Kornelli Sulla 50,80 min arasında əsgərinə rəqiblərindən aldığı torpaqları vermişdi. Qay Yuli Sezar eradan əvvəl 45-44-cü illərdə özünün 80 min veteranını qismən İtaliyada, qismən də kaloniyalarını fəal surətdə yeritdiyi əyalətlərdə yerləşdirmişdi. Oktavian Avqust eradan əvvəl 42-36-cı illərdə Fillipin yaxınlığında döyüşmüş 34 legionun veteranlarını İtaliyada yerləşdirmişdi. Bununla yanaşı 3-28-ci illərdə Vətəndaş müharibəsi başa çatdığına görə istefaya göndərilmiş 85 min veteran əvvəlki sahiblərinin əlindən zorla, yaxud nəqd pulla alınmış torpaqlara yerləşdirilmişdilər. Təkcə onun əsgərləri yox, ehtiyata buraxılmış Antoni, Lepid, Brut, Kassinin veteranları da torpaq almışdılar. “Amallar...” kitabında Avqust yazır ki,kaloniyalara 300 min veteran yerləşdirilmişdi, bunun üçün İtaliyada torpaq alınmasına 600 milyon, əyalətlərdə isə 260 milyon sestersi xərclənmişdi.

Müasir tarixçilərin rəyinə görə, Sulladan Avqusta qədər yarım milyondan artıq veteran İtaliyada torpaqla mükafatlandırılmışdı. Bu Roma işğalları başlayandan ən böyük torpaq əmlakı bölgüsü idi.

Antoni üzərində qələbə ilə Vətəndaş müharibəsinin bitməsindən sonra Avqust 230 minə yaxın əsgərdən ibarət 50- 70 legiona sahib idi. Sonrakı 7 il ərzində o, legionların sayını 18-ə qədər azaltdı. Onlar Roma ordusunun əsasını təşkil etdilər. Respublika dövründən fərqli olaraq bu ordu daimi xidmət edən əsgərlərdən formalaşdırılmışdı. Onlar tam xidmət müddəti bitdikdən sonra tərxis oluna bilərdilər. Əvvəlcə, bu müddət 16 il müəyyən olunmuşdu. Ehtiyata buraxıldıqda əsgərlərə iri həcmdə pul vəsaiti vəd olunurdu. Avqust yazır ki, eradan əvvəl 29-cu ilədək o, tərxis olunan hərəsgərə 250 dinar verirdi. Yeri gəlmişkən, həmin vaxt Roma ordusu dünyanın müxtəlif ərazilərində çoxsaylı müharibələr aparırdı. Avqustun dediyinə görə, o, 4 dəfə veteranlara pul mükafatı vermiş, bu məqsədlə 400 milyon sestersi xərcləmişdi. İtaliyada o zaman 1 yuqer (2523 kvadratmetr) torpaq 1000 sestersi idi. İstefaya çıxmış 70 min nəfər əsgərin hər biri orta hesabla 5 yuqer torpaq sahəsi ala bilirdi. Avqust həmin kəndli təsərrüfatlarının hərbi çağrış üçün ən əlverişli sosial təbəqə olacağına inanırdı.

Buna görə də eradan əvvəl 5-ci ildə xidmət müddəti 20 ilə, pul vəsaitinin həcmi isə 3 minə qaldırıldı. 16 il xidmətdən sonra əsgərlər hər bir legionda olan veteran veksillərinə daxil edilir, burada nisbətən yüngül olmaqla daha 4 il xidmət edirdilər. Zamanla hərbi xidmət müddəti daha da artırılaraq eranın 1-ci əsrinin ortalarında orta hesabla 23-26 ilə çatdırıldı. Hərbi komandanlıqlar əsgərləri adətən daha gec tərxis etməyə çalışırdılar. Bu məqsədlə ehtiyata buraxılma 2 ildən bir həyata keçirilirdi. Buna görə də veteranların yarısı əlavə bir il də xidmət etməli olurdular. Bu qayda 3-cü yüzilin əvvəlinə qədər, ehtiyata buraxılma hər il həyata keçirilənədək saxlanıldı, xidmət müddəti hamı üçün 26 il təşkil etdi.

Veteranların hüquqlarına Avqust edikti ilə qarantiya verilirdi. Veteranlar, onlarınailə üzvləri, o cümlədən, valideynləri, arvadları və uşaqları bütün birbaşa vergilərdən





azad edilirdilər. E.ə. 83-cü ildən sonra isə onlar liman və yol vergisi də daxil olmaqla heç bir vergi ödəmirdilər. Onlar könüllü surətdə üzərlərinə götürdüklərindən başqa bütün yerli özünüidarə, kahin və inzibati vəzifə daşımaq üçün öhdəliklərdən də azad idilər. İstefaya çıxarkən təsərrüfatla məşğul olmaq üçün torpaqla təmin edilir, yaxud 10 il xidmət müddətinin əmək haqqı miqdarında pul mükafatı alırdılar. Veteranlar həmçinin konubi (nigaha girməyə icazə hüququ) alırdılar. Bu hüquq onlara indiyədək yaşadıqları qadınlarla nigah bağlamaq, onlardan olan övladlarına Roma vətəndaşı olmaq hüququ verirdi. Konubi hüququ köməkçi dəstələrin veteranlarına da verilirdi.

Zamanla, müxtəlif birliklərin veteranlarının fərqli imtiyazları meydana çıxdı. Pretorian qvardiyası, legionerlər, qoşun və donanmanın köməkçi hissələri üçün imtiyazlar, müxtəlif xidmət illərinə və ehtiyata buraxılma fərqlərinə görə imtiyazlar və s.3-cü əsrin əvvəllərində yaşamış Roma hüquqşünası Lutsi Emili Makr “Hərbi iş haqqında” əsərinin 2-ci kitabında yazır: “İstefanın əsas növləri vardır: fəxri, üzürlü və xətalı. Fəxri istefaimtiyazıtam xidmət müddətini başa vurmağa görə; üzürlü istefa hərbi xidmətçi fiziki, yaxud psixoloji xəstəlik səbəbindən hərbi xidmətə yarasız hesab edildiyinə görə; qüsurlu istefa hərbi xidmətçi hərbi xidmətdən cinayət törətdiyinə görə azad edildikdə əldə olunur”.

Fəxri istefa (honesta missio) imtiyazları daha tam həcmdə əldə etməyə imkan yaradırdı. Fəxri istefanın nüfuzunu veteranların onu öz başdaşlarında əks etdirməyə geniş şəkildə cəhd göstərmələri də təsdiq edir. Bir çox hallarda fəxri istefanın tam adı (missus honesta missione) bu yazılarda M.H.M. formasına qədər qısaldılırdı.

Üzürlü istefa (causa missio), məsələn yaralanmağa və xəstəliyə görə istefada əksər vaxt bütün hüquqları əldə etməyə imkan verirdi. Çoxsaylı başdaşı yazıları var ki, üzürlü

istefa qazananlarburada özlərini honesta missio şərəfinə layiq biliblər. Sonralar Roma hüquqşünasları bu iki növ istefa arasında fərqlər müəyyən etdilər. Orduda 20 il qüsursuz xidmət etmiş veteran fəxri istefa hüququ qazanırdısa, bütün imtiyazları və ödənişləri ala bilərdi. Əgər o, hansısa, üzürlü səbəbdən 20 il xidmət göstərə bilmirdisə, öz xidmət müddətinə uyğun məhdud güzəştlər əldə edirdi.



Şəkilaltı: Sahibinə fəxri istefa və uyğun imtuyazlar verildiyini təsdiq edən Bürünc diplom. Bu cür diplomların sahibləri pretorian qvardiyasının və Roma Qarnizonunun digər hərbi hissələrinin, eləcə də istefaya çıxmışköməkçi qoşun və donanmanın veteran əsgərləri olurdular.







Şəkilaltı: İstefeda olan, öz silahını məbədə həsr etmiş veteran. 3-cü əsrə aid daş sütun.



Şəkilaltı: Birinci Alman legionunun veteranlarının şərəfinə Litsi Publitsi tərəfindən ucaldılmış qəbirüstü abidə. Roman-german muzeyi. Köln şəhəri.

Hərbi yaşayış məntəqələri - kanablar

Əksər veteranlar istefaya çıxdıqdan sonra faktoriyaların yaxınlığında kortəbii yaranan kanablarda yaşayırdılar. Kanabların əhalisi legionlardan, onların qadın və uşaqlarına xidmət göstərən sənətkarlardan və tacirlərdən ibarət olurdu. Kanablar şəhər hüququ daşımadığından kənd təsərrüfatı ilə məşğul olmaq üçün şəxsi torpaq sahəsinə malik deyildilər. İnzibati-hüququ cəhətdən onlar kənd sayılsalar da, hərbi komandanlığa, ya da yaxınlıqdakı şəhərlərin bələdiyyə hakimiyyətinə tabe olurdular, imtiyazlı əhalisini isə Roma vətəndaşları təşkil edirdi. Onlar başında kurator, yaxud magistrat olan yığıncaqlar yaradırdılar. Bu vəzifələri tutan şəxs məntəqənin bütün problemlərini həll edirdi. Bu fəaliyyət ödənişli olmurdu, hətta daim ictimai məqsədlər naminə öz əmlakını sərf etməyi nəzərdə tuturdu. Ancaq yerli əhali həmin vəzifə sahiblərinəehtiram və hörmət edirdi.Bunu təsdiq edən yazılar günümüzə qədər qalıb. 2-3-cü əsrlərdə əksər kanablar imperator tərəfindən bələdiyyə statusu aldılar, bununla da tam şəhərlərə çevrildilər. İstefada olan veteranlar bələdiyyələrin idarəedici orqanlarında yüksək vəzifələr tuturdular. Avropada öz başlanğıcını həmin hərbi məntəqələrdən götürən çoxlu müasir şəhərlər var. Müasir Budapeşt, keçmiş Akvinke onlardan biridir.

Əyalətlərin mədəni, sosial romalılaşdırılmasında veteranlar mühüm rol oynayırdılar. Onlar yerli zədaganlarla mühüm əlaqələr qurmaqla qarışıq ailələr yaradır, ərazinin romalılaşdırılmasınaşərait yaradırdılar. Onların yaradıcı əməyi nəticəsində əyalətlərdə Roma qaydaları, həyat tərzi bərqərar olur, təsərrüfatın Roma idarəetməsi tətbiq edilirdi. Həmçinin hərbi cəmaedə əsas dil olan latın dili yayılırdı. Bu dildə inzibati idarəçilik həyata keçirilir, gəmiçilik, ticarət sövdələşmələri bağlanırdı.Son tədqiqatlara görə veteranlar bələdiyyə idarəeməsindən daha çox kiçik və orta təsərrüfat işləri ilə məşğul olurdular.Bələdiyyə idarəedilməsinə isə ilk





növbədə senturionlar təyin edilirdilər.Ancaq bu mübahisəsizdir ki, veteranlar ilkin imperiya zamanınında böyük imtiyazlara malik idilər.

Avropanın əksər ölkələrində veteran hərəkatları Birinci Dünya müharibəsindən sonar təşəkkül tapmışdır. Oxucularda müəyyən təsəvvür yaratmaq üçün kitabda həmin ölkələrdən bir neçəsi barədə qısa məlumatlar verməyi məqsədəuyğun hesab edirik.

## Ветеранские движения после первой мировой войны (Память о войне)

### В Великобритании

В Великобритании, как и во многих других странах Содружества наций, широко отмечается день подписания Компьенского перемирия, завершившего Первую мировую войну. В странах Содружества распространено сразу несколько названий этого праздника: День поминовения, День перемирия, День ветеранов, День маков. Королевский указ о проведении торжественных мероприятий в этот день был подписан Георгом V 7 ноября 1919 года. Символом праздника является красный поминальный мак. Этот образ был взят из поэмы Джона Маккрея «На полях Фландрии» и ассоциируется с цветами мака, покрывавшими поля самых отчаянных сражений во Фландрии. Ярко-красный цвет праздничной символики связывается с пролитой кровью жертв войны. Существует традиция ношения бутоньерок в виде красных маков, на лацкане, в петлице пиджака или другой верхней одежды. Ей следуют как рядовые граждане, так и королевская семья, представители политической элиты страны и общественные деятели. Символами мака в эти дни украшаются общественный и личный транспорт, газеты.

Формально считается, что боевые действия были завершены в 11 часов утра одиннадцатого дня одиннадцатого месяца, то есть 11 ноября. В это время по всей территории Соединённого Королевства воцаряется минута молчания. Хотя основные мероприятия проходят в








ближайшее к этому дню поминальное воскресенье. Они включают в себя церемонии возложения маковых венков к многочисленным памятникам и мемориалам, связанным с войной. Главная церемония проходит в центре Лондона, в Уайтхолле. В ней участвуют первые лица государства, лидеры основных политических партий, представители духовенства основных британских конфессий, высшие чины всех родов войск, представителей торгового флота,

береговой охраны и других служб. Члены королевской семьи шествуют мимо Форинофиса к кенотафу. После чего все присутствующие дожидаются, когда Биг-Бен пробьёт 11 часов утра, затем следует пушечный выстрел Королевской конной артиллерии и наступает двухминутная тишина. По окончании минуты молчания, под звуки горнов, королева и старшие члены королевской семьи возлагают венки к подножью кенотафа, за ними следуют остальные участники процессии. Торжественная часть завершается всеобщим исполнением государственного гимна.

## В Бельгии

11 ноября дата заключения Компьенского перемирия является официальным праздником и отмечается в Бельгии как «День перемирия». В этот день в Бельгии проходят праздничные мероприятия. Символом памяти жертв Первой мировой войны стал мак, покрывавший поля сражений во Фландрии. Существует традиция ношения бутоньерок в виде красных маков, на лацкане, в петлице пиджака или другой верхней одежды.

На территории Бельгии имеется значительное число мемориалов и военных кладбищ времен Первой мировой войны: Мененские ворота, Башня на Изере, Мемориал Пашендейль и другие. В братских могилах и на военных кладбищах Бельгии захоронены сотни тысяч военнослужащих Антанты и германской армии. Около 300 000 павших и захороненных на территории Бельгии военнослужащих Антанты в настоящее время не идентифицированы.





## В Канаде

После окончания войны и расформирования Канадского корпуса в 1919 году первые ветераны боевых действий стали возвращаться в Канаду. В их честь устраивались различные торжественные мероприятия и чествования, были организованы ветеранские организации. В Канаде, как и во всех странах бывшей Британской империи, 11 ноября является праздничным днём. В этот день отмечается День памяти. Проходят торжественные мероприятия, парады. 11 ноября в 11 часов утра в Канаде останавливаются привычные действия и все смолкают на две минуты. Эта традиция появилась в 1919 году. Главные торжества проходят у Национального военного мемориала в Оттаве. Также символом праздника является алый мак, символизирующий память о тех канадцах, погибших в кровавых сражениях во Фландрии.

Во Франции и Бельгии имеется девять мемориалов, посвящённых канадским солдатам. На местах важнейших сражений канадских войск возведены мемориальные комплексы. Например, в Вими, где проходили кровопролитные бои между канадскими и немецкими войсками, существует Канадский национальный мемориал Вими. Последний канадский ветеран Первой мировой войны Джон Бэбкок 1900 года рождения скончался в феврале 2010 года.

## Старейшие ветераны Первой мировой войны

Данный список содержит имена последних из известных на сегодняшний день ветеранов Первой мировой войны (28 июля 1914-11 ноября 1918). Последним живущим ветераном Первой мировой войны была Флоренс Грин, участвовавшая в конфликте на стороне Британской

империи, которая умерла 4 февраля 2012 года в возрасте 110 лет;

Вторым долгожильцем ветераном, участвовавший в боевых действиях, был Клод Шулз, служивший в Британском ВМФ (позже - в Австралийском), который умер 5 мая 2011 года в возрасте 110 лет;

Третим долгожильцем ветераном, участвовавший в позиционной войне, был Гарри Пэтч, который умер 25 июля 2009 года в возрасте 111 лет;

Четвертым долгожильцем ветераном, воевавший в войсках Центральных держав был австриец Франц Кюнстлер, который умер 27 мая 2008 года в возрасте 107 лет.

Общее количество участников этой войны по данным Энциклопедии «Британника» составило 65 038 810 человек, количество военных жертв - приблизительно 9 750 103 человек.

Ветераны, исходя из этого, определены как люди, которые служили в вооружённых силах в одной из противоборствующих наций, в период с начала войны и вплоть до даты перемирия. Данное правило в различных странах трактуется по разному.





## Azərbaycanda veteran hərakatı

Azərbaycan insanı və ölkəmiz üçün vətənpərvərlik duyğusu, Vətəninə, xalqına, torpağına bağlılıqdan, milli özünüdərkdən qaynaqlanan çox mühüm amildir. Qəlbimizdə əsrlərcə yaşatdığımız bu duyğu günümüzdə daha vacib əhəmiyyət kəsb edir. Birincisi, vətənpərvərlik duyğusu bizim milli özünüdərkimizin başlıca mənbəyi olduğu üçün çox mühümdür. Əlbəttə, bizim vətənpərvərliyimiz millətçilikdən əsasılı şəkildə fərqlənir, bu heç də digər xalqlara nifrət, yaxud özünü təcrid xarakteri daşımır, əksinə bu Vətənə məhəbbətdən doğaraq, özündə digər xalqlara və millətlərə hörməti, birgəyaşayış normalarını ehtiva edir. Bu gün torpaqlarımızın 20 faizinin Ermənistan Silahlı Qüvvələrinin işğalı altında olduğu bir vaxtda vətənpərvərlik duyğusunun necə böyük əhəmiyyət kəsb etməsinin yəqin ki, geniş izaha ehtiyacı yoxdur. Vətənin bütövlüyünü, sərhədlərimizin toxunulmazlığını yalnız vətənpərvər oğul və qızlar təmin edə bilərlər və heç şübhə etmirik ki, edəcəklər. Bu müqəddəs arzunun reallaşması naminə ən mühüm vəzifənin yerinə yetirilməsində hər birimiz iştirak etməli, onun çin olması üçün canımızla, qanımızla hər an hazır olmalıyıq.

Azərbaycanda veteran hərakatının yaranmasını şərtləndirən başlıca amil və bu hərakatın fəaliyyətinin ilk günündən qarşısına qoyduğu ən mühüm vəzifələrdən biri vətənpərvərliklə bağlı olmuşdur. Ümumən, vətənpərvərlik hissinin nədən ibarət oluğunu aydınlaşdırmaq üçün onu formalaşdıran, ana xəttini təşkil edən bir sıra xüsusiyyətləri qeyd etmək lazımdır. Bunlardan ən başlıcaları: öz Vətəninə,

xalqına olan sevgi, öz dövlətinə hörmət, ona sədaqətlə xidmət göstərmək, tərəqqisi üçün əzmlə çalışmaqdır.

Veteran hərakatı, hazırkı mərhələdə veteran təşkilatlarıcəmiyyətdə birliyin yaranması, ictimai rəyin formalaşmasında, daxili siyasi proseslərin inkişafında, xüsusilə gənc nəslin vətənpərvərlik tərbiyəsinin təşkilində fəal rol oynayır. Veteran hərakatı ümumən ölkədə vətənpərvərlik ruhunun bərqərar olmasında başlıca təkanverici qüvvə olmaqla, ən fəal, çoxsaylı və yaxşı təşkil olunmuş hərakatdır. Azərbaycandaveteran hərakatınıntarixi o qədər də böyük deyil. Buna baxmayaraq, dünyanın inkişaf etmiş, bu sahədə müəyyən yol keçmiş ölkələrininzəngintəcrübəsinin öyrənilməsi, bir çox intellektual səviyyəli, fədakar insanlarımızın əməyi nəticəsində Azərbaycandaveteran hərakatının özünəməxsus ənənələrinin formalaşdırılması mümkün olmuşdur.

İkinci Dünya Müharibəsinin faşizm üzərində qələbə ilə başa çatmasından sonra keçmiş SSRİ-nin bütün respublikalarında olduğu kimi Azərbaycan Respublikasında da veteran hərakatı başlanmışdır. Keçmiş SSRİ-də ilk veteran təşkilatı, Sovet Müharibə Veteranları Komitəsi (SMVK) ilk dəfə 1956-cı ilin sentyabrında Moskva şəhərində yaradılmışdır. Daha sonra müttəfiq respublikaların paytaxtlarında, qəhrəman şəhərlərdə, RSFSR-in, Ukrayna və Belorusiyanm digər iri şəhərlərində SMVK-nın bölmələri yaradılmışdır. Bu proses əsasən1960-cı ilə qədər davam etmişdir.

Həmin hərəkatın nəticəsi kimi 1960-cı il iyun ayının 10-da Azərbaycan SSR-də ilk veteran təşkilatı - Bakı Müharibə Veteranları Seksiyası (bölməsi) fəaliyyətə başlamışdır. SMVK-nm Bakı seksiyasının təşkili ilə Azərbaycanda Veteran hərəkatının təməli qoyulmuşdur. Bu bölmə ilk dövrlər yalnız müharibə veteranlarını əhatə etdiyindən, veteranların ölkə həyatının müxtəllif istiqamətlərində daha fəal və təşkilatlanmış formada iştirakı mümkün olmamışdır. Belə ki, SMVK-nın





bir seksiyası olaraq həmin bölmənin fəaliyyəti əasasən Bakı dairəsində yalnız hərbi birləşmə və hissələrdə, Bakı Ali Hərbi-dənizçilik və Ümumqoşun məktəbində fəaliyyət göstərmiş, Bakı və onun ətrafında yerləşən hərbi hissə və birləşmələri əhatə etmişdir.

Bakı bölməsinin fəaliyyət dairəsinin genişlənməsi, ölkə həyatının digər istiqamətlərini də əhatə etməsi ilə 1963-cü ildə bu veteran seksiyalarını birləşdirən Bakı Veteran Komitəsi yaradılmışdır.1963-cü ildənhəminkomitənin fəaliyyətə başlaması ilə ölkədə veteran hərəkatının formalaşmasına daha münbit şərait yaradılmışdır. Yaradıldığı vaxtdan etibarən uzun illər - ömrünün sonunadək Bakı komitəsinə Sovet İttifaqı Qəhrəmanı, istefada olan polkovnik Aslan Fərhad oğlu Vəzirov, ondan sonra istefada olan general-mayor Akim Əli oğlu Abbasov rəh¬bərlik etmişdir. Yeni yaradılmış Təşkilatın səmərəlifəaliyyətinin təşkilində Sovet İttifaqı Qəhrəmanları Ziya Bünyadov, Məlik Məhərrəmov, Azərbaycanın görkəmli dövlət və elm adamları - Vəli Axundov, Həsən Əliyev, Şəfayət Mehdiyev, eləcə də, müharibə veteranları kimi ölkədə tanınan insanlar R.Məcidov, Nikolay Nozdrya, Yevgeniya Yusova, Rizvan Zeynalovun böyük təşkilatçılıq fəaliyyəti və əməyi olmuşdur.

Ancaq Azərbaycanın ilk veteran təşkilatının fəaliyyəti yalnız Bakı şəhəri ilə məhdudlaşmış və bu vəziyyət 1970-ci illərin əvvəllərinədək davam etmişdir.

## Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının tarixi

Ümummilli lider Heydər Əliyevin Azərbaycana ilk dəfə rəhbərlik etdiyi dövrdə, xüsusilə 1970-80-ci illərdə respublikada bütün sahələrdə olduğu kimi veteran hərakatında da canlanma yaranmış, bu hərəkat tədricən bütün ölkəni əhatə etmişdir. Dövlət dəstəyi sayəsində Azərbaycanın əksər rayonlarında veteran təşkilatlarının yaradılması 1987-ci il mart ayının 21-də Respublika Veteranlar Şurasının təsis olunması ilə nəticələnmişdir.



Belə ki, 21 mart 1987-ci ildə Azərbaycan SSR rəhbərliyinin qərarı ilə ölkəninbütün müharibə və əmək veteranlarını öz ətrafında birləşdirəcək ümumrespublika veteranlar təşkilatının yaradılması məqsədi ilətəsis konfransı





keçirilmiş və Azərbaycan SSR-in Müharibə və Əmək Veteranları Şurası yaradılmışdır.

Bu əslində 17 dekabr 1986-cı ildə ilk dəfə keçmiş Sovetlər Birliyində bütün qruplardan olan veteranları birləşdirən Ümumittifaq Veteranlar Şurasının yaradılmasının nəticəsi idi. Ümumittifaq Veteranlar Şurasının başlıca vəzifəsi dövlətin bir sıra istiqamətlərdə apardığı siyasətə dəstək verilməsi, gənclərin vətənpərvərlik, beynəlmiləlçilik ruhunda tərbiyəsi, veteranların sosial müdafiəsinintəminatından, asudə vaxtlarınıntəşkilindən ibarət idi. Əlbəttə, başlıca siyasi məqsəd cəmiyyətdə nüfuzlu insanlar sayılan veteranların sosial-iqtisadi, mənəvi, əsasən də milli böhran yaşamaqda olan ölkəni (SSRİ nəzərdə tutulur) düşdüyü vəziyyətdən çıxarmaqda dövlətə yaxından dəstək vermələrinəvahid Təşkilat səviyyəsində imkan yaratmaqdan ibarət idi. Ancaq yenidənqurma adı altında xüsusilə yanlış milli siyasət yeridənlərin bu niyyətləri gözlənilən nəticəni vermədi. İqtisadi-siyasi böhranın dərinləşməsi, milli-dini zəmində qarşıdurmaların münaqişə səviyyəsinə çatması səbəbindən dağılmasılabüd olan SSRİ süquta uğradı. Ümumittifaq Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının yaradılması bütün veteran qruplarını birləşdirmək baxımından müsbət hadisə olsa da, o dövrün hakimiyyət təmsilçiləri üçün gözlənilən nəticəni vermədi.Məlumat üçün qeyd edək ki, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının ilk sədri partiya və dövlət xadimi, Sosialist Əməyi Qəhrəmanı Mazurov Kirill Trofimoviç seçilmiş və ömrünün sonuna qədər bu Şuraya rəhbərlik etmişdir.Onu da qeyd etməyi lazım bilirik ki, 1987-ci ilin martında bir sıra müttəfiq respublikalarda, o cümlədən həmin il mart ayının 27-də BelarusdaMüharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası yaradılmışdır.

Məlumat üçün bildirək ki, o dövrün rəsmi statistikasına əsasən 30 iyun 1987-ci ildəAzərbaycan SSR-də 850 min müharibə, əmək və Silahlı Qüvvələr veteranları (o cümlədən

dövlət pensiyası haqqında qanuna görə - 615 min nəfər pensiyaçı, onlardan229 min nəfər kolxozçu pensiyaçısı alan şəxs, 4,8 min nəfər Silahlı Qüvvələr veteranları), 4.4 min veteran şuralarında birləşmiş və həmin veteranların arasında 40 mindən çox şəxs təqaüdə çıxdıqdan sonra müxtəlif sahələrdəəmək fəaliyyətinə cəlb olmuşdular. Ümumilikdə isə,təqaüdə çıxsa da, öz fəaliyyət sahəsində işləməyə davam edən veteranların sayı 300 min nəfər olmuşdur.

Respublika Veteranlar Şurası yaradıldığı ilk vaxtlardan etibarən müxtəlif istiqamətlərdə fəaliyyətin təşkili üçün müvafiq tədbirlər görmüş, öz strukturunu, ştat vahidin bu fəaliyyətə uyğun qurmağa nail olmuşdur.Belə ki, 21 mart 1987-ci ildəAzərbaycan Respublikasının Müharibə və Əmək Veteranları Şurasının birinci Konfransı keçirilmişdir. Azərbaycan SSR rəhbərliyinin qərarı ilə ölkənin bütün müharibə və əmək veteranlarını öz ətrafında birləşdirəcək ümumrespublika veteranlar təşkilatının yaradılması məqsədi ilə keçirilən bu konfransınrespublikada veteran hərakatının inkişafına, bu sahədə yeni mərhələnin başlanmasına xüsusi təsiri olmuşdur.

Yeri gəlmişkən, qeyd edək ki, bu gün Azərbaycanda veteranlarla bağlı dövlət siyasətinin müəyyən ediməsi özündə bir sıra mühüm məqamları və fəaliyyət istiqamətlərini etiva edir. Belə ki, veteranlarla bağlı dövlət siyasəti dövlət hakimiyyət orqanlarının birbaşa dəstəyi ilə veteranların işi ilə əlaqədar müvafiq strukturun yaradılmasını, qanunvericilik çərçivəsində veteranların sosial müdafiəsinin gücləndirilməsi, cəmiyyət həyatına inteqrasiyası, veteran təşkilatının beynəlxalq əlaqələrininn qurulması üçün lazımi tədbirlərin görülməsinə dövlət büdcəsindən və digər mənbələrdən müvafiq miqdarda vəsaitin ayrılmasını, veteran hərakatının mümkün vasitələrlə dəstəklənməsini, ölkə KİV- in imkanları hesabına gənclərin vətənpərvərlik tərbiyəsinin gücləndirilməsində, könüllü hərbi





xidmətə, əməyə həvəsləndirilməsində veteranların yaxından iştirakını və s. məsələləri əhatə edir.

Sovet dövründə də veteranlarla bağlı dövlət siyasətinin həyata keçirilməsi həmin sistemin özünəməxsus xüsusiyyətləri nəzərə alınmaqla yuxarıda göstərilən istiqamətləri əsasən əhatə etmişdir.

Azərbaycan Respublikası Müharibə və Əmək Veteraları Şurasının birinci konfransının keçirildiyi vaxt respublikada sosial-iqtisadi vəziyyətin ağırlaşdığı, ictimai-siyasi proseslərin gərginləşməyə başladığı, əslində ümumölkə həyatında bütün istiqamətlərdə böhranın yetişməkdə olduğu ərəfəyə təsadüf edirdi. Belə bir şəraitdə veteranların təşkilatlanması həm onların ictimai-siyasi proseslərə təsir imkanlarının artmasına, həm əhalinin mühüm, eyni zamanda daha fəal hissəsini təşkil edən gənclərin vətənpərvərlik və beynəlmiləlçilik tərbiyəsinin gücləndirilməsinə, həm də veteranların sosial vəziyyətlərinin yaxşılaşdırılması istiqamətində planlı tədbirlərin görülməsinə zəmin yaradırdı. Azərbaycan Respublikası Müharibə və Əmək veteraları Şurasının təsis konfransı Şuranın fəaliyyətinin səmərəli təşkili, respublikada tezliklə tanınması və nüfuz qazanması üçün özünün idarərtmə orqanlarına fəal, təcrübəli, xüsusən adlı-sanlı veteranları və dövlət orqanlarının, ictimai təşkilatların nümayəndələrini seçməli idi.

Tarixi baxımdan əhəmiyyət və maraq kəsb etdiyini nəzərə alaraq, Azərbaycan Respublikası Müharibə və Əmək Veteraları Şurasının birinci konfransının bəzi materiallarını olduğu kimi oxucuların diqqətinə çatdırırıq.

Arxiv sənədlərindən məlum olur ki, Şuranın birinci konfransının Təşkilat komitəsinin sədri Azərbaycan KP MK-nın təşkilati-siyasi iş şöbəsinin müdiri H.A.Məmmədov olmuşdur. Azərbaycan Müharibə və Ə m ə k Veteranları Şurasının konfransına respublikanın şəhər və rayonlarından 350 nümayəndə seçilmiş, konfransda onlardan 325 nümayəndə

iştirak etmiş, üzrlü səbəbdən 25 nümayəndə iştirak etməmişdir. Təklifə əsasən Şuranın birinci konfransında konfransın 33 nəfərdən ibarət tərkibdə Rəyasət Heyəti seçilmişdir. Həmin Rəyasət Heyətinədaxil olmuş şəxsərdən aşağıda adı çəkilən 15 nəfəri konfransdan sonra bu tərkibdə Şuranın Rəyasət Heyətində təmsil edilmişlər.

1.Tatlıyev S.B. Azərbaycan SSRİ Ali Sovetinin sədri

2.Həsənov Q.A. Azərbaycan KP MK-nin tikinti və şəhər təsərrüfatı şöbəsinin müdiri, katib.

3.Rəsulova L.X.Həmkarlar İttifaqının sədri.

4.Məmmədov N.A. Təşkilat komitəsinin sədri, Azərbaycan KP MK-nin təşkilati-partiya işlər şöbəsinin müdiri.

5.Bərşatlı V.E. Azərbaycan SSRİ-nin Ali Soveti adına Ali ümumqoşun komandalıq məktəbinin rəisi, general-leytenant.

6.Baxşəliyev B.Q. Azərbaycan SSRİ-nin Maliyyə naziri.

7.Vəzirov A.F. Bakı seksiyasının Veteranlar Komitəsinin sədri, Sovet İttifaqının qəhrəmanı.

8.Hüseynov B.M. Təqaüdçü, e/o general-mayor.

9.Qazıbəyov P.S. Naxçıvan MR. Veteranlar şurasının sədri.

10.Qazıyev M.Y. Azərbaycan SSRİ-nin sosial təminat naziri.

11.Lənbəranski A.D. Azərbaycan SSRİ-nin Nazirlər Sovetitnin sədr müavini.

12.Məmmədova-Kosmodemyanskaya D.A. Müharibə veteranlarının Bakı seksiyasının üzvü.

13.Nəsirov M.D. Zaqafqaziya sərhəd dairəsinin rəis müavini, general-mayor.

14.Səlimov S.Q. Müharibə illərində Azərbaycanın muzey direktoru, Bakı ş. Veteranlar Komitəsinin sədri.

15Yusova Y.İ. Təqaüdçü.





Azərbaycan SSR Müharibə və Əmək Veteraları Şurasının təsis konfransında Şuranın Rəyasət Heyətinin 7 nəfər üzvdən ibarət Bürosu, Şuranın sədri, sədr müavini, katibi və Təftiş Komissiyasının sədri də seçilmişdir.

Mustafa Cəfər oğlu Nəsirov Şuranın sədri, Yevgenuya İvanovna Yusova sədrin müavini, Bahadur Məmmədqulu oğlu Hüseynov katib, D.A.Məmmədova-Kosvodemyanskaya Təftiş Komissiyasının sədri seçilmişlər. Eyni zamanda, Şuranın strukturu və kadr tərkibi təsdiq olunmuşdur. Bakı Komitəsinin müharibə veteranları bölməsinin sədri Aslan Fərhad oğlu Vəzirov sədrin 2-ci müavini, fərdi təqaüdçü S.Q.Əzizov Təşkilati Komissiyanın sədri, Bakı şəhər Müharibə və Əmək Veteraları Komitəsinin sədri Səlim Hadı oğlu Səlimov, Nikolay İvanoviç Nozdrya Azərbaycan Respublikası Müharibə və Əmək veteraları Şurasının təlimatçıları seçilmişlər.

Təşkilat komitəsinin sədri, Azərbaycan KP MK-nin təşkilati-partiya işləri şöbəsinin müdiri N.A. Məmmədov Şuranın birinci konfransını açıq elan edərək demişdir: "Sov. İKP-nın XXVII qurultayının qərarı ilə yaradılmış, Ümumittifaq müharibə və əmək veteranları Şurası - ölkədə həyata keçirilən yeni təşkilat formalarının inkişafı ilə bağlı ardıcıl tədbirlər, sərt dəyişikliklər - sosialist demokratiyasının tərkib hissəsidir.

Yoldaşlar, sovet həmkarlar ittifaqları əmək və müharibə veteranları Təşkilatının təsisçilərindən biri olub. Qırılmaz birliyin əsas məqsədi - sovet adamlarının əmək və məişət şəraitinin yaxşılaşdırılmasına qayğı birliyin zəruri olduğunu diqtə edir. Bu yolda veteranların fəallığı mühüm amildir.

Müharibə və əmək veteranlarının ictimai həyata cəlb edilməsi, onların mədəni-məişət xidmətinin yaxşılaşdırılmasını Respublika həmkarlar ittifaqları həmişə diqqət göstərmiş, bunu dərin mənəvi, mühüm siyasi əhəmiyyətli məsələ hesab etmişlər. Bu məsələlər Respublika Həmkarlar ittifaqlarının bütün bölmələrinin daim diqqət mərkəzindədir.

Böyük Vətən müharibəsində sovet xalqının hünəri ölməzdir. Konfrans iştirakçılarının da təxminən 80 faizi müharibə veteranlarıdır, onların hamısı Böyük Vətən Müharibəsi illərində döyüş xidmətlərinə görə SSRİ- nin orden və medalları ilə təltif edilmişdilər. Konfransın iştirakçıları arasında Sovet İttifaqı qəhrəmanı Aslan Vəzirov, Adil Quliyev, Vasiliy Lozovoy, Məlik Məhərrəmov, Abbas Quliyev vardır". Sonra Azərbaycan SSR Müharibə və Əmək Veteraları Şurasının 1987-ci ilin 2-4-cürübləri üzrə iş planları təsdiq olunmuş, Rəyasət Heyəti üzvləri arasında vəzifə səlahiyyətlərinə dair iş bölgüsü aparılmışdır.

Azərbaycan SSR Müharibə və Əmək Veteraları Şurasının 5 daimi komissiyası yaradılmış, onun əsasnaməsi və tərkibi təsdiq edilmişdir.

Daimi komissiyalar aşağıdakılardan ibarət olmuşdur:

- təşkilati-metodik iş;
- ideoloji iş;
- gənclər arasında iş;
- veteranların əmək fəaliyyətinə cəlb edilməsi məsələləri üzrə iş;
- veteranların sosial-məişət məsələləri üzrə iş.

Konfransda 1987-ci il may ayının 6-da aidiyyatı nazirlik və idarələrin rəhbərlərinin və Müharibə və Əmək Veteraları Şurasının Rəyasət Heyəti və Təftiş Komissiyası üzvlərinin, Bakı şəhər rayon veteran şuraları sədrlərinin, Sumqayıt şəhər veteran şurası sədrinin iştirakı ilə Respublika Həmkarlar İttifaqının böyük akt zalında saat 14.00-da Azərbaycan Respublikası Müharibə və Əmək Veteraları Şurasının Seminarının keçirilməsi qərar alınmışdır.

Təsis konfransından sonra öz təşkilati strukturunu formalaşdıran və işlək mexanizmlərin yaradılmasına çalışan Şura bütün mövcud imkanlardan istifadə etmişdir. Qısa müddətdə Şuranın ölkənin əksər iri şəhər və rayonlarında





yerli strukturları fəaliyyətə başlamış, onların işinin səmərəli qurulması üçün təcrübəli veteranlar cəlb olunmaqla lazımi metodiki köməklik göstərilmiş, bu sahədə yerli hakimiyyət orqanlarının dəstəyindən maksimum yararlanmasına səy göstərilmişdir.

1987-ci ilin aprel aylından başlayaraq Şuranın fəaliyyəti əsasən aşağıdakı istiqamətləri əhatə etmişdir:

1.Təşkilati-metodiki işin gücləndirilməsi ilə 1987-ci ilin sonunadək yerli şəhər və rayon şuralarının yaradılması və fəaliyyətinin təşklili işinin başa çatdırılması;

2.İdeoloji işin gücləndirilməsi ilə ölkədə ideoloji sahədəki mövcud problemlərin dərinləşməsinin qarşısının alınmasında dövlət orqanlarına mümkün dəstək göstərilməsi;

3.Gənclər arasında vətənpərvərlik və beynəlmiləlçilik işinin gücləndirilməsi ilə sovet xalqının yekdilliyinin qorunmasında qarşıya çıxan problemlərin həllində dövlət orqanlarına mümkün dəstək göstərilməsi;

4.Veteranların sosial-məişət məsələlərinin mümkün həllinə nail olunması ilə onların ümumdövlət siyasətinin həyata keçirilməsində daha geniş və təşkilatlanmış formada iştirakına nail olunması;

5.Veteranların əmək fəaliyyətinə cəlb edilməsi məsələlərinə ardım göstərilməsi ilə onların ölkədə yaşanan sosial-iqtisadi böhrandan daha az əziyyət çəkmələrinə şərait yaradılması;

6.Şuranın SSRİ-nin digər respublikalarının veteran şuraları, eləcə İkinci Dünya müharibəsində SSRİ-nin alman faşizmindən azad olunmasında iştirak etdiyi sosialist ölkələrinin veteran təşkilatları ilə əlaqələrin qurulması.

Şura təsis konfransından sonra müntəzəm surətdə öz Büro, Rəyasət Heyətinin iclaslarını, Plenumlarını keçirmiş, həm respublikanın həyatında baş verən mühüm hadisələrlə, həm də öz fəaliyyətinin təşkili ilə bağlı məsələlərlə əlaqədar

müvafiq qərarlar qəbul etmiş, onların icrasına nəzarəti həyata keçirmişdir. Oxucuya Şuranın fəaliyyətinin daha dolğun çatdırılması məqsədi ilə kitabda arxiv sənədlərinə istinadən yeri gəldikcə, həmin qərar, qətnamə və göstərişlərə yer ayıracaq, bəzi sənədləri olduğu kimi verəcəyik. Respublika Veteranlar Şurasının 29 fevral 1988-ci il tarixli 3 saylı Büro iclası Şuranın fəaliyyətinin təşkili barədə aydın təəssürat yaradan bu tipli arxiv sənədlərindən sayıla bilər. Respublika Veteranlar Şurasının sədri M.Nəsirovun sədrlik etdiyi həmin Büro iclasının Protokoluna istinadən onun işində Rəyasət Heyətinin aşağıda adı çəkilən üzvlərinin iştirak etdiyi məlum olur:

1.Y.Yusova 2.B.Hüseynov 3.N.Nozdrya 4.S.Əzizov. "Gündəlik:

1.«Veteran təşkilatlarının strukturu və fəaliyyətləri ilə bağlı məsələlər» adlı kitabşanın nəşri barədə. Məlumat verir: N.Nozdrya.

2.Rayon veteran şura sədrlərinin müşavirəsi barədə.

Məlumat verir: M.Nəsirov.

Göstərilən məsələlərə baxılaraq və həll edərək Büro qərar alır:

1.Təqdim olunan «Veteran təşkilatlarının strukturu və fəaliyyətləri ilə bağlı məsələlər» adlı kitabçanın layihəsi təqdirəlayiqdir.

2.Büro üzvləri 3 gün müddətində layihə barədə irad və təkliflərini yazılı şəkildə təqdim etsinlər.

3.Yoldaş N.Nozdrya təqdim olunan irad və təklifləri nəzərə almaqla, kitabçanı tamamlamaq, rəsmi müqavilə ilə Azərbaycan dilinə tərcüməsini və mətbəə üsulu ilə onun 300-400 nüsxə tirajla çapını təşkil etsin.

Dağlıq Qarabağ Muxtar Vilayəti və Sumqayıt şəhər ətrafında yaranmış vəziyyətin mürəkkəbliyini nəzərə alaraq: 1.Gənclər, tələbələr arasında tərbiyəvi-izahat işlərində xalqlar





dostluğunun möhkəmləndirilməsinə xüsusi diqqət ayrılması istiqamətində veteranların fəallığını artırmaq məqsədi ilə bağlı Bakı ş. rayon veteranlar şuralarının sədrləri ilə bu ilin mart ayının 2-də saat 12.00-da xüsusi müşavirənin keçirilməsi məqsədəuyğun hesab edilsin.

2.Partiya veteranları, müharibə, əmək veteranlarının sovet partiya orqanlarının rəhbərliyi altında respublikada, Dağlıq Qarabağ Muxtar Vilayətində, şəhər və rayonlarda vəziyyətin normallaşmasında fəal iştirak etmələri nəzərə alınsın.

Respublika Veteranlar Şurasının sədri, ehtiyatda olan general- mayor M.Nəsirov".

Göründüyü kimi 1988-ci ildə ermənilərin Azərbaycana qarşı ərazi iddiaları ilə Dağlıq Qarabağda separatçılıq hərəkatının başlanması bir sıra dövlət orqanları ilə yanaşı, Respublika Veteranlar Şurasının fəaliyyətinin daha bir istiqamətdə təşkilini də vacib etmişdi. Bununla da Şuranın fəaliyyəti ölkənin o zamankı həyatının ən mühüm məsələlərini əhatə etməklə daha da genişlənmişdi.

1989-90-cı illərdə Şuranın Azərbaycanın ərazi bütövlüyünün müdafiəsinə, erməni millətçiləri və separatçılarının Dağlıq Qarabağın Ermənistana birləşdirilməsi iddialarının qarşısının alınması istiqamətindəki fəaliyyəti həqiqətən səmərəli olmuşdur. Şuranın sədri və məsul əməkdaşları Dağlıq Qarabağda separatçılıq hərəkatının bütün mümkün vasitələrlə dayandırılması, münaqişənin genişlənməsinə imkan verilməməsi üçün həm respublika, həm də ittifaq çərçivəsində müxtəlif görüş və tədbirlərin təşkilində yaxından iştirak etmiş, öz nümayəndələrinin belə görüş və tədbirlərə qatılmalarına şərait yaratmışdır.

Bir sıra arxiv materialları da dediklərimizi təsdiq edir. Onlardan bəzi nümunələri təqdim etməklə, Şuranın qeyd olunan istiqamətdəki fəaliyyətinə aydınlıq gətirmək

mümkündür. Ermənistan tərəfinin Azərbaycana qarşı ərazi iddialarının heç bir tarixi fakta və reallığa əsaslanmadığının sübut edildiyi belə görüş və tədbirlərin sayı kifayət qədərdir. Həmin görüşlərdən biri 19 avqust 1990-cı ildə baş tutmuşdur. Göstərilən tarixdə SSRİ Ali Sovetinin rəhbərliyi və Mərkəzi qəzetlərin redaktorları ilə görüşmək məqsədilə Şuranın sədri, ehtiyatda olan general-mayor Mustafa Nəsirov 5 günlüyə Moskvaya ezam olunmuşdur.

Hələ bu səfərdən təqribən 2 ay əvvəl (14-20 iyun 1990-cı ildə) xüsusi tapşırıqla Xankəndinə ezam olunan M.Nəsirov vəziyyəti bir daha yerində öyrənməklə hərtərəfli qiymətləndirmiş, ondan çıxış yollarını dərindən təhlil etmişdir. Moskvadakı görüşlər çərçivəsində kifayət qədər təcrübəyə və məlumata malik olan bir insan kimi o, ermənilərin əsassız iddialarının qarşısının alınması zərurətindən, bu baş tutm ayacağıtqdirdə,münaqişənintezliklədahadagenişlənəcəyi təhlükəsindən danışmışdır. Ancaq təəssüf ki, ermənilərə açıq havadarlıq edən sovet rəhbərliyinin nəinki ağıllı məsləhətlərə qulaq asmaq fikri yox idi, hətta imkan daxilində ermənilərə öz qanunsuz hərəkətlərini genişləndirmələrinə, Azərbaycan torpaqlarını işğal etmələrinə şərait yaradılırdı.

Yeri gəlmişkən, qeyd olunan görüşlərin bir hissəsi hələ ermənilərin Dağlıq Qarabağda separatçılıq hərəkətlərinin başlandığı ilk aylarda keçirilmişdi. Dağlıq Qarabağdakı veteran təşkilatlarının Respublika Veteranlar Şurası ilə əlaqələrini kəsməsi veteranların Muxtar Vilayətdəki separatçı niyyətlərin qarşısının alınmasında iştirakına ümid bəsləyən Şura rəhbərliyini narahat etmişdi. Buna görə də vilayətdəki veteranlarla əvvəlki əlaqələrin bərpası məqsədilə Şuranın əməkdaşları xüsusilə 1988-89-cu illərdə vaxtaşırı Xankəndinə və Dağlıq Qarabağın digər ərazilərinə ezam olunmuşlar.

1990-cı il 8-12 avqust tarixlərində Şuranın məsul əməkdaşları, təcrübəli veteranlar Məmmədnəbi Qasımov və





Oruc Ələsgərovun Xankəndinə ezam olunmalarında da eyni məqsəd güdülmüşdür. Ancaq əvvəlkilər kimi bu səfər də bir nəticə verməmişdir. Separatçı ovqata yoluxmuş ermənilər nəinki veteran həmrəyliyi nümayiş etdirmək niyyətindən uzaq olduqlarını göstərmişdilər, hətta Şura nümayəndələri ilə görüşlərdə Azərbaycana qarşı açıq düşmənçilik fikirləri səsləndirmişdilər.

Respublika Veteranlar Şurasının 07 fevral 1991-ci il tarixli, 1 №-li sərəncamı həm Şuranın Dağlıq Qarabağ münaqişəsinin genişlənməsinin qarşısının alınmasına yönəlmiş fəaliyyətinin dəyərləndirilməsi baxımdan, həm də bu sahədə sonuncu cəhdlərdən biri kimi maraq doğurur. Həmin sərəncamın mətnini olduğu kimi təqdim edirik:

“Moskva şəhərində Ümumittifaq Veteranlar Şurasının Rəyasət Heyətinin Qərarının icrası ilə əlaqədar hər iki ölkədə vəziyyətin sabitləşdirilməsi yollarını müəyyənləşdirmək məqsədilə Ermənistanın veteran hərəkatının nümayəndələri ilə görüşə Azərbaycanın aşağıdakı fəal veteranları Moskva şəhərinə ezam olunsunlar:

- Nəsirov Mustafa Cəfər oğlu – Respublika Veteranlar Şurasının sədri;
- Hüseynov Bahadur Məmmədqulu oğlu – məsul katib;
- Köçərli Tofiq Qasım oğlu – e.o general-mayor;
- Babenko Konstantin Stepanoviç – e.o.general-mayor;
- İbrahimov İsmayıl Əli oğlu – V.İ.Lenin ad. “Sovet Uşaq fondunun” sədri;
- Abbasov Məzahir Həmid oğlu – 26 Bakı kom. Rayonunun veteranlar şurasının sədri.

Ezamiyyətin müddəti: 11 fevral-14 fevral 1991-ci il.

Respublika Veteranlar Şurasının sədr müavini Y.Yusova”.

Bu görüş artıq Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları ilə başlatdığı təcavüzün açıq xarakter aldığı, Dağlıq Qarabağda bir sıra yaşayış məntəqələrinin məhz Ermənistan

silahlı birləşmələrinin aramsız hücumlarına məruz qaldığı, ilk işğalların həyata keçirildiyi vaxta təsadüf edirdi. Gözlərini qan örtmüş ermənilər nəinki veteran həmrəyliyi nümayiş etdirməyə, hər iki ölkədə vəziyyətin sabitləşdirilməsi yollarını aramağa meylli deyildilər, əksinə hər fürsətdən, o cümlədən havadarlarının köməyindən yararlanmaqla Dağlıq Qarabağın tezliklə Ermənistan silahlı birləşmələri tərəfindən tamamilə işğal edilməsinə nail olmaqla, Azərbaycanı ərazi itkisi ilə razılaşmaq məcburiyyətində qoymaq istəyirdilər. Buna görə də Respublika Veteranlar Şurasının müharibənin ağrı-acısını öz həyatlarında yaşamış insanların qarşı tərəfi fəlakətli yoldan çəkindirmək istiqamətindəki bütün təşəbbüsləri, faciələr törətməkdən uzaq olmağa səsləyən çağrışları cavabsız qaldı. Hətta tərəflər arasında SSSR Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlarının Ümumittifaq Şurasında bağlanmış Razılıq Sazişi də ermənilərin başlatdığı və qanlı hadisələrlə müşayiət olunan proseslərin dayandırılmasına təsir göstərə bilmədi. 1991-ciilfevralın 12-də MoskvaşəhərindəAzərbaycan və Ermənistan Veteran təşkilatlarının nümayəndələrinin baş tutmuş görüşündə imzalanmış həmin saziş də adi kağız parçasına çevrilərək, arxivlərə göndərildi. Bu gün tarixi sənəd kimi həmin dövrdə hansı səylərin göstərildiyinin sübutundan əlavə başqa bir mahiyyəti olmayan bu sənədlərə istinad etməkdə məqsədimiz azərbaycanlıların ən böhranlı anlarda belə sülhə, barışığa cəhd etdiklərini çatdırmaqdır. Sənəddən məlum olur ki, görüşün iştirakçıları hər iki respublika arasında münaqişə ilə bağlı dərin narahatlıqlarını ifadə edərək aşağıdakılar barədə razılığa gəliblər:

"Günahsız insanların əzab-əziyyətləri, həlak olmaları, böyük maddi ziyan, silah gücünə problemlərin perspektivsiz həlli - bütün bunlar qan tökülməsini dərhal dayandırmağa çağırır. Veteran ictimaiyyətinin fikirlərini çatdıraraq, görüş iştirakçıları hesab edirlər ki, gələcək zərərli qarşıdurma





siyasəti mənasız və ümidsizdir. Elə bir məqam yetişib ki, nəyin bahasına olursa-olsun faciəli hadisələrin gedişini dayandırmaq lazımdır. Yeganə mümkün və düzgün yol – dialoq, tədbirlilik, səbir, birgə sülh və razılıq yollarının tapılmasıdır.

Görüş iştirakçıları qeyd edirlər ki, yaşlı nəslin nümayəndələrinin üzərində xüsusi məsuliyyət, öz xalqlarının taleyinəməsuliyyət daşımaq düşür. Çünki, onlarda insani müdrik və həyat təcrübəsi var.

Görüş iştirakçıları bildirirlər ki, biz inanırıq ki, veteranların əsl humanist mövqeyi, onların zəkasının səsi, indiki və gələcək nəsillərin taleyini düşünən bütün vicdanlı insanlar tərəfindən eşidilib və başa düşüləcəkdir.

Fikir mübadiləsi nəticəsində görüş iştirakçıları Azərbaycan vəErmənistan respublikalarının veteran ictimaiyyətinə və xalqlarına müraciət qəbul ediblər və birgə fəaliyyət haqqında, gələcək əlaqələr barədə razılığa gəliblər". Doğrudur, cəhdlərimizə baxmayaraq, biz Respublika Veteranlar Təşkilatının arxiv sənədləri arasında Sumqayıt şəhərində ermənilərin törətdiyi faciəvi hadisələrə Respublika Veteranlar Şurasının münasibəti barədə bəzi qeydlər istisna olmaqla, hər hansı konkret sənədə rastgəlmədik. Ancaq Ermənistanın Azərbaycana qarşı qəsbkarlıq və işğalçılıq siyasətinin ifşa olunması, keçmiş SSRİ, o cümlədən dünya ictimaiyyətinin diqqətinin bu məsələlərə yönəldilməsi istiqamətində lazımi iş aparılmış, müxtəlif səpkili sənədlər hazırlanmış, tədbirlər keçirilmiş, qərarlar qəbul edilmişdir. Bu tipli sənədlərə nümunə olaraq Azərbaycan Respublikasının Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası Rəyasət Heyətinin 15 aprel 1993-cü ildə qəbul etdiyi Bəyannaməni göstərmək olar. Həmin sənəddə deyilir:

"Ermənistan işğalçılarının Azərbaycan Respublikasına qarşı arasıkəsilməyən qəsbkar hərəkəti Ermənistan Respublika sı dövlət rəhbərlərinin Azərbaycan xalqına qarşı düşmənçilik

siyasətini bir daha təsdiq edir. Regionda Ermənistan rəhbərləri tərəfindən süni surətdə yaradılmış gərgin münaqişəni siyasi danışıqlar yolu ilə həll etmək məqsədilə keçirilən iki tərəfli və çox tərəfli danışıqlardan Ermənistan tərəfi hər dəfə öz qəsbkar işğalçı siyasətini pərdələmək vasitəsi kimi istifadə edir.

Ermənistan Respublikasının silahlı qüvvələri tərəfindən Azərbaycan Respublikasının Kəlbəcər rayonunun və bir sıra başqa sərhədyanı rayonların yaşayış məntəqələrinin işğal edilməsi Ermənistanın bütün beynəlxalq hüquq normalarını kobud pozmasının yeni sübutudur.

Azərbaycan respubliksının Veteranlar Şurasının Rəyasət heyəti respublikamızın 1 milyon 200 mindən artıq Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları adından Ermənistan respublikasının dövlət rəhbərlərinin ikiüzlü riyakar, işğalçı siyasətini qətiyyətlə pisləyir, regionda nahaq qantökülməsinə son qoyaraq öz işğalçı qoşunlarını Azərbaycan torpaqlarından çıxarmağı onlardan tələb edir, hər iki dövlət başçılarını münaqişəni stol arxasında, siyasi danışıqlar yolu ilə həll etməyə çağırır.

Rəyasət Heyəti respublikanın veteran ictimaiyyətini sayıq olmağa, düşmənlərin hiləgər siyasəti qarşısında birliyə, respublikamızda hərbi-siyasi, sosial-iqtisadi vəziyyətin sabitləşməsi, hüquqi qayda-qanunların möhkəmləndirilməsi, çox millətli Azərbaycan xalqlarının qüvvələrinin başlıca məsələ - respublikamızın ərazisini erməni işğalçılarından tamamilə təmizləmək naminə birləşdirməyi çağırır.

Biz bütün siyasi partiyaları və cərəyanları, ictimayi və dini təşkilatları, bütün çox millətli Azərbaycan xalqlarını erməni qəsbkarlarını xalqımıza qarşı apardığı işğalçı siyasətini ifşa edilməsində çox fəal iştirak etməyə yetişməkdə olan nəsilin və milli ordu sıralarında qulluq edən gənclərin hərbi-vətənpərvərlik ruhunda tərbiyə edilməsi işində fəal iştirak etməyə çağırırıq”.





Müstəqilliyin bərpasından sonrakı dövrdə, xüsusən 1990-cı illərin ikinci yarısından başlayaraq Respublika Veteranlar Şurasının beynəlxalq, o cümlədən ictimai və humanitar təşkilatlarla münasibətlərinin qurulmasında əsas diqqət Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın ədalətli mövqeyinin, ərazi bütövlüyünün təminatının müdafiəsinə yönəldilmiş, bir çox hallarda həmin təşkilatlardan bu məsələyə münasibətdə birmənalı mövqebildirmələri istənilmişdir.

Respublika Veteranlar Şurası sədrinin imzası ilə 22 sentyabr 1999-cu ildə MDB dövlətləri Veteran Təşkilatları Koordinasiya Şurasının sədri vəzifələrini icra edən general-polkovnik V.S.Neçayevə göndərilmiş 202 saylı məktub bubaxımdan xarakterik sayıldığından onu olduğu kimi nəzərinizə çatdırırıq.

**“Уважаемый Виктор Степанович!**

Азербайджанский Республиканский Совет Ветеранов неоднократно, письменно и устно, обращался в Координационный Совет с просьбой, учитывая влияние и требования многомиллионной армии ветеранов содействовать через Глав Государств Содружества в урегулировании вооруженных конфликтов и обеспечении территориальной целостности всех стран СНГ.

Этот вопрос был обсужден на заседании Президиума Координационного Совета в мае 1998 г. и было принято Обращение к Главам Государств, в котором вопреки принятому решению было упущено, что «при решении спорных проблем, учитывать сохранение территориальной целостности и нерушимости границ стран СНГ» (Наше письмо №169 от 17 июня 1998 года).

Последние события на Северном Кавказе, в частно- сти Дагестане, Киргизской Республике еще раз показывает, что непринятие практически решительных мер по

предупреждению сепаратизма, экстремизма приводит к тяжелейшим последствиям, возникновению новых очагов вооруженных конфликтов, угрожающим территориальной целостности Российской Федерации и другим стран СНГ. Таким образом, в взрывоопасные конфликтные ситуации вовлечены большинство стран СНГ: Российской Фе- дерации, Азербайджан, Грузия, Таджикистан, Молдавия, Киргизская Республика, частично Узбекистан.

В целях предотвращения дальнейших аналогичных опасных тенденций и обеспечения мира в пространстве СНГ. Республиканский Совет Ветеранов рекомендует Координационному Совету обратиться к Главам Государств, от имени 40 миллионов ветеранов войны стран СНГ с просьбой немедленно организовать встречу Глав Государств для неотложного и практического решения вопроса по прекращению вооруженных противостояний, вывода вооруженных сил с захваченных чужих территорий и полного восстановления территориальной целостности всех государств Содружества.

По нашему глубокому убеждению решение вышеуказанной, исключительно важной проблемы зависит от воли, желаний и искреннего стремления Глав Государств Содружества. Надеемся, что народы стран СНГ встретят начало трех тысячилетий человеческой истории в условиях мира, стабильности и дружбы народов.

Приложение: копии наших писем №234 от 3 июля 1997 года и Т169 от 17 июня 1998 года, всего на 2-х листах.

***С уважением,***
***Председатель Азербайджанского Республиканского Совета Ветеранов, Труда и Вооруженных Сил***
***Б.Гусейнов***"





Bu dövrdə Azərbaycan daxilində yaranmış mürəkkəb vəziyyət nəzərə alınmaqla, veteranların ölkənin ictimai-siyasi həyatında fəal iştirakının təmin edilməsinə xüsusi əhəmiyyət yetirilməklə yanaşı, veteranların sosial müdafiəsi, onların asudə vaxtlarının təşkili, cəmiyyət həyatına inteqrasiyası istiqamətində tədbirlərin görülməsi də diqqət mərkəzində saxlanılmışdır.

Şuranın veteranların maddi-məişət şəraitinin yaxşılaşdırılması və asudə vaxtlarının təşkilinə necə diqqət göstərməsini Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin İnzibati orqanlar şöbəsinin şifahi sorğusuna əsasən göndərilmiş 7 aprel 1988-ci il tarixli 36 saylı məktubdan da görmək olar:

"Azərbaycan Respublikasının Müharibə və Əmək Veteranları Şurası Sizə məlumat verir ki, Respublika Müharibə və Əmək Veteranları Şurası maraqlanan nazirliklərlə, idarələrlə, təşkilatlarla birlikdə veteranların maddi-məişət şəraitinin yaxşılaşdırılması və asudə vaxtlarının təşkili üzrə keçirdiyi reydlərin yekunları barədə tapşırıqlara uyğun olaraq məlumatı Nazirlər Sovetinin sədr müavini E.Qafarovaya, Naxçıvan MR Nazirlər Sovetinə, Dağlıq-Qarabağ MV-nin İcraiyyə Komitəsinə, xalq deputatlarının rayon (şəhər) icraiyyə komitələrinə göndərmişdir. Bu tapşırıqların icrası zamanı bir sıra icraiyyə komitələri yerli Müharibə və Əmək veteranları şuraları ilə birlikdə reydin nəticələrini müzakirə edib, veteranların sosial məişət şəraitinin yaxşılaşdırılmasına yönəlmiş tədbirlər planı hazırlayıb təsdiq etmiş, onların yerinə yetirilməsi gedişini nəzarətə götürmüşlər.

Hal-hazırda Azərbaycan SSRİ Nazirlər Sovetinin rəhbərliyi altında Sosial Təminat Nazirliyi və digər əlaqədar nazirlik, idarələr və rayon (şəhər) müharibə, əmək veteranlar şuraları ilə birlikdə reydin nəticələri əsasında, direktiv orqanların qərarlarında nəzərdə tutulmuş yaşlı nəslin sosial

məişət şəraitinin yaxşılaşdırılmasını təmin etmək üçün cari beşillikdə planlaşdırma və tikinti işlərinin gedişi ilə bağlı və başqa məsələlərin həlli üçün «Qayğı» respublika proqramının layihəsinin hazırlanmasına başlayıblar.

Nazirlər Sovetində cari ilin aprel ayında Azərbaycan KP MK-nın nümayəndələri ilə birlikdə sözügedən proqramın işlənib hazırlanmasının gedişinə nəzarət məqsədi ilə xüsusi müşavirənin keçirilməsi nəzərdə tutulub".

Respublika Veteranlar Şurasının sədri, ehtiyatda olan general-mayor Mustafa Nəsirovun 12 iyul 1988-ci ildə Bakı ş. İcra hakimiyyətinin səhiyyə baş idarəsinin rəisi V.M.Qasımova yazdığı 68 nömrəli məktub bu qəbildən növbəti addımlardan sayıla bilər. Şura sədri həmin məktubunda veteranlara göstərilən tibbi xidmətin səviyyəsinin yüksəldilməsinə nail olmaq məqsədi ilə yazır:

"Hörmətli Vaqif  Məmməd oğlu!

Azərbaycan Respublikası Müharibə və Əmək Veteranlar Şurası «Bakı şəhərinin müharibə və əmək veteranlarına göstərilən tibb xidmətinin vəziyyəti barədə» müvafiq arayışı Sizə göndərir. Şuranın Rəyasət Heyətinin qərarına uyğun olaraq Proqramda nəzərdə tutulan nöqsanların aradan qaldırılması, müvafiq tədbirlərin görülməsi üzrə həyata keçirilən işlər barədə 1989-ci ilin yanvarında Şuranı məlumatlandırmağınızı xahiş edirik.

Qoşma: arayış 4 vərəqdə və qərar 1 vərəqdə".

Şura sədri 12 iyul 1988-ci il tarixindəNazirlər Sovetinin sədr müavini E.M.Qafarovaya da 65 saylı məktubla müraciət edir.

"Hörmətli Elmira Mikayıl qızı!

Azərbaycan Respublikası Əmək və Müharibə Veteranları Şurası «Bakı şəhər müharibə və əmək veteranlarına göstərilən tibbi xidmətin vəziyyəti barədə» sizə arayış göndərir. Əlavə: arayış 4 vərəqdə və bu məsələyə dair qərar 1 vərəqdə".





Eyni tarixdə növbəti 66 saylı məktub Azərbaycan SSR Səhiyyə naziri T.A.Qasımova göndərilir.

"Hörmətli Tələt Əli oğlu!

Azərbaycan Respublikası Müharibə və Əmək Veteranları Şurası «Bakı şəhər müharibə və əmək veteranlarına göstərilən tibbi xidmətin vəziyyəti barədə» sizə arayış göndərir. Şuranın Rəyasət Heyətinin qərarına əsasən qeyd olunan sənəddə çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlər görməyiniz xahiş olunur.

Əlavə: arayış 4 vərəqdə".

Nəhayət məsələ ilə bağlı həmçinin Bakı şəhər xalq deputatları sovetinin İcraiyyə komitəsinin sədri O.İ.Zeynalova da 67 saylı məktubla müraciət edilir.

"Hörmətli Oqtay İsrafil oğlu!

Azərbaycan Respublikası Müharibə və Əmək Veteranları Şurası «Bakı şəhər müharibə və əmək veteranlarına göstərilən tibbi xidmətin vəziyyəti barədə» sizə arayış göndərir. Şuranın Rəyasət Heyətinin qərarına əsasən qeyd olunan sənəddə çatışmazlıqların aradan qaldırılması üçün müvafiq tədbirlər görməyiniz xahiş olunur.

Əlavə: arayış 4 vərəqdə və bu məsələyə dair qərar 1 vərəqdə".

Bu məsələ barəsində eyni zamanda 18 iyul 1988-ci ildə Bakı şəhər Müharibə və Əmək Veteranları şurasının sədri S.Q.Səlimovaya məlumat xarakterli məktub göndərilir.

"Azərbaycan Respublikası Əmək və Müharibə Veteranları Şurası «Müharibə və əmək veteranlarına göstərilən tibbi xidmətin vəziyyəti və yaxşılaşdırılmasına dair keçirilən tədbirlər barədə» sizə arayış və tibb xidmətinin yaxşılaşdırılması məsələsi ilə bağlı Şuranın Rəyasət Heyətinin qərarını göndərir.

Əlavə: arayış 4 vərəqdə və bu məsələyə dair qərar 2 vərəqdə".

Azərbaycan SSR-in Mədəniyyət naziri Z.Bağırov və Azərbaycan Respublikasının Müharibə və Əmək Veteranları Şurasının sədri M.Nəsirovun birgə təsdiq etdikləri rasmi sənəddə isə veteran təşkilatlarının yerlərdə sovet xalq deputatları icraiyyə komitələrinin mədəniyyət şöbələri ilə birlikdə müvafiq tədbirlərin keçirilməsinin təşkili istiqamətində görüləcək işlərdən danışılır. 26 iyul 1988-ci ildə imzalanmış 89 saylı məktubu olduğu kimi təqdim edirik.

"Yerli sovetlərin xalq deputatları icraiyyə komitəsinin mədəniyyət şöbəsinin müdiri.Müharibə və əmək veteranları yerli sovetlərinə(rayon(şəhər) müharibə və əmək veteranları şuralarına), Mədəniyyət evlərinin və saraylarının rəhbərlərinə. Azərbaycan KP-nin XXVII, XXXI qurultaylarının qərarlarına və göstərişlərinə uyğun olaraq müharibə və əmək veteranlarının həyat şəraitinin yaxşılaşdırılması üzrə respublikada bir sıra tədbirlər həyata keçirilir. Mədəniyyət sarayları, evləri nəzdində veteranlar klublarının yaradılması veteranların respublikanın ictimai- siyasi həyatında fəal iştirak etməsinin formalarından biridir.12 may 1988-ci il tarixli KP MK "Veteranların həyat şəraitinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında»qərarının icrası ilə əlaqədar olaraq (27 iyul 1988-ci il tarixli qərarı ilə rəsmiləşdirilib) yerli xalq deputatları sovetlərinin icraiyyə komitələrinin mədəniyyət şöbələri və yerli müharibə və əmək veteranları sovetlərlə birlikdə sovet orqanlarının və komsomol təşkilatlarının rəhbərliyi altında 3 ay müddətində mədəniyyət sarayları, evləri nəzdində birgə tədbirlərin keçirilməsini təşkil etmək, veteranları ictimai-siyasi fəaliyyətə istiqamətləndirmək, təbliğat işini, gənclər arasında tərbiyəvi işləri, cavan və yaşlı nəsillərin görüşlərini, beynəlmiləlçi-döyüşçülərlə, partiya, müharibə, əmək, veteranları ilə çağırış və çağırışaqədər olan gənclərlə görüşlər və s. təşkil etsinlər. Əhalinin beynəlmiləlçilik ruhunda tərbiyəsi işinə xüsusi diqqət yetirilməlidir.





Yubiley və digər təntənəli tarixlərə həsr olunmuş rayon tədbirlərində veteranların iştirakı illik tədbirlər planlarında nəzərdə tutulsun.

Yerli veteran təşkilatlarına tapşırılsın ki, klub və mədəniyyət evlərinin rəhbərliyi ilə birgə "Veteran klubu"- nun iş planını işləyib hazırlasın və təsdiq etsin, həmin klublara və mədəniyyət saraylarına müxtəlif tədbirlərin hazırlanmasında və keçirilməsində daima əməli köməklik göstərilməsində daha çox təşəbbüs və yaradıcılıq göstərsinlər.

XIX Ümumittifaq partiya konfransının iyul 1988-ci il tarixli, SSRİ KP MK-nin Plenumunun, 16 avqust 1988-ci il tarixli Azərbaycan KP MK-nin Plenumunun qərarlarından birgə işin təşkilində istifadə edilsin".

Veteran hərəkatının güclənməsi, bu istiqamətdə qarşıya qoyulmuş müxtəlif vəzifələrin uğurlu həlli üçün, o cümlədən də gənclərin təlim-tərbiyəsi işində müharibə və əmək veteranlarının yaxından iştirakının təmin edilməsi məqsədi ilə fəaliyyətin təşkilinə də xüsusi diqqət göstərilmişdir. Müxtəlif dövlət orqanları, əsasən də təhsil müəssisələri, yerli idarəetmə, o cümlədən komsomol təşkilatları ilə yazışmalarda, rayon (şəhər) veteran şuralarına göndərilən göstəriş, təlimat xarakterli məktublarda Şuranın fəaliyyətinin ilk günlərindən başlayaraq bu məsələnin başlıca fəaliyyət istiqamətlərindən biri kimi nəzərdə tutulduğu aydınlaşır. Şura bu fəaliyyətin uğurla həyata keçirilməsi, vəzifələrin lazımınca yerinə yetirilməsi məqsədi ilə veteran təşkilatlarının işinin gücləndirilməsi istiqamətində ardıcıl tədbirlərin görülməsini, bu sahədə yerlərdə veteranların iştirakı ilə ayrı-ayrı dövlət orqanları ilə birgə tədbirlərin müntəzəm surətdə keçirilməsi tövsiyə olunur. Həmçinin Respublika Veteranlar Şurası müvafiq dövət orqanlarının qərarlarının yerinə yetirilməsinin gedişinə əsaslanaraq yeni yaradılmış şuraların bütün istiqamətlərdə, o cümlədən gənclərlə iş istiqamətində fəaliyyətinlərinin yoxlanmasını və

bu işdə yaranmış nöqsanların aradan qaldırılmasının təşkil olunmasını məqsədəuyğun hesab etmişdir.

Azərbaycan Respublikasının Müharibə və Əmək Veteranları Şurasının fəaliyyətinin necə təşkil olunduğunu Şuranın 20 dekabr 1989-cu il – mart 1991-ci ilə qədər olan işi dair Rəyasət Heyəti, büro və daimi komissiyaların işini əks etdirən informasiya da təsdiq edir. Həmin sənədi olduğu kimi oxucuların diqətinə çatdırırıq.

## “ИНФОРМАЦИЯ

## О работе Президиума, бюро и постоянных комиссий Республиканского Совета Ветеранов за период между Пленумами (с 20.12.89г по март 1991 года)

Президиум, бюро и постоянные комиссии в 1990 году и 1-ом квартале 1991 года всю свою деятельность подчиняли мобилизации сил ветеранов на стабилизацию обстановки в республике. Особо важные задачи стояли после известных январских событий (19-20 января 1990 г) в г.Баку, пограничных инцидентов в Нахичеванской АССР, продолжающихся трагических событий в нагорном Карабахе.

В начале 1990 года значительно возросла дестабилизация в нашем обществе, ухудшилась экономическая, социальная и политическая напряженность, определенные трудности возникли в сфере материального и общественного положения ветеранов.





В этих условиях Республиканский Совет Ветеранов стремился направить деятельность советов на противодействие разрушительным процессам, решительное отстаивание интересов ветеранов. Многие члены Пленума, активисты ветеранского движения выезжали в районы, встречались с руководителями и активистами местных советов, организовывали совместно с Министерством социального образования АСПС и другими заинтересованными министерствами и ведомствами – приемы ветеранов непосредственно на местах. Многие ветераны по графику выезжали в г.Степанакерт для оказания помощи орг. комитету по стабилизации обстановки в области.

Председатель республиканского Совета Ветеранов т.Насиров М.Д. дважды выезжал в составе республиканской делегации в Москву для приема ее у руководителей ЦК КПСС , Верховного Совета СССР, министров Обороны, МВД страны и др. Многие вопросы, поднятые на этих встречах, нашли свое претворение в жизнь.

Большую работу по этой проблеме провела постоянная комиссия по работе с ветеранами Вооруженных Сил (предс.Касимов Н.А.). Члены комиссии неоднократно вызжали в НКАО, гг.Читу, Улан-Уде, Кяхту, Киев, Львов, Одессу, Кишинев, Черновцы, Московской военный округ, где служат в Армении наши воины-азербайджанцы, для обеспечения нормальной службы. Совместно с членами комиссии по увековечиванию памяти погибших воинов были в Ленкоране, Евлахе, Казахе, Таузе и других районах по вопросам состояния братских могил, памятников, погибших в годы Великой Отечественной войны. Определенный положительный вклад внесла редколлегия, рабочая группа и военкомат республики, работающие над комплектованием книги «Память».

Определенную работу провела комиссия по увековечиванию памяти погибших защитников Родины (т.Аббасов А.Т.) – за последние 2 года школам, улицам, пионерским отрядам присвоены имена 56 участников Великой Отечественной войны, в школах дополнительно созданы уголки Славы и т.д.

Комиссия по работе среди молодежи (т.Зейналов Р.Э.) внесла большой вклад в реализацию мероприятий по выполнению Постановления ЦК КП Азербайджана от 17.12.1989 г. по усилению военно-патриотического воспитания молодежи: ветераны встречались с молодежью призывного возраста, воинами Советской Армии, находящимися в г.Баку в связи с чрезвычайным положением и т.д.

Вместе с тем, как показал анализ писем, жалоб и заявлений поступивших в Республиканский Совет Ветеранов (615 уд), в истекшем году возросло их число по вопросам жилья, торгового и коммунального обслуживания, выделения автотранспорта и другим нуждам.

Росту потока заявлений, естественно, способствовала обострившаяся в республике политическая и экономическая обстановка, прибытие огромного количества беженцев из Армении и Узбекистана. Зная об этом, проявляя заботу о своих ветеранах, республиканский Совет Ветеранов в течение 1990 года неоднократно входил с соответствующими записками в ЦК КП Азербайджана, Совет Министров республики. Следует отметить, что по республике за последние 3 года Совет Министров и АСПС приняли свыше 10 постановлений по вопросам улучшения социально-бытовых условий ветеранов войны, труда и Вооруженных сил. Многие из них принимались с участием Республиканского Совета Ветеранов.

Большую роль сыграл принятый в 1990 году Указ Президента Азербайджанской ССР «О дополнительных





льготах инвалидам, участникам войны, воинам-интернационалистам, семьям погибших военнослужащих». Немалую роль в решение социальнобытовых вопросах, имели разработанные и внедряемые в республике программы «Забота» и «Здоровье», а также созданное Общество «Гайгы». На сегодня, участники войны, имеют право бесплатного проезда на всех видах городского пассажирского транспорта (кроме такси) и на автотранспорте общего пользования, в сельской местности в пределах административного района; многим участникам и семьям погибших в годы ВОВ переданы бесплатно в личное пользование квартиры; Минздраву передана больница №2 из бывшего 4-го Управления на реконструкцию под госпиталь ветеранам; создано Республиканское Объединение кооперативов «Ветеран»; скоро начнет выходить самостоятельная республиканская газета «Хикмет». Участники войны освобождены от уплаты подоходного налога, им снижена на 50% оплата коммунальных услуг и т.д.

В 1990 г. и 1-ом квартале т.г. проведено 3 Пленума, 5 заседаний Президиума, 5 заседаний бюро Президиума, рассмотрено более 20 основных вопросов. Они касались стиля и методов работы советов, идеологического воспитания молодежи, подготовки книги «Память», взаимодействия советов ветеранов исполкомами и народными депутатами, работы с письмами и заявлениями, соц.бытового положения ветеранов и целого ряда других вопросов, жизненно важных для ветеранов.

Республиканский Совет Ветеранов 1991 год”

Respublika Veteranlar Şurası yarandığı gündən Azərbaycanın İkinci dünya müharibəsində iştirakı ilə bağlı məsələlərə xüsusi əhəmiyyətli iş kimi yanaşmış, bu istiqamətdə

çoxsahəli fəaliyyət planları işlənib həyata keçirilmişdir. Azərbaycanlıların bu müharibədə göstərdiyi qəhrəmanlıqlar, xüsusilə milli-atıcı diviziyaların yaradılması və şanlı döyüş səlnaməsi, Azərbaycanın faşizm üzərində qələbəyə verdiyi böyük töhfələr, ayrı-ayrı soydaşlarımızın, xüsusilə Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüş şəxslərin şərəfli döyüş yolunun təbliği və s. məsələlər daim diqqət mərkəzində saxlanılmışdır. Bu sahədə mühüm əhəmiyyət kəsb edən məsələlərdən biri İkinci dünya müharibəsində itkin düşmüş azərbaycanlıların taleyinin aydınlaşdırılması, harada dəfn edildikləri müəyyənləşdirilən şəxslərin məzarlarının abadlaşdırılması, həmin ərazilərdə xatirə yerlərinin yaradılması ilə bağlı olmuşdur. “Respublika Xatirə kitabı”nın yaradılmasıda bu sahədə görülən mühüm işlərdən biri sayıla bilər.

Təsadüfi deyil ki, Respublika Veteranlar Şurasının sədri istefada olan general-mayor M.C.Nəsirov “Respublika Xatirə kitabı”nın Redaksiya heyətinin sədr müavini olmuşdur. “Respublika Xatirə kitabı” işçi qrupunun rəhbəri K.Y.Muxtarovun bu istiqamətdə respublikada görülən işlər, nəzərdə tutulan tədbirlərlə bağlı arxivdə Respublika Veteranlar Şurasının sədrinə ünvanladığı onlarla məktub və məlumat vardır. Biz onlardan bir neçəsinə istinad etməklə bu sahədə hazırda da davam etdirilən işlərin ilk addımların necə atıldığını və daim diqqət mərkəzində saxlandığını əyani göstərmək fikrindəyik.

“Sov. İKP MK-nın “Ümumittifaq Xatirə kitabı” haqqında” qərarına uyğun olaraq Azərbaycan KP MK bürosu 6 aprel 1989-cu ildə “Respublika Xatirə kitabı” haqqında” qərar qəbul etmişdir. Bu qərara əsasən Azərbaycan Dövlət Mətbuat Komitəsi 11 avqust 1989-cu ildə (protokol N 11) öz kollegiyasında Azərbaycan Sovet Ensiklopediyası Baş redaksiyası nəzdində “Respublika “Xatirə kitabı” redaksiyası”nı, kitabın nəşrinin praktiki məsələlərini təsdiq etmişdir. “Respublika “Xatirə kitabı” redaksiyası” (işlək qrup) 1989-cu il sentyabrın 1-dən 9 nəfərdən ibarət olmaqla fəaliyyətə başlayacaqdır.

“Respublika “Xatirə kitabı” Redaksiya heyətinin sədri M.C.Nəsirov, onun müavini Ə.Ə.Qasımov yoldaşlardır. Redaksiya heyəti üzvlərinin tərkibi 21 nəfərdən ibarətdir.

Redaksiya heyətinin sədri “Xatirə” redaksiyasının işçi qrupunun rəhbəri və müavini ilə bir neçə dəfə görüşmüş, vacib məsələlər müzakirə edilmişdir.

“Respublika “Xatirə kitabı” Redaksiyası” digər müttəfiq və müxtar respublikaların “Xatirə kitabı” redaksiyaları ilə yazışır. İndiyə qədər Belorusiya və Gürcüstan SSR, Udmurtiya MSSR və RSFSR-in Altay ölkəsi “Xatirə kitabı” redaksiyalarına məktublar yazılmışdır. Belorusiyadan iş təcrübəsi, “Xatirə kitabı”nın hazırlanması və yazılması haqqında metodik tövsiyyələr alınmışdır.

Respublika Hərbi komissarlığının köməyi ilə Azərbaycan SSR ərazisindəki rayon(şəhər) hərbi komissarlıqlarının arxivlərində saxlanılan, Böyük Vətən müharibəsində həlak olan (itkin düşən) yüz min nəfərə yaxın döyüşçü haqqında məlumatlar alınmışdır.

SSRİ-nin müxtəlif respublikaları və rayonlarının arxivlərindən də müharibədən qayıtmayan Azərbaycan vətəndaşları haqqında məlumatlar redaksiyaya daxil olmaqdadır.

Alınmış materiallar dəqiqləşdirilir və “Xatirə kitabı” üçün hazırlanır.

1941-1945-ci illər Böyük Vətən müharibəsində həlak olan və itkin düşən Azərbaycan övladları haqqında məlumatların axtarışını və toplanmasını mütəşəkkil keçirmək “Respublika “Xatirə kitabı” redaksiya heyətinin və onun işlək qrupu olan “Xatirə” Redaksiyası əməkdaşlarının müqəddəs

vəzifəsidir. Bu işdə isə onların Azərbaycan KP MK-nın gündəlik qayğısına ciddi ehtiyacları vardır.

Kamil Muxtarov, "Xatirə kitabı" Redaksiyasının (işçi qrupunun) rəhbəri

"Məlum olduğu kimi, Azərbaycan Respublikası Nazirlər Kabineti bu il avqustun 21-də "Respublika "Xatirə kitabı"nın hazırlanma və nəşr edilmə məsələləri haqqında" özünün 277 N-li qərarını qəbul etmişdir. Həmin qərarda Böyük Vətən müharibəsində qələbənin 50 illiyinə qədər xatirə kitabı cildlərinin nəşrini təmin etmək üçün tədbirlər müəyyənləşdirilmişdir. Bu da işçi qrupuna konkret əməli işlərə başlamağa imkan vermişdir. Hazırda redaksiyada işlər sürətləndirilmiş, şəxsi vərəqələrin yazılması üzərində xeyli iş aparılmış, xatirə kitabının birinci cildinə daxil ediləcək məlumat vərəqələrinin seçilib ayrılmasına başlanılmış, kitabın maketi hazırlanmışdır. Əlbəttə, işlərin surətini bir qədər də artırmaq olar. Buna isə aşağıdakı səbəblər maneçilik törədir. İndiyə kimi biz rayonlarımızın heç də hamısından müharibədə həlak olmuş və itkin düşmüş döyüşçülərimiz barəsində tam siyahıları ala bilməmişik. Dağlıq Qarabağ Muxtar Vilayəti hərbi komissarlıqlarından isə (Şuşa istisna olmaqla) alınmış məlumatların səhihliyi şübhə doğurur. Çunki siyahılara yalnız erməni döyüşçülər barəsində məlumatlar daxil edilmişdir. Belə vəziyyətə tezliklə son qoyulmalı və nail olmalıyıq ki, Azərbaycan torpağından Vətəni müdafiə etməyə getmiş bir nəfər də olsun döyüşçü unudulmasın.

Azərbaycanın istisnasız olaraq bütün rayonlarından müharibədə həlak olmuş və itkin düşmüş döyüşçülərimiz barədə tam məlumatların göndərilməsi 1992-ci il yanvarın 1-dək təmin edilsin".

Ancaq Azərbaycanda 1980-ci illərin sonları və 1990-cı illərin əvvəllərində yaşanan xaos, hərc-mərclik Veteranlar Şurasının fəaliyyətinə, o cümlədən "Xatirə kitabı"nın





hazırlanmasına da mənfi təsir göstərmişdir. Ümumiyyətlə, bu işlər nəinki mühüm əhəmiyyət kəsb edən məsələlərin sırasından çıxarılmış, hətta bir müddət tamamilə unudulmuşdur. Digər istiqamətlərdə olduğu kimi "Xatirə kitabı"nın hazırlanması sahəsində növbəti tədbirlərin görülməsinə də yalnız ümummilli lider Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıtmasından sonra başlanmışdır. Bu barədə tarixi xronologiyaya uyğun olaraq kitabın növbəti hissələrində söhbət açılacaqdır.

Respublika Veteranlar Şurasının 20 Yanvar faciəsi ilə bağlı mövqeyi və bu faciənin beynəlxalq miqyasda tanıdılmasındakı rolu barədə arxiv sənədlərində geniş məlumatlara rast gəlməsək də, Şuranın SSRİ partiya, müharibə, əmək və Silahlı Qüvvələr veteranlarına yanvar ayında qəbul etdiyi müraciət bir çox baxımdan maraq doğurur. Bu müraciətin ən mühüm tərəflərindən biri törədilmiş faciəyə mütləq siyasi və hüququ qiymət verilməsinin və onun törədilməsində günahkar olanların cəzalandırılmasının vacibliyinin ifadə olunmasıdır.

"Ветеранам партии, войны, труда и Вооруженных Сил СССР!

Указом Президиума Верховного Совета СССР в ночь на 20 января 1990 года в город Баку были введены войска и объявлено чрезвычайное положение с целью, как это было объявлено, предотвращения антиконституционных акций и обеспечения безопасности трудящихся.

Однако при вводе войск в город погибли десятки невинных людей, что вызывает законное возмущение всех, кому дорога человеческая жизнь. Эту трагедию можно было бы избежать, если бы предварительно были осуществлены тщательно продуманные предупредительно-профилактические мероприятия, если бы ввод войск не был осуществлен за 7 часов до объявления чрезвычайного положения.

Трагическим событиям в Баку, безусловно, будет дана политическая и юридическая оценка и все лица, причастные к гибели ни в чем неповинных граждан и военнослужащих, понесут строгое наказание. Это требование народа и человеческой совести.

Еще до трагических событий в Баку осуществлялась организационная эвакуация семей военнослужащих с последующей выдачей им статуса беженцев. В связи с этим распространились слухи, чему способствовало, в значительной мере, необъективное освещение названных событий средствами массовой информации, о якобы имевшим место вытеснении русскоязычного населения. Это ложь и клевета!

Ветераны партии, войны и труда, Вооруженных Сил, живущие в Азербайджане, представители многих национальностей, считают своим долгом заявить:

На всех этапах развития нашего общества азербайджанский народ, несмотря на известные трудности, шел плечом к плечу со всеми народами страны, внес вполне достойный вклад в развитие экономического и оборонного потенциала нашей Родины. Во время Великой отечественной войны Азербайджан давал 70% нефти фронту, 630 тысяч воинов из республики сражались на ее фронтах, из которых 335 тысяч отдали жизнь за победу советского народа над фашизмом. Среди героев Советского Союза и Социалистического труда, кроме азербайджанцев есть русские, украинцы, лезгины, белорусы, грузины, евреи курды и другие. Азербайджанцы вместе с представителями других национальностей принимали активное участие в строительстве крупных народнохозяйственных объектов, поднимали города, осваивали целину, работали на благо Родины. В тоже время азербайджанский народ отдает должное той помощи, которую оказывали и оказывают





ему другие народы нашей страны. Именно эта дружба и единство народов дала возможность развитию экономического и научно-технического потенциала республики.

Азербайджанский народ жил, живет и будет жить в дружбе и добрососедстве со всеми советскими народами, те же негативные явления, которые наблюдались порой панические слухи о вытеснение русскоязычного населеия в Баку и отдельные выходки хулиганствующих элементов не имеют ничего общего с интернациональными традициями азербайджанского народа.

Обострение отношений между Азербайджаном и Арменией произошло не по вине Азербайджана, а из-за совершенно необоснованного, антиконституционного посягательства Армении на территорию суверенной республики, попытки отторгнуть от нашей республики Нагорно-Карабахскую область с последующим присоединением ее к Армении. Эта была заранее продуманная враждебная акция – акция не в пользу перестройки.

Мы уважаем и поддерживаем стремление всех национальностей и народностей к суверенитету, развитию экономики, культуры, народных традиций. К этому стремится и азербайджанский народ. Но обострением межнациональных отношений вплоть до Вооруженных конфликтов, о которых мечтают враждебные перестройке элементы в стране и определенные силы за рубежом, мы осуждаем и рассматриваем как величайшее преступление, направленное на подрыв нашего многонационального государства, разрушение его фундамента, срыв перестройки.

Азербайджанский народ, понимая свою историческую ответственность и долг перед обществом, будущими поколениями, принимает все возможные меры для укрепления дружбы народов нашей страны. К этому должны настойчиво стремиться все, кому дороги нашей социали-

стической Родины, во имя которой отдали жизнь миллионы ее сыновей и дочерей, особенно в грозные годы Великой Отечественной войны. В этом призваны сыграть большую роль и средства массовой информации, которые обязаны защищать подлинные интересы многонационального государства и перестройки, крепить уверенность народа в завтрашнем дне, тем более в нынешних сложных, порой экстремальных условиях.

Ветераны партии, войны, труда и Вооруженных Сил Азербайджане, глубоко озабоченные расширяющими масштабами межнациональных конфликтов в стране, призывают всех ветеранов содействовать вскрытию подлинных причин происходящего, консолидировать силы по укреплению дружбы народов, дать решительной отпор дестабилизации обстановки в стране. Пользуясь случаем, выражаем нашу благодарность ветеранскими организациями страны, которые солидарны с нами и приглашаем их представителей посетить нашу республику, чтобы воочию убедиться в нерушимой дружбе многонационального народа Азербайджана.

1990 г.Азербайджанский Республиканский Совет ВВ и Т".

Azərbaycanda veteran hərəkatında problemlərin yaşandığı belə bir şəraitdə Respublika Veteranlar Şurasının növbəti, 2-ci Respublika Konfransı keçirilmişdir. Arxiv materiallarına istinadən bu tədbir barədə, xüsusən dəqəbul edilmiş qərarlarla bağlı bəzi məqamları diqqətə çatdırmağı lazım bilirik.

Azərbaycan Respublikası Müharibə və Əmək Veteraları Şurasının 2-ci hesabat-seçki Konfransı 1991-ci li oktyabr ayının 25-də baş tutmuşdur. Şuranın 27 nəfər üzvdən ibarət Rəyasət Heyətinin seçildiyi bu Konfransda ölkənin rayon və şəhər veteran təşkilatlarından seçilmiş 280 nəfər nümayəndənin





Konfransda 232 nəfəri iştirak etmişdir. Dəvət olunmuş 40 nəfər qonağın isə 32 nəfəri Konfransın işinə qatılmışdır. 19 nəfər Konfransın Rəyasət Heyətinə, 5 nəfər katibliyinə, 7 nəfər Mandat Komisiyasına, 12 nəfər Redaksiya Komisiyasına seçilmişdir.

Bu Konfransdan etibarən Respublika Müharibə və Əmək Veteraları Şurasının tərkibinə Silahlı Qüvvələr veteranlarının da daxil edilməsi ilə onun adı dəyişdirilmiş, Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteraları Şurası adlandırılmışdır.

Gündəliyə əsasən 2-ci Respublika Konfransında 6 məsələ müzakirəyə çıxarılmışdır:

1.Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteraları Şurasının 1987-1991-ci ilər üzrə hesabatı -məruzəçi sədr M.C.Nəsirov.

2.Təftiş Komisiyasının hesabatı - məruzəçi D.A.Məmmədova-Kosvodemyanskaya.

3.Ümumittifaq və Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteraları Şurasının Nizamnamə layihələri haqqında - məruzəçi A.A.Baxışov.

4.Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteraları Şurasının rəhbər orqanlarının seçilməsi - məruzəçi A.A.Baxışov.

5.2-ci Ümumittifaq Hesabat-seçki Konfransına nümayəndələrin seçilməsi.

6.Mükafatların təqdim olunması.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteraları Şurası sadəcə adı ilə deyil, fəaliyyət dairəsi və qarşısında duran vəzifələr etibarı ilə də əvvəlki Şuradan fərqlənirdi. Artıq onun tərkibinə ölkənin Silahlı Qüvvələrini təmsil edən veteranların daxil edilməsi hərbi hissələr, xüsusilə yeni yaradılmaqda olan Müdafiə Nazirliyi ilə daha sıx əlaqələrin qurulmasına imkan yaradırdı.

Şuranın II Respublika Konfransında onun sədri Mustafa Nəsirov hesabat məruzəsi ilə çıxış etmişdir. Artıq bütün ölkə veteranlarını öz ətrafında birləşdirən vahid bir təşkilatın təqribən 4 il 10 aylıq dövrdəki fəaliyyətini əhatə edən bu məruzənin bəzi məqamlarını çatdırmaqla, görülmüş işlərin həcmi barədə oxucuda müəyyən təsəvvür yaratmaq istəyirik.

"1986-cı Ümumittifaq Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yaradılması yaşlı nəslin həyatında əlamətdar hadisə olmuşdur. O, veteranların çoxlu sayda dağınıq birliklərini vahid təşkilatda birləşdirmiş, ölkədə yaşlı nəslin birləşməyə olan daxili tələbatını əks etdirən veteran hərəkatının inkişafına, veteranların sosial-iqtisadi mənafeələrinin müdafiəsinə kömək etmişdir. Ötən beş il ərzində o, mübariz və hamı tərəfindən tanınmış bir ictimai təşklata çevrilmişdir.

Azərbaycan Veteranlar Təşkilatı 1987-ci ilin martında təsis konfransında yaradılmış və sonradan əmək kollektivlərindəki və yaşayış yerlərindəki bütün ilk təşkilatları özündə birləşdirilmişdir.

Veteran hərəkatına təcrübəli, hörmətli veteranlar cəlb olunmuş, onlar Şuraları formalaşdırmağa kömək etmişlər. Hazırda veteran hərəkatı möhkəm təşkilat strukturuna malikdir və bütün respublikanı əhatə edir.

Nizamnaməyə uyğun olaraq Veteranlar Şurasının fəaliyyətinə bilavasitə rəhbərliyi Respublika Şurasının plenumu və Rayəsat Heyəti həyata keçirmişdir. 4 il 10 ay ərzində 7 plenum, Rəyasət Heyətinin 14 iclası olmuş, şuranın Bürosu müntəzəm işləmişdir. Lazım gəldikdə bir sıra elmi-praktik konfranslar və seminarlar keçirilmişdir.

Plenumlarda və Rəyasət Heyətlərinin iclaslarında 60-dan çox əsas məsələ müzakirə olunmuş, geniş, konkret qərarlar qəbul edilmişdir. Bunların həyata keçirilməsinə həm





Respublika Şurası, həm də vilayət, şəhər və rayon Şuraları nəzarət etmişlər.

Veteranlara qayğı göstərilərək, Respublika Veteranlar Şurasının təşəbbüsü və vəsadəti ilə bu dövr ərzində veteranların yaşayışının və fəaliyyətinin yaxşılaşdırılması məqsədi ilə 20-dən artıq fərman və qərar verilmişdir. Bunların arasında veteranların ictimai nəqliyyatdan pulsuz istifadəsi haqqında, veteranların və həlak olmuş döyüşçülərin ailələrinin böyük bir hissəsinə yaşadıqları mənzillərin onların şəxsi mülkiyyətinə verilməsi haqqında, Mərdəkanda veteranlar hospitalının yaradılması haqqında, kooperativlərin təşkili haqqında, mənzillərin təmiri haqqında, dərmanların pulsuz alınması haqqında, növbədənkənar telefon çəkilməsi haqqında və s. fərman və qərarları göstərmək olar.

Veteranlara mədəni xidmət haqqında Azərbaycan Həmkarlar İttifaqları Şurası və respublika Mədəniyyət Nazirliyi ilə birgə qəbul edilən proqrama əsasən mədəniyyət evləri və saraylarının nəzdində veteranlar klublarının təşkili təmin edilmişdir. Həmin məsələ Respublika Veteranlar Şurasının Rəyasət Heyətində müzakirə olunmuş, onun həllinin məqsədəuyğunluğu təsdiq edilmişdir.

Respublika Veteran Şurasının ötən hesabat-seçki kompaniyasının təhlili göstərmişdir ki, bugünkü dövrdə mürəkkəb şəraitə baxmayaraq, yaşlı nəsildən olan isanlar düzgün yoldadırlar, onlar öz qüvvə və imkanları daxilində vəziyyəti sabitləşdirməyə çalışırlar, əməkçiləri, ümumən əhalini təkidlə birliyə çağırır, bunu ərazi bütıvlüyümüzün və sərhədlərimizin toxunulmazlığının təmin edilməsi işində mühüm məsələ sayırlar.

Beləliklə, təkcə qeyd olunan nümunələr göstərir ki, təsis konfransından ötən dövr ərzində Azərbaycanın Veteranlar Şurası 1 milyonadək müharibə, əmək və Silahlı Qüvvələr

veteranını birləşdirərək cəmiyyətimizdə təsiri və qüvvəsi olan nüfuzlu təşkilata çevrilmişdir.

Bununla belə, biz veteran hərəkatının daha da təkmilləşməsinin və inkişafının zəruriliyini kəskin hiss edirik. Bununla əlaqədar icazə verin bəzi problemlər üzərində dayanım.

Ölkədə, respublikamızda baş verən ictimai-siyasi proseslərin mürəkkəbliyi və ziddiyyətliliyi, siyasi qüvvələrin mübarizəsi bütün xalq, xüsusilə yaşlı nəsil tərəfindən çətin qəbul edilir. Azərbaycan Respublikasının düşdüyü vəziyyət ciddi narahatlıq doğurur. Dağlıq Qarabağ problemi hamıya məlumdur. Üstəlik inflyasiya, qiymətlərin və möhtəkirliyin artması, ərzaq qıtlığı, hər yerdə intizamın aşağı düşməsi idarəetmənin bütün pillələrində məsuliyyətsizliyin artması və belə bir şəraitdə respublikanın yeni sərt bazar iqtisadi münasibətlərinə keçməsi vəziyyəti xeyli çətinləşdirmişdir. Digər tərəfdən, yaranmış şəraitlə əlaqədar respublikalar arasında əlaqələr tamamilə yeni süveren əsaslarda yenidən qurulmalıdır.

Suverenlik, istiqlaliyyət, demokratiya bunlar müqəddəs anlayışlardır, bu yüksəkliklərə çatmaq çox böyük səylər tələb edir. Bu vəziyyətdə veteranların, yaşlı nəslin rolunu qiymətləndirmək çətindir. Cəmiyyətimizin milli həmrəyliyə, birliyə, yüksək mədəniyyətə, xalqın rifahının yüksəlməsinə nail olunmasında biz veteranlar kömək etməliyik.

Mövcud şəraitdə biz, bütün bu hadisələr üzündən fəaliyyəti xeyli çətinləşən Azərbaycan veteranları milli birlik yaradılmasına hissediləcək töhfəmizi verməliyik. Axı müxalifətdəkilər də Azərbaycan xalqının oğul və qızlarıdır.

Bu məqsədlə vilayət, şəhər, rayon veteran şuralarının hamısında müxalifətlə birlikdə demokratik islahatlar proqramı hazırlamaq, bütün məsələləri dialoq yolu ilə həll etmək yaxşı olardı.





Bazar iqtisadiyyatına keçid şəraitində veteranların sosial müdafiəsinə dair tədbirlər qəbul edilməsinə baxmayaraq (mən burada pensiya təminatının təkmilləşdirilməsini, pensiyaların indeksləşdirilməsini, kompensasiyanı, veteranlara mənzil verilməsini və s. məsələləri nəzərdə tuturam), indiki vaxtda veteranların normal yaşayışını və fəaliyyətini təmin etmir. Bundan əlavə, onlar vacib məsələlərin həlli, güzəştlərin reallaşdırılması zamanı tez-tez özlərinə qarşı biganəliklə, formal-bürokratik münasibətlə qarşılaşırlar.

Tələbatın son dərəcə kəskin olaraq qalmasına baxmayaraq, xüsusilə müharibə əlilləri və iştirakçılarının mənzil, telefon problemləri hələ də həll edilməmişdir. Səhiyyə sahəsində də həll olunmamış çoxlu məsələlər var, internat-evlərdə həkim və orta tibb kadrları məsələsi ilə bağlı vəziyyət yaxşılaşmamışdır, ticarət və məişət xidməti pisləşməkdə davam edir, qıt mallarla möhtəkirlik artır.

Müharibə, Əmək Veteranları Şuraları heç də hər yerdə özlərini ictimaiyyətin nüfuzlu orqanları kimi göstərmir, veteranların qanuni hüquqlarının müdafiəsi, onların ehtiyaclarının ödənilməsi üçün mövcud imkanlardan zəif istifadə edirlər. Respublika Şurasına daxil olan məktub, şikayət və ərizələrin təhlilinin yekunları bunu aydın göstərir. Hər il biz 600-650 məktub və ərizə alır, min nəfərədək adamı öz qərargahımızda qəbul edir, yaxud müraciətlərini telefon vasitəsi ilə qəbul edirik. Hər il Ümumittifaq Veteranlar Şurasına Azərbaycandan 100-dək ərizə daxil olurdu. Ümumi müraciətlərin 16 faizi mənzil məsələsi ilə bağlı, 50 faizi şəxsi istifadə üçün avtomobil almaq barədə, qalanları ticarət, məişət xidməti, tibbi xidmətlə əlaqədar olmuşdur.

Veteran təşkilatlarının həqiqətən nüfuzlu təşkilatlar olması üçün onlarda bütün veteranların fəaliyyətinin vəhdəti təmin edilməlidir. Şuralar veteranların necə yaşamasını, nəyə ehtiyacları olmasını yaxşı bilməli, yerli orqanlarla birlikdə

onların problemlərini həll etməyin yollarını tapmalı, ayrı-ayrı orqanlar tərəfindən yaşlı nəslə qarşı olan laqeydlik, eqoizm, daşürəklik təzahürləri ilə fəal mübarizə aparmalıdırlar.

Böyük Vətən müharibəsində həlak olan döyüşçülərin xatirəsini əbədiləşdirəcək "Xatirə kitabı"nın komplektləşdirilməsi, sovetdöyüşçülərivəvətəndaşlarınındəfn edildiyi qəbristanlıqların və tək-tək qəbirlərin abadlaşdırılması, qaydaya salınması, tarix və mədəniyyət abidələrinin qorunması və onlardan istifadə olunması, muzeylərin komplektləşdirilmsi və s. məsələlər sahəsində də müəyyən işlər görülmüşdür. Azərbaycan KP MK-nın Respublika "Xatirə kitabı" haqqında 6 aprel 1989-cu il tarixli qərarına uyğun olaraq müəyyən işlər görülsə də, bununla belə, onu da qeyd etməmək olmaz ki, "Xatirə kitabı"nın nəşri uçun qoyulan müddətin məhdudluğuna baxmayaraq, onun komplektləşdirilməsinin gedişi narahatlıq doğurur. Hələlik həlak olan və itkin düşən cəmi 50 min adam haqqında məlumat toplanmışdır ki, bu da ümumi sayın yalnız 15 faizinin təşkil edir. Həlak olan döyüşçülərin qəbirlərinin təhqir edilməsi hallarına yol verilir, bəzən mədəniyyət abidələri məhv edilir və s. bu kimi arzuolunmaz hallar baş verir.

Silahlı Qüvvələr veteranlarının respublikada, xüsusilə sərhədyanı rayonlarda siyasi vəziyyətin sabitləşdirilməsi işində məhdud iştirak etməsi də bizi qəne edə bilməz. Hazırda respublika Şurasının aktivində 20-dək adam işləyir ki, bu da onların ümumi sayının çox cüzi faizini təşkil edir. Əlbəttə, bu, olduqca azdır və bu məsələyə də lazımi diqqət göstərməyin vaxtı çatıb.

Respublika Veteranlar Şurası özünün başlıca fəaliyyətini daimi komissiyalar vasitəsilə qurur. Daimi komissiyalar respublika Şurasının icra orqanlarıdır. Təsis konfransından sonra Şuranıntərkibində 5 daimikomissiyayaradılmışvətərkibi təsdiq edilmişdir. Bizim təcrübəmiz yox idi və komissiyaların tərkibinə bir sıra iş qabiliyyəti olmayan şəxslər daxil olmuşdu.





Sonralar komissiyaların tərkibi dəyişmiş, ideoloji və gənclər arasında iş komisiyaları yenidən təşkil edilmişdir (əvvələr onlar ayrı idi, sonra birləşdirilmiş, 1990-cı ildə isə yenidən ayrılmışdır). Həyat öz düzəlişlərini etdi, yeni komissiyalar yaradılması zərurəti qarşıya çıxdı. Hazırda Şuranın tərkibində 8 daimi komissiya və mətbuat mərkəzi işləyir".

Göründüyü kimi hesabat məruzəsində o dövrdə respublikadakı vəziyyət hərtərəfli təhlil olunmuş, ondan çıxış yolları göstərilmiş, Şuranın qarşısında duran vəzifələr düzgün müəyyən edilmişdir. Əlbəttə, məruzə hazırlanarkən 4 il 10 aylıq bir dövrü əhatə edən fəaliyyətin başlıca yekunlarından istifadə olunmuş, konfransın baş tutduğu tarixdən cəmi bir həftə əvvəl, 1991-ci ilin 18 oktyabrında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpası haqqında konstitusiya aktının qəbuluna, onun respublikanın bu günü və gələcək inkişaf perspektivi ilə bağlı doğurduğu yeni şəraitə, ümumən müstəqilliyin ölkə qarşısında açdığı geniş imkanlara lazımi qədər diqqət yetirilməmişdir. Ancaq buna baxmayaraq, kifayət qədər idarəetmə təcrübəsinə malik, vəziyyəti düzgün qiymətləndirməyi bacaran rəhbər vəzifələrdə işləmiş şəxs kimi ehtiyatda olan general-mayor Mustafa Nəsirov Respublika Veteranlar Şurasının ümumi mövqeyini ortaya qoymuş, perspektivləri düzgün müəyyən etmişdir.

Respublika Veteranlar Şurasının 2-ci Konfransından sonrakı fəaliyyəti Azərbaycanın dövlət müstəqilliyinin bərpasından cəmi bir həftə sonra başladığından artıq prioritetlər dəyişmişdi. Qarşıya qoyulan ən ümdə vəzifə Təşkilatın müstəqil dövlətin veteranlarla bağlı yeritdiyi siyasətin əsas aparıcı qüvvəsinə çevrilməklə, bu siyasətin uğurla həyata keçirilməsinə nail olmaqdan ibarət idi. Bunun üçünsə, bütün fəaliyyət istiqamətlərində işin yeni keyfiyyət səviyyəsinə qaldırılması tələb edilirdi. Artıq hansısa mərkəzdən göstərişlərin, tapşırıqların gəlməsi və bunların sadəcə icra

edilməsi kifayət deyildi. İndi təşəbbüskarlıq, təşkilatçılıq bacarığı, sürətlə dəyişən hadisə və proseslərə çevik və peşəkar səviyyədə reaksiya vermək, veteranları ümumrespublika mənafelərinin ilk müdafiəçilərinə çevirmək səriştəsi tələb olunurdu.

Müstəqilliyin bərpasının ilk dövrləri isə doğrudan da, mürəkkəb və ziddiyyətli bir dövr idi. Azərbaycan bir tərəfdən ona əsassız torpaq iddialarını reallaşdırmağa çalışan Ermənistanın hərbi birləşmələrinin müntəzəm xarakter alan hücumlarının qarşısını almalı, digər tərəfdən keçmiş ittifaqın yeni müstəqil respublikaları ilə yeni iqtisadi əlaqələr qurmalı, həm də ölkə daxilində hakimiyyət uğrunda günbəgün kəskinləşən mübarizənin gətirə biləcəyi fəsadları netrallaşdırmalı idi.

Respublika Veteranlar Şurasının fəaliyyətindən danışarkən başlıca istiqamətlərdən sayılan təbliğat işinin necə qurulmasına da diqqət yetirilməlidir. Respublika Veteranlar Şurası yaradıldığı gündən etibarən onun gördüyü işlər, həyata keçirilən tədbirlər barədə ölkə KİV-ində müntəzəm surətdə məlumatlar dərc olunmuşAzətbaycan Televiziyası və Radiosunda yayımlanmışdır. Mərkəzi qəzetlər - “Kommunist”, “Azərbaycan gəncləri”, “Bakı” və “Баку» qəzetləri, Azərbaycan Televiziyası və Radiosu bu sahəyə imkan daxilində yer ayırmağa, Şuranın fəaliyyəti barədə ictimaiyyəti məlumatlandırmağa çalışmışdır. Lakin həmin illərdə, xüsusilə dövlət müstəqilliyinin bərpasından əvvəlki dövrdə Azərbaycanda KİV-in sayının və imkanlarının məhdudluğu ilə əlaqədar Şuranın keçirdiyi tədbirlərlə bağlı ictimaiyyətin operativ məlumatlandırılması bir çox hallarda mümkün olmamışdır. İnformasiyaların cəmiyyətə vaxtında və daha geniş formada çatdırılması, diqqətin Şuranın fəaliyyətinin dolğun işıqlandırılmasına yönəldilməsi zərurəti Azərbaycan





veteran təşkilatlarının qəzeti olan “Hikmət” qəzetinin nəşri barədə qərar qəbul edilməsi ilə nəticələnmişdir.

Bununla da Respublika Müharibə və Əmək Veteranları Şurası həyata keçirdiyi tədbirlər, gördüyü işlər barədə ölkə ictimaiyyətini dolğun şəkildə məlumatlandırmaq məqsədinin reallaşdırılmasına nail olunmuşdur. Artıq ölkə və xarici KİV-in (həmçinin elektron) imkanlarından maksimum istifadə etməklə yanaşı, öz mətbuat orqanını və nəşriyyatını da yaradan Təşkilat tərəfindən bu məsələlərin xüsusi diqqət mərkəzində saxlanılması mümküm olacaqdı. Göstərilən, yəni təbliğat işi sahəsindəki fəaliyyətin maraq kəsb etdiyini nəzərə alaraq, bu istiqamətdə hansı addımların atıldığını bir qədər geniş şəkildə diqqətə çatdırmağı lazım bildik.

“Veteran” kooperativləri Birliyinin sədri S.Murtuzayevin Azərbaycan Respublikası Müharibə və Əmək Veteranlar Şurasının sədri M.C.Nəsirov yoldaşa ünvanladığı 34 saylı 16 yanvar 1991-ci il tarixli məktub bu baxımdan vacib əhəmiyyət kəsb edir. Məktubda yazılır:

Həftəlik “Hikmət” veteran qəzetinin nəşri üçün hazırlıq işləri başa çatdırılmışdır.

Qəzetin redaksiya kollegiyası və baş redaktor üçün razılığınızı xahiş edirəm (redaksiya kollegiyasının təxmini tərkibi təqdim olunur).

Baş redaktor əvəzi üçün razılaşdırılmış M.Aslanov yoldaş indi səhhəti ilə əlaqədar imtina edir. Həmin vəzifənin Plenumda təsdiq edilənə qədər Redaksiya Kollegiyasının üzvü, Böyük Vətən müharibəsi veteranı, yazıçı publisist Əlimov Gəray Fəzli oğluna (Gəray Fəzli) həvalə olunmasını xahiş edirik”.

Yeri gəlmişkən, 16 yanvar 1991-ci il tarixinə aid digər arxiv sənədindən məlum olur ki, “Hikmət” qəzetinin Redaksiya Heyəti (arxiv sənədlərindən və qəzetin ilk sayından məlum

olur ki, əslində Nəşr Şurası –C.X) aşağıdakı şəxslərdən ibarət olması qərara alınmışdır:

1.Nəsirov M.C. – Respublika Müharibə və Əmək Veteranları Şurasının sədri;

2.Mahmudov R.İ. – Dövlət Mətbuat Komitəsinin sədri;
3.Murtuzayev S.H. – Respublika Müharibə və Əmək

Veteranları Şurasının sədr müavini, "Veteran" kooperativləri Birliyinin sədri;

4.Hüseynov B.M. – Respublika Müharibə və əmək veteranları Şurasının məsul katibi, ideoloji komissiyanın sədri;

5.Hüseynov A.A.–Müharibə və Əmək Veteranları Şurasının Rəyasət heyəti üzvü;

6.Abbasov A.Ə. – SSRİ Müharibə veteranları Bakı bölməsinin sədri;

7.Səlimov S.H. – Müharibə və Əmək veteranları Bakı şəhər Şurasının sədri;

8.Həsənov Ç.K. – Respublika Müharibə və Əmək veteranları Şurasının sosial komissiyasının sədri, "Veteran" kooperativləri Birliyi sədrinin birinci müavini;

9.Abbasov M.H. – "26 Bakı komissarı" rayonu müharibə və əmək veteranları şurasının sədri;

10.Əlimov K.F. – Yazıçı, publisist, müharibə veteranı; 11.Okulov M.A. – veteran jurnalist;

12.Aslanov M.C. – veteran journalist; 13.Cavadlı C.Ə. – veteran jurnalist;

14.Qurbanov Z.Q. – Respublika Qaçqınlar Komitəsinin məsul katibi;

15.Rüstəmov A.İ. – N.Nərimanov adına Azərbaycan Tibb İnstitutunun kafedra müdiri, professor".

Eyni tarixdə Respublika Müharibə və Əmək Veteranları Şurasının sədri Mustafa Nəsirovun imzaladığı Sərəncamla Respublika "Veteran" Kooperativləri Birliyinin sədri Sadıq Murtuzayevin təqdimatı əsasında Şuranın mətbuat orqanı





"Hikmət" qəzetinin baş redaktoru vəzifəsi müvəqqəti olaraq (plenumun təsdiqinə qədər) Böyük Vətən müharibəsi veteranı, yazıçı-jurnalist Gəray Fəzliyə (Əlimov Gəray Fəzli oğluna) həvalə edilmişdir".




19 mart 1991-ci ildə "Hikmət" qəzetinin ilk sayı işıq üzü görmüşdür. Qəzetin baş redaktoru şair Gəray Fəzli,baş redaktor müavini Azər Abdulla ilə yanaşı, Redaksiya Heyətinin üzvləri də tanınmış jurnailst, publisistlərdən ibarət olmuşdur. Həmin heyətdə Azərbaycan jurnalistikasının inkişafında böyükxidmətləri olan, "Bakı" və "Баку» qəzetlərinin baş redaktoru, Azərbaycan Dövlət Universiteti Jurnalistika fakültəsinin müəllimi Nəsir İmanquliyev, alim və jurnalist İmamverdi Əbilov, şair, publisist Həmid Abbas, Fətəli Sahib və Mirabbas Aslanov təmsil edilmişdilər. Qəzetin çapa başlaması artıq təbliğati işin canlanmasına, bu sahədə bir sıra məsələlərin həllinə imkan yaradırdı. Şuranəinki öz fəaliyyətinin bütün sahələri üzrə məlumatları ən geci bir həftə ərzində ölkə ictimaiyyətinə çatdıra biləcəkdi, diqqəti ümumən veteranların həyatına, gündəlik qayğılarına, sosial problemlərinin həllinə yönəltmək mümkün olacaqdı. Bunu nəzərə alan 8 səhifəlik "Hikmət" qəzeti özünün vəqəzet əməkdaşlarınınmanifest xarakterli "Hikmət"ə sədaqət andımız" baş məqaləsi ilə veteranlara, onlar vasitəsilə bütün oxuculara müraciət edərək yazırdı:

"Hikmət" adı ilə dünyaya göz açanbu qəzetin ilk sözü, ilk andı Sizsiniz. O, Sizin üçün doğulub, bütün ömrü boyu Sizinlə, Sizin varlığınızla nəfəs alacaq.

Siz – respublikamızda yaşayan bir milyondan artıq müharibə və əmək veteranı, SSRİ Silahlı Qüvvələrinin veteran döyüşçüləri “Hikmət”ə daimi oxucu olacaqsınız, onun sıhifələrində ən nəcib, ən müqəddəs arzularınızın əks-sədasını eşidəcəksiniz. Bu arzuların gecikmiş qaranquşu olan veteran qəzetinə “Hikmət” adını seçməyimizin də ramzi mənası var. Əndoğru yol – hikmət yoludur, ağıl, zəka yoludur.”


«УҒУРЛАР ДИЛӘЈИРӘМ»

Azərbaycanın öz tarixinin ən çətin və mürəkkəb bir dövrünü yaşadığı illərdə oxucularını hikmətə, ağıllı hərəkət və qərarlar qəbul etməyə səsləyən “Hikmət”ə böyük ehtiyac var idi. İlk saydan etibarən qəzetin bunu birmənalı bəyan etməsi heç də təsadüfi deyildi və oxucuların diqqətinə çatdırılan bütün məsələlərə qəzetin bu prizmadan yanaşağını, ölkə və millət üçün taleyüklü məsələlərin qaldırılmasında yaxından iştirak edəcəyini göstərirdi. Lakin təəssüf ki, “Hikmət”in ömrü uzun olmadı. İlk sayı işıq üzü gördükdən sonra maliyyə çatışmazlığı ucbatından onun çapı bir müddət təxirə salındı.





Bu fasilə ilyarımdan bir qədər çox – 1992-ci ilin noyabr ayınadək çəkdi.


НӘЗАКӘТ, ӘДӘБ ЧӘРЧИВӘСИНДӘ ИТТИҺАМ

Respublika Veteranlar Şurasının “Hikmət” qəzeti ilə bağlı daha bir arxiv sənədi

Bu sənəddən məlum olur ki, 1992-ci il noyabr ayından etibarən qəzetin çapı Azərbaycanın tanınmış ziyalısı, görkəmli alim, yazıçı-jurnalist, filologiya elmləri doktoru Teymur Əhmədova həvalə edilmişdir.

“Respublika Veteranlar Şurasının Sərəncamı № 81 30 oktyabr 1992-ci il.

Yoldaş Əhmədov Teymur Əkbər oğlu 30 oktyabr 1992-ci il tarixdən "Hikmət" qəzetinin baş redaktoru təyin edilsin.



Ветераны Советского Азербайджана вступают в Восточный Новый год — Новруз, располагая своим печатным органом — газетой «Хикмет» («Мудрость» Это — большое и радостное событие для людей старшего поколения, всех трудящихся республики. Всесоюзный совет ветеранов войны, труда и Вооруженных Сил СССР горячо поздравляет читателей, редакционный коллектив, Республиканский совет ветеранов с замечательным подарком — выходом первого номера газеты «Хикмет» и желает, чтобы его мудрое слово всегда способствовало

ДОБРЫЙ ПУТЬ,

«ХИКМЕТ»!

Н. ОГАРКОВ,

Председатель Всесоюзно
совета ветеранов, Марш
Советского Союза

сплочению тружеников вс
возрастов вокруг идей пе
стройки, преемственнос
лучших традиций ветера
ской гвардии молодежью, у
реплению позиций Советск
го Азербайджана в братск
семье народов Союза Сов
ских Социалистических Р
публик. Газета позволит Р
публиканскому совету
ранов еще эффективнее п
водить работу по социальн
защите старшего поколен
проявлять о нем повседн
ную заботу и внимание.
Творческих успехов
вдохновения редакционно
коллективу газеты на бл
родном поприще защиты
тересов ветеранов респуб
ки

Bu məsələ Respublika Veteranlar Şurasının Plenumunda müzakirə olunsun.

Respublika Veteranlar Şurasının sədri, ehtiyatda olan general-mayor M.Nəsirov".

Təəssüf ki, bütün cəhdlərimizə baxmayaraq, biz "Hikmət" qəzetinin Teymur Əhmədovun baş redaktorluğu ilə işıq üzü görmüş həmin, yenə də yeganə sayını əldə edə bilmədik. Çünki maliyyə çatışmazlığı ucbatından "Hikmət"in çapını davam etdirmək mümkün olmayıbdır.

Maraq doğurduğunu nəzərə alaraq, "Hikmət" qəzetinin birinci sayında dərc edilmiş 3 materialı oxuculara qəzetin





nəşr olunduğu kiril əlifbasında skan edərək çatdırırıq. Bunlar qəzetin ikinci səhifəsində verilmiş Azərbaycanın hökumət başçısına "Nəzakət, ədəb çərçivəsində ittiham" adlı müraciətin mətni, "Hikmət"ə uğurlu yol arzulanan Ümumittifaq Veteranlar Şurası sədrinin təbrik məktubu və 7-ci səhifədə verilmiş Respublika Veteranlar Şurasının sədri ilə "Uğurlar diləyirəm" adlı müsahibəsidir.

Digər materiallara gəlincə, bunlar barəsində qısaca məlumat verməyi lazım bilirik. Qəzetin nəşri xalqımızın böyük sevinclə qeyd etdiyi, gözəl Novruz bayramı günlərinə təsadüf etdiyindən birinci səhifədəki 3 yazıdan 2-si Novruza həsr olunmuşdur. "Yaz alqışı, bayram diləyi" və "Novruz gəldi - yaz gəldi" məqaləsi. "Hikmət"ə sadaqət andımız" manşet yazısı barədə isə artıq oxuculara məlumat çatdırılıb. 3-cü səhifədə akademik İmam Mustafayevin "Hikmət"ə təbriki, "Hikmət"ə sədaqət andımız" manşet yazısının rus dilində qısaldılmış variantı, "Rayon XDS icraiyyə komitələrinin sədrlərinə, hespublikanın bütün rayon rəhbərlərinə" "Veteran" kooperativləri Respublika Birliyi və "Hikmət" qəzeti redaksiyasının müraciəti, 4-cü və 5-ci səhifələrdə Bakı şəhər Təcili tibbi yardım klinik xəstəxanasının baş həkimi Azərbaycan Respublikasının əməkdar həkimi, tibb elmləri namizədi Cahangir Hüseynovla Bakıda törədilmiş 20 Yanvar faciəsi ilə bağlı bu qanlı qırğını törədənləri faktların dili ilə ittuham edən "Əsrimizin təzadları" adlı geniş müsahibə, "İttfaq müqaviləsi lazımdırmı?" sorğusuna 2 cavab (yeri gəlmişkən hər iki cavabda yeni İttifaq müqaviləsinin lazım olmadığı bildirilib), "Sərhəd küçəsi" yazısı, 6-cı səhifədə 12-ci çağrış Azərbaycan Respublikası Ali Sovetinin birinci sessiyasının gedişi ilə bağlı müsahibələr, "Azərbaycan qadını" jurnalının baş redaktoru, yazıçı Xalidə Hasilova və "Vətən səsi" qəzetinin baş redaktoru, professor Teymur Əhmədovun "Hikmət"ə təbrikləri, 416-cı Azərbaycan Taqanrok diviziyasının

döyüşçüsü Cənnət Kazımovanın 70 illiyi ilə bağlı zarisovka, 7-ci səhifədə "İttfaq müqaviləsi lazımdırmı?" sorğusunun davamı və eyni ruhlu cavab, "Get ay batandan sonra gəl..." adlı felyoton, 8-ci səhifədə "Novruz duyğuları" adlı şeir, Tahir Abbaslının "Qocafəndi… məramnaməsi" adlı yazısı dərc olunmuşdur. Birinci sayı göstərirdi ki, "Hikmət" həqiqətən də nəinki veteranların maraqlarını təmsil edəcək səviyyədə, həmçinin ölkənin taleyüklü məsələlərini qaldırmaqla, onların həlli yollarının tapılmasında öz sözünü deyə biləcək qəzet olacaqdı.



Şuranın 1991-ci ilin oktyabrından 1993-cü ilin iyun ayına qədərki fəaliyyəti, baş verən hadisələrdə iştirakı və bunlara münasibətinin təhlili göstərir ki, bu dövrdə müstəqil dövlətin veteranlarla bağlı siyasəti dəqiq müəyyənləşdirlmədiyindən və ölkədəki vəziyyətlə əlaqədar yuxarıda qeyd etdiyimiz səbəblərdən Təşkilatın fəaliyyətində pərakəndəlik müşahidə edilmişdir. Bəzi hallarda, xüsusilə ölkədaxili siyasi mübarizə məsələləri ilə bağlı Şura baş verənlərə ya vaxtında münasibət bildirməmiş, yaxud səthi yanaşma ilə kifayətlənmişdir.

Digər tərəfdən, Respublika Veteranlar Şurasının 1992-ci il iyun ayının 10-da Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin müvafiq qərarı əsasında rəsmi dövlət qeydiyyatına





alınmasına baxmayaraq, veteran hərəkatına və veteranlara münasibət həm əvvəlki, həm də 1993-cü ildən sonrakı dövrlə müqayisədə fərqli olmuşdur. Daha konkret desək həminillərlə müqayisədə bu münasibət mənfi olmuşdur. Doğrudur, bunun yuxarıda qeyd etdiyimiz bir sıra obyektiv səbəbləri də mövcud idi. Belə ki, veteranlarla bağlı dövlət siyasətinin illərlə formalaşdırıldığı sovet sistemi artıq dağılmış, müstəqilliyi yenicə bərpa olunmuş dövlətin bu sahədəki siyasəti və Veteranlar Şurasının fəaliyyətinin konkret istiqamətləri hələ dəqiq müəyyən edilməmişdi. Belə bir bir vaxtda Ermənistanla müharibə şəraitində ölkədə yaşanan gərginliklər də Respublika Veteranlar Şurasının, eləcə də digər ictimai birliklərin fəaliyyətinin lazımi səviyyədə qurulmasına maneçilik törədirdi. Bütün bunlar, həmçinin ölkədaxili çəkişmələrlə əlaqədar yaranmış vəziyyət nəticəsində, Təşkilatın fəaliyyəti əsasən formal xarakter daşımışdır.

Əsassız mülahizələr, o cümlədən alman faşizmi üzərində Qələbə günü olan 9 mayın bayram günü kimi qeyd edilməsinin məqsədəuyğun sayılmaması və s. düşünülməmiş bəyanatlar da veteran hərəkatına ciddi zərbə vurulmuşdur.

9 iyun 1993-cü ildənAzərbaycan Veteran Hərəkatının müasir mərhələsi başlanır. Ümummilli Lider Heydər Əliyevin Azərbaycana yenidən rəhbərliyə qayıtması ilə Veteranlar Təşkilatının fəaliyyəti bərpa olunmuş, veteranlara münasibət kardinal şəkildə dəyişmiş, bu istiqamətdə ardıcıl və məqsədyönlü addımlar atılmışdır. Ulu Öndərin imzaladığı ilk qanunlardan biri veteranların hüquqlarının bərpası ilə bağlı Azərbaycan Respublikası Milli Məclisinin qəbul etdiyi "Veteranlar haqqında" Qanun (1994-cü il 28 iyun) olmuşdur. Bunula da veteranlara dövlət qayğısı tamamilə bərpa edilmiş, onlara münasibət yüksək səviyyəyə qaldırılmışdır.

Veteranlar Təşkilatınınölkədəbaşverənhadisələrəbiga nə qalmadığını, yaranmış son dərəcədə gərgin vəziyyətlərdən

çıxış yollarının tapılmasına yardım göstərmək səylərinə nümunə kimi Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr VeteranlarıŞurasınınRəyasət Heyətinin 20 iyun 1993-cü il tarixli iclasını göstərmək olar. Faktiki vətəndaş müharibəsi təhlükəsi ilə üzləşmiş Azərbaycan Respublikasının düşdüyü dərin hərbi-siyasi böhrandan çıxarılması yollarının axtarıldığı həmin günlərdə veteranlar da öz sözlərini demiş, ölkənin parçalanmasına imkan verilməməsi, vəziyyətin sabitləşməsi üçün ulu öndərin apardığı gərgin fəaliyyətə bacardıqları qədər dəstək olmağa çalışmışlar. Arxiv sənədlərinə istinadən Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının Rəyasət Heyətinin 24 nəfər üzvündən 20 nəfər iştirak etdiyi həmin iclasın bəzi məqamlarını olduğu kimi çatdırmağı lazım bilirik.

"İclasda iştirak etmirlər: Əbilova A. İ., Əhmədov B., Terexov V.Q., - xəstədirlər, Axundov K.R. – üzrlü səbəbə görə.

Gündəlik:

1.Respublikada siyasi vəziyyətin gərginləşməsi ilə əlaqədar veteranlar təşkilatının vəzifələri. (Məlumat verir: yoldaş İsgəndərova İ.Q.)

2.Şirkətlərdə, müəssisələrdə və təşkilatlarda yardım fondunun yaradılması. (Məlumat verir: yoldaş İsgəndərova İ.Q.)

Birinci məsələ ilə bağlı Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası sədrinin I müavini İsgəndərova İ.Q. "Respublikada siyasi vəziyyətin gərginləşməsi ilə əlaqədar veteranlar təşkilatının vəzifələri"mövzusunda məlumat dinlənildi.

Çıxış etdilər:

Murtuzayev S.N., Səlimov S.Q., Abasov A.T., Baxışov A.V., Rüstəmov B.A., Həsənov Ç.K., Semenova T.A., Abdullayeva Ş., Haqverdiyev A.T., Mahmudov R.İ, Hüseynov B.M. və Nəsirov M.D. Ümumi çıxış edənlər - 12 nəfər.





Bütün çıxış edənlər respublikada hökm sürən son dərəcə kriminogen vəziyyətdən öz narahatlıqlarını bildirdilər. Qeyd olundu ki, prezidentin ətrafında olan fürsətçilər onun xarakterində olan zəiflikdən istifadə edib, iqtisadiyyatı məhv etdilər, respublikanın müdafiə gücünü zəiflətdilər və erməni işğalçıları bundan istifadə etdilər. Respublika prezidentinin Bakıdan getməsi ilə ölkədə siyasi vəziyyət daha da gərginləşdi. Bununla əlaqədar belə bir fikir qeyd olundu ki, II Dünya müharibəsinin ən ağır aylarında, alman - faşist qoşunlarının Moskva yaxınlığında olduğu bir zamanda İ.V. Stalin Kremldə öz postunu tərk etmədi və Moskvadan getmədi. Amma Azərbaycan Respublikasının prezidenti öz xalqını və ordusunu tək qoydu, Naxçıvan avtonom respublikasının Ordubad rayonunun Kələki kəndinə sığındı.

O cümlədən, vurğulandı ki, ölkə rəhbərliyi və prezident veteranların fikirləri ilə hesablaşmırlar, hətta onları qəbul edib dinləmirlər.Ordu bölmələrində, xususilə erməni işğalçıları ilə mübarizə aparan cəbhədə yerləşən hərbi hissələrdə veteranların köməyinə etibar etmirlər.

İclasda təkliflər səslənilmişdir: Yoldaş Nəsirov M.D. veteranların hüquqlarının qorunması işində öz deputat səlahiyyətlərindən, Milli Məclis tribunasından istifadə etməlidir.

Bundan başqa prezidentə təcili Bakıya qayıtması tələbi ilə teleqram vurulmalı, həmin teleqramın surəti Milli Məclisə də göndərilməlidir. Habelə teleqram S.Hüseynova da göndərməlidir.

Həmçinin, veteranlarınölkədəbaşverənhadisələrləbağlı, xalqı və ordunu vətəndaş müharibəsindən çəkindirmək, bütün qüvvəni respublikada hökm sürən vəziyyətin stabilləşməsinə yönətmək məqsədilə respublika televiziyasında çıxış etmək üçün bir qrup veteran seçilməlidir.

Birinci məsələni həll etdikdən sonra Veteranlar Şurasının Reyasət Heyəti qərara aldı:

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranalar Şurası Rəyasət Heyəti adından veteranların respublikada yaranmış vəziyyətə münasibətindən, prezidentin Bakıya qayıtmasından və ölkənin və Silahlı Qüvvələrin normal rəhbərliyini təmin etmək məqsədilə teleqramla Azərbaycan Respublikası Prezidenti Əbülfəz Elçibəyə və Milli Məclisə müraciət edəcəklər".

Qərar alındığı kimi həmin müraciət qəbul edilmiş, ancaq daha geniş dairəni əhatə etməklə ünvan bir qədər fərqli olmuşdur.

**"Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranalar Şurasının rəhbərlərinə, Ali Sovetin Milli Məclisinə, Silahlı Qüvvələrinə və bütün Azərbaycan xalqına**

Əziz yoldaşlar!

Respublikamızdakı ağır hərbi-siyasi və iqtisadi vəziyyət, xüsusilə Gəncədə və onun ətrafında baş verən faciəli vəziyyət, qarşıdurmalar, idarəetmə sahəsindəki pozuntular, ictima-siyasi qüvvələr arasındakı qeyri-normal münasibətlər dövlətçiliyimiz üçün ciddi təhlükə törədir.

Müstəqilliyimiz, istək və arzularımız siyasi oyunların, düzgün, ağıllı idarə edilməmənin qurbanı olur. Bir tərəfdən torpaqlarımız dalbadal əldən gedir, şəhər və kəndlərimiz viran edilir, insan tələfatı artır, digər tərəfdən isə iqtisadiyyat getdikcə bərbad hala düşür, yerlərdə başıpozuqluq, anarxiya hökm sürür, qanunlara riayət edilmir, hakimiyyət hərisliyi ziddiyyətləri gücləndirir. Ərazi bütövlüyümüzün, dövlətimizin, ictimai asayişimizin mühafizəsi üçün başlıca təminat olan Silahlı Qüvvələrimizin ayrı-ayrı hissələrində nizam-intizamın gözlənilməməsi, bəzi siyasi qüvvələrin ordudan,





hüquq mühafizə orqanlarından öz məqsədləri üçün istifadə etməyə cəhd göstərmələri, xüsusi silahlı dəstələr yaratmaları, Prezidentin ölkəni özbaşına qoyub getməsi xalqımızda haqlı hiddət və təşviş doğurur.

Belə bir vəziyyətdə veteranlar təşkilatı Respublika Prezidentinin bütün səlahiyyətlərinin Azərbaycan Respublikası Ali Sovetinin sədrinə verilməsi haqqında Milli Məclisin qərarını yaranmış ağır vəziyyətdən çıxmaq üçün ən düzgün tədbir kimi müdafiə edərək aşağıdakıları məqsədəuyğun sayırıq:

- Dövlət rəhbərliyinin həyata keçirilməsində həlledici rol oynayan bütün məsul vəzifələr tezliklə bacarıqlı, nüfuzlu kadrlarla möhkəmləndirilməli, hər yerdə ən ciddi nizam-intizam yaradılmalıdır.
- Əhalidə olan silahların dərhal yığılması təcili olaraq təşkil olunmalı bütün silahı birləşmələr vahid komandanlıqda birləşdirilməli, komandirlərin seçilməsi və məsuliyyəti məsələsinə yenidən baxılmalı, özbaşına silahlı dəstələr qəti qadağan edilməlidir.
- Dövlətin nüfuzlu rəhbər işçiləri bilavasitə cəbhə bölgələrinə təhkim olunmalı və onlardan cavabdehlik tələb edilməlidir.
- Bütün vasitələrdən istifadə etməklə milli barışıq yaradılmalı, əhalidə vətənpərvərlik hisslərini gücləndirən, cəbhənin təminatını yaxşılaşdıran tədbirlər görülməli, hər şey qələbə üçün şüarına hər yerdə real məzmun verilməlidir.
- İqtisadiyyatın idarəedilməsinə tələbkarlıq artırılmalı, bazar iqtisadiyyatı adı altındakı törədilən pozuntuların, özbaşınalıqların qarşısı alınmalı, qiymət siyasətində ciddi qayda yaradılmalıdır.
- Bir qrup veteranın bu yaxınlarda Qubadlı, Füzuli, Ağdam, Tərtər, Ağdərə və Tovuz bölgələrində döyüşçülərlə görüşləri davam etdirilsin.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası böyük ömür yolu keçmiş, mübarizələrdə və sınaqlardan çıxmış veteranlar- babalar və atalar, nənələr və analar, bütün ağsaqqal və ağbirçək insanlar adından respublika Prezidentinin vəzifəsini icra edən Heydər Əliyevə, Milli Məclisin üzvlərinə, bütün xalq deputatlarına, hökumətə Respublikanın Müdafiə, Daxili işlər və Milli Təhlükəsizlik nazirliklərinin əməkdaşlarına, icra hakimiyyəti orqanlarının başçılarına, siyasi partiyalara, ictimai təşkilatlara, bütün Azərbaycan xalqına müraciət edərək, onları bu ağır günümüzdə daha müdrik, daha səfərbər və yekdil olmağa, vətənimizin müqqəddəratı üçün məsuliyyət daşımağa çağırır. Bu gün hər hansı inciklik, qarşıdurma, şəxsi mənafeyi üstün tutmaq, qanuna zidd hərəkət etmək, Azərbaycanın səadəti üçün var qüvvə ilə çalışmamaq, ayrı-seçkilik salmaq, parçalanma yaratmaq böyük xəyanət deməkdir. Kim belə hərəkət edərsə, o, xalqın, vətənin düşmənidir.

Biz bütün veteranları ayağa qalxmağa, doğma, sevimli Azərbaycanımızın suverenliyini, müstəqilliyini qorumağa, xalqın qüvvələrinin düşmən üzərində qələbə üçün birləşməsinə kömək göstərməyə, torpağımızda qardaş qanı tökülməsinə yol verməməyə çağırırıq.

Qoy heç kəs unutmasın ki, zaman gec-tez onun hərəkətinə qiymət verəcək, həyat kimin kim olduğunu göstərəcəkdir.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranalar Şurasının Rəyasət Heyəti.Bakı şəhəri, 20 iyun 1993-cü il”.

Respublika Veteranlar Şurası öz nəşrlərinin, hazırlanan kitab, broşüra və s. çapı məqsədi ilə “Vətən” adlı nəşriyyat yaratmış və onun fəaliyyətinin tənzimlənməsi üçün müvafiq tədbirlər görmüşdür. 1993-cü il aprel ayının 1-də imzalanmış 91 saylı sərəncam məhz bu məqsədin həyata keçirilməsinə xidmət etmişdir.





“Səbail rayon İcra hakimiyyətinin başçısının Sərəncamı

№ 605, 18.02.1993-cü il

“Vətən” nəşriyyatının qeydiyyata alınması haqqında Azərbaycan Respublikasında sahibkarlıq fəaliyyəti haqqında Qanuna və digər qanunvericilik aktlarına

uyğun və təsisçi:

Azərbaycan Respublikası Veteranlar Şurası Rəyasət Heyətinin müraciətinə əsasən:

1.“Vətən” Kiçik Müəssisəsi qeydə alınsın və Nizamnaməsinə müvafiq olaraq fəalliyyət göstərsin;

2.Bakı şəhəri, Lermontov 68, “Vətən” nəşriyyatının hüquqi ünvanı kimi qeydə alınsın;

3.“Vətən” nəşriyyatına öz adı ilə dairəvi möhür və künc ştampının hazırlanmasına, həmçinin Səbail rayon şöbəsində hesab açmağa icazə verilsin;

4.Sərəncamın surəti rayon vergi müfəttişliyinə göndərilsin.

K.Kərimov.

Əsli ilə düzdür”.

“Vətən” nəşriyyatının işə başlaması Respublika Veteranlar Şurasının fəaliyyətinin, veteranların zəngin həyat təcrübəsinin, müharibə və əmək cəbhəsində keçdikləri şərəfli yolun ölkə ictimaiyyətinə daha yaxından tanıdılması üçün müxtəlif kitabların, broşürlərin çap edilərək yayılmasına imkan vermişdir. Bu nəşriyyata ilk illərdə tanınmış naşir və jurnalist, ictimai xadim Rəşid Mahmudov direktorluq etmişdir.

Respublika Veteranlar Şurasının III Konfransı Respublika Veteranlar Şurasının III Konfransının keçirilməsi ilə əlaqədar Şura əvvəlcədən geniş hazırlıq işləri görmüşdür. Belə ki, yerlərdə müvafiq ilk təşkilatlarda hesabat-seçki yığıncaqlarının, oktyabr ayında şəhər və rayon veteranlar təşkilatlarında konfransların keçirilməsinə köməklik göstərilməsi məqsədi ilə 18 iyun 1996-cı ildə 171 saylı məktubla Azərbaycan Respublikası

Prezidenti AparatınınHumanitar siyasət şöbəsinin müdiri F.H.Abdullazadəyə müraciət edilmişdir. Həmin məktubda yazılırdı.

“Hörmətli Fatma xanım!

Azərbaycan Respublikası Prezidenti tərəfindən 28 iyun 1994-cu il tarixdə təsdiq edilmiş “Veteranlar haqqında” Qanuna əsasən fəaliyyət göstərən Respublika Veteranlar Şurası hazırda mühüm bir kompaniya qarşısındadır.

Respublika Veteranlar Şurasının Nizamnaməsinə uyğun səlahiyyət müddətinin qurtarması ilə əlaqədar cari ildə veteran təşkilatlarının bütün səviyyələrində hesabat-seçki tədbirləri keçirilməlidir.

Avqust-sentyabr aylarında ilk veteran təşkilatlarında hesabat-seçki yığıncaqlarının, oktyabr ayında şəhər və rayon veteranlar təşkilatlarında konfransların, noyabr ayında isə Respublika Veteranlar Şurası konfransının keçirilməsi nəzərdə tutulmuşdur.

Hesabat-seçki tədbirlərinin mütəşəkkil hazırlanıb keçirilməsi, bu sahədə veteran şuralarına hərtərəfli kömək göstərilməsdi məqsədilə Respublika Prezidenti aparatı tərəfindən şəhər və rayon icra hakimiyyəti başçılarına xüsusi məktubla müraciət edilməsini xahiş edirik.

Müraciətin mətni məktuba əlavə edilir. Diqqətinizə görə minnətdarıq.

***Respublika Veteranlar Şurasının sədri B.M.Hüseynov”.***





## Respublika Veteranlar Şurasının III Konfransı - 1-ci Qurultay

15 noyabr 1996-cı ildə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının 1-ci Qurultayı keçirilmişdir. Qurultayın sənədlərindən məlum olur ki, Təşkilatın 3-cü Konfrans kimi nəzərdə tutulan bu tədbirdən etibarən Şuranın ali məclisi 4 ildən bir keçiriləcək Qurultay müəyyən edilmişdir.

Şuranın 1991-1996-cı illər ərzindəki fəaliyyətinin daha dolğunçatdırılmasıüçünkifayətqədərməlumatverdiyininəzərə alaraq həmin mənbəyə istinad etməyi, Qurultayın sənədlərində əksini tapmış bəzi məqamları və Respublika Veteranlar Şurasının sədri B.Hüseynovun hesabat məruzəsindən müəyyən hissələri oxucuların diqqətinə çatdırmağı lazım bilirik.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının 3-cü Konfransına Rəspublika Veteranlar Şurasının sədri Bahadur Hüseynov sədrlik etmişdir.

3-cü Konfransa Naxçıvan Muxtar Respublikası, şəhər və rayon veteranlar təşkilatlarından 180 nümayəndə seçilmişdir. Konfransda 174 nəfər nümayəndə iştirak edir. Nümayəndələr konsfransın açılmasını təklif edirlər.Təklif səsə qoyulur və qəbul olunur.

Konfransın rəhbər orqanları müəyyən edilir.

Sədrlik edən B. Hüseynovun təklifilə Konfransın aparılması Respublika Veteranlar Şurasının büro üzvlərinə həvalə edilir və iş heyətinə Respublika Prezidenti aparatının məsul işçiləri - Əli Həsənov, Salman Cəfərov, akademik Mustafayev İmam Daşdəmir oğlu, Müstəqil Dövlətlər Birliyi Veteranları Əlaqələndirmə Şurası sədrinin müavini Necayev

Viktor Stepanoviç, Sovet İttifaqı Qəhramanları - Bunyatov Ziya Musa oğlu, Məhərrəmov Məlik Məlik oğlu, akademik İbrahimov İsmayıl Əli oğlu, Respublika Müdafiə Nazinin müavini Mehman Səlimov dəvət olunurlar.

Respublika Veteranlar Şurasının 2-ci Konfransından sonra dünyasını deyişmiş veteranların, ermeni işğalçılarına qarşı vuruşmalarda həlak olmuş şəhidlərimizin və dövlətçiliyimizin qorunması uğrunda həlak olanların xatirəsi bir dəqiqəlik sükütla yad edilir.

Sədr: Respublika veteranlar Şurasının Nizamnaməsi ilk veteran təşkilatlarının konfranslarında müzakirə edilərkən veteranlar təklif etmişdilər ki, Respublika Veteranlar Şurasınn ali məclisi konfrans yox, qurultay adlandırılsın. Bu təklif səsə qoyularkən yekdilliklə qəbul olunur. Bu münasibətlə sədrlik edən hamını təbrik edir. Respublika Veteranlar Şurası ali orqanının Qurultay adlandırılması barədə Qərar:

1.Respublika Veteranlar Şurasıının ali orqanı Qurultay hesab edilsin.

2.Respublika Veteranlar Şurası 3-cü Konfransı üçün verilmiş mandatlar 1-ci Qurultay üçün səlahiyyətli sayılsın.

Qurultay 5 nəfərdən ibarət Mandat Komissiyasını seçir (siyahı prrotokola əlavə edilir).

Qurultayın üç nəfdrdən ibarət katibliyi seçilir. Katibliyin siyahısı protokola əlavə edilir).

Qurultayın aşağıdakı gündəliyi təsdiq edilir: 1.Respublika Veteranlar Şurasının 2-ci Konfransından

sonra Respublika Veteranlar Şurasının gördüyü işlər barədə hesabatı (məruzəçi Respublika Veteranlar Şurasının sədri B.M.Hüseynov).

2.Respublika Veteranlar Şurası Təftiş Komissiyasının hesabatı (məruzəçi Respublika Veteranlar Şurası Təftiş Komissiyasının sədr müavini Dürrə Məmmədova - Kosmodemyanskaya).





3.Respublika Veteranlar Şurasının nizamnaməsinə əlavələr və dəyişikliklərin edilməsi barədə (məruzəçi Respublika Veteranlar Şurasının məsul katibi Əlövsət Baxışov).
4.Respublika Veteranlar Şurasının yeni rəhbər orqanlarının seçilməsi barədə.

5.Müstəqil Dövlətlər Birliyi Veteranlar Təşkilatları Əlaqələndirmə Şurasının konfransına nümayəndələrin seçilməsi barədə.

6.Qurultay nümayəndələri adından Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarına və Müstəqil Dölətlər Birliyi Vetaranlar Təşkilatına müraciətin qəbul olunması barədə.

Bələ təklif olunur ki, hesabat məruzəsinə 40-50 dəqiqə, digər məruzələrin hər biri üçün 10-15 dəqiqə vaxt ayrılsın, çıxışlar hər üç məruzəni dinlədikdən sonra başlansın. Çıxışlar 3-7 dəqiqə, arayış və təkliflər üçün 3 dəqiqə vaxt ayrılsın, saat 1-dən - 2-ə qədər nahar fasiləsi elan edilsin. Qurultayın işi bu gün qurtarsın. Təklif səsə qoyulur və yekdilliklə qəbul olunur. Qurultayda sədrliyi davam edən Respublika Veteranlar Şurası sədrinin 1-ci müavini Baloğlan Rüstəmov yoldaşın təklifi ilə birinci məsələ ilə əlaqdar məruzə üçün Respublika Veteranlar Şurasının sədri Bahadur Hüseynov yoldaşa söz verilir (məruzə protokola əlavə edilir).

Sədrlik edən B.Rüstəmov yoldaşın təklifi ilə Təftiş Komissiyasının işi barədə komissiyanın sədr müavini Dürrə Məmmədova-Kosmodemyanskaya yoldaşa söz verilir (məruzə protokola əlavə edilir).

Sədrlik edən B.Rüstəmov yoldaşın təklifilə üçüncü məruzə Respublika Veteranlar Şurasının Nizamnaməsinə əlavələr və dəyişiklər barədə Respublika Veteranlar Şurasının məsul katibi Ə.M.Baxışova söz verilir (məruzə protokola əlavə edilir).

Çıxışlar:

1.Çingiz Həsənov - Respublika Veteranlar Şurası sədrinin müavini.

2.Qara Fərzəliyev - Naxçıvan Muxtar Respublikasının Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının sədri.

3.İbadov İdris – Tərtər rayon veteranalar şurasının sədri.

4.Yusifov Yusif – Gəncə rayon veteranalar şurasının
5.Səlimov Səlim – Bakı şəhər Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının sədri.

6.Sabir Piroğlanov – Qusar rayon veteranalar şurasının sədri.

7.Əli Həsənov – Respublika Prezidenti Aparatının ictimai-siyasi işlər şöbəsinin müdiri.

8.Altay Məmmədov – Azərbaycan Vətən Müharibəsi Veteranları Cəmiyyətinin sədri.

9.İsmayıl İbrahimov – Respublika Uşaq Fondunun sədri.
10.Ağakiş Məmmədov – Zəngilan rayon veteranalar şurasının sədri.

11.Ağasəf Haxverdiyev – Bakı şəhəri Müharibə Veteranları Komitəsinin sədri.Mandat Komissiyasının hesabatı dinlənildi (hesabat məruzə ilə komissiyanın sədri İsrafil İsmayılov çıxış etdi).

12.Zemfira Tağizadə - Şəhidlər Anaları Şurasının sədri.
13.Məlik Məhərrəmov – Sovet İttifaqı qəhrəmanı.

14.Neçayev Viktor Stepanoviç - Müstəqil Dövlətlər Birliyi Veteranlarının Əlaqələndirmə Şurası sədrinin müavini. Natiq MDB veteranları adından qurultay iştirakçılarını təbrik edərək, onlara nailiyyətlər arzu etdi.

Sonra göstərdi ki, Əlaqələndirmə Şurasnın qarşısında duran məqsəd keçmiş Sovet İttifaqı ərazisində yaşamış veteranların birliyini təmin etmək, veteranların sosial-müdafiəsi sahəsində təcrübə mübadiləsi aparmaq, bir-





birimizə xalqlar dostluğunu möhkəmləndirməkdə kömək etməkdir. Azərbaycan Veteranlar Təşkilatı Əlaqələndirmə Şurasının fəal üvzələrindəndir. Sizdə veteran təşkilatlarının möhkəmlənməsinə lazımi diqqət yetirilir. Bu çox yaxşı haldır. Sizin sədriniz hörmətli B. Hüseynovun məruzəsindən və Sizin çıxışlarınızdan bildim ki, Azərbaycan veteranları böyük təşkilatı və siyasi qüüvvəyə çevrilib. Siz respublikanızın müstəqilliyi üçün hər şeyi etməyə hazırsınız, prezidentiniz Heydər Əliyev cənablarının fəaliyyətinə yüksək qiymət verirsiniz.

Biz də H.Əliyevi veteranların dostu, xalqlarımız arasında mehribanlıq yaradan şəxs kimi tanıyırıq. Böyük sınaqlardan çıxmış, alman faşizmi üzərində Qələbənin qazanılmasında fədakar qüvvə olan Azərbaycan veteranları keçmişi ilə fəxr edə bilərlər. Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyini Əlaqələndirmə Şurası tanıyır və müdafiə edir.

Qurultayı təbrik etmək üçün zala Azərbaycan Respublikası Müdafiə Nazirliyinin, hərbi hissələrin birləşmiş nümayəndələri daxil olurlar. Onlar Qurultayı və onun iştirakçılarını hərarətlə təbrik edirlər. Hərbi nümayəndələr respublikanın yaşlı nəsli qarşısında Vətənin hər qarış torpağını öz qanları və canları bahasına qorumağa and içirlər.

Azərbaycan veteranlar təşkilatının 1-ci Qurultayı nümayəndələrinin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin şəxsi heyətinə müraciətini oxumaq üçün söz Respublika Veteranlar Şurasının baş təlimatçısı, istefada olan podpolkovnik Məmmədnağı Kazımova verilir.

Müraciət Qurultay tərəfindən yekdilliklə qəbul olunur.

Qurultay Respublika Veteranlar Şurasının Nizamnaməsində əlavələr və dəyişiklər aparılması ilə əlaqədar Ə.M.Baxışovun məruzəsi və Qurultay iştirakçıları tərəfindən verilmiş qismən əlavələri təsdiq etmişdir.

Qurultay Respublika Veteranlar Şurasının yeni rəhbər orqanlarının seçilməsi barədə məsələnin müzakirəsinə keçir. Bununla əlaqədar olaraq respublika veteranlar şurasının məsul katibi Ə. M. Baxışova söz verilir.

Ə.M.Baxışov məlumat verir ki, Respublika Veteranlar Şurasının üzvlərinin seçilməsi ilə əlaqədar işi asanlaşdırmaq üçün Respublika Veteranlar Şurası tərəfindən siyahı hazırlanmışdır.

Qurultayın nümayəndələri siyahının oxunmasını məsləhət bilirlər. Həm də razılıq əldə edilir ki, Respublika Veteranlar Şurasının üzvləri 123 nəfər, Təftiş Komisiyasının üzvləri 17 nəfər olsun və açıq səsvərmə yolu ilə seçilsinlər.

Ə.M.Baxışov Respublika Veteranlar Şurasının üzvlərinin siyahısını oxuyur müəyyən əlavələrlə yekdilliklə qəbul olunur.

Respublika Veteranlar Şurası Təftiş Komissiyasının üzvlərinin siyahısı müəyyən əlavələrlə qəbul olunur.

Qurultay gündəliyinin 5ci məsələsinə - Müstəqil Dövlətlər Birliyi Əlaqələndirmə Şurasının konfransına nümayəndələrin seçilməsi barədə Respublika Veteranlar Şurasının sədri B.Hüseynov məlumat verir: 5 nəfər nümayəndə seçilir.

Qurultayın adından Azərbaycan Respublikası Prezidenti Heydər Əliyev cənablarına müraciətin oxunması üçün söz Respublika Veteranlar Şurası sədrinin birinci müavini B.Ə.Rüstəmova verilir.

Qurultay hərarətlə və yekdilliklə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevə müraciəti qəbul edir.

Qurultayın adından Müstəqil Dövlətlər Birliyinin bütün veteranlarına müraciəti oxumaq üçün Respublika Veteranlar Şurasının büro uzvü A.A.Qritçenkoya söz verilir.

Qurultay tərəfindən Müstəqil Dövlətlər Birliyi veteranlarına müraciət yekdilliklə qəbul olunur.





Azərbaycanın Dağlıq Qarabağ bölgəsində 24 noyabr 1996 cı il tarixdə qondarma Dağlıq Qarabaq Respublikası prezidenti seçkiləri keçirilməsi cəhdi ilə əlaqədar Qurultayın bəyanatını oxumaq üçün söz Respublika Veteranlar Şurası sədrinin müavini Ş.M.Abdullayevaya verilir.

Müraciət oxunur və yekdilliklə qəbul olunur.

Bununla Respublika Veteranlar Şurasının 1 - ci Qurultayı öz işini bitirir.

## "Respublika Veteranlar Şurasının II Konfransından sonra görülən işlər barədə Respublika Veteranlar Şurasının sədri B.Hüseynovun hesabat məruzəsi"

Biz veteranlar bu gün razılıq hissi ilə qeyd edirik ki, Heydər Əliyevin Respbulikada rəhbərliyə gəlməsi ilə veteranlara qarşı münasibət tezliklə yaxşılığa doğru dəyişdi, veteran təşkilatlarına məhsuldar fəaliyyət üçün geniş imkanlar açıldı. 1994-1996-cı illərdə Prezident H.Əliyev tərəfindən bir qup veteranın qəbulu, 5 may 1995-ci ildə faşizm üzərində Qələbənin 50 illiyi münasibətilə onun Respublika Sarayındakı təntənəli iclasdakı nitqi, "Veteranlar haqqında" qanunun qəbulu, 9 may Qələbə gününün bərpa edilməsi, yaşlı nəslin sosial-məişət şəraitinin yaxşılaşdırılması ilə əlaqədar digər normativ aktların qəbulu buna parlaq misaldır. Bütün bu qayğı üçün ölkəmizin Prezidenti hörmətli H.Əliyev cənablarına öz minnətdarlığımızı bildiririk.

Respublika Veteran təşkilatlarının qarşısında duran mühüm məsələlərdən biri ölkənin ictimai-siyasi həyatında veteranların fəal iştirakıdır. Əlbəttə, Respublikamızda siyasi vəziyyətin sabitləşməsi Respublika Prezidentinin adı ilə bağlıdır. Lakin veteran ictimaiyyəti bu işdən heç vaxt kənarda durmamış, onlar Azərbaycan dövlətçiliyinə və onun Konstitusiyasına hücumlar olanda, dövlət çevrilişi təhlükəsi olanda respublikamızda real vətəndaş müharibəsi təhlükəsi yarananda qanunsuz silahlı dəstələrin azğınlığı vaxtında, xüsusən 1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri vaxtı respublikamızın ali mənafeyinə yaxından xidmət etmişlər.





Erməni işğalçılarına qarşı mübarizədə, xalqlar dostluğunun möhkəmləndirilməsində və digər tədbirlərdə veteranlar böyük fəaliyyət göstərmişlər.

Respublika Veteranlar Şurası Rəyasət heyəti dəfələrlə, Birləşmiş Millətlər Təşkilatına, Müstəqil Dövlətlərin veteran təşkilatlarına və digər təşkilatlara müraciət edərək erməni təcavüzünü ittiham və ifşa edən bəyanatlar vermişdir.

Respbulika Veteranlar Təşkilatının nümayəndələri Qələbənin 50 illiyi günlərində Moskvada, Sankt-Peterburqda, Minskdə, Volqoqradda, Kiyevdə, Londonda, Parisdə, Vyanada təntənəli tədbirlərdə iştirak etmişlər. Gənclərin və ictimaiyyətin nümayəndələri ilə, Sovet İttifaqı Qəhrəmanları ilə, Sosialist Əməyi Qəhrəmanları ilə, Böyük Vətən müharibəsinin iştirakçıları olan qadınlarla səmimi görüşlər keçirmişlər. Veteranlarımızın İkinci dünya müharibəsinin yekunlarına həsr olunmuş beynəlxalq elmi-praktiki konfransda iştirakı və fəaliyyəti yüksək qiymətləndirilmişdir.

Veteran təşkilatlarının nümayəndələri müharibə bölgələrində yerləşən hərbi hissələrdə tez-tez olurlar. Respublika Şurasının üzvləri aidiyyati məsələlərin müzakirəsi vaxtı Milli Məclisin, onun komissiyalarının iclaslarında və respublikanın ictimai təşkilatlarının tədbirlərində iştirak edirlər.

Qarabağ problemini həll etmək məqsədilə Respublika Veteranlar Təşkilatının nümayəndələri 3 dəfə Ermənistan Veteran Təşkilatının nümayəndələrilə görüşərək hər iki respublikanın rəhbərlərinə və xalqına müraciət qəbul etmişlər. Təəssüf ki, bu görüşlərin hələlik bir müsbət nəticəsi olmamışdır. Azərbaycan və Dağıstan Respublikaları Veteranlar Təşkilatları nümayəndələrinin xalqlar dostluğunu möhkəmlətmək məsələlərinə həsr olunmuş görüşləri keçirilmişdir.

Gənclərin, Silahlı qüvvələrimizin döyüşçülərinin hərbi vətənpərvərlik ruhunda tərbiyə edilməsi Respublika Veteranlar

Şurasının daimi diqqətində olmuşdur. Bu sahədə aparılan işin vəziyyəti həmişə büro, rəyasət heyəti və plenum iclaslarında müzakirə olunmuş, şəhər və rayon təşkilatlarının fəaliyyətinə istiqamət verilmişdir.

Respublika Veteranlar Şurasının fəalları tez-tez hərbi hissələrdə olur, döyüşçülərimizlə görüşür, Respublika Müdafiə Nazirliyinin, sərhəd və daxili qoşunların apardıqları tədbirlərdə daim iştirak edir, gənclər kollektivlərində faydalı görüşlər və söhbətlər aparılır.

Millətlərarası münasibətlərin kəskinləşdiyini və onun hərbi hissələrə mənfi təsir edəcəyi təqdirdə veteranlar respublika Ali Sovetinin nümayəndələri ilə birlikdə və müstəqil olaraq keçmiş SSRİ-nin bir sıra şəhərlərində hərbi hissələrdə xidmət edən azərbaycanlılarla görüşərək vəziyyəti öyrənmişlər, müxtəlif millətlərdən olan döyüşçülərlə dostluq əlaqələrini möhkəmləndirməyə kömək etmişlər.

Müdafiə Nazirliyi ilə birlikdə gənclər və milli ordumuzun döyüşçüləri arasında hərbi vətənpərvərlik tərbiyəsi bir daha gücləndirmək üçün əlavə tədbirlər planı hazırlanmış və həyata keçirilir.

Respublika Şurası tərəfindən gənclərin I Forumunun yekunları və orada Azərbaycan Respublikası Prezidentinin nitqi ilə əlaqədar qarşıda duran vəzifələr barədə tədbirlər planı hazırlanıb bütün şəhər və rayon veteranlar şuralarına göndərilmişdir.

Bütövlükdə götürdükdə respublikamızda perspektivli gənc nəsl yetişir. Bununla birlikdə göz yummaq olmaz ki, gənclər arasında fərarilik, hərbi çağırışdan yayınma, narkomaniya və digər cinayətlərə rast gəlinir. Bunları aradan qaldırmaq hər bir təşkilatın, o cümlədən veteran təşkilatının borcudur.

Etiraf etməliyik ki, bu sahədə veteran təşkilatlarının, xüsusilə ilk təşkilatların işində bir sıra nöqsanlar vardır. Buna





görə bütün veteran təşkilatları gənclərin tərbiyəsi sahəsində apardıqları işlərin forma və metodlarını təkmilləşdirməli, konkret planlar tutmalıdırlar. Hansı sahəyə diqqəti artırmaq lazım gəldiyini müəyyən etməlidirlər. Biz çalışmalıyıq ki, apardığımız iş səmərəli, məqsədli olsun.

Respublika Veteranlar Şurası Vətənin azadlığı uğrunda həlak olanların xatirəsini əbədiləşdirmək məsələlərinə böyük diqqət yetirmişdir. Bu məsələ Respublika Şurasının büro və Rəyasət heyətində müzakirə edilmişdir. Bütün rayonlarda Vətənin müdafiəsi uğrunda həlak olanların abidələrinin, xatirə lövhələrinin və dəfn yerlərinin adablaşdırılması, saxlanılması və səhmana salınması üçün lazımı iş aparılmışdır.

İkinci dünya müharibəsinin yekunlarına, Azərbaycan xalqının qəhrəman oğulları general-leytenant Həzi Aslanovun, general-mayor Akim Abbasovun, kontr-admiral Cavadovun, general-leytenant Arif Heydərovun, Sovet İttifaqı Qəhrəmanları: Mehdi Hüseynzadənin, Mehdi Quliyevin, Aslan Vəzirovun,İsrafil Məmmədovun v ə digərlərinin xatirə günlərinə həsr olunmuş elmi-praktiki konfranslar keçirilmişdir. Respublika Veteranlar Şurasının təşəbbüsü ilə bir sıra məktəblərə, xəstəxanalara, küçələrə və digər obyektlərə Azərbaycan xalqının qəhrəman oğul və qızlarının adı verilmişdir.

Böyük Vətən müharibəsində həlak olmuş Azərbaycan övladlarının “Xatirə kitabı”nın nəşri üçün lazımi sənədlər toplanmışdır.

Respublika Veteranlar Şurasının təşəbbüsü ilə Bakı şəhərində Vətənin azadlığı uğrunda həlak olanlara həsr olunmuş vahid monumental abidə kompleksinin inşası barədə Milli Məclis qərar qəbul olunması üçün Respublika Veteranlar Şurası tərəfindən Milli Məclisə Qanun layihəsi təqdim edilmişdir. Vətənin azadlığı uğrunda həlak olanların xatirəsini əbədiləşdirmək sahəsində Bakı Müharibə Veteranları Komitəsi

böyük təşəbbüs göstərərək onlarca kitab, broşüra, vərəqə hazırlayıb nəşr etdirmişdir. Bu sahədə böyük təşəbbüsləri bildiririk. Vətənin müdafiəçilərinin xatirəsini əbədiləşdirmək sahəsində keçirilən tədbirlərdə kütləvi məlumat vasitələri böyük xidmət göstərmişdir.

Respublika Veteranlar Şurasının daimi komissiyasının sədri Əli Abbasov başda olmaqla Astara, Lənkəran, Cəlilabad, Qusar, Qazax, Gəncə, Sabirabad rayonları veteran şuralarının Bakı şəhəri müharibə veteranları komitəsinin, Bakı şəhəri Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının və onların daimi komissiyalarının bu sahədə apardıqları iş yüksək qiymətə layiqdir.

Veteranlara mədəni-kütləvi xidmət göstərilməsi üçün Respublika Veteranlar Şurası, şəhər və rayon şuraları tərəfindən müəyyən işlər görülür. Veteranlar respublika, şəhər və rayonlar üzrə keçirilən tədbirlərə dəvət olunurlar, Bakı teatrları veteranlar üçün tamaşalar göstərir, bir çox şəhər və rayonlarda mədəni-kütləvi tədbirlərin aparılması üçün xüsusi klublar və məqsədli yerlər vardır.

Bizim xahişimizə əsasən və mədəni-kütləvi işlər üzrə daimi komissiyanın təşəbbüsü ilə televiziya ilə Böyük Vətən müharibəsinin tarixinə həsr olunmuş bir çox bədii və sənədli filmlər göstərilmişdir.

Bununla birlikdə qeyd etməliyik ki, veteranların mənəvi cəhətdən müdafiə etmək üçün bir sıra rayon təşkilatları az iş görürlər, aparılan iş də zəif olur, veteranları qane etmir. Bakı şəhərinin bütün rayonlarında xüsusi veteran klubları yoxdur. Biz veteranlar təşkilatlarının rəhbərlərindən xahiş edirik ki, bu sahəyə özlərinin münasibətlərini dəyişsinlər.

Respublika Veteranlar Şurası xarici ölkələrin veteran təşkilatları ilə əlaqələrin möhkəmlənməsinə lazımi əhəmiyyət verir. Respublika Veteranlar Təşkilatının nümayəndələri müstəqil dövlətlərin veteran təşkilatlarınınƏlaqələndirmə





Şurasının üzvü kimi onun işində fəal iştirak edir, bu orqanın tribunasından istifadə edərək Müstəqil Dövlətlər Birliyinin ictimaiyyətinə Ermənistanın Respublikamıza qarşı apardığı müharibənin mahiyyətini çatdırır, Əlaqələndirmə Şurasının işi zamanı Müstəqil Dövlətlər Veteranlar Təşkilatlarının nümayəndələri ilə görüşərək söhbət əsnasında onlarla aktual məsələləri müzakirə edir. Qeyd etmək lazımdır ki, Əlaqələndirmə Şurası öz vəzifəsinin öhdəsindən gəlir, xalqlar arasında dostluğun möhkəmləndirilməsi, veteranlar sıralarının birliyinin təminatı üçün çox iş görür. Bu orqanın təşəbbüsü ilə veteranları sosial-iqtisadi məsələlərinin yaxşılaşdırılması məqsədilə bir sıra dövlətlərarası sazişlər imzalanmışdır. Böyük Qələbənin 50 illiyi ilə əlaqədar olaraq Respublika Veteranlar Təşkilatının nümayəndələri ilə görüşmüşlər. Biz respublikamızın Xarici İşlər Nazirliyinə müraciət edərək bir sıra dövlətlərin veteran təşkilatları ilə əlaqələr yaratmağı xahiş etmişik. Təəssüf ki, bu məsələ özünün müsbət həllini tapmamışdır.

Respublika Veteranlar Şurası qarşısında duran ən mühüm məsələlərdən biri də müharibə, əmək və Silahlı Qüvvələr veteranlarının sosial müdafiəsidir. Hesabat dövrü ərzində bu məsələ Respublika Veteranlar Şurasının daimi diqqətində olmuşdur. Bu problem bir neçə dəfə Respublika Veteranlar Şurasının büro, rəyasət heyəti və plenum iclaslarında müzakirə edilmişdir. Respbulika Veteranlar Şurasının təşəbbüsü ilə yaşlı nəslin sosial müdafiəsinin təminatı olan “Veteranlar haqqında” Qanun də digər normativ aktlar qəbul olunmuşdur, veteranların sosial müdafiəsinə yönəldilmiş, MDB dövlətləri arasında bağlanmış beynəlxalq sazişlərin Respbulikanın Milli Məclisi tərəfindən təsdiq edilməsinə nail olunmuşdu. Respublika rəhbərliyinin diqqəti nəticəsində rayon və şəhər icra hakimiyyəti başçıları tərəfindən veteranlara mənəvi və maddi qayğı xeyli artmışdır. Respublika Veteranlar Şurası

nəzdində təşkil edilmiş sosial-müdafiə fondundan 1993-1996-cı illərdə xeyriyyə məqsədilə 9 milyona yaxın manat sərf olunmuşdur. Tibbi yardım və kurort-sanatoriya müalicəsi də müəyyən qədər yaxşılaşmışdır. "Həlak olmuş döyüşçülərin dul arvadları" mövzusunda xeyriyyə tədbiri keçirilmişdir, hərbi hissələrə, cəbhə bölgələrinə, hərbi xəstəxanalara veteran qrupları göndərilərək onlara maddi və mənəvi xidmət edilmişdir, yaşlıların internat və pansionatlarında onların ehtiyacları öyrənilmiş və imkan dairəsində köməklik edilmişdir. Respublika Veteranlar Şurasının təşəbbüsü ilə Respublika rəhbərliyi tərəfindən Mərdəkandakı veteranlar xəstəxanasının təmiri üçün 800 milyon manat pul ayrılmışdır.

Bununla birlikdə veteranların sosial-iqtisadi vəziyyətlərinin yaxşılaşdırılması sahəsində problem və çətinliklər, həll edilməyən məsələlər qalmaqdadır.

Bizim veteranların əksəriyyəti çətinlik içərisində yşayır, həyat səviyyəsinin yaxşılaşması, tibbi xidmət sahəsində ehtiyaclarının ödənməsi tam təmin olunmamışdır. Burada obyektiv və subyektiv səbəblər vardır. Respublikamız müharibə şəraitində yaşayır, sosial-iqtisadi böhran davam edir, bir milyondan artıq qaçqın ağır şəraitdə yaşayır, bunları unutmaq, hesaba almamaq olmaz. Bununla birlikdə başa düşürük ki, qəbul olunmuş fərmanlar, qanun və sərəncamlar bəzi hallarda aidiyyatı təşkilatların təqsiri üzündən tam yerinə yetirilmir, ayrı-ayrı veteran şuraları qəbul olunmuş qanun və qərarların icrasına lazımınca qayğı və inadkarlıq göstərmirlər.

RespublikaVeteranlarTəşkilatınınmühümvəzifələrindən biri də imkanı olan veteran və pensiyaçıların faydalı əməklə məşğul olmalarına, onların xüsusi müəssisələrinin – veteran kooperativlərinin təşkilinə kömək etmək məsələsidir. Hazırki mürəkkəb iqtisadi şəraitdə veteranları imkan dairəsində gücü çatan işə cəlb etmək, onların həyat şəraitini yaxşılaşdırmaq üçün bu çox sərfəli yoldur. Bu sahədə respublika, şəhər və





rayon təşkilatları tərəfindən müəyyən işlər görülmüşdür. Lakin bu o qədər azdır ki, bu gün bu sahədə yaxşı işdən danışmaq olmaz. Bu məsələ cari ilin sentyabr ayında keçirilmiş Respublika Veteranlar Şurasının plenumunda ətraflı müzakirə olunmuşdur. Əlbətdə bu vacib problemin həllində obyektiv çətinliklər vardır. Buna baxmayaraq bu vəziyyətdən çıxış yolu var və biz bunu həll etməliyik.

Bu müddət ərzində Şuraya 385 ərizə və şikayət daxil olub, şuranın özündə isə 578 veteran qəbul edilib.

Veteranların bütün müraciətlərinə vaxtında baxılmış və imkan dairəsində müvafiq kömək göstərilmişdir.

Qeyd etmək kifayətdir ki, veteranların müraciətlərinə baxılması ilə əlaqədar heç bir şikayət daxil olmamışdır. Əksinə, öz razılıq və təşəkkürlərini bildirənlər çox olmuşdur. Bununla yanaşı bir sıra rayonlarda veteranların ərizə şikayətlərinə baxılmasında qayğısızlığa yol verilir. İndiki şəraitdə belə iş yolverilməz və dözülməz hal sayılmalıdır. Biz hər bir veterana bu ağır dəqiqələrdə kömək etməliyik.

Sizə bəlli olduğu kimi, Respublika Şurasının nəzdində veteran hərəkatının problemlərini və veteran təşkilatlarının fəaliyyətini geniş işıqlandırılmalı olan mətbuat qrupu fəaliyyət göstərir. Mətbuat qrupu tərəfindən müəyyən işlər görülmüşdür. Lakin aparılan iş tam mənada hazırki vaxtın tələblərinə cavab vermir.

Doğrudur, burada çətinliklər vardır, lakin biz onları aradan qaldırıb işi daha da canlandırmalıyıq.

Respublika Veteranlar Şurası bütün şəhər və rayon icra hakimiyyəti başçılarına müraciət edərək xahiş etmişdir ki, 1997-ci ilin I yarısı üçün "Veteran" qəzetinə abunə yazılışına kömək etsinlər. Sizdən xahiş olunur ki, bu işə ciddi yanaşasınız.

Veteranlar təşkilatları qarşısında duran məsələlərin həlli təşkilati işin səviyyəsindən çox asılıdır. Bununla əlaqədar Respublika Veteranlar Şurası görüləcək işlərin

planlaşdırılmasına, plenumların, rəyasət heyətləri və büro iclaslarının hazırlanıb keçirilməsinə, zəruri məsələlərin həlli ilə əlaqədar çağırılmış müxtəlif müşavirələrin keçirilməsinə ciddi fikir vermişdir. Hesabat dövrü ərzində 8 plenum keçirilmiş və burada veteran hərəkatının 30-a qədər vacib məsələləri həll olunmuşdur. Bunlardan:

- Veteranların sosial-məişət məsələlərinin vəziyyəti və onların yaxşılaşdırılması tədbirləri barədə;
- Müstəqil Dövlətlər Birliyininveteranları Əlaqələndirmə Şurasının Qələbənin 50 illiyinə həsr olunmuş plenumun yekunları barədə;
- 1994-cü ildə Respublika veteran təşkilatlarında keçirilmiş hesabat-seçki yığıncaqları və konfranslarının yekunları və qarşıda duran vəzifələr barədə;
- Faşizm üzərində Qələbənin 50 illiyinə hazırlıq barədə;
- Qələbənin 50 illiyi ilə əlaqədar respublikanın rəhbərliyi tərəfindən qəbul olunmuş qanun və qərarların yerinə yetirilməsi sahəsində veteranlar təşkilatlarının işi barədə;
- Vətənin müdafiəçilərinin xatirəsini əbədiləşdirmək sahəsində aparılan işlərin yaxşılaşdırılması haqqında;
- Respublika Veteranlar Təşkilatının Nizamnaməsinə əlavə və dəyişikliklərin edilməsi barədə;
- Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi sahəsində aparılan işlərin vəziyyətini yaxşılaşdırmaq sahəsində veteran təşkilatlarının vəzifələri barədə və sair məsələləri qeyd etmək olar.

Respublika Veteranlar Şurası Rəyasət Heyətinin müntəzəm keçirilən iclaclarında 50-dən çox məsələ müzakirə edilmişdir. Veteranlar təşkilatının çoxsahəli fəaliyyətinə, respublikada cərəyan edən hadisələrin mahiyyətinin müzakirəsinə Rəyasət Heyətinin 16 iclası həsr olunmuşdur.

Hesabat dövründə Respublika Veteranlar Şurası veteran hərəkatının əsasını təşkil edən ilk təşkilatların rolunun





yüksəlməsinə diqqəti artmışdır. Bilirsiniz ki, bizim apardığımız işlər geniş veteran ictimaiyyətinə ilk təşkilatların üzərinə düşür, vaxtı çatmış məsələləri biz veteranlarla ilk təşkilatlarda həll edirik. Bütün bünları nəzərə alaraq bu məsələ Respublika Veteranlar Şurasının 24 noyabr 1995-ci il tarixli Plenumunda geniş müzakirə edilmişdir.

Yoldaşlar! Respublika üzrə 2560 ilk veteran təşkilatı fəaliyyət göstərir. Bu təşkilatlar 1 milyon 200 mindən çox veteran və pensiyaçını özündə birləşdirir. Bu ilk veteranlar təşkilatına 85 şəhər, rayon və rayon hüquqlu veteranlar şurası rəhbərlik edir. Veteranlar təşkilatlarının bütün səviyyələrində 20 mindən artıq veteran fəalı ictimai əsaslarla çalışır. Onlar öz həyatlarının mənasını yaşlı nəslə xidmət etməkdə, gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyəsində görürlər. İcazə verin öz fədakar və təmənnasız xidmətlərini veteran hərəkatının möhkəmlənməsinə həsr edən əziz veteranlarımıza dərin hörmət və ehtiramımızı bildirim.

Respublika Veteranlar Şurasının çoxsahəli işinin səmərəli olması onun daimi komissiyalarının fəaliyyətindən asılıdır. Qeyd etmək istəyirəm ki, bu komissiyaların üzvləri əsasən məsuliyyətlə işləmişlər. Onların hamısına öz təşəkkürümü bildirirəm.

Respublika Veteranlar Şurası Müdafiə Nazirliyi, Daxili İşlər Nazirliyi, Milli Təhlükəsizlik Nazirliyi, Respublika Hərbi Komissarlığı, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, Səhiyyə Nazirliyi, Gənclər və İdman Nazirliyi ilə daha sıx əlaqədə işləyir, onlardan faydalı kömək alır. Biz Milli Məclisin müzakirəsinə verdiyimiz məsələlərin vaxtında müzakirəsi və qəbul edilmiş qanunlardan böyük razılıq hissi ilə danışırıq. Respublika Nazirlər Kabinetinə müraciət etdiyimiz məsələlərə son vaxtlarda operativ surətdə baxılır və həll olunur. Rayon, şəhər rəhbərlərinin əksəriyyəti veteranlar təşkilatlarının fəaliyyətinə şərait yaradırlar.

Respublikanın veteran təşkilatları dövlət intizamının möhkəmləndirilməsində, iqtisadi məsələlərin həllində, mövcud nöqsanların aradan qaldırılması üçün əhali arasında izahat işi aparmaqda, respublikanın və yerli icra orqanlarının rəhbərliyinə öz imkanları daxilində kömək etməlidirlər. Çətinliklərimiz müvəqqətidir. Biz birliyimizi möhkəmlətməli, erməni işğalçılarından torpaqlarımızı azad etmək üçün inam və ruh yüksəkliyimizi mübariz vəziyyətə gətirməliyik”.

Həmin dövrdə Şuranın fəaliyyətinin müxtəlif istiqamətləri üzrə görülmüş işlər barədə təsəvvürlərin daha da dolğunlaşdırılması, xüsusilə bu fəaliyyətin bəzi məqamlarına aydınlıq gətirilməsi baxımından əhəmiyyət kəsb etdiyini nəzərə alaraq daha bir sənədə müraciət etməyə lüzum gördük. Bu sənəddən də göründüyü kimi Şura Konfranslararası dövrdə keçirdiyi Plenum və Rəyasət Heyətinin iclaslarında konkret məsələlər qoymuş, bunların həyata keçirilməsi üçün yoxlamalar aparmış, Mərkəzi Aparatın əməkdaşlarına və yerli təşkilatlara lazımi tapşırıq və tövsiyələr vermiş, gərəkdiyi hallarda müvafiq icra mexanizmləri tətbiqi barədə qərarlar çıxarmışdır.





## Azərbaycan Respublikası Veteranlar Şurasının II Plenumu

### (24 noyabr 1995-ci il)

Bu Plenumda Şuranın I Plenumundan sonrakı müddətdə gördüyü işlər müzakirə edilmişdir. Ölkənin veteranlar təşkilatlarının həyatında xüsusi yer tutan 1995-ci ildə keçirilən Plenumda Respublika Veteranlar Şurasının sədri B.Hüseynov hesabat məruzəsi ilə çıxış etmişdir. Onun çıxışının bəzi məqamlarını diqqətinizə çatdırırıq.

“Tarix, bəşəriyyət öz işini görmüş, 20-ci əsrin yaşlı nəslinin, bu əsrin 1941-1945-ci illərdə alman faşizmi üzərində əldə etdiyi qələbənin 50 illiyini qeyd etməyi qərara almışdır.

Azərbaycan Veteranlar Şurası, onun veteranları qarşılaşmış haqsızlığa qarşı mübarizə əzmində olduğu bir dövrdə keçmiş iqtidarın ölkənin idarəetmə qabiliyyətinə malik olmaması üzündən xalq tərəfindən kənarlaşdırılması, yeni iqtidarın hakimiyyət başına gəlməsi hər sahədə olduğu kimi veteranların da həyatında böyük dönüşə səbəb olmuşdur ki, bu da veteran təşkilatlarında yeni dirçəlmə imkanları yaratmışdır. Şura birinci növbədə“Veteranlar haqqında” və “Vətən uğrundakı vuruşmalarda həlak olanların xatirəsininə bədiləşdirilməsi”üçün qanun layihələrini hazırlayıb. Nazirlər kabineti və Milli Məclisin müzakirəsinə göndərilmişdir. “Azərbaycan II dünya müharibəsi illərində” məruzənin mətni hazırlanıb, istifadə üçün bir çox rayonlara göndərilmişdir.

Şura özünün mətbuat qrupunu yaratmışdır ki, bu da görüləcək işlərin müntəzəm olaraq informasiya vasitələrində işıqlandırılması, yeri gəldikdə isə tənqidi məqalələrdə

maneələrini, laqeyd münasibətlərin ortadan qaldırılmasına öz köməkliyini göstərmişdir.

Respublika Veteranlar Şurası yanında fəaliyyət göstərən "Vətən" nəşriyyatı da Qələbənin 50 illiyi yubileyinin keçirilməsində fəaliyyəti az olmamışdır. Nəşriyyatın, Qələbənin 50 illiyi ilə əlaqədar vuruşmalarda və arxacəbhədəfədakarlıqgöstərənlərdən 30 nəfərinqısahəyat yolu azərbaycanca "Ağır sınaq illəri" rusca" «Годы суровых ис- пытаний» başlıqları altında yüksək hərbi vətənpərvərlik ruhunda yazılmış "Siz kimsiniz, polkovnik?" sənədli povest məhşur azərbaycan sərkərdəsi – qvardiya polkovniki Əşrəf Məmmədovun həyat yoluna həsr edilmiş kitabların çap edilib, oxucu kütləsinə çatdırılması, yenicə yaranmaqda olan ordumuz üçün azərbaycanca-rusca hərbi lüğət, hərbi işə dair qanunlar, fərmanlar toplusu", hərbi marşlar, mahnılar, "hərbi-ensiklopedik lüğət" və sair. Bütün bünlar nəinki hərbi vətənpərvərlik mahiyyəti daşımış eləcə də veteranların hörmət və nüfuzlarının bir daha yüksəlməsinə az təsir göstərməmişlər. Azərbaycanın təmsilçiləri kimi Moskva şəhərində "Qələbənin 50 illiyinə həsr edilmiş elmi konfransda 4 nəfər alimimiz ayrı-ayrı mövzularda çıxış etmişlər. Yalnız Qələbəyə həsr olunmuş bayram tədbirlərində başqa MDB dövlətlərinin nümayəndələri kimi Azərbaycanın da veteranlardan 35 nəfər bu tarixi tədbirlərdə iştirak etmişdir.

Respublikanın Veteranlar Şurasının nümayəndələri müntəzəm olaraq Müstəqil Dövlətlər Birliyi Əlaqələndimə Şurasının tədbirlərində iştirak etmiş. Bu tədbirlərdəAzərbaycan dövlətinin sülhsevər siyasəti, erməni millətçilərinin təcavüzkaralığı barədə çıxışlar etmişlər.

Şura əsas diqqəti aşağıdan yuxarıya qədər veteran təşkilatlarının təşkilatı cəhətdən bərpa edilib, işgüzar bir ictimai təşkilata çevrilməsinə vermişdir.





Bildiyiniz kimi, Respublikanın bütün şəhər, rayon veteran şuralarında 1994-1995-ci illərdə hesabat seçki yığıncaqları keçirilmiş, bəzi yerlərdə ləğv olunmuş, yuxarıda göstərilən münasibətlərlə əlaqədar fəaliyyətlərini dayandırmış rayon, şəhər veteran şuraları, eləcə də ilk veteran təşkilatları bərpa edilmiş və ya yeniləri yaradılmışdır. Yerlərdə yeni seçilmiş rəhbər veteran kadrlar və keçmişdə fəaliyyət göstərən kadrlarında yeni şəraitə uyğun olaraq öz işlərini qurmaları məqsədi ilə respublika miqyasındaseminar müşavirəsi keçirilmiş, lazımı təlimatlar verilmişdir.

Şura yerlərdə təşkilatın əsası olan ilk təşkilatlarda seçkilərdən sonrakı vəziyyətləri ilə tanış olmaq və əməli köməklik göstərmək məqsədilə şuranın 30 nəfərdən ibarət fəalları vasitəsi ilə Bakı şəhərinin 11 rayonunda və şəhərin veteranlar şurasının ilk veteran təşkilatlarında rəhbərliyin vəziyyətini yoxlamış özünün Rəyasət Heyətində müzakirə edib, müvadiq qərar qəbul etmişdir. Eləcə də, respublikanın 8 rayon və şəhərində, onların ilk veteran təşkilatlarında olunmuş vəziyyət bugünkü plenumun müzakirəsində çıxarılmışdır.

Hesabat dövründə Şuranın 26 büro, iki prezidium iclası keçirilmişdir.

Respublikanın Veteran Şurasının əsas vəzifələrindən biri də veteranların sosial məsələlərinin həllindən ibarətdir.

Bildiyiniz kimi Azərbaycanda MDB dövlətləri arasında "Veteranlar haqqında" (28 iyun 1994-cü il) qanun qəbul etmiş ilk ölkələrdən biridir. Lakin bu qanunda nəzərdə tutulan imtiyazların işləmə mexanizmi uzun müddət hərəkətsiz qalmışdır. Respublikanın Veteranlar Şurası bir sıra müraciət və başqatədbirlərlə, buqanundanəzərdətutulmayanvəbuqanun un işləmə müxanizmini təmin edəcək tədbirlərin görülməsinə nail olmuşdur ki, buna əsasən 20 iyun 1995-ci ildə 1067 saylı "Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarında dəyişikliklər edilməsi haqqında" qanunu təsdiq edilmiş, 22

sentyabr 1995-ci ildə "Müharibə veteranları, Silahlı Qüvvələr veteranı verilməsi qaydası və şərtləri haqqında əsasnamənin və müvafiq vəsiqələrin nümunəsinin, eskizinin və təsvirinin təsdiq edilməsi haqqında". Bu qanunların yerinə yetirilməsi məqsədi ilə xüsusi kommersiyanın yaradılması haqqında qəbul edilmiş qanunlar demək olar ki, veteranların sosial vəziyyətinin həllində müsbət sənətlər kimi tarixi əhəmiyyətə malik olmuşlar.

## Vətənpərvərlik tərbiyəsi ilə əlaqədar

Veteranlar Şurası hərbi vətənpərvərlik tədbirlərinin bir daha canlanması məqsədilə hərbi nazirliklə birlikdə konkret tədbirlər planı hazırlayıb, yerinə yetirilməsi ciddi surətdə nəzarətə götürmüşdür.

Hörmətli plenum iştirakçıları, plenumlar arası müddətdə şuraya 450-dən çox ərizə bə şikayət daxil olmuşdur. Bütün bu ərizə, şikayətlərə baxılmış, mahiyyətlərindən asılı olaraq tədbirlər görülmüşdür.

Hesabat dövründə daha fəallıq göstərən, tapşırılmış işə vaxtında və yüksək səviyyədə əməl edən 38 nəfər Respublikanın Fəxri fərmanı ilə təltif edilmişlər.

Şura sədrinin birinci müavini B.Rüstəmov".

Şuranın xüsusilə 1993-96-cı illərdəki fəaliyyətinin maraq doğuran cəhətlərindən biri ölkənin taleyüklü məsələləri ilə bağlı həm Azərbaycan Respublikası rəhbərliyinə və xalqına, həm də beynəlxalq təşkilatlara, müxtəlif, əsasən MDB ölkələrinin ictimaiyyətinə müraciətlər qəbul etməsidir. Bu müraciətlərinmütləq əksəriyyəti ümummilli lider Heydər Əliyevə, onun Azərbaycan naminə yorulmaz, fədakar fəaliyyətinin dəstəklənməsi məqsədi ilə ünvanlanmışdır.





## "Müstəqil Azərbaycan Respublikası Veteranları Şurasının 19 aprel 1996-cı il tarixli Plenum iştirakçılarının Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarına Müraciəti

Hörmətli Prezident!

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası özünün növbəti plenumunda, respublikanın ictimai-siyasi həyatında veteran təşkilatlarının fəaliyyəti və onun daha da gücləndirilməsi barədə məsələ müzakirə etmişdir.

Plenumqeydetmişdirki,indikiyaşlınəslinnümayəndələri haqlı olaraq iftixar hissi keçirir, ona görə ki, ata və babaların əsirlər boyu arzusu olan azadlıq həsrəti gerçəkliyə çevrilmiş, Müstəqil Azərbaycan dövləti yaranmışdır. Dünya tarixində özünün azadlığı uğrunda mübarizə aparan millətlər kimi Azərbaycan xalqıda bu müqəddəs yolda az itki verməmişdir. Biz bunu da dərk edirik ki,Azərbaycan xalqının özünün azadlığı uğrunda apardığı mübarizə müstəsnalıq kəsb edir. Beləki, həmin dövrdə Azərbaycan xalqı bir ictimai-siyasi quruluşdan başqa bir ictimai-siyasi quruluşa keçərkən eyni vaxtda erməni təcavüzkarları ölkəmizə qarşı elan edilməmiş müharibəyə başlamışdır. Ən ağır faciə ondan irəli gəlmişdir ki, bu zaman dövlətə fərsiz, satqın, varlanmağa, vəzifəni mənəviyyatdan daha üstün tutan rəhbərlər başçılıq etmişlər. Nəticədə ölkədə qarşıdurma, vətəndaş müharibəsi bu çətinlikləri bir daha ağırlaşdırmışdır.

Bütün bunlar xalqı düşündürməyə bilməz idi. Xalq, xüsusi ilə yaşlı nəsl vəziyyətin ağırlığını başa düşmüş, düzgün yolu ölkəni idarə edə biləcək şəxsiyyətdə görmüşlər.

Belə bir şəxsiyyəti yüksək təfəkkürə, dünyada gedən siyasət aləmindən başı çıxan, uzun illər Azərbaycan Respublikasına rəhbərliyi dövründə xalqın hörmət və ehtiramını qazanan Heydər Əliyev cənablarında görmüşlər.

Nəticədə xalq öz arzusuna nail ola bildi. Çətin və ağır maneələr aradan qaldırıldı, yuxusuz gecələr, yüksək bacarıq öz işini gördü.

Prezident xalqını, xalq öz Prezidentini düşmən qəsdlərindən qoruyub saxlaya bildi, sabitlik bərpa edildi, vuruşan ordular arasında atəş dayanırıldı. Müstəqil, hüquqi dövlətin təməli qoyuldu, nizami ordunun yaradılmasına başlanıldı.

Plenum belə hesab edir ki, bütün bunlar qarşıda duran vəzifələrin başlağıcı kimi qiymətləndirilməlidir.

Hələlik 20%-dən çox torpaqlarımız düşmən əlindədir, iqtisadiyyatda bir sıra tədbirlərin görülməsinə baxmayaraq çətinliklər davam etməkdədir. Qoyun dərisi geymiş canavarlar, çətin gündə xalqın qəzəbindən qorxub başqa ölkələrə qaçanlar öz çirkin əməllərindən əl çəkməyiblər.

Görüləsi işlər bizdən ağıllı düşünməyi, cəsarətli hərəkət etməyi tələb edir.

Hörmətli Prezident, Plenum iştirakçıları Sizin xarici və daxili siyasətini dəstəkləyir, Sizi əmin edir ki, müstəqil dövlətçiliyimizin qorunub saxlanılması, sabitliyin təmin edilməsi, xüsusi ilə 5-6 aprel 1996-cı il tarixdə keçirilən ümum respublika fəallarının toplantısında, eləcə də Sizin bu toplantıdakı nitqinizdən irəli gələn vəzifələrin yerinə yetirilməsində həmişə kimi bundan sonrada əlindən gələni əsirgəməyəcək".Respublika Veteranlar Şurası yaradıldığı vaxtdan etibarən Vətən uğrunda həlak olanların xatirəsinin





əbədiləşdirilməsi istiqamətində çoxşaxəli fəaliyyət göstərmiş, bu fəaliyyət bir çox sahələri əhatə etmişdir. Artıq haqqında bəhs etdiyimiz "Respublika "Xatirə kitabı"nın hazırlanması, Azərbaycanın görkəmli sərkərdələrinin, milli və Sovet İttifaqı qəhrəmanlarının, onlara bərabər tutulanların, eləcə də vuruşmalarda yüksək cəsarət göstərənlərin adlarının küçələrə, meydanlara, məktəblərə verilməsi,ölkə üzrə xatirə abidələrinin dəqiq uçotunun təşkili və onların vəziyyəti öyrənilməsi, həmin insanların və müharibədə mərdliklə vuruşmuş digər şəxslərin döyüş yollarına həsr edilmiş kitabların, broşuraların buraxılması, ölkənin kütləvi informasiya vasitələrində geniş işıqlandırılması, sərgilərin təşkilinə və s. işlərin görülməsinə nail olunması bu istiqamətdə həyata keçirilən başlıca vəzifələr kimi müəyyən edilmişdir.

"Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Azərbaycan Respublikasının 23 dekabr 1997-ci il tarixli 416-1Q saylı Qanununun yerinə yetirilməsi ilə əlaqədar veteran təşkilatlarının vəzifələri barədə 4 may 1999-cu il tarixli Plenumu keçirilmiş və həmin Plenumda bu sahədəki vəziyyət müzakirə olunaraq müvafiq Qərar qəbul edilmişdir.

"Respublika Veteranlar Şurasının növbəti Plenumu Şura sədrinin birinci müavini B.Rüstəmovun məruzəsini və məruzə ətrafında edilən çıxışları nəzərə alaraq qeyd edir ki, Respublikanın Milli Məclisi tərəfindən qəbul edilmiş, Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" Qanunu respublikanın veteran ictimaiyyəti Azərbaycan dövlətinin Vətən uğrunda həlak olanların ruhuna hörmət, xalqına sədaqət əlaməti kimi qiymətləndirir.

Plenum qeyd edir ki, respublikanın veteran təşkilatları Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi

sahəsində müəyyən işlər görmüşdür. Belə ki, “Xatirə kitabı”nın buraxılmasına başlanmış, onun birinci cildi buraxılmışdır. Görkəmli sərkərdələrin, milli və Sovet İttifaqı qəhrəmanlarınınn, onlara bərabər tutulanların, eləcə də vuruşmalarda yüksək cəsarət göstərənlərin adlarının küçələrə, meydanlara, məktəblərə verilməsi, həmin şəxslərin döyüş yollarına həsr edilmiş kitabların, broşuraların buraxılması, kütləvi informasiya vasitələrində işıqlandırılması, sərgilərin təşkilinə, digər tədbirlərin keçirilməsinə və s. işlərin görülməsinə nail olunmuşdur.

Qanunun yerinə yetirilməsi üçün xatirə abidələrinin dəqiq uçotunun təşkili və onların vəziyyəti öyrənilmişdir.

Bütün bunlara bərabər alınan məlumatlar və aparılan yoxlamalardan görünür ki, Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi sahəsində ciddi çatışmazlıqlar hələ də davam etməkdədir.

Belə ki, respublikada bu günə mövcud olan 420 xatirə abidələrindən baxımsızlıq üzündən 168-ə qədəri öz görünüşünü itirmiş, onların qorunması, lazımı səviyyədə saxlanılmasına laqeyd münasibət göstərilməsi halları hökm sürməkdədir.

Respublikanın 56 rayonundan daxil olmuş məlumatlara görə, 420 abidədən 118-ə qədərinin ciddi təmirə ehtiyacı vardır. Daşkəsən, Bakının Nərimanov rayonlarından verilmiş məlumatlarda abidələrin vəziyyəti birdəfəlik unudulmuşdur. Şamaxı şəhərində naməlum əsgərin xatirələrinə ucaldılmış abidə təmamilə yararsız hala düşmüşdür, Bakı şəhərinin Əzizbəyov rayonunda xatirə kompleksi mahiyyəti daşıyan abidə ticarət obyektləri arasında gözəgörünməz vəziyyətdədir. Bizdə olan digər məlumata görə Ağcabədi rayonunda xatirə kompleksi yerləşən sahə qorunmadığından mal-qara üçün otlaq yerinə çevrilmişdir.

Yuxarıdakıları nəzərə alaraq Plenum qərar alır:





1.Milli Məclis tərəfindən qəbul edilmiş, Azərbaycan Respublikasının Prezidenti tərəfindən təsdiq edilmiş 23 dekabr 1997-ci il tarixli 416-1Q saylı “Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi” haqqında qanunun lazımı səviyyədə yerinə yetirilməsi üçün respublikanın bütün şəhər, rayon veteran şuralarına tapşırılsın ki, 1999-cu ilin may ayından gec olmayaraq xüsusi tədbirlər planı hazırlayıb, rayonun, şəhərin veteran fəallarının toplantısını keçirib, qəbul edilmiş qərarların və nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsini təmin etsin.

2.Hazırlanacaq tədbirlər planında əsas diqqəti abidələrin qorunması, təmiri, onların ətrafında abadlıq işlərinin aparılması, abidələrin vaxtaşırı ziyarət edilməsi, dualar oxunması, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsi üçün ən mötəbər əyani vasitə kimi mövcud olan abidələrin qarşısında toplantıların keçirilməsi, müharibədə göstərilən qəhrəmanlıqlar, şücaətlər barədə söhbətlərin aparılmasına vermək;

3.Plenum Vətən uğrunda həlak olanların xatirələrinin əbədiləşdirilməsinə dair 416-1Q saylı 1997-ci il tarixli qanunun respublikanın icra hakimiyyəti orqanlarının bəziləri nəgöndərilməsinivəonunmətbuatdadərcedilməməsini nəzərə alaraq Respublika Veteranlar Şurasının bürosuna tapşırılsın ki, bu barədə aidiyyatı təşkilatlar qarşısında məsələ qaldırıb, tədbir görülməsinə nail olsun. Eləcə də, Vətənuğrunda həlak olanların xatirələrinə həsr edilmiş abidələrin vəziyyəti barədə respublikanın Nazirlər Kabineti yanında tarix və mədəniyyət abidələrinin mühafizəsi və bərpası komitəsinə müraciət məktubu göndərsin;

4.Plenum respublikanın rayon, şəhər veteran şuralarına tapşırır ki, yerli icra hakimiyyətləri ilə birlikdə faşizm üzərində Qələbənin 55-ci ildönümünə qədər Vətən uğrunda

həlak olanların xatirələrinin əbədiləşdirilməsi üçün müvafiq abidələrin lazımı qaydaya salınmasına nail olsunlar;

Qərarın yerinə yetirilməsinə nəzarət Respublika Veteranlar Şurası sədrinin birinci müavini Baloğlan Rüstəmova və "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi" üzrə komissiyanın sədri Vəli Vəliyevə tapşırılsın".

Respublika Veteranlar Təşkilatının fəaliyyətinin mühüm istiqamətlərindən biri olan 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizmə qarşı döyüşlərdə həlak olanların xatirəsinin əbədiləşdirilməsi ilə bağlı olmuşdur. Bu məqsədlə həmin döyüşlərdə göstərdiyi qəhrəmanlığa görə fərqlənmiş şəxslərin xidmətlərinin qiymətləndirilməsi məqsədilə ölkənin şəhər və rayonlarında onların adının küçələrə, parklara, məktəblərə verilməsi, yaşadıqları yerlərə xatirə lövhələrinin vurulması və s. işlər görülmüşdür.

RVT-nin arxivində bu fəaliyyətin necə təşkil olunduğunu göstərən kifayət qədər sənədlər var. Təşkilat müxtəlif dövlət orqanlarına, hətta ölkə Prezidentinə, Prezident Aparatına və Baş Nazirə ünvanladığı məktublarda bu məsələləri qaldırmış və əksər hallarda həmin insanların xatirəsinin əbədiləşdirilməsi üçün müvafiq addımlar atılmışdır. Aşağıda Sizə təqdim olunan məktub nümunələri RVT-nin göstərilən istiqamətdəki fəaliyyəti barədə aydın təsəvvür yaradır.

"Azərbaycan Respublikası Prezident Aparatına

Sovet İttifaqı qərəmanı polkovnik Quliyev Adil Hüseyn oğlunun adı Respublikamızda layiqli yerlərdən birini tutur və hörmətlə yad edilir. O, gənc vaxtlarında Vətənin müdafiəçisi olmuşdur. Bakı aeroklubunu və Stalinqrad Ali təyyarəçilik məktəbini müvəffəqiyyətlə bitirmişdir. A.H.Quliyev 1942-ci ildə 653 saylı qırıcı təyyarəçi polkunun tərkibində Kursk-Orlov,





Bryansk, 1-2-ci Pribaltika, Belorus cəbhələrində düşmənlə amansız döyüşərək müharibəni Berlində qurtarmışdır.

1945-ci ildə «Komsomolskaya Pravda» qəzeti Azərbaycan xalqının şanlı oğlu Adil Quliyev barəsində geniş yazı vermişdi. O, düşmənin 18 hərbi təyyarəsini vurub məhv etmişdir. Havada 265 uçuşu o cümlədən 54 döyüşü olmuşdur.

Müharibədə göstərdiyi qəhrəmanlıq və şücaətinə görə SSRİ Ali Sovetinin 23 fevral 1945-ci il fərmanı ilə ona Sovet İttifaqı qəhrəmanı adı verilmişdir. O, «Lenin» , 3 dəfə «Qırmızı Əmək Bayrağı», Aleksandr Nevski», 1-2-dərəcəli böyük Vətən Müharibəsi» Qırmızı ulduz» ordenləri və 25 medalla təltif olunmuşdur.

Müharibədən sonra polkovnik Quliyev Hərbi Hava Akademiyasını bitirmişdir. 25il hərbi xidmət illərində 22 növ təyyarə ilə havaya uçmuşdur. Hərbidən tərxis olunduqdan sonra gənclərin hərbi-vətənpərvərlik tərbiyəsi sahəsində də böyük iş aparmışdır.

Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 23 dekabr 1997-ci il tarixdə imzaladığı Qanuna uyğun və həm də A.H.Quliyevin Vətən qarşısında xidmətlərini nəzərə alaraq onun yaşadığı evin qarşısında xatirə lövhəsinin vurulması üçün lazımi göstəriş verməyinizi xahiş edirik.

Hörmətlə,Respublika Veteranlar Şurasının sədri B. Hüseynov.14 aprel 1999-cu il".

"

Azərbaycan Respublikasının baş naziri

A.T.Rəsi-zadə cənablarına Hörmətli Artur Tahir oğlu!

Azərbaycan xalqının ilk cəsur təyyarəçi qızı Seyidməmmədova Züleyxa Həbib qızının qəhrəmanlığı bu günə kimi Respublikanın gənc nəslini ruhlandırır və yeni hünərlərə çağırır.

O,1934-cü ildə Bakı aeroklubunu müvəffəqiyyətlə bitirdikdən sonra birinci Ümumittifaq paraşütçülər yarışlarına hazırlaşmağa başladı.1935-ci ilin avqust ayında Zaqafqaziya komandası tərkibində Moskvaya gəldi. O vaxt o, 15 dəfə paraşütdən tullanmışdı.

Seyidməmmədova müxtəlif səviyyəli paraşüt yarışlarında birinci yeri tutmuşdur. 1938-ci ildə Seyidməmmədova Çukovski adına hərbi-hava Akademiyasının təyyarəçilik fakültəsinə daxil olub, 1941-ci ildə təhsilini başa çatdırmışdır. Təhsil illərində Moskva Sovetinin deputatı seçilmişdir. Böyük Vətən Müharibəsi illərində düşmənə qarşı amansızlıqla vuruşmuş, qırıcı qadın aviapolku komandirinin müavini olmuşdur. 500-dən çox döyüş uçuşu olmuşdur. Onun Vətən və xalq qarşısında təmənnasız xidmətləri layiqincə qiymətləndirilmiş və o, «Lenin ordeni", «Qırmızı əmək Bayrağı», «Şərəf Nişanı» və çoxlu medalllarla təltif olunmuşdur.

Respublikamızın ictimai həyatında əvəzsiz xidməti olan Seyidməmmədova müharibədən sonra mühüm rəhbər vəzifələrdə çalışmış, 1952-ci ildən 1975-ci ilə kimi Azərbaycan Sosial təminat naziri işləmişdir.

Azərbaycanın Xarici Ölkələrlə Dostluq və Mədəni Əlaqələr Cəmiyyətinin rəyasət heyətinin sədr müavini vəzifəsində də Azərbaycan qadınına məxsus ləyaqətlə çalışmış, səmimiyyəti və həssaslığı ilə xalqın rəğbətini qazanmışdır, O, SSRİ Müharibə Veteranları Komitəsinin üzvü kimi də öz zəngin və qiymətli təcrübəsini gənc oğlan və qızlara çatdırmağa çalışmışdır.

Azərbaycan xalqı qarşısında xüsusi xidmətlərini, o cümlədən gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında əməyini nəzərə alaraq, Seyidməmmədovanın yaşadığı binanın qarşısında onun memorial lövhəsinin vurulması barədə göstəriş vermənizi xahiş edirik.





***Hörmətlə, Respublika Veteranlar Şurasının sədri, istefada olan general-mayor B. Hüseynov.***

№ 109, 9 aprel 1999-cu il".

Artıq qeyd etdiyimiz kimi "Xatirə kitabı"nın hazırlanması ilə əlaqədar məsələlər daim Respublika Veteranlar Şurasının diqqət mərkəzində olmuş, bununla bağlı müxtəlif dövlət orqanlarına və bu işə məsul şəxslərə məktublar göndərilmişdir.

Kitabın nəşrinin gecikdirilməsi ilə bağlı narahatlığın ifadə edildiyi növbəti məktublardan biri (206-a saylı) 6 oktyabr 1999-cu il tarixində Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin elm, mədəniyyət və təhsil şöbəsinin müdiri İ.Sadıqova ünvanlanmışdır.

"Hörmətli İsmayıl Rza oğlu!

Azərbaycan Respublikası"Xatirə kitabı"nınhazırlanması və nəşrinin vəziyyəti yoxlanılaraq Respublika Veteranlar Şurası Rəyasət Heyətinin 28 sentyabr 1999-cu il tarixdə Sizin nümayəndənizin iştirakı ilə geniş müzakirə edilmişdir.

Müzakirə vaxtı müəyyən edilmişdir ki, bu günədək "Xatirə kitabı"nın yalnız bir cildi nəşr edilərək aidiyyatı ünvanlara çatdırılmışdır. Birinci cildə 12 min nəfərin adı düşmüşdür. Bildiyiniz kimi "Xatirə kitabı"na Böyük Vətən müharibəsində həlak olmuş 330 min nəfərin, sonradan vəfat etmiş 200 minnəfərdənartıqmüharibəiştirakçısınınvə Qarabağ ətrafında gedən döyüşlərdə həlak olmuş 20 min nəfərədək, cəmi 550 min nəfərin adı qeyd olunmalıdır. Beləliklə, kitab 46 cilddə nəşr edilməlidir.

Respublika Veteranlar Şurasının Rəyasət Heyətində böyük narahatlıq hissilə qeyd edilmişdir ki, MDB ölkələrində eyni adlı "Xatirə" kitabının nəşri əsasən başa çatdırıldığı halda, respublikamızda bu iş, belə gedərsə, olduqca ləngiyə bilər. İndidən işi belə aparmaq lazımdır ki, kitab qısa müddətdə nəşr edilsin.

Xatırlatmaq istəyirik ki, Milli Məclis tərəfindən qəbul olunmuş və Respublika Prezidenti Heydər Əliyev cənabları tərəfindən təsdiqlənmiş qərarda "Xatirə kitabı"nın Böyük Vətən müharibəsinin 50-ci ildönümünədək nəşr olunması nəzərdə tutulmuşdu.

"Xatirə kitabı"nın baş redaktorunun verdiyi məlumata görə 1998-ci il üçün nəzərdə tutulmuş 312 milyon manatdan 219 milyon manatı, cari il üçün isə ayrılmış 321 milyon manatın 119 milyon manatı Maliyyə Nazirliyi tərəfindən verilməmişdir.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin "Azərbaycan Respublikası "Xatirə kitabı"nın hazırlanması və nəşrinin sürətləndirilməsi tədbirləri haqqında" 1 may 1997-ci il tarixli, 34 saylı qərarı respublikanın ayrı-ayrı nazirlikləri və baş idarələri tərəfindən lazımınca yerinə yetirilmir.

Göstərilənləri nəzərə alaraq həmin qərarın yerinə yetirilməsi gedişinin vəziyyətiRespublika Nazirlər Kabinetində bir daha müzakirə edilməsini xahiş edirik.

Respublika Veteranlar Şurasının sədrinin birinci müavini B.Rüstəmov".

"Xatirə kitabı"nın hazırlanması və nəşri ilə bağlı bir qədər sonrakı illərə aid 2 sənədi də oxucuların diqqətinə çatdırmaq istərdik. Azərbaycan Respublikası Nazirlər Kabineti İşlər İdarəsinin elm, mədəniyyət və təhsil şöbəsinin müdiri İ.Sadıqova 6 oktyabr 1999-cu ilə göndərilmiş 206 saylı sənəddə "Xatirə kitabı"nın hazırlanması və nəşrinin vəziyyəti ilə bağlı aparılmış yoxladan söhbət açılır:

İkinci sənəd isə bu işin ilk bəhrəsinin artıq ölkə ictimaiyyətinə çatdırılmasında əməyi olan insanların

"Respublika Veteranlar Şurası sədrinin göstərişi: N 40, 5 may 1999-cu il. "Xatirə kitabı"nın 1-ci cildinin yüksək səviyyədə çap edilməsi və qələbənin 54-cü ildönümü münasibəti ilə redaksiyanın üzvlərinə pul mükafatı ayrılsın.





Sədr B.Hüseynov".

Respublika Prezident Aparatının nəzarət şöbəsinin müdiri S.Cəfərova ünvanlanmış 146 saylı 03.06.1996-cı il tarixli məktub isə müharibə veteranlarının sosial müdafiəsinin təmin edilməsi sahəsində Şuranın fəaliyyətinin öyrənilməsi baxımından maraq kəsb edir.

"Hörmətli Salman müəllim!

1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarının, həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının, müharibə illərində arxa cəbhədə çalışmış, fədakar əməyinə görə orden və medallarla təltif edilmiş vətəndaşların sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" Azərbaycan Respublikası Prezidenti hörmətli H.Əliyev 2 may 1995-ci ildə fərman vermişdir. Həmin fərmanın 6-cı maddəsində rayon (şəhər) icra hakimiyyəti orqanlarına tapşırılmışdır ki, müharibə iştirakçılarının və həlak olmuş, yaxud sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarının mənzil məişət şəraitinin bir il müddətinə yaxşılaşdırılması üçün tədbirlər görülməlidir.

Eynizamanda, həmin fərmanın 8-ci bəndində Azərbaycan Respublikası Səhiyyə və Maliyyə Nazirliklərinə tapşırılmışdır ki, Respublika Müharibə Veteranları Xəstəxanasının əsaslı təmiri və təminatı üçün təcili tədbirlər görsünlər.

Fərman dərc edilən vaxtdan bir ildən çox müddət keşmişdir. Fərmanın bu hə iki bəndinin icrasının vəziyyəti haqqında bizim bir ictimai təşkilat kimi, hakimiyyət orqanlarından hesabat tələb etməyə səlahiyyətimiz yoxdur.

Ona görə də fərmanın göstərilən bəndlərinin icrası vəziyyətləri ilə maraqlanmağınızı xahiş edirik.

Respublika Veteranlar Şurasının sədri, istefada olan general-mayor B.Hüseynov".

16 yanvar 1996-cı il tarixdə Azərbaycan Respublikasının Baş Naziri F.X.Quliyev cənablarına ünvanlanmış məktubda

veteranların sosial müdafiəsi istiqamətdə nəinki ölkə, hətta MDB miqyasında imzalanmış saziş və müqavilələrin icra mexanizmlərinin tapılması məsələsi qaldırılır.

"Hörmətli Baş Nazir!

Respublika Veteranlar Şurası aşağıdakı məsələlərlə əlaqədar olaraq Sizə müraciət edir:

1.1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyinin təntənəli bayram edilməsi barədə MDB dövlət başçıları, MDB hökümət başçılarına tapşırıqlarları əsasında, "Böyük Vətən müharibəsi iştirakçıları və əlillərinə, digər dövlətlərin ərazilərində gedən hərbi əməliyyatlarda iştirak edənlərin, həlak olmuş hərbi qulluqçuların ailələri və s.kateqoriyalı şəxslər üçün güzəşt və təminatların qarşılıqlı tanınması barədə" MDB dövlətləri hökumət başçılarının tərəfindən Moskva şəhərində 15 aprel 1994-cü ildə imzalanmış; 2."Böyük Vətən müharibəsi əlillərinin və iştirakçılarının, həmçinin onlara bərabərləşdirilmiş digər şəxslərin nəqliyyatla gediş-gəlişiningüzəştliolmasıhüquqlarınınqarşılıqlıtanınması barədə" MDB dövlətlərinin hökümət başçıları tərəfindən 12 mart 1993-cü ildə imzalanmış və bizim Respublika həmin

Sazişə 1995-ci ilin yanvar ayında qoşulmuş;

3."Böyük Vətən müharibəsi iştirakçılarına, müharibə illərində arxa cəbhədə çalışan zəhmətkeşlərə və həlak olmuş döyüşçülərin dul qadınlarına 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 50 illiyi ilə əlaqədar olaraq əlavə güzəşt və maddi yardım edilməsi haqqında" MDB hökümət başçıları tərəfindən 9 dekabr 1994-cü ildə Sazişlər imzalanmışdır. Bu Sazişlə 70 yaşına çatmış müharibə iştirakçılarına III dərəcəli müharibə əlili statusu verilməsi;

4.Həmin Sazişlərin bizim respublikamızın müharibə veteranları üçün çox böyük əhəmiyyəti vardır və bu Sazişin əsasında veteranlara hansı dövlətin ərazisində olmasından asılı





olmayaraq keçmişdə verilmiş güzəşt və təminatlardan istifadə etmək hüququ verilir.

Sazişlərin respublikada işləmə mexanizmi hazırlanıb təsdiq edilməlidir.

Azərbaycan Respublikasının qəbul etdiyi yeni Konstitusiyanın 191-ci maddəsində də qeyd edilir ki, Azərbaycan Respublikasının tərəfdar çıxdığı konvensiyalar və digər beynəlxalq müqavilələr Azərbaycan Respublikasının hüquq sisteminin ayrılmaz tərkib hissəsidir.

Respublika Xarici İşlər naziri H.Ə.Həsənov cənablarının Sizin adınıza təqdim etdiyi 5.01.1996-cı il 11/3-11/ saylı məktubundan aydın olur ki, 3 dekabr 1994-cü ildə imzalanmış Saziş MDB dövlətləri arasında qoyulmuş qaydaya əsasən, artıq beynəlxalq hüququ akt kimi 11 avqust 1995-ci il tarixdən qüvvəyə minmişdir.

Beləliklə yuxarıda adları çəkilən Sazişlər artıq respublikanın qanunverici aktlarının tərkibi kimi qüvvədə olan beynəlxalq hüquqi aktlardır.

Bu sazişlərin təsdiq və işləmə mexanizminin hazırlanması barədə hökümət qarşısında əvvələr də məsələ qaldırılmışdır. Lakin nədənsə həlli açıq qalmışdır. Ona görə də həmin Sazişlərin təsdiqi və işləmə mexanizminin təsdiq edilməsini Sizdən xahiş edirik.

Əlavə: Sazişlərin mətni 13 vərəqədə.

Respublika Veteranlar Şurasının sədri, istefada olan general-mayor B.Hüseynov".

Azərbaycan Respublikası Milli Məclisinin Sosial problemlər Daimi Komissiyasının sədri H.M.Rəcəbova 23.08.1996-cı il tarixdə təkrarən göndərildiyi qeyd olunan 225 saylı məktubda da ümumən veteranların sosial müdafiəsinin təmin edilməsi ilə bağlı məsələ qaldırılmışdır.

"Hörmətli Hadı müəllim! 1941-1945-ci illər Böyük Vətən müharibəsi iştirakçılarının həlak olmuş yaxud sonralar

vəfat etmiş döyüşçülərin dul arvadlarının, müharibə illərində arxa cəbhədə çalışmış, fədakar əməyinə görə orden və medallarla təltif edilmiş vətəndaşların sosial müdafiəsinin yaxşılaşdırılması haqqında" Respublika Prezidentinin 2 may 1995-ci il tarixli fərmanın 4-5 maddələrinin mətni ilə Milli Məclis tərəfindən bu barədə 20 iyun 1995-ci il tarixdə qəbul edilmiş qanunun arasında aşağıdakı fərqlər aşkar edilmişdir:

1.Fərmanın 4-cü maddəsində göstərilir ki, "Azərbaycan Respublikası Milli Məclisinə təklif edilsin ki, müharibə illərində arxa cəbhədə çalışmış, fədakar əməyinə görə orden və medallarla təltif edilmiş vətəndaşlara güzəştlər və təminatlar almaq hüququ verilməsi məsələsinə baxsın".

Milli Məclisin qəbul etdiyi "İkinci dünya müharibəsi illərində arxa cəbhədə əməyinə görə fərqlənmiş şəxslərin güzəştləri" barədə 18-1 N-li maddəsində qeyd edilir ki, bu şəxslər "Veteranlar haqqında" qanunun 12-ci maddəsinin birinci hissəsində, 12-ci 1 və 13-18-ci maddələrində veteranlar üçün nəzərdə tutulan bütün güzəştlərdən və imtiyazlardan istifadə etmək hüququna malikdirlər. Halbuki veteranlara verilən güzəşt və imtiyazlar 11-ci maddədən başlayır. Nədənsə qanuna əlavədə 11 maddənin qeyd edilməsi buraxılmışdır.

2.Fərmanın 5-ci bəndində qeyd edilir ki, burada sadalanan kateqoriyalı şəxslərin hər cür vergi, rüsum, məcburi ödəmələrdən azad edilməsinə baxılması Milli Məclis qarşısında qoyulmuşdur. Milli Məclisin qəbul etdiyi qanunda rüsumları ödəməkdən azad edilməsi qərar alınmış, lakin hər cür vergiləri ödəmədən azad edilməsi ilə bağlanır.

Məlumdur ki, fiziki şəxslər gəlir vergisindən başqa Dövlət yol fondu vergisi də verirlər. (Bu qanun 16 fevral 1994-cü ildə qəbul edilmişdir).Prezidentin 2 may 1995-ci il tarixli yuxarıda sadalanan fərmanına əsasən isə müharibə veteranları gəlir vergisi ilə yanaşı yol fonduna vergi verməkdən də azad edilməlidirlər.





Hər iki məsələyə baxıb, qanunda dəyişiklik edilməsini Sizdən xahiş edirik.

Respublika Veteranlar Şurasının sədri B.M.Hüseynov".
"Veteranlar haqqında" Azərbaycan Respublikası

Qanununa dəyişiklik və əlavə edilməsi barədə" Azərbaycan Respublikasının Milli Məclisinə göndərilmiş digər bir məktubda da veteranların hüquqlarının qorunması və sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı təkliflər əksini tapmışdır.

I "Veteranlar haqqında" Qanunun 1-ci maddəsində əksinitapan veteranlar haqqında dövlət siyasətinin əsaslarına uyğun olaraq, veteranların ictimai, faydalı əməkdə daha geniş iştirak etmələri indiki ağır sosial iqtisadi şəraitdə vacib bir məsələdir. Qanunun 9, 10-cu maddələri bu sahədə veteran təşkilatlarına bəzi imtiyazları verir. Təcrübə göstərir ki, faydalı əməklə məşğul olmaqla veteranların, xüsusən müharibə veteranlarının (onlar 70 yaş həddini keçdiklərinə görə müharibə əlili statusuna malikdirlər) rast gəldiyi bir sıra çətinliklər vardır. Onlardan ən təsirlisi odur ki, veteran təşkilatları yanında fəaliyyət göstərən veteran müəssisələrində işləyənlər yalnız veteran olduqda, onlar mənfəət vergisindən azaddırlar.

Halbuki, əgər bu müəssisələr əlillərin ictimai təşkilatları yanında fəaliyyət göstərirlərsə, onlarda işləyənlərin 50% əlil olanda mənfəət vergisindən azaddırlar. Belə çıxır ki, əgər əlil veteranlar, onların təşkil etdikləri kiçik müəssisələri əlillər təşkilatı yanında olsalar daha yüksək güzəştlə layiq görülürlər, nəinki veteran təşkilatı yanında. Beləliklə əlil veteranlar barəsində bir növ qeyri-ədalətli vəziyyət yaranır.

Bundan başqa Əlillərin sosial müdafiəsi haqqında Azərbaycan Respublikası Qanununa əsasən Əlillər Təşkilatı beynəlxalq iqtisadi ticarət əlaqələrində gömrük və başqa dövlət rüsumlarını ödəməkdən azad edilirlər. Belə bir imtiyaz

əksəriyyəti müharibə əlillərindən ibarət olan veteran təşkilat və müəssisələrinə verilməmişdir ki, bu da real həyatda veteran təşkilatlarının imkanlarından istifadə etməyə çox mənfi təsir göstərir. Bu qeyri-bərabərlik üzərində olan ədalətsizliyi aradan qaldırmaq üçün Respublika Veteranlar Şurası iki cür təklif irəli sürür:

- "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanununun 10-cu maddəsinin mətninə yenidən baxılsın və onun üçüncü abzası aşağıdakı məzmunda verilsin;

- Müharibə, Əmək, Silahlı Qüvvələr veteranlarının müəssisələrində işləyənlərin sayının 50% veteran əlillərdən ibarət olduqda həmin müəssisələr mənfəət və əlavə dəyər vergilərini ödəməkdən, pensiya fonduna və sosial sığorta fonduna ayrılmalardan azad edilsin;

- "İxrac və idxal əməliyyatları üzrə gömrük rüsumları və əlavə dəyər vergisi istisna olmaqla veteranların ictimai təşkilatları və onların yanında təşkil edilmiş müəssisələr, kooperativlər, idarələr, təşkilatlar və başqa hüququ şəxslər xarici şirkətlərlə iqtisadi, ticarət əlaqələrində digər dövlət vergilərindən və rüsumlardan azaddırlar" və yaxud Əlillərin Sosial müdafiəsi haqqında Azərbaycan Respublikası Qanunun 27, 28, 52, 53, 55-ci maddələrinin və 29 maddənin axırıncı abzasının müddəalarının veteran təşkilatlarında birləşən müharibə əlillərinə şamil edilsin.

II .İndiki ağır iqtisadi sosial şəraitdə müharibə, əmək veteranlarının, tənha kimsəsiz, ahıl adamların yaşadıqları, müalicə olunduqları bu təyinatlı xəstəxanalar, pansionatlar, internatlara dövlət tərəfindən ayrılmış vəsait kommunal xidmət xərclərini ödəyə bilmir və həmin müəssisələr çox vaxt həmin orqanlara borclu olduqlarına görə sudan, qazdan, enerjidən məhrum olurlar.

Belə hesab edirik ki, həmin obyektlərin fasiləsiz işləməsi və orada müalicə olunan, istirahət edən, yaşayan veteranlara,





tənha vətəndaşlara minimum yaşayış şəraiti yaratmaq üçün həmin müəssisələri o xərcləri ödəməkdən azad etmək məqsədə uyğun olardı. Buna görə də "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanununun 20-ci maddəsinə aşağıdakı məzmunda abzas əlavə edilsin.

Veteranlara, tənha ahıl vətəndaşlara xidmət edən internat evləri, pansionatlar və xüsusi xəstəxalanar kommunal xərclərini (su, qaz, elektrik enerjisi və s.) ödəməkdən 50% güzəşt verilir (məlumat üçün bildiririk ki, cəmi 6 belə obyekt var).

Bu məsələlərin bizim iştirakımızla baxılıb həll edilməsini xahiş edirik.

Respublika Veteranlar Şurasının sədri istefada olan general-mayor B.M.Hüseynov".

18 dekabr 1996 il tarixdə 323 saylı məktubla veteranların əsl himayədarı, problemlərinin həllində onlara daim dəstək olan Azərbaycan Respublikasının Prezidenti H.Ə.Əliyev cənablarına müraciət edən Respublika Veteranlar Şurasının sədri yenə də veteranların maddi təminatının, sosial müdafiəsinin gücləndirilməsi sahəsində növbəti məsələ qaldırır.

"Hörmətli Prezident!

Sizin Müharibə, Əmək veteranlarına göstərdiyiniz qayğı və diqqət, onların keçmiş olduqları rəşadətli döyüş və fədakar əmək yollarına verdiyiniz yüksək qiymət hamıya məlumdur və Respublikanın bütün Sizə bir daha öz minnətdarlıqlarını bildirirlər.

Hörmətli Prezident!

Respublikanın Milli Məclisi cari ilin 16 iyul tarixdə "Torpaq islahatı haqqında" Azərbaycan Respublikasının Qanununu qəbul etmişdir.

Həmin Qanunun 14-cü maddəsində kolxoz və sovxozların torpaqlarının özəlləşdirilməsi qaydasında ikinci abzasda qeyd edilir ki, "Azərbaycan Respublikasının ərazi

bütövlüyü uğrunda döyüşlərdə həlak olanların ailələrinə, əlil olmuş müharibə veteranlarına və Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş şəxslərə əlavə bir torpaq payı verilir”.

Digər tərəfdən, həmin qanunun 19-cu maddəsində “Torpaqların alqı-satqısının ümumi qaydaları və şərtlərini və şərtlərini izah edərkən ikinci abzasda qeyd edilir ki, “Bu Qanun qüvvəyə mindiyi gündən sonra yaşayış evi, həyətyanı və bağ sahəsi üçün Azərbaycan Respublikası vətəndaşlarının mülkiyyətinə bələdiyyənin ehtiyat fondundan torpaq sahələri müəyyən edilmiş normalara uyğun olaraq satılır. Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüşlərdə əlil olmuş şəxslərə və həlak olanların ailəsinə bu məqsəd üçün torpaq sahələri bir dəfə pulsuz verilir”.

Hər iki halda müharibə veteranlarının, müharibədə həlak olmuşların ailələrinin yalnız bir qrupu, Dağlıq Qarabağ ətrasında gedən müharibədə iştirak edənlərə güzəşt nəzərdə tutulur, digər müharibə veteranları isə nədənsə kənarda qalmışdır. Bu ədalətsizliyin aradan qaldırılması üçün qanuna əlavə edib, o güzəştlərin birlikdə bütöv müharibə veteranlarına şamil edilməsini Respublika Veteranlar Şurası Sizdən xahiş edir.

Hörmətlə,

Respublika Veteranlar Şuranın sədri, istefada olan general-mayor B.M.Hüseynov”.

Nəhayət Şuranın veteranların sosial problemlərinin həlli istiqamətdəki fəaliyyəti barədə daha aydın təsəvvür yaranması üçün 05 noyabr 1996-cı ildə ölkənin Baş Nazirinə ünvanlanmış 280 saylı məktuba istinad etməyi lazım bilirik.





## “Azərbaycan Respublikası Baş Naziri əvəzi A.T.Rasi- zadə cənablarına.

Hörmətli Artur Tahir oğlu!

Respublika Veteranlar Şurası aşağıdakı məsələ üzrə Sizə müraciət edir:

Respublikanın müharibə, əmək, Silahlı Qüvvələr veteranlarının sosial müdafiəsi problemləri ilə veteran təşkilatları gündəlik məşğul olurlar. Bu onların nizamnamələrindən, həmçinin “Veteranlar haqqında” Azərbaycan RespublikasıQanununun tələblərindən irəli gəlir. Veteranların sosial-iqtisadi problemləri, bu sahədə qanunverici aktların hazırlanması və qəbul olunmuş normativ aktların icrası üzərində nəzarəti ilə Respublika Veteranlar Şurası daima məşğuldur. Bu problemlərlə Respublikanın Əmək və Əhalinin sosial müdafiəsi Nazirliyi, Sosial Müdafiə Fonduda bir dövlət orqanları kimi məşğuldurlar.

Dövlət orqanlarında məsələlərin müzakirəsi, qərarların qəbul edilməsi işində Respublika Veteranlar Şurasının nümayəndəsinin daimi iştirak etməsi səmərəli məqsədəuyğun və zəruri olardı.

Ona görə də həmin orqanların kollegiyalarına daimi üzv kimi Respublika Veteranlar Şurasının nümayəndəsinin daxil edilməsi məsələsinə baxmağınızı xahiş edirik.

Şuranın sədri, istefada olan general-mayor B.M.Hüseynov”.

Göründüyü kimi söhbət artıq sadəcə veteranların sosial problemlərinin həlli ilə bağlı ayrı-ayrı dövlət orqanları qarşısında məsələlərin qaldırılmasından getmir. Şura bu sahədə vəziyyəti tam nəzarətdə saxlamaq üçün sosial problemlərlə əlaqədar məsələlərin hələ müzakirə səviyyəsində olduğu

mərhələdə dövlət orqanları ilə birgə həmin müzakirələrdə iştirak etmək, qəbul olunacaq qərarlara təsir göstərmək fikrində olmuşdur. Məhz bun un nəticəsi idi ki, veteranların problemləri getdikcə daha intensiv şəkildə öz həllini tapırdı. Ölkə başçısı, möhtərəm Heydər Əliyevə 30 noyabr 1999-cu ildə ünvanlanmış ünvanlanmış 231 saylı məktub bir daha dediklərimizi təsdiq edir.





## “Азәрбајҹан Республикасынын Президенти Һејдәр Әлијев ҹәнабларына

**Мөhtәрәm президент!**

Сизин тәшәббүсүнүзлә ҹари илин 29 нојабрында Бөјүк Вәтән Мүһарибәсинин бир груп әлил ветеранларына пулсуз миник машынлары верилмишдир. Бу тәдбир бир даһа сизин ветеранлара олан даими гајғыныза парлаг мисалдыр. Бунуила әдагәдар оларaг сизә өз дәрин миннәтдарлығымызы билдиририк.

Ветеранлар бу диггәтинизә ҹаваб олараг сизин апардығыныз дахили вә хариҹи сијасәтинизин кениш изаһы вә мөһкәмләнмәси наминә өз гүввә вә баҹарыгларыны әсиркәмәјәҹәкләр.

Сизә мөһкәм ҹан сағлығы вә апардығыныз бөјүк ишләринииздә јени уғрлар арзу едирик.

Республиканын бир груп ветераны адындан Республика Ветеранлар Шурасынын сәдри Б.ҺУСЕЈНОВ”.

Respublika Veteranlar Təşkilatının 27 dekabr 1996-cı il tarixli Rəyasət Heyətinin iclası Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikası Silahlı Qüvvələrinin təcavüzünün beynəlxalq səviyyədə qəbul etdirilməsi cəhdi kimi xüsusi maraq doğurur. Bunu nəzərə alaraq, həmin iclasın qərarını diqqətinizə çatdırırıq. Qərarda deyilir:

“Azərbaycan Respublikasına qarşı Ermənistan Respublikası Silahlı Qüvvələrinin təcavüzü nəticəsində respublikamızın ərazisinin 20 faizinin işğal vəziyyətinin davamı ilə əlaqədar olaraq Respublika Veteranlar Şurasının BMT-yə müraciətinin mətni təsdiq edilsin.

Respublika Veteranlar Təşkilatının sədri B.Hüseynov.

## ОБРАЩЕНИЕ
## Ветеранов Войны, Труда и Вооруженных сил Азербайджанской Республики к ООН

Уважаемые господа!

Вот уже 8 лет длится война, навязанная Азербайджану Арменией, которая пытается осуществить аннексию азербайджанских территорий, используя при этом все возможные средства и методы: начиная от политических спекуляций и заканчивая открытыми военными действиями.

В результате агрессии вооруженными силами Республики Армения оккупировано 20% территории Азербайджана, убито более 20 тысяч человек, около 100 тысяч ранено, 1.5 тысячи взято в плен либо в заложники, 1 миллион 20 тысяч мирных жителей – около 15% населения страны – стали беженцами, большинство из которых, терпя неимоверные лишения, ютятся в палаточных городках. Разрушены и разграблены тысячи сельскохозяйственных и промышленных объектов, 4 тысячи культурно-просветительных объектов, 693 школы, 219 детских садов, 2 Вуза,

4 техникума, 12 технических училищ, более 190 больниц и других медицинских учреждений, причинен невосполнимый ущерб природной среде оккупированных районов.

Республика Армения отрицает свою прямую вовлеченность в конфликт, хотя имевшие место только такие факты, как обстрелы и захват территорий, граничащих с Арменией и удаленных на значительное расстояние от Нагорного Карабаха, и жесточайшая блокада Нахичеванской Автономной Республики наиболее явно свидетельствуют о совершенно обратное. Подобные действия, подпадающие под признаки агрессии, как они определены в резолюции





3314 /XXIX/ Генеральной Ассамблеи ООН от 14 декабря 1974 года, являются грубейшим нарушением пункта 4 статьи 2 Устава Объединенных наций – применением силы против территориальной целостности и политической независимости другого государства.

Как известно, разрастание конфликта и захват вооруженными силами Республики Армения территории Азербайджана не остались без внимания Объединенных Наций и вызвали серьезную озабоченность самой представительной международной организации, что проявилось в принятии Советом безопасности ООН 4 резолюций /№822-30.04.93, №853-29.07.93, №874-14.10.93, №884-11.11.93/ и 6 заявлений его Председателя. Во всех резолюциях СБ ООН подтверждаются суверенитет и территориальная целостность Азербайджанской Республики, подчеркивается недопустимость применения силы с целью захвата территории, выражено требование немедленного, полного и безоговорочного вывода всех оккупирующих сил из всех захваченных районов Азербайджана и возвращения беженцев в места их постоянного проживания.

На протяжении более четырех с половиной лет конфликт является предметом рассмотрения ОБСЕ, учредившей специальный институт по его урегулированию – Минскую группу. Однако, до сих пор все усилия ОБСЕ, направленные на достижение мирного, политического решения, не привели к ожидаемым результатам из-за нежелания Армении отказаться от своих территориальных притязаний и следовать общепризнанным международным принципам и нормам, в том числе зафиксированным в документах ОБСЕ.

На состоявшемся в декабре 1996 года саммите в Лиссабоне, Республика Армения в очередной раз проигнорировала авторитет ОБСЕ, единолично проголосовав против

принятия Заявления Действующего Председателя, содержащего принципы урегулирования армяно-азербайджанского конфликта; территориальная целостность Республики Армения и Азербайджанской Республики; правовой статус Нагорного Карабаха, определенный на основе самоопределения, которое предоставляет Нагорному Карабаху самую высокую степень самоуправления в составе Азербайджана; гарантированная безопасность для Нагорного Карабаха и всего его населения, включая взаимные обязательства.

Обеспечить выполнения всеми сторонами положений урегулирования противопоставив себя остальным 53 членам ОБСЕ, Армения ярко продемонстрировала свое неприятие отвечающей интересам справедливости.

Недопустимо, когда одно государство ООН, будучи уверенным в своей безнаказанности, нагло попирая все нормы международного права, проводя аналогичную пе- чально известной по событиям шестидесятилетней давности и приведшую к началу Второй мировой войны политику «аншлюса», на виду у всего мирового сообщества совершает агрессию против другого государства ООН. Настало время принять самые срочные и решительные меры по обузданию агрессора, бросившего открытый вызов цивилизованным нациям. Мы, ветераны войны, труда и Вооруженных сил, призываем организацию Объединенных наций признать Республику Армения агрессором, рассмотреть вопрос о применении в отношении нее всеобъемлющих санкций, использовать все имеющиеся в распоряжении ООН возможности с целью содействия восстановлению территориальной целостности Азербайджанской республики и возвращению к родным очагам беженцев и перемещенных лиц.Мы считаем, что в эпоху прогресса международные отношения должны основываться на силы права, а не на праве силы, и хотим верить в успех объединенных усилий по искоренению источников агрессии, благодаря которым человечество вступит в XXI век не обремененным грузом войн и конфликтов".





Biz Respublika Veteranlar Şurasının təbliğati iş istiqamətindəki fəaliyyətindən bəhs edərkən "Vətən" nəşriyyatının fəaliyyəti ilə bağlı müəyyən məsələlərə də toxunmuşduq. Bu nəşriyyatın yaranmasından sonra Respublika Veteranlar Şurasının mətbu nəşrlərinin çapı ilə bağlı problemlərin əsasən aradan qaldırıldığını, Şuranın fəaliyyətinin, veteranların zəngin həyat təcrübəsinin, keçdikləri şərəfli yolun ölkə ictimaiyyətinə daha yaxından tanıdılması üçün müxtəlif kitabların, broşürlərin çap edilərək yayıldığını qeyd etmişdik. Ancaq bu və "Vətən" nəşriyyatının fəaliyyəti ilə bağlı digər məsələlərə aydınlıq gətirlməsi üçün bəzi arxiv sənədlərinə müraciət etməyi də lazım bilirik.

RespublikaVeteranlar Şurasının 16 iyun 1997-ci il tarixli 39 saylı sərəncamı və Baş Nazirə ünvanlanmış məktub belə sənədlərdən sayıla bilər. Respublika Veteranlar Şurasının 16 iyun 1997-ci il tarixli 39 saylı Sərəncamından:

"1."Vətən" nəşriyyatının direktoru Mahmudov Rəşid İsmayıl oğlu 27 may 1997-ci il tarixli ərizəsinə əsasən tutduğu vəzifədən 16 iyun 1997-ci ildən azad edilsin.

2. "Vətən" nəşriyyatına direktor məsələsi həll edilənədək həmin vəzifə Şuranın mütəxəssisi Babaşov Adil Bəykişi oğluna həvalə edilsin.

Əsas: Respublika Veteranlar Şurasının Rəyasət Heyətinin 30 may 1997-ci il tarixli qərarı.

Sədr B.Hüseynov".

"Azərbaycan Respublikasının Baş Naziri A.Rəsi-zadə cənablarına

Hörmətli Artur müəllim!

Veteranlar Şurasının nəzdində yaradılmış "Vətən" nəşriyyatı 1993-cü ildən fəaliyyət göstərir. Nəşriyyat hər il onlarla veteranların həyat və yaradıcılığına həsr olunmuş müxtəlif növ çap məhsulları nəşr edir. Lakin maddi, texniki bazası olmadığından nəşriyyat tam gücü ilə işləyə bilmir, ona görə də respublika veteranlarına və veteran təşkilatlarına lazım onlarla əsər işıq üzü görmür. Çap ounan əsərlərə külli miqdarda vəsait sərf olunur.

Bu vəsaitlər adətən büdcədən və ya sponsorlardan çox böyük çətinliklə alınır. "Vətən" nəşriyyatının mətbəəsi olmadığından Respublika veteranlar Şurası və onun rayon bölmələri çap məhsullarını Respublikanın müxtəlif mətbəələrində haqırlamağa məcbur olur və çətinliklə əldə olunan vəsaitləri həmin mətbəələrə yönəldir. Hal-hazırda respublikada gedən islahatlar nəticəsində "Vətən" nəşriyyatının maddi texniki bazasını yaratmağa çox əlverişli şərait yaranmışdır. Belə ki, mətbuatdan məlum olmuşdur ki, Mətbuat və İnformasiya Nazirliyinin ləğv olunması nəticəsində bir çox nəşriyyat və mətbəələr bağlanacaq və ya başqa strukturların sərəncamına veriləcək. Respublika Veteranlar Şurası yanında yaradılmış "Vətən" nəşriyyatının maddi texniki bazasını möhkəmlətmək məqsədilə Mətbuat və İnformasiya Nazirliyinin 3N-li mətbəəsini və ya hər hansı münasib bir mətbəəsini bütövlükdə "Vətən" nəşriyyatının balansına verilməsini xahiş edirəm. Bu məsələni müsbət həll etməklə siz respublikanın bütün veteranlarına böyük yardım göstərmiş olarsınız.

Dərin hörmətlə,

Respublika Veteranlar Şurasının sədri, e\o general-mayor B.Hüseynov".

Nəhayət Respublika Veteranlar Şurasının 18 saylı, 25 mart 1999-cu il tarixli Sərəncamı:





Cəfərov Şəddat Muğdat oğlu 25 mart 1999-cu ildə Respublika Veteranlar Şurası nəzdindəki "Vətən" nəşriyyatı direktoru vəzifəsinə təyin edilsin.

Əsas: Ş.Cəfərovun ərizəsi və Respublika Veteranlar Şurasının 24 mart 1999-cu il tarixli Rəyasət Heyətinin qərarı. Şuranın baş mütəxəssisi Qasımov M.M. nəşriyyata aid möhür və başqa sənədlərin aktla Ş.Cəfərova təhvil verilməsini, aktın surətininRəyasət Heyətinin qərarına əlavə edilməsi üçün məsul katib Ə.Baxışova verilməsini təmin etsin.

Respublika Veteranlar Şurasının sədri B.Hüseynov".

Böyük Vətən Müharibəsində Qələbənin bayram edilməsi ərəfəsində veteranların mükafatlandırılması, onların müxtəlif dövlətt əltiflərinəlayiqgörülmələri, yaxudsosialproblemlərinin həll edilməsi ilə bağlı müxtəlif instansiyalar qarşısında məsələ qaldırılması, müraciətlər edilməsi də yaddan çıxmamış və bir qayda olaraq belə müraciət və xahişlər öz müsbət həllini tapmışdır. Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev cənablarına 14 oktyabr 1999-cu ildə göndərilmiş 211 saylı məktub həmin çoxsaylı müraciətlərdən biri kimi diqqəti xüsusilə cəlb edir. Çünki bu məktubda söhbət sadəcə bir və ya bir neçə nəfərin deyil, 1000 nəfər İkinci Dünya müharibəsi veteranının mükafatlandırılmasından gedir.

"Hörmətli Prezident!

2000-ci ilin may ayının 9-da Böyük Vətən Müharibəsində Qələbənin 55-ci ildönümü tamam olur. Bununla əlaqədar olaraq Azərbaycan Respublikasının Rusiya Federasiyasındakı səfirliyi Respublika Veteranlar Şurasına müraciət edərək göstərir ki, Qələbə bayramı təntənələrində müharibə veteranlarına kiçicik hədiyyələr kimi təqdim etmək üçün Çelyabinsk "Molniya" saat zavodu cib saatları istehsal edir, hər saatın qiyməti 8 ABŞ dollarına bərabərdir.Respublikamızda 35 min nəfər Böyük Vətən müharibəsi veteranı vardır. Onların hamısına

bu hədiyyəni vermək üçün respublikamızda hazırda belə bir iqtisadi imkan yoxdur.

Bununla birlikdə MDB ölkələri məkanında gedən bu tədbirdə iştirak etməmək də yaxşı alınmır. Odur ki, bütün müharibə veteranlarına yox, 1000 nəfər fəal veterana 8000 dollarlıq bu hədiyyənin verilməsi üçün imkan tapmanızı xahiş edirik.

Sifariş aşağıdakı ünvana edilməlidir:

454000, Челябинск, ул.Увиллинга, 25, Челябинский завод «Молния», Снеткову Александру Владимировичу.

Для изготовления – часы карманные чеканкой на верхней крышке – орден «Внликой Отечественной Войны» - 1000 штук.

Банковские реквизиты

ИНН 745300648, ОКПО 00226684, ЩКЩНХ 14326

Р/С 5467593, АКБ Челябинвенстбанк, г.Челябинск. Sizin göstərişinizi xahiş edirik.

Respublika Veteranlar Şurasının sədri B.Hüseynov".

Bu məktubun yazıldığı 1999-cu il BMT tərəfindən dünyada beynəlxalq Ahıl adamlar ili kimi elan edilmişdi. Bütün dünyada olduğu kimi Azərbaycanda da bu ilin yüksək səviyyədə keçirilməsi üçün müvafiq hazırlıq işləri görülür, geniş tədbirlər planının yerinə yetirilməsi nəzərdə tutulurdu. Bir sıra dövlət orqanları ilə yanaşı, Respublika Veteranlar Şurası da Ahıl adamlar ilinin lazımınca qeyd edilməsi üçün hələ 1998-ci ilin dekabr ayında özünün Plenumunu keçirmiş və burada müvafiq qərarlar qəbul olunmuşdu.

"1999-cu ilin beynəlxalq Ahıl adamlar ili elan edilib keçirilməsi ilə əlaqədar olaraq veteran təşkilatlarının vəzifələri haqqında Respublika Veteranlar Şurasının Plenumunun Qərarı, 15 dekabr 1998-ci il.

1999-cu ilin Birləşmiş Millətlər Təşkilatının qərarı ilə bütün dünyada beynəlxalq ahıl adamlar ilinin elan ediməsi və





bu il ilə əlaqədar olaraq tədbirlərin həyata keçirilməsi sahəsində veteran təşkilatlarının üzərinə düşən vəzifələr haqqında Respublika Veteranlar Şurasının sədr müavini Ç.K.Həsənovun məruzəsini və məruzə ətrafında çıxışları dinləyərək, Plenum qeyd edir ki, ümumdünya təşkilatı tərəfindən bütün dünyada ahıllaşmaq problemi ilə əlaqədar olaraq insanlıq qarşısında qoyulan məsələ günün tələblərindən irəli gəlir. Ahıllaşmanın və bununla əlaqədar olaraq meydana çıxan, sosial, iqtisadi, mənəvi, psixoloji problemlər bizim respublikamız üçün də eyni ilə şamildir. Bu problemdə doğa məsələlərin həllində yaxından iştirak etmək, veteran təşkilatları qarşısında duran təxirəsalınmaz vacib məsələdir.

Beynəlxalq ahıllar ilinin lazımi səviyyədə keçirilməsi və bu proses gedişatında ahıl adamların sosial-iqtisadi və digər probleməriinin həllində Respublika, şəhər, rayon, idarə, müəssisə, kənd, məhəllə veteran təşkilatlarının vəzifələri ilə əlaqədar Plenum qərar alır:

1.Respublika Veteranlar Şurası Rəyasət Heyətinə tapşırılsın:

- Azərbaycan Respublikası Ahıl vətəndaşlarının xartiyasının Milli Məclis tərəfindən qəbul edilməsi işinin başa çatdırılmasına çalışsın;
- Beynəlxalq Ahıl adamlar ilinin keçirilməsi üzrə Respublika proqramında nəzərdə tutulan tədbirlərin həyata keçirilməsində fəal iştirak etsin;
- Respublika proqramının əsas məğzi olan bazar iqtisadiyyatının bərqərar olmasının ahıl adamların fəal həyat tərzinin təmin edilməsinə mənfi təsir etməsinin qarşısını almaq məqsədi ilə onların digər məsələlərini əks etdirmək barədə Respublika Veteranlar Şurasının təkliflərini pensiya haqqında qəbul ediləcək yeni qanunda əks edilməsinə nail olunsun.

2.Rayon, şəhər, idarə, müəssisə, məhəllə veteran təşkilatlarına tapşırılsın:

- Ahıl adamlara evdə sosial yardım işinin genişləndirilməsi işində rayon, şəhər sosial mərkəzləri ilə birgə fəal işləmək;

- Yerli sosial müdafiə orqanları ilə birlikdə tənha ahıl adamların dəqiq hesabını aparmaq, onlara müntəzəm xidmət edən dövlət nümayəndəsi ilə yanaşı, birgə veteran təşkilatından da nümayəndə ayırmalı, onların işinə nəzarət etməli;

- Ahıl adamlara əvvəlki işləmiş olduqları idarə və müəssisələr tərəfindən onlara sosial yardım göstərmək sahəsində iş aparılmalı;

- Rayon, şəhər Qızıl Aypara cəmiyyətləri ilə yaxın əlaqəyə girərək, onların xətti ilə daxil olmuş xeyriyyə yardımını ahıl adamlara və birinci növbədə tənha, imkansız, hərəkətsiz ahıl adamlara çatdırılması işi ilə yaxından məşğul olmalı;

- Rayon, şəhər poliklinikalarında və xəstəxanalarında ahıl adamlara xüsusən də tənha ahıllara tibbi xidmət göstərmək üçün ayrıca palata və kabinetlərin təşkil edilməsinə nail olmalı;

- Rayon, şəhər sosial müdafiə mərkəzləri və səhiyyə orqanları ilə birgə ahıl adamların tibbi reabilitasiyasını təmin etmək, stasionar müalicəsinə ehtiyacı olan veteran-pensiyaçıların xəstəxanaya qoyulmasına nail olmalı;

- Rayon, şəhər səhiyyə orqanları Qızıl Aypara təşkilatları ilə birlikdə rayon, şəhərdə olan tibbi tədris müəssisələri tələbələrindən ictimai əsaslarla işləyən şəfqət bacıları dəstələri təşkil edərək, onların köməyi ilə kənardan yardıma ehtiyacı olan, özünə xidmət bacarığını itirməkdə olan tənha, yaşlı vətəndaşlara, veteranlara, əlillərə xidmət etmək işini təşkil etməli;

- Ahıl adamların rayon və şəhərlərdə olan teatr və digər mədəni-maarif müəssisələrinin xidmətlərindən istifadə etmələri aidiyyatı orqanlarla birlikdə təşəbbüsdə bulunsunlar;

- Ahıl adamları kitab və sairə nəşr məlumatı ilə təmin etmək üçün onlardan telefonla sifariş götürülməsi, tənha,





hərəkətsiz yaşlılara kitab daşıyanların vasitəsi ilə kömək edilməsini yerli dövlət orqanları ilə birlikdə təşkil etməyi yaddan çıxarmamaq;

- Gözdən əlil olan ahıl adamlara ədəbiyyat nümunələrindən istifadə etməkdə kömək etmək məqsədi ilə yerli kitabxanalarda audio-patefon və kasetlərin pulsuz səsləndirilməsindən istifadə etməkdə köməklik etmək;

- Ahıl adamların fiziki sağlamlığına nail olmaq məqsədi ilə hər il rayonda ahıl adamlara idman-sağlamlıq tədbirləri həftəliyinin keçirilməsini yerli idman orqanları ilə birlikdə həyata keçirmək;

- Ahıl adamların problemlərinə həsr edilmiş verilişlərin yerli, radio televerilişləri şəbəkəsi ilə birlikdə təşkil edilməsinə nail olmaq, daimi masa arxasında radio televerilişləri təşkil etməli;

- Ahıl adamların, veteranların işlədikləri müəssisələrdə ixtisar problemi ortaya çıxdığı hallarda onların ixtisar edilməmələri üçün yerli əmək-mühafizə orqanları ilə birgə kömək etmək;

- Ahıl adamların əmək kollektivlərində fəaliyyətlərini davam etdirmək üçün onların arzularına uyğun işə götürülmələri, iş qrafiklərini onların qüvvəsinə uyğun halda təşkilini və sairə yüngülləşdirici tədbirlərlə şərait yaradılmasına fikir verilməli və kömək etməli;

- “Veteranlar haqqında” Qanunun 9-10-cu maddələrinin tələblərini yerlərdə tam dolğun həyata keçirilməsinə çalışaraq, ahıl adamların fiziki-maddi imkanları çərçivəsində fərdi orqanlar tərəfindən torpaq, başqa vəsait, avadanlıq və s. verilməsinə nail olmalı;

- Ahıl adamların, veteranların, yaşlı pensiyaçıların mövcud qanunlara əsasən növbədənkənar, pulsuz telefon rabitə növü ilə təmin edilmələrinə nail olmalı, rabitə xidmətini birbaşa evdə göstərməli;

- Rayonun xeyirxahlıqla məşğul olan cəmiyyətləri ilə birlikdə ahıl, xüsusən tənha adamlara pulsuz isti naharlar verilməsinə nail olmalı;

- Əmək kollektivləri tərəfindən "yaddan çıxarılmırsınız" devizi altında, hər il ahıl, tənha adamlara xeyirxahlıq tədbirlərini göstərmək;

- Tənha, ahıl adamların himayəyə götürülməsini təşkil etmək;

- Ahıl adamların, xüsusən sanatoriya-kurort müalicəsinə ehtiyacı olanların pulsuz yollayış ilə təmin edilməsi üçün yerli müdafiə mərkəzləri ilə yaxından əlaqə saxlamalı;

- Rayon şəhər ərazisində qayğı-kommersiya tədbirlərini təşkil etmək işində fəal çalışmalı və əldə edilən vəsaitin ahıl, tənha adamların güzəranının yaxşılaşmasına yönəldilməsinə nail olmaq;

- Yerli icra hakimiyyəti orqanları, təhsil şöbələri, həmkarlar təşkilatları ilə birlikdə məktəblərdə döyüş və əmək şöhrəti güşə, muzeylərinin işini canlandırmaq, onların fəaliyyətində ahıl adamların təcrübəsindən istifadə etməli, veteran klublarının yaradılmasına çalışmalı;

- "Cəmiyyətdə ahıl adama layiqli yer" devizi altında görüşlər keçirməyi daima nəzərdə saxlamalı;

- Ünvanlı yardım etmək üçün yerli sosial müdafiə orqanları ilə birlikdə gəliri respublikada müəyyən olunmuş minimum yaşayış həcmindən aşağı olanların siyahısını tərtib edərək, birinci növbədə onlara yardım edilməsinə nail olmalı;

- 1999-cu ilin ahıl adamlar ili elan edilməsi ilə əlaqədar rayonun, şəhərin görkəmli, adlı-sanlı, əmək və döyüş şöhrəti olan şəxslərin əmək kollektivləri, məktəblilər, əsgərlərlə görüşlərini təşkil etməli;

- Şəhər, rayon və ilk veteran təşkilatları xeyriyyə fondlarının təşkili və mövcud fondların səmərəsinin artırılması sahəsində işi qüvvətləndirməli, əldə edilmiş vəsaitdən tənha





və imkansız ahıllara və veteranlara kömək işində istifadə etməli; 3. Respublika Veteranlar Şurasının sosial problemlər komissiyasına (sədr M.Məmmədov), hərbi vətənpərvərlik komissiyasına (sədr O.Hacıyev), ictimai-kütləvi işlər komissiyasına (sədr C.İsmayılova), xatirələri əbədiləşdirmək komissiyasına (sədr V.Vəliyev) tapşırılsın qərarda nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsi gedişatı ilə daima məşğul olsunlar, nəzarəti gücləndirsinlər, veteran təşkilatlarına lazımi köməklik etsinlər.

4. Plenum əmindir ki, veteran təşkilatları Respublika, rayon, şəhər ağsaqqallar Şuraları, həmkarlar təşkilatları və digər ictimai təşkilatlarla və dövlət orqanları ilə əlbir olaraq işin səmərəli keçməsinə nail olacaqlar".

Ahıl adamlar ilinin keçirilməsi ilə əlaqədar 10 avqust 1999-cu ildə Azərbaycan Respublikasının Baş naziri A.T.Rasi-zadə cənablarına 170 saylı məktub göndərilib. Məktubda yazılır: "Hörmətli Artur Tahir oğlu!

Müstəqil Dövlətlər Birliyinin Veteran Təşkilatlarının Əlaqələndirmə Şurasının və Ümumrusiya Həmkarlar Konfederasiyasının məlumatlarına əsasən 1999-cu Ahıllar ili ilə əlaqədar olaraq Beynəlxalq Konfederasiyalarının keçirilməsi nəzərdə tutulub.

Beynəxalq Ahıllar ilinin qeyd edilməsi Ümumdünya və Avropa səviyyəsində 3 beynəxalq tədbirin keçirilməsi planlaşdırılmışdır:

a) III Minillik – Ahıl adamlar dünyası. 9-12 sentyabr 1999-cu il tarixdə Paris şəhərində keçiriləcək beynəlxalq görüş;

b) Birləşmiş Millətlər Təşkilatının baş Məclisinin Ahıl adamlar ilinin yekunlarına həsr edilmiş V plenar iclası 1 oktyabr 1999-cu ildə;

c) 20-23 oktyabr 1999-cu il tarixdə Hollandiyada Ahıl adamların Beynəlxalq ilinə həsr edilmiş Avropa

konfransı. Butədbirlərlərə dövlət, veteran və həmkarlar təşkilatların nümayəndələri dəvət olunurlar. Hesab edirik ki, Müstəqil Azərbaycan Respublikasının nümayəndələrinin bu toplantılarda iştirak etməsi məqsədəuyğun olardı.

Gedənlərin sayı respublikanın maliyyə vəziyyətindən asılıdır.

Respublika Veteranlar Təşkilatından Paris şəhərində beynəlxalq görüşdə iştirak etmək üçün Həsənov Çingiz Kərim oğlunu tövsiyə edirik.

Xahiş edirik baxasınız.

Hörmətlə, Respublika Veteranlar Şurasının sədri B.Hüseynov".

Nəhayət 2000-ci il oktyabrın 19-dan 22-dək Beynəxalq Ahıllar ili çərçivəsində Belçikanın paytaxtı Brüssel şəhərində keçirilən Ahıl insanların Assosiasiyalarının Beynəlxalq Federasiyasının 20-ci ildönümünə həsr olunmuş tədbir keçirilmişdir. Tədbirdə MDB dövlətlərinin veteran təşkilatının Əlaqələndirmə Şurasının nümayəndələrinin tərkibində RVT əməkdaşı da təmsil olunmuşdur. Həmin tədbirlə bağlı arxivdə saxlanılan sənədi diqqətinizə çatdırırıq.

## "FIAPA-nın 20-ci ildönümünə həsr olunmuş tədbirlərdə iştirakı barədə Məlumat

2000-ci il oktyabrın 19-dan 22-dək Brüsseldə Ahıl İnsanlar Assosiasiyalarının Beynəlxalq Federasiyasının (FİAPA) yaranmasının 20-ci ildönümü ilə bağlı tədbir keçirilmişdir.

FİAPA-nın yubileyinə həsr olunmuş təntənəli yığıncaq Belçika paytaxtının ən mötəbər binaların birində

- Avropa Parlamentinin binasında keçirilmişdir. Burada BMT, YUNESKO, Ümumdünya Səhiyyə Təşkilatının





nümayəndələri, Avropa İttifaqının (onun parlamenti və icra orqanlarının) rəhbər xadimləri, eləcə də Belçika hökumətinin bir sıra üzvləri iştirak edib və tədbir iştirakçılarını salamlayaraq çıxış etmişlər. Təntənəli yığıncaqda bir çox ölkələrin milli assosiasiyalarının ahıl insanlarının nümayəndələri (təxminən 400 nəfər), o cümlədən Fransa, İtaliya, İspaniya, Portuqaliya, Almaniya, Yunanıstan, ABŞ, Kanada, Asiyanın bəzi dövlətləri, Afrika və Latın Amerikanın nümayənmdələri geniş şəkildə iştirak etmişlər.

Yubiley məruzəsi ilə FİAPA-nın Prezidenti Cüzeppe Bertoltsi (İtaliya) çıxış etdi.

Çıxışlarda və salamlarda öncə bildirildi ki, ötən 20 il ərzində FİAPA-nın rolu və onun təsiri, beynəlxalq miqyasda nəzərəçarpacaq dərəcədə artmışdır. FİAPA-nın yarandığı vaxtdan (26 sentyabr 1980-ci il) onun tərkibinə yalnız 4 avropa ölkəsinin (Fransa, İtaliya, İspaniya və Belçika) veteranlar təşkilatları daxil idi. İndi o daha çox veteran təşkilatlarını, dünyanın beş qitəsinin 40 ölkəsindən, 150 ahıl insanlar assosiasiyalarını (yəni 200 milyondan artıq insan) əhatə edir.

1983-ci ildən FİAPA BMT və Yunesko İqtisadi və sosial Şurasının yanında, 1985-ci ildən isə Avropa Şurası yanında konsultativ qeyri-hökumət təşkilatı statusuna malikdir. FİAPA-nın çoxşaxəli işləri, yaşlı nəslin nümayəndələrinin maraqlarının müdafiəsi, onların iqtisadi və sosial hüquqlarının təsbit olunması üzrə fəaliyyəti onu daha çox tanıdır. FİAPA-nın əhəmiyyəti 1999-cu ildə BMT-nin Beynəlxal Ahıllar ili elan edilməsi ilə əlaqədar dünyanın bir çox ölkələrində müxtəlif aksiyalar keçirilərkən də özünü göstərib.

Əsas məsələ FİAPA-nın gələcəkdə fəallaşdırılması üçün təntənəli tədbirlər zamanı qarşıdakı dövrdə onun rolunun (fəaliyyətinin) daha da gücləndirilməsi idi.

Zamanın yeni iqtisadi və sosial çağırışları qarşısında həm də Ümumdünya Ahıllar ictimai təşkilatı - FİAPA-nın

qarşısında yeni vəzifələr durur. Bertoldinin məruzəsində bildirilir ki, hər qrup ölkənin (inkişaf etmiş və inkişaf etməkdə olan) yaşlı nəslinin tələblərinin (tələbatlarının) ödənməsi vəziyyəti həmin ölkələrdə siyasi, sosial-iqtisadi və mənəvi-mədəni şəraitin prioritetlərini müəyyənləşdirir.

Həmçinin qeyd edildi ki, yaşlı insanların əksəriyyətinin səhhəti çox yaxşıdı və gələcəkdə də ictimai faydalı olmaga hazırdılar. Onlar nəinki istehlakçı olmaq, həm də öz gücləri daxilində maddi sərvətlərin, mənəvi dəyərlərin istehsalında davamlı iştirak etmək istəyirlər. Keçmişin faciəli səhvlərini yadda saxlayaraq, onlar daha mükəmməl cəmiyyətin qurulmasında birbaşa iştirak etmək istəyirlər. Onlar dünyanın təmin olunmasında əhəmiyyətli rol oynamaq istəyir – bu hər bir ölkənin və millətin ahəngdar inkişafının fundamental elementidir.

Bertoldi bildirir ki, «Biz, «üçüncü yaşlı» insanlar, yeni «cəmiyyət ilə Pakt» bağlamağa hazırıq, mədəni və dini zəmində yarananan etnik münaqişələrin, nəsillərarası - yaşlı və cavan nəsillərarası qarşıdurmaların nizamlanmasında, yeni ziddiyyətlərdən xilas olmaq istəyənlərlə əməkdaşlıq etməyə hazırıq ki, dünya üçün təhlükə yaranmasın və bununla biz uşaqlarımızın gələcəyinə zəmanət vermiş ola bilərik.

Çıxışların məzmunu, təntənəli iclasda FİAPA-nın Prezidentinin məruzəsində toxunulan mövzulara uyğun idi.

Sonra yaşlı insanların problemləri üç dəyirmi masa ətrafında iclaslarda ətraflı müzakirə edilmişdir. Onlardan birincisi yaşlıların fiziki və mənəvi sağlamlığı məsələlərinə həsr olunmuşdur. Orada söhbət tibbi problemlər və qerontologiya haqqında gedirdi.

İkinci masanın iclasında «Yaşlı insanlar və yeni texnologiyalar» mövzusu ətrafında müzakirələr aparılıb.

İnformasiya xidmətlərindən birinin nümayəndəsi yaşlı insanların həyatını yüngülləşdirmək üçün yeni texniki





vasitələrin tətbiqinin zəruriliyi barədə çox maraqlı danışdı: internetdən (qlobal miqyasda veteran cəmiyyyəti, birlikləri ilə məlumat mübadiləsi və əlaqələrin qurulması üçün), kompyuter sistemlərindən, mobil telefonlardan istifadə barədə məlumatlar verdi. Əlbəttə, yeni texnikaların alınması və texnologiyaların tətbiqi böyük pul tələb edir, amma gec-tez bunu edəcəyik, ona görə də indidən lazımi maliyyə resursları axtarmalıyıq.

Üçüncü dəyirmi masa iştirakçıları: «İnkişaf etməkdə olan ölkələrdə yaşlı insanlar» Cameron və Seneqal, Burkina Faso təmsilçiləri Afrika ölkələrində əhalinin əsas kütləsinin, yaşlı nəslin nümayəndələri daxil olmaqla ağır, acınacaqlı vəziyyəti barədə danışdılar.

Təntənəli yığıncağ FİAPA-nın tarixinə və bu ahıl insanların beynəlxalq təşkilatının mövcud olduğu 20 il ərzində onun fəaliyyətinin əsas aspektlərinə həsr olunmuş, irihəcmli

«Ağ kitabın» təqdimatı ilə başa çatıb.

Brüsseldə FİAPA-nın yaranmasının təntənəli qeyd olunmasında onun rəhbər orqanlarının - İnzibati Şurasının Baş və Fövqəladə Assambleyasının iclasları keçirilmişdir. Əsas müzakirə olunan məsələlər FİAPA-nın zamanın tələblərinə dolğun cavab verməsi üçün onun gələcək fəaliyyətini gücləndirmək və təkmilləşdirmək, dəyişkən şəraitlərə uyğunlaşdırmaq olmuşdur.

FİAPA-nın yubiley tədbirlərində iştirakımız ilə yanaşı, Çin Xalq Respublikası, Fransa, Almaniya və s. ahıllar təşkilatların nümayəndələri ilə söhbətlərimiz və görüşlərimiz oldu. Gələcəkdə qeyd olunan dövlətlərin ahıllar assosiasiyaları ilə işgüzar əlaqələrin inkişafı (imkan daxilində) barədə razılıga gəldik.

FİAPA-nın yubiley tədbirlərinə və bu tədbirlərə MDB dövlətlərinin veteran təşkilatının Əlaqələndirmə Şurasının və Ümumrusiya əmək və müharibə veteranları təşkilatının

nümayəndələrinin qatılmaları xarici veteran təşkilatları tərəfindən müsbət qiymətləndirilmişdir.



Yekunlaşdıraraq, demək olar ki, FİAPA-nın 20-illik yubileyinə həsr olunmuş bayram tədbirlərində




nümayəndələrimizin iştirakı faydalı olmuşdur.Bu görüş qarşılıqlı anlaşma şəraitində keçirilməklə, veteran hərəkatının





Rusiya və digər MDB ölkələrinin veteran təşkilatlarının FİAPA və bura daxil olan beynəlxalq ahıllar assosiasiyaları ilə əməkdaşlıq etməyə hazır olduğunu təsdiqləmək, fikir və informasiya mübadiləsi aparmaq imkan yaratdı. Gələcək fəaliyyət məhz bu istiqamətdə qurulacaqdır”. Respublika Veteranlar Şurasının beynəlxalq əlaqələrinin qurulması və inkişaf etdirilməsi Şuranın daimdiqqət mərkəzində saxlanılmış, bütün vasitələrdən istifadə olunmaqla əməkdaşlıq əlaqələrinin ildən-ilə genişləndirilməsinə çalışılmışdır. MDB üzvü olan dövlətlər və bəzi Şərqi Avropa dövlətləri ilə bu əlaqələr hələ sovetlərin dövründən mövcud olduğundan bu istiqamətdə yeni əməkdaşlıq münasibətlərinin yaradılması nisbətən asan olmuşdur. Ancaq digər, xüsusilə İkinci dünya müharibəsinin iştirakçısı olan, kapitalist dünyasına aid edilən Qərb ölkələri ilə belə əlaqələrin qurulması bir qədər vaxt tələb etdiyindən buna yalnız Şuranın fəaliyyətinin sonrakı mərhələlərində nail olunmuşdur.

RVŞ-nin sədri B.Hüseynovun ABŞ-ın Azərbaycandakı səfirliyinin hərbi attaşesi Duqlas Brumla görüş barədə Arayışı bu baxımdan maraq doğuran sənədlərdən sayıla bilər.

## Справка
## О состоявщейся встрече с сотрудниками Посольство США.

17 мая 1996 года в 11:00 Республиканский совет ветеранов посетил военный атташе посольства США Дуглас Брум в сопровождении координатора по оперативной работе Чета Сосинского.

После взаимных приветствий Д.Брум сообщил, что в ближайшее время из США приезжает делегация во главе с конгресменом из штата Флорида Питерсоном, имея цель

встретиться с представителями ветеранской организации Азербайджана с задачей обсуждения вопроса о судьбе американских военнослужащих, пропавших в годы второй мировой войны, а также в Корейской и Вьетнамской вой- нах.

Д.Брум также сказал, что американская делегация в составе 9 человек намерена 29 мая 1996 года в 9-00 посетить Республиканский Совет ветеранов и встретиться с ветеранами по указанному вопросу и выслушать наше мнение по интересующим вопросам. Кроме того в тот же день в Посольстве США в 16-30 состоится прием, на который приглашаются 20 ветеранов второй мировой войны из Азербайджана.

Выслушав гостей, я поздравил американских гостей с прошедшим праздником Победы над фашизмом, поблагодарил за посещение Совета и приглашение ветеранов на прием, выразил готовность принять американскую делегацию 29 мая сего года, затем кратко проинформировав гостей об основной деятельности Совета ветеранов, остановился на вопросах укрепления ветеранского-движения, дружбы народов и в связи с этим высказал мнение, что было бы целесообразным установить контакты с ветеранскими организациями США, что пошло на пользу укрепления ветеранского движения.

Д.Брум поддержал идею установления контакта ветеранских организаций двух стран и заявил, что глава американской делегации сенатор Питерсон в течение 6 лет находился во Вьетнамец принимал участие в боевых действиях и ему как ветерану, хорошо известны проблемы старшего поколения. Поэтому он надеется, что на встрече будет обсужден вопрос об установлении делового контакта между ветеранскими организациями двух стран. Встреча прошла в дружеской обстановке, через 1 час американские гости попрощались и покинули здание Республиканского Совета.





На встрече принял участие старший инструктор Совета, полковник в отставке Касимов М.М

Председатель Республиканского
Совета ветеранов войны, труда и Вооруженных Сил,
генерал-майор в отставке Б.М.Гусейнов”.

Prezidentin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənovun Respublika Veteranlar Şurasının sədrinə göndərdiyi məktub Şuranın beynəlxalq əlaqələrinin qurulmasına necə diqqət və məsuliyyətlə yanaşıldığını göstərən çoxsaylı sənədlərdən biridir.

## AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN İCRA APARATI

370066 Bakı şəhəri, İstiqlaliyyət küçəsi
1913/1712 “12”sentyabr 1997-ci il
Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının sədri B.Hüseynov cənablarına

Sizin Azərbaycan Respublikası Prezidentinin İcra Aparatına ünvanlanmış 240 saylı, 08 iyul 1997-ci il tarixli (daxilolma 5345 saylı, 08.07.97) məktubunuza baxılmışdır.

Azərbaycanda fəaliyyət göstərən Veteran Təşkilatlarının Ümumdinya Veteranları Federasiyasına üzv olması və ÜVF Vyana şö’bəsinin növbəti konfransının Azərbaycanda keçirilməsi barədə təklifləriniz öyrənilərək Respublika Prezidentinə məruzə edilmişdir. ÜVF-nin beynəlxalq aləmdə nüfuzunu və imkanlarını, eləcə də Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti nəzərə alaraq Azərbaycan

Respublikasının Prezidenti Heydər Əliyev cənabları bu məsələnin müsbət həll olunması üçün razılığını bildirmişdir.

Bu istiqamətdə görəcəyiniz praktiki işlər haqqında Prezidentin İcra Aparatına müntəzəm məlumat verməyinizi xahiş edirik.

İctimai-siyasi
şöbənin müdiri Ə.Həsənov

Avstriyanın veteran təşkilatlarından sayılan "Qara Xaç" cəmiyyəti ilə əməkdaşlıq münasibətlərinin qurulması Respublika Veteranlar Şurasının beynəlxalq əlaqələrinin təşkili istiqamətindəki fəaliyyətinin öyrənilməsi baxımından yaxşı nümunə olduğunu nəzərə alaraq, bununla bağlı bir sıra arxiv sənədlərini diqqətinizə çatdırırıq. Yeri gəlmişkən, "Qara Xaç" cəmiyyəti ilə əməkdaşlıq əlaqələri bu gün də uğurla davam etdirilir.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin Respublika Veteranlar Şurasına ünvanlanmış 27 sentyabr 2001-ci il tarixli, 445/19 saylı və 05 aprel 2002-ci il tarixli, 1711/4-19 saylı məktublarında Avstriya "Qara Xaç" cəmiyyəti üzvlərinin Azərbaycan Respublikasına səfəri barədə məlumat verilmiş, bu səfərin təşkilinə köməklik göstərilməsi xahiş olunur.

"Hörmətli Baloğlan müəllim,

Avstriyadakı səfirliyimizdən aldığımız məlumata əsasən cari ilin 27 sentyabrında "Qara Xaç" cəmiyyətinin Vyana, Aşağı Avstriya və Burqenland üzrə nümayəndəsi O.Yauzla səfirlikdə görüş keçirilmişdir.

Görüş zamanı O.Yauz Azərbaycan Respublikasının Veteranlar Şurasının 4 nəfərdən ibarət nümayəndə heyətini cari ilin oktyabr ayında, Avstriyanın milli bayramı ərəfəsində (26 oktyabr) həmin ölkəyə səfərə dəvət etmək niyyətini





bildirmişdir. Yol xərcləri istisna olmaqla qalan xərcləri Avstriya tərəfi öz üzərinə götürür. O.Yauz səfərin tarixinin Azərbaycan tərəfi üçün əlverişli olduğu təqdirdə dəvət məktubunun göndəriləcəyini qeyd etmişdir.

Səfirlik Avstriya tərəfinə çatdırılması üçün məlumatın tezliklə ona göndərilməsini xahiş edir.

Görüş zamanı həmçinin "Qara Xaç" cəmiyyətinin nümayəndə heyətinin 2002-ci ilin aprelində Azərbaycana səfər edəcəyi də qeyd olunmuşdur".

"Hörmətli Baloğlan müəllim,

Avstriyadakı səfirliyimizdən aldığımız məlumata əsasən həmin ölkənin «Qara Xaç-müharibə qəbirlərinə qayğı cəmiyyətinin" üzvləri, jurnalistlər və iş adamlarından ibarət nümayəndə heyəti Avstriyalı hərbi əsirlərin qəbirlərini (Gəncə, Sumqayıt, Xanlar, Mingəçevir) ziyarət etmək, İkinci dünya müharibəsi veteranları ilə yenidən görüşmək və ölkəmizlə yaxından tanış olmaq məqsədilə 2002-ci ilin may ayında Azərbaycana səfər etmək niyyətindədirlər.

Nümayəndə heyətinin üzvləri səfər proqramı barədə məlumatın onlara veilməsini xahiş edir.

Səfirliyimiz tərəfindən hazırlanmış səfər proqramı layihəsini Sizə göndəririk.

Xahiş edirik baxasınız".

Daha sonra Respublika Veteranlar Şurasının cavab məktubu ilə əlaqədar Xarici İşlər Nazirliyi Şuraya növbəti məktub ünvanlayır.

"Sizin 5173/S-19 nömrəli 21 dekabr 2001-ci il tarixli məktubunuza cavab olaraq bildiririk ki, Avstriyanın "Qara Xaç" cəmiyyətinin nümayəndə heyətinin 2002-ci ilin may ayında Azərbaycana səfəri ilə bağlı xərclərini (yol, qalma) "Qara Xaç" cəmiyyətinin üzvləri ödəyəcək.

Nümayəndə heyətinin tərkibi və sayı hal-hazırda cəmiyyət tərəfindən dəqiqləşdirilir. Cəmiyyətin rəhbərliyi ilə

son görüşümüzdə məlum oldu ki, nümayəndə heyətinin sayı 10-15 nəfər ola bilər. Azərbaycana səfərlə bağlı cəmiyyət öz jurnalında məlumat dərc etmişdi. Bundan əlavə, jurnalda Azərbaycan veteranlarının Avstriyaya səfəri, ilə bağlı məqalə də çap olunmuşdur (əlavə olunur).

Nəzərinizə çatdırırıq kı, Azərbaycanda dəfn edilmiş Avstriya hərbi əsirləri haqqında cari ilin 31 avqust tarixində Avstriyanın "Wiener Zaitung" qəzetində məqalə də dərc olunmuşdur (əlavə olunur).

Bu səfərin "Qara Xaç" cəmiyyəti üzvlərinin keçmiş SSRİ, ölkələrinə (Rusiyadan sonra), xüsusilə Cənubi Qafqaz bölgəsinə ilk səfəri olduğunu, "Qara Xaç" cəmiyyətinin Azərbaycanın II dünya müharibəsində keçdiyi şərəfli yolun Avstriya ictimaiyyətinə çatdırılmasında oynadığı rolu və bunun iki dövlət arasında əlaqələrin genişləndirilməsinə göstərə biləcəyi təsiri nəzərə alaraq, nümayəndə heyətinin Avstriya hərbi əsirlərinin dəfn olunduğu qəbiristanlıqları ziyarət etmək üçün nəqliyyatla təminatı və mədəni proqramla bağlı tədbirlərin həyata keçirilməsi ilə əlaqədar xərclərin Azərbaycan tərəfindən ödənilməsini məqsədəuyğun hesab edirik".

Respublika Veteranlar Şurası isə öz növbəsində «Qara xaç» cəmiyyəti üzvlərinin səfərinin təşkili ilə bağlı ölkənin Baş Nazirinə müraciət edir.

"Hörmətli Artur Tahir oğlu

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyindən Respublika Veteranlar Şurasına daxil olmuş 05.09.2002-ci il tarixli, 4302/4-19 saylı məktubda göstərilir ki, cari ilin 27 sentyabrında Avstriya Respublikasının «Qara xaç» İkinci dünya müharibəsi qurbanlarının qəbrlərinə qayğı cəmiyyətinin sədri Otto Yauz Azərbaycan Respublikasının Avstriya respublikasındakı səfirliyində qəbul olunmuşdur.Görüş zamanı Otto Yauz Azərbaycan Respublikası Veteranlar şurasının 4





nəfərdən ibarət nümayəndə heyətini cari ilin oktyabr ayında, Avstriyanın milli bayramı ərəfəsində (26 oktyabr) həmin bikəyə səfər edərək azərbaycanlı əsirlərin qəbirlərinə ziyarət etməyə dəvət etmişdir.

Bildirmək istəyirik ki, bu dəvət Avstriyalı veteranların 2002-ci il 22-26 may tarixli Azərbaycanda olmalarına cavabdır. Göstərilənləri nəzərə alaraq Azərbaycan Respublikası Veteranlar Şurasının 4 nəfər veteranının Avstriya Respublikasına səfərinə razılıq verməyinizi və səfərlə əlaqədar xərclərin ödənilməsi üçün Respublika Maliyyə Nazirliyinə lazımi göstəriş verməyinizi xahiş edirik.

Azərbaycan Respublikası Xarici İşlər Nazirliyinin məktubu əlavə olunur".

Respublika Veteranları Şurasının «Qara Xaç» müharibə iştirakçıları qəbirlərinə qayğı cəmiyyəti üzvlərinin Azərbaycan Respublikasına səfərləri ilə əlaqədar müvafiq arayışı bu səfərin necə keçirildiyi və digər detallar barədə ətraflı təsəvvür yaratdığından onu olduğu kimi təqdim edirik.

"Respubiika Xarici İşlər nazirliyinin 27.09.2001-ci il 445/19 saylı və 05 aprel 2002-ci il tarixli, 1711/4-19 saylı məktublarında Avstriya Respublikası «Qara Xaç» müharibə iştirakçıları qəbirlərinə qayğı cəmiyyəti üzvlərinin Azərbaycan Respublikasına gəlmələri məqsədilə Respublika Veteranları Şurasına ünvanlanmış məktublarına əsasən geniş hazırlıq işləri görülərək qonaqlar lazımi səviyyədə qarşılanaraq yola salınmışlar.

Əvvəla Respublika Veteranlar Şurası Avstriyalıların bu səfəri ərəfəsində öz məsul işçilərini nəzərdə tutduqları Sumqayıt, Mingəçevir və Xanlar rayonlarına ezam edərək əcnəbi qəbirstanlıqlarının səhmana salınması üçün şəhər və rayonların icra hakimiyyətləri aparatlarının və rayon veteranlar şuralarının köməkyi ilə bütün lazımi işləri görmüşdür. 22 may 2002-ci il tarixdə saat 3.00-da Respublikanın bir qrup

veteranı Avstriyalı qonaqları qaşılayaraq onları «Abşeron» mehmanxanasında yerləşdirmişlər.

Cənab Otto Yauz başda olmaqla 10 nəfərlik qonaq heyəti 22 may 2002-ci il tarixdə Respublika Veteranlar Şurasının

sədri Baloğlan Rüstəmovun və bir qrup Azərbaycandan olan müharibə iştirakçılarının müşayəti ilə Şəhidlər Xiyabanını ziyarət edərək şəhidlərin məzarları önünə gül-çiçək və nümayəndə heyəti adından əklil qoymuşlar.

Həmin gün nümayəndə heyəti Şirvanşahlar sarayına, Qız Qalasına, Bakı Xalça muzeyinə, Xalça istehsalı emalatxanasına baxmışlar, Respublika «Xatirə kitabı" Redaksiyasının üzvləri ilə görüşərək səmimi söhbət etmişlər. Sonra qonaqlar Bakı buxtasından katerlə dəniz gəzintisinə çıxmışlar.

23.05.2001-ci il tarixdə qonaqlar Sumqayıt şəhərinə səfər etmişlər. Onlarla Sumqayıt şəhər İcra Başçısı Təvəkkül Məmmədov geniş söhbət edərək Respublikamız və Sumqayıt haqqında geniş məlumat vermiş, Azərbaycan Respublikasının Prezidentimöhtərəm Heydər Əliyevinçoxsahəlifəaliyyətindən, respublikamızın erməni qəsbkarlarının təcavüzünə məruz qalmasından, bu məsələnin sülh yolu ilə həli olunması üçün aparılan işlərdən danışmışdır.

Qonaqlar Sumqayıt şəhərinin kənarında yerləşən əcnəbi qəbirstanlığa gedərək öz həmyerlilərinin qəbirləri önünə gül-çiçək qoymuşlar.

Sonra qonaqların şəhərlə tanışlığı başlanmış, şəhərdə uyuyan şəhidlərimizin yerləşdiyi Fəxri xiyabana gedərək gül-çiçək dəstələri qoymuşlar.

Həmin gün qonaqlar Bakı şəhərinə qayıdaraq iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanov adına Mərkəzi Zabitlər evində Bakı şəhəri veteranları ilə görüşmüşlər.

Görüş mərasimini Respublika Veteranlar Şurasının sədri B.Rüstəmov açaraq, qonaqları respublikamızda gedən ictimai- siyasi yüksəlişlə tanış etmiş, müstəqilliyimizin qarantı





hörmətli Prezidentimizin apardığı çoxsahəli fəaliyyətdən danışmışdır. Görüşdə Respublika Veteranlar Şurasının məsul katibi Ş.Abdullayeva Azərbaycan-Avstriya əlaqələr barədə, müharibə iştirakçısı, 2001-ci ildə Avstriya Respublikasında səfərdə olmuş Sarıyev Qara Avstriyanın «Mautxauzen» ölum düşərgəsində həlak olmuş azərbaycanlıların xatirəsinə ucaldılmış memuar-abidənin açılışı barədə danışmışdır. Yenə görüşdə Bakı Veteranlar Şurasının sədri Abumüslüm Baxşiyev, Avstriya nümayəndə heyətinin başçısı Otto Yauz çıxış etmişlər. Həmin gün qonaqlar Xətai rayonunda ucaldılmış Xocalı Soyqırımı abidəsi önünə gül-çiçək dəstələri qoymuşlar.

22 may 2002-ci il tarixdə qonaqlar Mingəçevir şəhər İcra Hakimiyyətinin başçsısı Məhəbbət Qarabağlı tərəfindən qəbul olunmuş, o, şəhərin tarixi barədə, şəhərin tikilməsində Avstriyalı müharibə əsrlərinin əməyi barədə, respublikamızın qarşısında duran əsas vəzifə-torpaqlarımızın erməni işğalından azad olunması, qaçqın və köçkünlərin yerləşdirilməsi, ata-baba yurdlarına qaytarılmaları qayğılarından danışmışdır.

Qonaqlar avstriya və alman əsirlərinin məzarlarının yerləşdiyi qəbirstanlığa baxdılar və gül-çiçək dəstələri qoydular. Şəhərlə tanışlıq oldu, səliqə ilə düzəldilmiş Azərbaycanlı şəhidlərinin xiyabanı ziyarət edildi, onların qəbirlərinə gül-çiçək dəstələri qoyuldu.

25 may 2002-ci il tarixdə qonaqlar Xanlar rayonunda oldular, Xanlar rayon İcra Hakimiyyətinin başçısı Əli Mustafayev qonaqları qəbul edib salamladı, Xanlar rayonunun tarixindən, respublikamızın qarşısında duran vəzifələrdən danışdı.

İcra başçısının iştirakı ilə qonaqlar iki yerdə yerləşən əcnəbi qəbirstanlıqları ilə tanış oldular, şəkil çəkdirdilər.

Qonaqlar Azərbaycan şəhidlərinin məzarlarını ziyarət etdilər, əklil qoydular.Qonaqları Sumqayıt, Mingəçevir və Xanlar rayonlarına Respublika Veteranlar Şurasının sədrinin

birinci müavini Əlövsət Baxışov və Respubiika Xarici İşlər Nazirliyinin əməkdaşı Ramil Fərzəliyev müşayət etmişlər.

Avstriyalı qonaqların bu səfərinin təşkili və müvəffəqiyyətlə başa çatmasına görə Respubiika Prezidenti Aparatının məsul işçilərinə, Azəravtonəqliyyat Dövlət Klonserninin Prezidenti Hüseyn Hüseynova, Mərkəzi Zabitlər Evinin rəisi Rəhman Sadıqova, Respubiika Xarici İşiər Nazirliyinə, Sumqayıt, Mingəçevir, Xətai və Xanlar rayonları İcra Hakimiyyətləri əməkdaşlarına öz minnətdarlığımızı bildiririk.

Qonaqlar 26.05.2002-ci ii tarixdə saat 6.00-da Binə hava limanından vətənlərinə yola salındı.

Qonaqlar bu səfərin təşkilindən, onlara göstərilən qayğıdan razı qaldıqlarını bildirməklə Respublika Veteranlar Şurasının sədri B. Rüstəmovu Avstriyaya dəvət etdilər.

Arxivdə Şuranın beynəlxalq əlaqələrinin necə həyata keçirildiyini təsdiqləyən onlarla sənəd var. Bunların arasında ən yaxın qonşular olan Dağıstan Veteranlar Təşkilatı ilə görüşün təşkilini əks etdirən sənədlərlə tanışlıq bu məsələlərə necə yüksək məsuliyyətlə yanaşıldığını bir daha təsdiqləyir.

**“N62. 6 iyul 1999-cu il.**

Dağıstan nümayəndələri ilə görüş küçirmək məqsədilə bir qrup nümayəndə heyəti: Rüstəmov Baloğlan Əmrah oğlu sədr əvəzi, Nəsirov Mustafa Cəfər oğlu büro və RH-nin üzvü, Kasov Məmmədnağı Məmmədəli oğlu baş mütəxəssis, Salahov Nazim Əli oğlu sürücü Dərbənd şəhərinə 8-10 iyul 1999-cu il müddətinə (3 gün) ezam olunsunlar.

Əsas: Dağıstan VŞ-nın məktubu. Sədrin müavini Ş.Abdullayeva”.

Dağıstan nümayəndələri ilə görüşün nəticəsi olaraq Azərbaycan və Dağıstan Veteranlar Təşkilatlarının 2002-ci il sentyabr ayının 5-də Azərbaycan Respublikasının Quba





şəhərində hər iki xalqa ünvanlanmış birgə Müraciəti qəbul edilmişdir. Rus dilində hazırlanmış Müraciətdə deyilirdi:

“Встречи руководителей ветеранских организаций двух братских республик АР и РД стали традиционными и постоянно действующими, начиная с 1993 г. Принятые на предыдущих встречах совместные заявления полностью сохраняют и сегодня свою актуальность. Они способствовали дальнейшему развитию и укреплению дружественных связей между нашими ветеранскими организациями и народами братских республик, обмену опытом работы в решении социальных проблем ветеранов (пенсионеров), в патриотическом, нравственном и интернациональном воспитании граждан, особенно молодежи.

Продолжая эти традиции, мы преисполнены решимости к дальнейшему укреплению и совершенствованию постоянных контактов между ветеранскими организациями, укреплению традиционных уз дружбы и сотрудничество между нашими народами. Еще раз констатируем; что наша дружба и братство имеют многовековую историю и глубокие корни, они и впредь будут нерушимы. Крепость этой дружбы испытана веками.

Мы полностью одобряем и поддерживаем получившие свое развитие этнокультурные связи дагестанской диаспоры в Азербайджане, азербайджанской – в Дагестане, решение вопросов образования, сохранения культуры, тра- диций, обучение детей родному языку и литературе. Мы считаем целесообразным дальнейшее усиление братских связей и взаимоотношений между ветеранскими организациями и трудящимися приграничных районов обоих республик. Мы считаем необходимым скорейшее решение затянувшейся Карабахской проблемы мирным путем на справедливой основе с учетом восстановления территориальной целостности Азербайджанской Республики.

Мы за сохранение исторически сложившихся этнических, родственных, культурных гуманитарных, хозяйственных и других связей между нашими народами. Мы за трансграничное сотрудничество на национальном, региональном и местном уровнях наших республик.

Мы также против проявления сепаратизма, экстремизма, религиозного и национального фанатизма и организованной преступности, решения всех спорных вопросов путем мира и согласия.

Особой заботой ветеранских организаций является достойная встреча 60-летия Великой Победы над фашистской Германией (2005 г.), 60-летия разгрома советскими войсками немецко-фашистских войск в Сталинградской битве (февраль 1943 г.) и в Курской битве (август 1943 г.), в которых принимали участие сотни тысяч азербайджанцев и дагестанцев, проявляя невиданное мужество и героизм.

Мы просим Правительства своих стран – РФ и АР к этой исторической дате (60-летия Победы) предусмотреть дополнительные меры материального и морального стимулирования, снять все проблемы ветеранов, обеспечить им достойную жизнь.

Выражаем уверенность, что ветеранская общественность наших республик будет и дальше способствовать обеспечению мира и стабильности в нашем регионе, поддерживать все добрые начинания своих правительств, местных органов власти.

Обращение подписали от имени ветеранских организаций:

Исполняющий обязанности Председателя Азербайджанской Организации А.Бахышов.

Председатель Совета Ветеранов Республики Дагестан генерал-майор С.Халилов.





05 сентября 2002 года, г.Куба Азербайджанской Республики.”



ИКИ ГАРДАШ ХАЛГЫН ДОСТЛУҒУ ƏБƏДИДИР

Azərbaycan və Dağıstan veteranlar təşkilatlarının görüşü ilə bağlı Dağıstan Respublikasının ictimai-siyasi qəzeti olan “Dərbənd” qəzetinin 31 avqust 2002-ci tarixli 36-cı sayında Dərbənd rayon Veteranlar Şurasının sədri N.Q. Ağamirzəyevin

“İki qardaş xalqın dostluğu əbədidir” adlı məqaləsi də dərc olunmuşdur.

Respublika Veteranlar Təşkilatı veteranların maddi vəziyyətini nəzərə alaraq, həm alman faşizmi üzərində qələbənin ildönümləri, həm də ildə bir dəfədən az olmayaraq keçirilən Plenumları ərəfəsində bu məsələləri gündəmə çıxarmış, onları öz imkanları hesabına, yaxud müvafiq dövlət orqanları qarşısındaməsələ qaldıraraq həll etməyə çalışmışdır. Belə qərarlardan biri 23 aprel 1997-ci ildə qəbul edilmişdir.

Həmin 23 saylı qərar həm də Təşkilatın 10 illiyinin qeyd edildiyi bir vaxta düşdüyündən maraq doğurur:

"Respublika Veteranlar Təşkilatının yaradılmasının 10 illiyinə həsr edilmiş Plenumun iclasında iştirak edəcək Respublika Veteranlar Şurasının 116 nəfər plenum üzvlərinin iqtisadi çətinliyi və təntənəli bayram tədbirləri ilə əlaqədar hər bir nəfərinə 50 (əlli) min manat məbləğində birdəfəlik yardım göstərilsisn.

1.Yardım göstəriləcək şəxslərin siyahısı sərəncama əlavə edilir.

2.Şuranın baş mühasibi N.Kazarovaya tapşırılsın ki, sərəncamın yerinə yetirilməsini təmin etsin.

B.Hüseynov".





## RVŞ-nin 28 noyabr 2000-ci ildə keçirilmiş II Qurultayının Qətnaməsi

Qurultay nümayəndələri hesabat məruzəsini və çıxışları dinləyərək veteran şuralarının fəaliyyətini və təkmilləşdirmək məqsədilə Qərara alır:

1.Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının hesabat dövründəki fəaliyyəti qənaətbəxş sayılsın.

2.Azərbaycan Respublikası Veteranlar Şurası II Qurultayının nümayəndələri və iştirakçıları respublikamızda ictimai-siyasi vəziyyətin daha da sabitləşdirilməsi, iqtisadiyyatımızın get-gedə inkiaşaf etməsi, ölkəmizin beynəlxaq aləmdə rol və nüfuzunun yüksəldilməsi, müstəqilliyimizin qorunub möhkəmləndirilməsi sahəsində Azərbaycan Respublikasının Prezidenti möhtərəm Heydər Əliyevin daxili və xarici siyasətini ürəkdən bəyənir və müdafiə edirlər.

3.Qurultay nümayəndələri dövlətçiliyimizə və müstəqilliyimizə zidd fəaliyyət göstərərək, adını müxalifət qoyan dağıdıcı qüvvələrin fəaliyyətini və onların xaricdə yaşayan havadarlarının təxribatçı hərəkətlərini qətiyyətlə pisləyirlər.

4.Veteranlar Şurası ölkəmizin ərazisinin 20 faizini işğal etmiş və bir milyon nəfərdən artıq azərbaycanlını qaçqın və məcburi köçkün vəziyyətinə gətirmiş erməni silahlı qüvvələrinin və onların havadarlarının təcavüzünə son qoyulması üçün BMT və ATƏT tərəfindən təsirli tədbirlər görülməsini tələb edir. Respublikanın şəhər və rayon veteran şuralarından tələb

etsin ki, respublikanın ictimai-siyasi həyatında veteranların fəal iştiraklarını təmin etsinlər. Veteran fəallarının öz müdrik söz və əməllərinə gənclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında iştirakına nail olsunlar. Gənclərin tərbiyəsi sahəsində Azərbaycan Respublikası gənclərinin I və II Forumunun sənədlərində, xüsusilə forumların iclaslarında möhtərəm prezidentimiz Heydər Əliyevin proqram nitqindən irəli gələn vəzifələrin həllində şəhər və rayon rəhbərliyinə yaxından kömək etsinlər.

5.Şəhər və rayon veteran şuralarından tələb edilsin ki, hərbi komissarlıqlar ilə birlikdə gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, xüsusilə Milli Ordumuzun sıralarında xidmət edən hərbi qulluqçuların Vətən sədaqət, müstəqil respublikamızın ərazi bütövlüyünü hər bir dəqiqə müdafiə etməyə hazır olan döyüşçü kimi yetişməsini mühüm vəzifə saysınlar. Böyük Vətən müharibəsi iştirakçılarının əmək və silahlı qüvvlər veteranlarının təcrübəsi, erməni işğalçılarına qarşı vuruşmalarda rəşadət nümunəsi göstərilmiş döyüşçülərimizin qəhrəmanları bir örnək olmalıdır. Respublikamzın məşhur adamlarının gənclərlə görüşlərindən, əmək və hərbi mərasimlərdən, hərbi idman oyunları və toplantılarından döyüş və əmək söhrətli muzeylərindən, xüsusilə Heydər Əliyev muzeylərinin xidmətindən geniş istifadə etsinlər.

6.Respublikanınşəhərvərayonveteranşuralarındantələb edilsin ki, respublikanın ictimai-siyasi həyatında veteranların fəal iştiraklarını təmin etsinlər. Veteran fəallarının öz müdrik söz və əməllərilə gönclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında iştirakına nail olsunlar.

7.Qurultay veteran şuralarından təlb edir ki, xalqlar arasında dostluğu, respublikamızda yaşayan millətlərdən olan veteranlarla əlaqəni daha da möhkəmləndirsinlər, onları aparılan ictimai-siyasi tədbirlərə, geniş cəlb etsinlər,





gənclərimizin tərbiyəsi işində onların qüvvəsindən səmərəli istifadə etsinlər.

8. Hər bir şəhər və rayon veteran şurası Vətənin müdafiəsi uğrunda həlak olanların xatirəsini əbədiləşdirmək sahəsində möhtərəm prezidentimiz Heydər Əliyevin 23 dekabr 1997-ci ildə imzaladığı Qanundan irəli gələn vəzifələrin yerinə yetirilməsi sahəsində aparılan işləri yerli icra hakimiyyəti orqanları, hərbi komissarlıqlar və digər əlaqədar orqanlarla birlikdə həll olunmasını özünün vətəndaşlıq borcu hesab etməlidir. Respublika veteranlar şurasına tapşırılsın ki, “Xatirə kitabı”nın nəşri sahəsində müvafiq təşkilatlarla əlaqə saxlayıb lazımi tədbir görsün.

9.Respublika Veteranlar Şurasına, şəhər və rayon veteranlar şuralarına mühüm bir vəzifə kimi tapşırılsın ki, Veteranlar haqqında Qanundan, veteranların sosial müdafiəsi ilə əlaqədar qəbul olunmuş digər həkumət qərarlarından normativ aktlardan irəli gələn, xüsusilə səhiyyə-sağlamlıq, nəqliyyatdan istifadə, mənzil-kommunal və sair xidmətlərə dair imtiyazların yerinə yetirilməsi, xeyriyyə fondlarının yaradılması üzərində nəzarəti daha da gücləndirsinlər.

10.Qurultay belə hesab edir ki, öz mənalı ömrünü Vətənin səadətinə həsr etmiş veteranların istirahətət, şənliyə, mədəni-kütləvi işlərə böyük ehtiyacı vardır. Bunu nəzərə alaraq veteran özfəaliyyət tədbirlərinin yerinə yetirilməsinə şəhər və rayon veteran şuraları respublika Mədəniyyət Nazirliyinin qüvvəsindən səmərəli istifadə etməlidir. Şəhər və rayon veteran şuralarına tapşırılsın ki, veteran hərəkatının əsasını təşkil edən ilk veteran təşkilatlarında aparılan təşkilatı işlərin yaxşılaşdırılmasına nail olsunlar. Veteran yığıncaqlarınınvaxtındakeçirilməsi,yığıncaqlarda veteran hərəkatının aktual məsələlərinin müzakirə edilməsi, qəbul edilmiş qərarların icrası, veteranların uçotu, hər bir veteranın nüfuzunun yüksəldilməsi, onların Nizamnamədə göstərilən

hüquq və vəzifələrinin yerinə yetirilməsi üzərində kömək və nəzarəti gücləndirsinlər. Qabaqcıl ilk veteran təşkilatlarının iş təcrübələrinin öyrənib ümumiləşdirilməsi və tətbiqi məqsədilə vaxtaşırı Şura sədrlərinin seminarlarının və müşavirələrini keçirsinlər. Şəhər və rayon təşkilatlarında iş planlanının tərtibi, təşkilati işin səviyyəsinin yüksldilməsi, plenum və rəyasət heyəti iclaslarının vaxtında keçirilməsi, müzakirə ediləcək məsələlərin aktual xarakter daşıması və qəbul edilən qərarların icrası üzərində nəzarəti gücləndirsinlər.

11.Respublika Veteranlar Şurasından tələb edilsin ki, şuranın işində əsas rol oynayan daimi komissiyaların fəaliyyətinin daha da yüksəldilməsinə nail olsun. Mətbuat qrupunun və nəşriyyat idarəsinin fəaliyyətinin daha da yaxşılaşdırılmasını təmin etsin.

12.Respublika Veteranlar Şurasına tapşırılsın ki, MDB ölkələri veteranları Əlaqələndirmə Şurası, MDB ölkələri veteranları şuraları və Ümumdünya müharibə veteranları Konfederasiyası ilə öz əlaqələrini daha da genişləndirmək veteran hərəkatının möhkəmlənməsi üçün geniş iş aparsın, beynəlxalq təşkilatların tribunalarından erməni işğalçılarının fitnəkar və məkirli hərəkətlərini ifşa etmək və Azərbaycan həqiqətlərini dünya ictimaiyyətlərinə çatdırmaq üçün bacarıqla istifadə etsin.

13.Biz, Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının II Qurultayının nümayəndələri və iştirakçıları dünya şöhrətli dövlət xadimi Prezidentimiz Heydər Əliyevi əmin edirik ki, müstəqilliyimizi qorumaq, işğal edilmiş torpaqlarımızı düşmən taptağından azad etmək, iqtisadiyyatımızı yüksəltmək, Respublikamızda ictimai-siyasi sabitliyi daha da gücləndirilməsi sahəsində öz qüvvəvə, bacarığımızı əsirgəməyəcəyik".

1994-cü il 28 iyundan etibarən Azərbaycanda veteranlarla bağlı ardıcıl şəkildə həyata keçirilən dövlət siyasəti 2003-





cü ildən sonrakı mərhələdə Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilmiş, veteranlara dövlət qayğısı yeni səviyyəyə qaldırılmışdır.

Bnun son təzahürləri kimi Respublika Veteranlar Təşkilatına ayrılan müasir standartlara tam cavab verən inzibati binanı, 1941-1945-ci illər İkinci dünya müharibəsində faşizmi üzərində Qələbə münasibətilə ayrılan birdəfəlik maddi yardımın və pensiyaların miqdarının ildən-ilə artırılmasını, veteranların mənzil və şəxsi avtomobillə təmin edilməsini, pulsuz müalicə olunmalarını və nəhayət veteranlara dövlət qayğısının artırılması üçün Respublika Veteranlar Təşkilatına 2016-cı il may ayının 9-da imzalanmış Sərancamla 500 min manat pul vəsaiti ayrılmasını qeyd etmək olar.

Respublika Veteranlar Təşkilatının tarixində heç az də az əhəmiyyətli sayılmayan 2003-2015-ci illər arasında görülmüş işlər, həyata keçirilmiş tədbirlər, qəbul edilmiş qərarlardan ən ümumi şəkildə bəhs etməklə, başlıca diqqəti Təşkilatın fəaliyyətinin müzakirə olunduğu Qurultayların sənəd və materiallarına yönəltmək istəyirik. Çünki həmin sənəd və materiallarda Təşkilatın gördüyü işlər imkan daxilində ümumiləşdirilmiş və rəhbər orqan tərəfindən qiymətləndirilmişdir. Onların bir qismini oxuculara olduğu kimi çatdırmaqla, o illərdə Respublika Veteranlar Təşkilatında rəsmi sənədlərinin işlənməsi üslübu barədə də müəyyən təsəvvür yaratmaq istəyirik. Belə sənədlərdən biri Respublika Veteranlar Təşkilatının 24 noyabr 2004-cü ildə keçirilmiş 3-cü Qurultayının Protokoludur. Protokolu qısa ixtisarla təqdim edirik.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının 24 noyabr 2004-cü il tarixli III Qurultayını Şuranın sədri Baloğlan Rüstəmov açmışdır.Qurultayın işində Naxçıvan MR-sı, ölkənin şəhər və rayon şuralarından

seçilmiş198 nəfər nümayəndədən 189 nəfər nümayəndə iştirak etmişdir.

Qurultay Azərbaycan Respublikasının Dövlət Himni səslənməsi ilə başlanmışdır.

Qurultayin rəhbər orqanları müəyyən edildikdən sonar sədrlik edən B.Rüstəmovun təklifi ilə Qurultayın aparılması Respubnlika Veteranlar Şurasının büro üzvlərinə həvalə edilmiş və işçi heyətə MDB ölkələri Veteranlar Təşkilatlarının Əlaqələndirmə Şurası sədrinin müavini – müharibə Veteranları Komitəsinin sədri Anoşkin Vladimir İvanoviç, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdiri Əli Həsənov, Sosial Müdafiə Fondu sədrinin müavini Zakir Babayev, Müdafiə Nazirliyinin əməkdaşı Abdulla Qurbani, Azərbaycan Respublikası Gənclər, İdman və Turizm Nazirliyinin idarə rəisi Fərhad Hacıyev, Naxçıvan MR Veteranlar Şurasının sədri Qara Fərzəliyev, Gəncə şəhər Veteranlar Şurasının sədri Rza Hacıyev dəvət olunmuşlar.

Respublika Veteranlar Şurasının II Qurultayından sonra öz dünyasını dəyişmiş Ümmumilli lider Heydər Əlirza oğlu Əliyevin və veteranların xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Qurultay 5 nəfərdən ibarət Mandat Komissiyası, 3 nəfərdən ibarət katibliyi seçilmiş, daha sonra aşağıdakı Gündəliyi təsdiq edilmişdir:

1.Respublika Veteranlar Şurasının II Qurultayından

sonra – noyabr 2000-ci ildən 2004-cü ilin noyabrınadək görülən işlər barədə hesabatı. Məruzəçi: RVŞ-nın sədri B.Rüsətmov.

2.Respbulika Veteranlar Şurası nəzarət-təftiş komissiyasının hesabatı.

3.Respublika Veteranlar Şurasının 5 nəfərdən ibarət rəhbər orqanlarının seçilməsi.





4.Müstəqil Dövlətlər Birliyi Veteranları Əlaqələndirmə Şurasının Konfransına 5 nəfər nümayəndənin seçilməsi.

5.Respublika Veteranlar Şurasının III Qurultayı tərəfindən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə müraciətin qəbul edilməsi.

Qurultayın aparılması üçün reqlament müəyyən edilmiş və Qurultayın ünvanına nazirliklərdən, baş idarələrdən və ayrı-ayrı vətəndaşlardan daxil olmuş təbriklər oxunmuşdur.

Şuranın sədri B.Rüstəmovun və Nəzatər-təftiş Komissiyasınnı sədri Q.Sarıyevin məruzələrindən sonra Qurultayda aşağıdakı nümayəndələrin çıxışları dinlənilmişdir.

“1. Fərzəliyev Qara – Naxçıvan MR Veteranlar Şurasının sədri: Naxçıvan MR Veteranlar Şurası adından Sizin hamınızı Azərbaycan Respublikası Müharibə və Əmək Veteranlar Şurasının bu gün öz işinə başlayan III Qurultayı münasibətilə təbrik edirəm, hamınıza uzun ömür, cansağlığı, qurultayın işində uğurlar arzulayıram.

Azərbaycan Respublikası Veteranlar Şurasının 21 aprel 2004-cü il tarixli Plenumunun Respublika Veteranlar Şurasının Nizamnaməsinə əsasən səlahiyyət müddətlərinin qurtarması ilə əlaqədar cari ilin iyun-avqust aylıarında ilk veteran təşkilatlarında hesabat-seşki yığıncaqlarının, sentyabr-oktyabr aylarında şəhər və rayon konfranslarının keçirilməsi barədə qərar qəbul etmişdir.

21 aprel 2004-cü il tarixli Plenumunun qərarına əsasən Naxçıvan MR-nda hesabat-seçki yığıncaqlarının mütəşəkkil surətdə keçirilməsi üçün bir sıra hazırlıq işləri görmüş, ilk veteran təşkilatlarının yerləşdiyi yerləri bazarları müəyyənləşdirilmiş, veteranların siyahılarını nəzərdən keçirərək dünyasını dəyişmiş və yaxud da başqa yaşayış yerlərinə gedənlərin yerlərinə yeni sədrlər, üzvlər seçərək lazımı təşkilatı məsələləri yerli kənd, qəsəbə və rayon icra hakimiyyətlərin başçıları ilə müzakirə edib onların iştirakı

ilə hesabat-seçki yığıncaqlarını vaxtlı-vaxtında mütəşəkkil keçmişlər, heç bir qanun pozuntuluğa yol verilməmişdir.

Hesabat-seçki yığıncaqlarında 147 ilk veteran təşkilatlarını özündə birləşdirib təmsil edən 7 rayon və bir şəhər veteran təşkilatları iştirak etmişdirlər. Hesabat dövründə Naxçıvan MR Veteranlar Şurası öz işini müharibə veteranlarına, onların dul arvadlarının və 1941-1945-ci illər müharibəsində arxa cəbhədə çalışıb rəşadətli əməyinə görə orden və çedallarla təltif edilmiş şəxslərə verilən güzəşt və imtiyazların vaxtlı-vaxtında onlara verilməsini, əlillərin öz sağlamlıqlarını qoruyub bərpa olunması üçün müalicə ocaqlarına göndırilməsinə yönəltmişdir.

Gənc nəslin vətənpərvərlik və hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasına, təhsil ocaqlarında yuxarı sinif şagirdlərilə daima görüşlər keçirilməsinə, hərbi hissələrdə gənc əsgərlərdə görüşlər təşkil etmək, Vtənin keşiyində ayıq-sayıq olmağa, hərbi anda sadiq qalmağa çağrışları ilə daima onlara ağsaqqal sözü çatdırılmışdır.

Hesabat dövründə şurada 348 yazılı və şıfahi şikayətlər qeydə alınmış, onların hamısına Təftiş Komissiyasının üzvləri ilə bir yerdə baxılıb hamısına demək olar ki, qaneedici cavab verilmiş və lazımi köməklik göstərilmişdir.

Hörmətli Qurultay iştirakçıları! Yuxarıda sadaladığım işlərin götürülməsində, hesabat dövründə Naxçıvan MR Müharibə, Əmək və SQ veteranları, AR Müharibə Veteranları Şurasının daima bizə olan köməkliyi, diqqətini həmişə hiss etmişik.

Mən Naxçıvan MR Müharibə, Əmək, Silahlı qüvvələr veteranları Şurası adından Azərbaycan Respublikasının Veteranlar Şurasının işinə kafi qiymət verilməsini Qurultay iştirakçılarından xahiş edirəm.

2.Baxşiyev A., Bakı şəhər veteranlar Şurasının sədri: Bakı şəhər Veteranlar Şurası Respublika Veteranlar





Şurasının 3-cü Qurultayının iştirakçılarını ürəkdən təbrik edir. İcazə verin təbrik məktubunu oxuyum. O təbrik məktubunu oxuyur.

1941-1945-ci illər müharibəsinin veteranları həm ön cəbhənin dəhşətlərini, həm də müharibədən sonrakı illərin çətinliklərini görmüşlər. Onlar xalqın taleyinə yanan insanlardırlar.Veteranlar ölkə prezidentimiz cənab İlham Əliyevin apardığı daxili və xarici siyasəti dəstəkləyirlər və onun ən möhkəm dayağıdırlar. Bu dəyərli nəsil, demək olar ki, bəşəriyyətin alman faşizmindən azad olunmasında böyük rol oynamışlar. Bakı şəhəri Veteranlar Şurası öz işini ölkə gənclərininhərbivətənpərvərliktərbiyəsisahəsinəyönəltmişdir, veteranların qayğısına diqqəti artmişdir. İndi veteranlara daha çox qayğı, diqqət lazımdır. Onların maddi vəziyyətinin yaxşılaşdırılmasına çalışırıq. Vətənpərvərlik sahəsində biz veteranlar Ümummilli liderimiz, mərhum Prezidentimiz Heydər Əliyevin milli ideologiyamıza aid nəzəriyyəsi əsasında hələ çox iş görməliyik. İşimizdə uğurlarımız vardır, amma çatışmayan cəhətlər də yox deyildir. Səhiyyə nazirliyi tərəfindən veteranlara diqqət artırılmalıdır. Bu gün veteranların müalicəyə, dərmana böyük ehtiyacı vardır. Onların yaşı 80- dan yuxarıdır. Respublika Veteranlar Şurası Bakı şəhər Veteralar Şurasına əsaslı köməklik göstərir. Qələbənin 60 illiyinə ciddi hazırlıq. Respublika Veteranlar Şurasının hesabat dövründəki fəaliyyətini kafi qiymətləndirirəm.

1.Qrinçenko A.. – Respublika EHHXE MVB-nin sədrinin birinci müavini.

Хочу остановиться на одной крайне важной поблеме

- проблеме героико-патриотического воспитания молодежи и воинов. Само 60-летие Великой Победы, проводимые мероприятия, связанные с этой славной датой, богатейшая почва для формирования у людей высокого чувства патри- отизма.

Сейчас у нас полным ходом идет подготовка к славному юбилею. Важным импульсом в этом огромном для нас явилось Распоряжение Президента Азербайджана Ильгама Алиева от 6 июля 2004 года «Об утверждении Национальной программы по подготовке к 60-летию Победы в войне 1941-1945 годов и проведени юбилея». Длительное время совместно с другими общественными организациями наша секция ветеранов войны-однополчан выступила перед молодежью и воинами с лекциями, докладами, беседами, проводим уроки мужества, тематические вечера, участие в теле и радиопередачах, оказываем помощь в создании музеев, комнат и уголков славы, помогаем учащимся в поисковой работе.

Традиционным стало проведение конкурсов на лучшее военно-патриотическое сочинение, рисунков, исполнение песен военных и послевоенных лет, просмотр художественных и документальных фильма, встречи с различными родов войск, а также возложение живых цветов к памятникам Героев Советского Союза и Национальных героев.

Большой резонанс вызвали проведение секцией ветеранов совместно с Русской общинной международных научно-патриотических конференций, посвященных 60-летию битв за Москву, Сталинграда, Ленинграда, Кавказа, а сейчас готовится такое же мероприятие о дружбе народов СССР в годы ВОВ.

Особенно хорошо поставлена у нас печатная пропаганда. В период подготовки к 60-летию юбилею вышло 10 книг, более 25 плакатов и листовок о героях воины и в производстве находится 2 книги, четыре плакате и 10 листовок. Вы это исполнено ветеранами с помощью спонсоров. Умело используются в воспитательной работе фронтовые документы-копии награжденных листовок, боевые характеристики переписка фронтам тыла, фотографии и др. Ветераны участвуют в проводах призывников на военную службу в Вооруженных Силах Азербайджана.





Вместе с этим следует особо подчеркнуть, что нам надо уходить от ставших привычными некоторых мероприятий. Хотелось бы придавать проводимым мероприятиям, посвященным знаменательным событиям торжественость, яркость, зрелищность.

Руководство Секции ветеранов весьма призна- тельно т.т. Д.Мамедовой, И.Велиеву, Н.Ашурову, Р.Садыхову, В.Татаренко, А.Амиралиеву, М.Эйниеву идр. За большую работу с людьми. Ветераны секции были, есть и будут и впредь надежными пропагадистами подвигов героев Великой Отечественной войны и достойно встретить 60-летие Победы.

4.Əliyev Zülfəli – Sabirabad rayon Veteranlar Şurasının sədri. Sabirabad rayon Veteranlar Şurası öz işini Respublika Veteranlar Şurasının 2-ci Qurultayının qərarından vəPlenumlarındaqəbuledilmişqərarlarınəsasındaplanlaşdırılmış və həyata keçirilmişdir. Sondövrlərdə veteranlara qayşı və diqqət daha da artnışdır. Respublika Veteranlar Şurası öz işini əsaslı surətdə yenidən qurmuşdur. Aparılan işlər göz qabağındadır. Respublika Veteranlar Şurasının yaradılmasının 15 illiyi münasibətilə çəkilmiş “Mötəbər insanlarımız” sənədli filmi və “Veteranlar Vətənimzin qızıl fondudur” kitabı dediklərimə əyani misaldır. Xüsusən Respublika Veteranlar Şurasını Məsul katibi Seyfəddin Abdullayevin redaktəsi ilə ərsəyə gəlmiş bu kitab Veteranlar Şurası, onun görkəmli nümayəndələrbarədə, eləcədə də bu kitab tarixi bir kitabdır və Sizlərin hər biri mənim dediklərimlə razısınız. “Veteranlar Vətənimizin qızıl fondudur” kitabı Sizin mənim, ümumilikdə hər birimizin stol üstü kitabı olmağa layiqdir. Layiqdir ona görə ki, bu kitabda həm də əsas rəhbər Qanunlar, Əsasnamələr, Fərmanlar,

sənədlər, məlumatlar vardır. Azərbaycan xalqının 1941-1945-ci illər müharibəsində rolu, xüsusi ilə ətraflı, sənədlər əsasında yazılmalıdır. Arzu edirəm ki, Seyfəddin müəllim gələcəkdə də bu mövzu üzərində işləsin, yeni-yeni kitablar yazaraq biz veteranları sevindirsin. Biz çalışırıq ki, veternların qaldırdıqları hər bir məsələ həll olunsun. BuişdərayonVeteranlar Şurasının daimi komissiyalarının işi yaxşı təşkil edilmişdir. Yerlərdə ilk veteranlar təşkilatları da öz vəzifələrinin öhdəsindən bacarıqla gəlirlər. Biz ölkə Prezidenti cənab İlham Əliyevin apardığı daxili və xarici siyasəti bəyənirik və dəstəkləyirik.

Respublika Müharibə, Əmək, Silahlı Qüvvələr Veteranları Şurasının hesabat dövründəki fəaliyyətini kafi qiymətləndirməyi təklif edirəm.

4 nəfər çıxış edəndən sonra Mandat Komissiyasının hesabatını təsdiq etmək üçün söz Mandat Komisiyasının sədri İsrafil İsmayılova verilir. Mandat Komissiyasının məruzəsi təsdiq olunur.

5 .İsmayılov Yusif – Respublika Veteranlar Şurasının Daimi Komissiyasının sədri. Biz bu gün burada Respublika Veteranlar Şurasının 2-ci Qurultaydan sonra RVŞ-nin gördüyü işlər barədə Şuranın sədri Baloğlan Rüstəmovun əhatəli, dərin məzmunlu hesabat məruzəsini böyük həvəslə dinlədik. Keçən il Ümummilli liderimiz Heydər Əliyev öz dünyasını dəyişmişdir. Bu hər bir azərbaycanlı üçün, hər bir veteranımız üçün ağır itkidir. Onun apardığı siyasi xətti, daxili və xarici siyasəti bu gün ləqaqənlə davam etdirən Hörmətli Prezidentimiz cənab İlham Əliyevin ətrafında hamımız sıx birləşməliyik.

Faşizm üzərində Qələbənin 60 illiyinə ciddi hazırlıq işləri gedir. Hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən “Milli Proqram” imzalanmıqdır. Bu sahədə geniş təşkilatı tədbirlər həyata keçirilir. Bu gün öz mənalı ömrünü Vətənimizin sədaqətinə həsr etmiş veteranların istirahətə, səhiyyəyə, mədəni0kütləvi işlərə böyük ehtiyacı vardır. Bunları nəzərə





alaraq Daimi komissiyalar özlərinin iş planlarında bu sahədə geniş tədbirlər planlaşdırır və əzmlə həyata keçiririk.

Mən təklif edirəm ki, bu gün bu Qurultayda Respublika Veteranlar Şurasının sədri cənab Baloğlan Rüstəmov barədə müharibə illərində layiq görüldüyü Sovet İttifaqı Qəhrəmanı fəxri adı alması məsələsi həllini tapsın və ölkə Prezidentinə məktub hazırlansın.

İkincisi, 2005-ci ildə Qələbə Paradında iştirak etmək üçün 5 nəfər nümayəndə Azərbaycan üçün çıx azdır. Mən təklifedirəm ki, nümayəndələrin sayı artırılsın. Mən təklif edirəm ki, Respublika Vüharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının hesabat dövründəki fəaliyyəti kafi sayılsın.

6.Hacıyav Rza – Gəncə şəhər Veteranlar Şurasının sədri, əmək veteranı. Mən Sizin hamınızı Gəncə şəhər Veteranlar Şurası adından təbrik edirəm və Qurultayın öz işini müvəffəqiyyətlə başa çatdırılması üçün ən xoş arzularımı bildirirəm.

Bildiyiniz kimi, Gəncə şəhər Veteranlar Şurasının tərkibində iki rayon təşkilatı fəaliyyət göstərir. Kəpəz və Nizami rayon Veteranlar Şurası. Mən Respublika Veteranlar Şurasının II Qurultayında da iştirak edirdim. Keçən dövrdə Respublika Veteranlar Şurasının apardığı işlər göz qabağındadır, hamımız görürük, hiss edirik. Gəncə şəhərində hər bir veterana diqqət var, qayğı var və biz çalışırıq ki, hamı nəzər-diqqətimizdə olsun, onların qayğısına qalırıq, əlimizdən gələn köməklikləri edirik. Biz çalışırıq ki, Gəncə şəhər veteranlar Şurasının işini daha da yaxşılaşdıraq, Daimi komissiyaları fəallaşdırmışıq.

Respublika Veteranlar Şurası öz işini, fəaliyyətini düzgün qurmuşdur və tabeçiliyində olan bütün şəhər və rayon şuralarına lazımi köməklik göstərir, daima əlaqə saxlayır. Biz hər cür metodiki göstərişi alırıq. Gəncə şəhər Veteranlar Şurası möhtərəm Prezidentimiz cənab İlham Əliyevin apardığı,

həyata keçirdiyi daxili və xarici siyasəti bəyənir və dəstəkləyir. Respublika Veteranlar Şurasının hesabat dövründəki işini kafi qiymətləndirirəm.

7.Anoşkin Vladimir İvanoviç – MDB ölkələri Veteranları Əlaqələndirmə Şurası sədrinin müavini – Müharibə Veteranları Komitəsinin sədri.

Сегодня крепить ветеранское единство. Я приветствую участников III-го съезда ветеранов Азербайдъанской республики. Ветераны Азербайджана в нерушимом строю с ветеранами стран СНГ.

Я здесь встретил сообщение о том, что Президент Азербайджанской Республики И.Г.Алиев высоко ценит деятельность ветеранов и постоянно оказывает им необходимую поддержку. Второй день я в Вашей Республике и отмечаю, что у вас ветеранам предоставлены льготы значительно больше, чем в других странах СНГ. До начала съезда Ветеранов Азербайдъана мне пришлось ознакомиться с работой Совета ветеранов Республики и очень хорошо, что деятельность проходит на высоком уровне. Это хорошо. В особенности заслуживает внимание издание разных книг, брошюр, плакатов и листовок, снять документальной фильм о ветеранах в связи с 15-летием Ветеранской организации Республики.

Скоро 60 лет Победы, будем праздновать вместе желаем Вам новых успехов в деле воспитания у молодежи патриотизма и героизма у молодежи.

8.Əli Həsənov, Respublika Prezidentinin İcra Aparatının ictimai-siyasi şpbəsinin müdiri. Ə.Həsənovölkə Prezidenti İlham Əliyevin Qurultay nümayəndələrinə təbrikini və salamlarını çatdırdı. O bildirdi ki, Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 60 illiyinə ölkəmizdə böyük hazırlıq işləri görülür. Həmin Qələbəyə azərbaycan xalqının sanballı töhvələr verməsində bugünkü veteranımızın xidmətini





yüksək dəyərləndirən Əli Həsənov qeyd etdi ki, Ulu öndərimiz Heydər Əliyev ikinci dəfə xalqımızın təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdanda ilk növbədə, müharibə veteranlarının hüquqlarını özlərinə qaytardı, onları "Azərbaycan xalqının qızıl fondu" adlandırdı, mühafizə iştirakçılarına daim böyük diqqət və qayğı göstərdi.

Bu gün veteranlarımız dövlət quruculuğunda yaxından iştirak edrilər, gənc nəslin vətənpərvərlik tərbiyəsində öz köməklərini əsirgəmirlər. Hörmətli Prezidentimiz cənab İlham Əliyevin veteranlara qayğı göstərilməsini aidiyyatı təşkilatlardan tələb etdiyini deyən Əli Həsənov hazırda da bi istiqamətdə mühüm tədbirlər həyata keçirildiyini vurğuladı.

Sonra Qurultayı təbrik etmək üçün zala Bakı şəhər Nərimanov rayonu 39 saylı orta məktəbin sagirdləri daxil olurlar. Onlar Qurultayı və onun iştirakçılarını hərarətlə təbrik edirlər.

Qurultaya sədrlik edən Ə.Baxışov təklif edir ki, Qurultayda çıxış üçün 14 nəfər yazılıb, ondan 8 nəfəri çıxış edib, nə kimi təkliflər vardır.

Nümayəndələr yekdilliklə çıxışların kəsilməsini təklif edirlər. Təklif səsə qoyulur və qəbul edilir.

Qurultay nümayəndələri Respublika Veteranlar Şurasının hesabat dövründəki fəaliyyəti qənaətbəxş hesab edirlər.

Qurultayın Qətnaməsi oxunub müzakirə edilir və əlavələrlə birlikdə yekdilliklə qəbul olunur.

Respublika Veteranlar Şurası Nəzarət-təftiş Komissiyasının hesabatı yekdilliklə təsdiq edilir.

Respublika Veteranlar Şurası Nəzarət-təftiş Komissiyasının hesabatı ilə əlaqədar Qurultayın qərarı:

1.Respublika Veteranlar Şurası Nəzarət-təftiş Komissiyasının hesabatı təsdiq edilsin;

2.Qurultay Respublika Veteranlar Şurasının yeni rəhbər orqanlarının seçilməsi barədə məsələnin müzakirəsinə keçir.

Respublika Veteranlar Şurasının üzvlərinin - 96 nəfər, Nəzarət-təftiş Komissiyasının üzvlərinin - 12 nəfər olması yekdilliklə qəbul edilir.

Respublika Veteranlar Şurasının III Qurultayı tərəfindən Azərbaycan Respublikası Prezidenti cənab İlham Heydər oğlu Əliyevə Müraciət oxunur və yekdilliklə qəbul edilir.

Bununla Respublika Veteranlar Şurasının III Qurultayı öz işini bitirir.

Azərbaycan Respublikasının Dövlət himni səslənir".





## Azərbaycan Respublika Veteranlar Şurasının III Qurultayının Qətnaməsi

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının III Qurultayı Şuranın sədri B.Rüstəmovun məruzəsini və çıxışları dinləyərək qeyd edir ki, son 4 il Respublikamızın veteran ictimaiyyətinin həyatında mü stəqilliyimizinmöhkəmləndirilməsi, Ümummilli Liderimiz, sabiq prezidentimiz Heydər Əliyevin rəhbərliyi altında ölkəmizdə ictimai-siyasi sabitliyin möhkəmləndirilməsi, Azərbaycan istiqlalının dönməzliyinin təmin edilməsi illəri olmuşdur.

Məyus günlərimiz də olmuşdur. Respublikamızın veteran ictimaiyyəti ümummilli liderimiz, beynəlxalq aləmdə tanınmış dövlət xadimi Heydər Əliyevin aramızdan getməsini olduqca kədər hissi ilə qarşıladı. Xalqımız qarşısında Heydər Əliyevin xidmətləri əvəzsizdir. Yalnız onun istedadı və zəngin təcrübəsi sahəsində Azərbaycan qısa bir müddətdə inkişaf yoluna düşdü. Ölkəmizdə həyata keçirilən quruculuq işlərinə xalqımız haqlı olaraq Heydər Əliyevin şah əsəri kimi baxır.

Biz Heydər Əliyevdə xalqa, Vətənə, ölkənin yaşlı nəslinə qayğı, sədaqət görmüşük. Bugünkü yaşlı nəslin fəaliyyətinin ən mühüm çağları Heydər Əliyevlə bağlıdır. Biz onun rəhbərliyi altında işləyib nüfuzlu qüvvəyə çevrilmişik.

Hər bir ölkənin, xalqın özünəməxsus inkişaf yolu vardır. Biz bəyan edirik ki, Azərbaycanın yeganə, sınaqlardan çıxmış inkişaf yolu vardırsa o da Heydər Əliyev yoludur. Bu yol bizim üçün həyat yolu, Qələbə yoludur. Bu ağır günlərdə bir təsellimiz vardır ki, bizi Heydər Əliyev yolu ilə apara bilən

şəxs vardır, o da Heydər Əliyevin siyasi kursunun yetişdirməsi İlham Əliyevdir.

Respublikanın rəhbərliyinin apardığı məqsədyönlü daxili və xarici siyasət nəticəsində Azərbaycanın dünya birliyində demokratik və hüquqi dövlət kimi tanınması, Avropa Şurasına qəbul olunması və digər xüsusi nüfuz çəkisinə malik olan beynəlxalq təşkilatlara üzv olması müstəqilliyimizin yenilmzliyinə parlaq sübutdur.

«Əsrin Müqaviləsinin» imzalanmasının 10 illiyinin yüksək səviyyədə qeyd edilməsi Heydər Əliyev idayalarının, onun neft strategiyasının təntənəsinə çevrildi. Hörmətli Prezidentimiz Heydər Əliyevin başçılığı ilə ordu quruculuğunda böyük işlər aparılmış, indi də işlər müvəffəqiyyətlə davam etdirilir. İndi bizim güclü ordumuz vardır, erməni təcavüzkarları tərəfindən işğal olunmuş torpaqlarımızın azad olunmasını təmin edə biləcək hərbi qüvvəyə malikdir.

Respublika Veteranlar Şurasının III Qurultayının iştirakçıları böyük minnətdarlıq hissilə qeyd edirlər ki, respublikamızın qarşısında duran mühüm məsələlərin həlli ilə birlikdə respublikamızın Prezidenti möhtərəm Heydər əliyev veteranları unutmurdu, vaxt və imkan taparaq hər il bizim qarşımızda çıxış edirdi, vaxtı çatmışməsələlərinhəllii stiqamətindərespublikanın aidiyyatı nazirlik və təşkilatlarına lazımi göstəriş verirdi.

Məhz onun qayğısı nəticəsində Respublika veteranlar Şurası Ümumdünya Veteranlar Təşkilatına qəbul olunmuş, «Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında» 23 dekabr 1997-ci ildə qanun qəbul edilmiş, müharibə əlillərinə pulsuz minik maşını verilməyə başlanmış, hər il «Beynəlxalq Ahıllar ili” respublikamızda böyük təntənə ilə keçirilmiş, 25 min nəfər müharibə veteranı Böyük Vətən müharibəsində Qələbənin 55 illiyi şərəfinə «1941- 1945-ci illər müharibəsinin veteranı»





döş nişanı ilə təltif olunmuş, 17 nəfər veteranımızın adı MDB ölkələri üzrə 2000-ci ilin «Qəzəl Fondu» kitabına yazılmışdır.

Biz bu gün böyük iftixar hissi ilə qeyd etmək istəyirik ki, öz sıralarında bir milyon nəfərdən çox veteranı və pensiyaçını birləşdirən Respublika veteranlar Şurası özünün III Qurultayına daha monolit sıralarda, vahid milli müstəqillik qurur, gələcəyə optimist baxışlarla hörmətli prezidentimiz Heydər Əliyevin bizə bəxş etdiyi və indi onun ölməz işinin layiqli davamçısı İlham Əliyevin apardığı daxili və xarici siyasətə sadiq şəkildə gəlmişdir.

Respublika veteran təşkilatlarının qarşısında duran mühüm məsələlərdən biri veteranların ölkənin ictimai- siyasi həyatında fəal iştirakını təmin etməkdir. Veteran sıralarında 23 mindən artıq veteran fəalı ictimai əsaslarla çalışır. Bunların əksəriyyəti Bəyük Vətən müharibəsinin, quruculuq illərinin, hüquq mühafizə orqanları və Silahlı Qüvvələrin veteranlarıdır. Onlar çətin günlərdə də, bayramlarda da vətənimizin ali mənafeinə xidmət edirlər.

Böyük Vətən müharibəsində Qələbənin 60 illiyinə hazırlıq günlərində veteranların ictimai-siyasi fəallığı daha da yüksəlmişdir. Şəhər və rayonlarda yerli icra hakimiyyətlərinin yaxından köməkliyi ilə böyük siyasi əhəmiyyətli yığıncaqlar, müşavirələr, toplantılar, hesabat-seçki tədbirləri keçirilmişdir. Oktyabr ayında 8 nəfər müharibə veteran Kiyev şəhərində keçirilmiş bayram şənliklərində hörmətli Prezitentimizlə iştirak edənlər özlərilə Azərbaycan həqiqətlərini aparmışlar. Onlar respublikamızda yaranmış ictimai-siyasi sabitlikdən, erməni təcavüzkarlarının hiyləgər və fitnəkar hərəkətlərindən danışmışlar.

Qarabağ problemi bizim yaralı yerimizdir. Bu məsələni indiki nəsil, xüsusən gənc nəsl həll edəcəkdir. Bunu nəzərə alaraq respublikanın veteran təşkilatları gənc nəsl ilə, xüsusilə Milli Ordumuzda xidmət edən gənclərlə aparılan hərbi

vətənpərvərlik tərbiyəsi işlərinə böyük qayğı göstərirlər. Respublika Veteranlar Şurasının plenumlarında, Rəyasət heyəti iclaslarında hərbi vətənpərvərlik tərbiyəsinin apaprılması vəziyyəti geniş müzakirə olunur.

Heç də gizli deyildir ki, hərbi vətənpərvərlik tərbiyəsi sahəsində hələ də nöqsanlı sahələr qalır. Məhz bunun nəticəsidir ki, biz gənclər arasında ictimai asayişi pozanlara, narkomanlara, pzgə malına göz tikənlərə və digər cinayətlərə də rast gəlirik. Bunagörə əlaqələr digər orqanlarla birlikdə veteran təşkilatları da gənclər arasında aparılan tərbiyə işində əllərindən gələni əsirgəməməlidirlər. Hesabat dövründə II Qurultayın qərarlarını yerinə yetirərək veteranların s o s i a l müdafiəsi ilə bir çox məsələlər öz həllini tapmışdır. Elə bir mühüm sahə yoxdur ki, ona dövlət qayğısının göstərilməsi barədə qanun və sərəncam olmasın. Veteranlara qayğının yüksək pilləsini Böyük Vətən müharibəsindəQələbənin 60 illiyi ilə əlaqədar möhtərəm prezidentimiz Heydər Əliyevin 6 iyul 2004-cü ildə təsdiq etdiyi Milli Proqramdır.

Lakin biz təəssüf hissi ilə qeyd edirik ki, veteranlara dərman -sarğı, tibbi xidmət məsələlərinin həllində olduqca anlaşılmaz məsələlər qalmaqdadır. Səhiyyə Nazirliyi bizim bu məsələlərə biganə yanaşır.

Nəqliyyat xidməti, istilik-yanacaqla təmin olunma, BVM iştirakçılarına mənzil verilməsi məsələləri öz həllini gözləyir.

Qurultay nümayəndələri hesabat məruzəsini və çıxışları dinləyərək veteran təşkilatlarının fəaliyyətini daha da təkmilləşdirmək məqsədilə Qərara alır:

1.Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının hesabat dövründəki fəaliyyəti qənaətbəxş sayılsın. Respublika Veteranlar Şurası III Qurultayının nümayəndələri və iştirakçıları respublikamızda ictimai-siyasi vəziyyəti daha da sabitləşdirilməsi, iqtisadiyyatımızın get-





gedə inkişaf etməsi, respublikamızın beynəlxalq aləmdə rol və nüfuzunun yüksəldilməsi dövlətçiliyimizin və müstəqilliyimizin qorunub möhkəmləndirilməsi sahəsində Azərbaycan Respublikasının sabiq prezidenti möhtərəm Heydər Əliyev tərəfindən əsası qoyulmuş və İlham Əliyev tərəfindən müvəffəqiyyətlə davam etdirilən daxili və xarici siyasəti ürəkdən bəyənir və müdafiə edirlər. Qurultay nümayəndələri dövlətçiliyimizə və müstəqilliyimizə zidd fəaliyyəti və onların xaricdə yaşayan havadarlarının təxribatçı hərəkətlərini qətiyyətlə pisləyirlər.

2.Veteranlar ölkəmizin ərazisinin 20 faizini işğal etmiş və bir milyon nəfərdən artıq azərbaycanlını qaçqın və məcburi köçkün vəziyyətinə gətirmiş erməni silahlı qüvvələrinin və onların havadarlarının təcavüzünə son qoyulması üçün BMT və ATƏT tərəfindən təsirli tədbirlər görülməsini lazım bilir. Azərbaycan respublikasının veteran ictimaiyyəti Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasına məsləhət bilir ki, təcavüzkar Ermənistan barədə qəbul edilmiş qətnamələrin yerinə yetirilməsinə sahiblik etsin.

3.Şəhər və rayon veteranlar şuralarından tələb olunsun ki, hərbi komissarlıqlar ilə birlikdə gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunması, xüsusilə Milli Ordumuzun sıralarında xidmət edən hərbi qulluqçuların vətənə sədaqət, müstəqil respublikamızın ərazi bütövlüyünü hər dəqiqə müdafiə etməyə hazır olan döyüşçü kimi yetişməsini mühüm vəzifə saysınlar. Bəyük vətən müharibəsiiştirakçılarının,əmək və Silahlı Qüvvələr veteranlarının təcrübəsi, erməni işğalçılarına qarşı vuruşmalarda rəşadət nümunəsi göstərmiş döyüşçül ərimizinqəhrəmanlığıbirörnəkolmalıdır. Respublikamızın məşhur adamlarının gənclərlə görüşlərdən, əmək və hərbi mərasimlərdən, hərbi idman oyunları və toplantılardan döyüş və əmək şöhrətli muzeylərindən, xüsusilə «Heydər Əliyev» muzeyinin xidmətindən geniş istifadə etsinlər.

4.Respublikanın şəhər və rayon veteranlar təşkilatlarından tələb edilsin ki, respublikanın ictimai-siyasi həyatında veteranların fəal iştiraklarını təmin etsinlər. Veteran fəallarının öz medrik sözü və əməllərilə gənclərimizin hərbi vətənpərvərlik ruhunda tərbiyə olunmasında iştirakına nail olsunlar.

5.Gənclərin tərbiyəsi sahəsində Azərbaycan gənclərinin forumlarında, iclaslarında mərhum prezidentimiz Heydər Əliyevin proqram nitqindən və İlham Əliyevin göstərişlərindən irəli gələn vəzifələrin həllində şəhər və rayon rəhbərliyinə yaxından kömək etməklə özləri təşkilatçılıq etsinlər.

6.Qurultay veteran təşkilatlarından tələb edir ki, xalqlar arasında dostluğu, respublikamızda yaşayan millətlərdən olan veteranlarla əlaqəni daha da möhkəmləndirsinlər. MDB veteran təşkilat və şuraları ilə əməli iş birliyi yaratsınlar.

7.Hər bir şəhər və rayon veteranlar şurası Vətənin müdafiəsi uğrunda həlak olanların xatirəsini əbədiləşdirmək sahəsində möhtərəm prezidentimiz Heydər Əliyevin 23 dekabr 1997-ci ildə imzaladığı Qanundan irəli gələn vəzifələrin yerinə yetirilməsi sahəsində aparılan işləri yerli icra hakimiyyət orqanları, hərbi komissarlıqlar və digər əlaqədar orqanlarla birlikdə həll olunmasını özünün vətəndaşlıq borcu hesab etməlidir. Respublika veteranlar Şurasına tapşırılsın ki,

«Xatirə Kitabı»nın nəşri sahəsində müvafiq təşkilatlarla əlaqə saxlayıb, lazımi köməklik etsin.

8.Respublika Veteranlar Şurasına, şəhər və rayon veteranlar şuralarına mühüm bir vəzifə kimi tapşırılsın ki,

«Veteranlar haqqında» Qanundan, veteranların sosial müdafiəsi ilə əlaqədar qəbul edilmiş digər hökumət qərarlarından normativ aktlardan irəli gələn, xüsusilə səhiyyə-sağlamlıq, nəqliyyatdan istifadə, mənzil-kommunal və sair xidmətlərə dair müavinətləşdirilməmiş imtiyazların yerinə yetirilməsi üzərində nəzarəti daha da gücləndirsinlər.





Respublika Nazirlər Kabinetindən xahiş edilsin ki, sosial müdafiə sahəsində veteranlara verilmiş imtiyazların yerinə yetirilməsi məqsədilə nazirlik və baş idarələrin məsuliyyətinin yüksəldilməsinə lazımınca nəzarət etsin.

9.Qurultay Respublika Veteranlar Şurasından, şəhər və rayon veteranlar şuralarından tələb edir ki, faşizm üzərində Qələbənin 60 illiyi ilə əlaqədar Respublikamızın prezidenti İlham Əliyev tərəfindən təsdiq olunmuş Milli Proqramın həyata keçirilməsi sahəsində geniş təşkilatı tədbirlər həyata keçirsinlər. Respublikanın aidiyyatı nazirlikləri və rayon təşkilatlarının rəhbər işçilərilə əlaqə saxlayaraq Milli Proqramda qeyd olunmuş hər bir maddənin həyata keçirilməsi üçün lazımi tədbirlər görsünlər.

10.Şəhər və rayon veteranlar Şuralarına tapşırılsın ki, veteran hərəkatının əsasını təşkil edən ilk veteran təşkilatlarında aparılan təşkilatı işlərin yaxşılaşdırılmasına nail olsunlalr. Onların kənd icra nümayəndələri və bələdiyyələri ilə birgə iş quraraq veteran yığıncaqlarının vaxtında keçiilməsi, yığıncaqlarda veteran hərəkatının aktual məsələlərinin müzakirə edilməsi, qəbul edilmiş qərarların icrası, veteranların uçotu, hər bir veteranın nüfuzunun yüksəldilməsi, onların Nizamnamədə göstərilən hüquq və vəzifələrinin yerinə yetirilməsi üzərində kömək və nəzarəti gücləndirsinlər. Qabaqcılilk veteran təşkilatlarının iş təcrübələrinin öyrənilib ümumiləşdirilməsi və tətbiqi məqsədilə vaxtaşırı Şura sədrlərinin seminarlarını və müşavirələrini keçirsinlər.

Şəhər və rayon təşkilatlarında iş planının tərtibi, təşkilatı işin səviyyəsinin yüksəldilməsi, plenum və rayasət heyəti iclaslarının vaxtında keçirilməsi, müzakirə edəcək məsələlərin aktual xarakter daşınması və qəbul edilən qərarların icrası üzərində nəzarəti gücləndirsinlər.

11. Respublika Veteranlar Şurasından tələb edilsin ki, Şuranın işində əsas rol oynayan daimi komissiyaların

fəaliyyətinin daha da yüksəldilməsinə nail olsun. Respublika veteranlar Şurasının müstəqil « Veteran» qəzetinin yaradılmasını Böyük Qələbənin 65 illiyinə qədər təşkil etsinlər. 12. Respublika Veteranlar Şurasına tapşırılsın ki, MDB ölkələri veteranları Əlaqələndirmə Şurası və Ümumdünya müharibə veteranları Assambleyası ilə öz əlqələrini daha da genişləndirərək vetertan hərəkatının möhkəmlənməsi üçün geniş iş aparsın, beynəlxalq təşkilatların tribunalarından erməni işğalçılarının fitnəkar və mərkli hərəkətlərini ifşa etmək və Azərbaycan həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq

üçün veteranların qüvvəsindən bacarıqla istifadə etsin.

13.Qurultay belə hesab edir ki, öz mənalı ömrünü vətənin səadətinə həsr etmiş veteranların istirahətə, şənliyə, mədəni-kütləvi işlərə böyük ehtiyacı vardır. Bunu nəzərə alaraq veteran özfəaliyyət tədbirlərinin yerinə yetirilməsinə şəhər və rayon veteran şuraları Respublika Mədəniyyət nazirliyinin qüvvəsindən səmərəli istifadə etməlidir.

14.Biz müharibə, əmək və silahlı qüvvələr veteranları III Qurultayının nümayəndələri və iştirakçıları dünya şöhrətli dövlət xadimi sabiq prezidentimiz, Ümummilli liderimiz möhtərəm Heydər Əliyevin nurlu ruhunu və bizi Heydər Əliyev yolu ilə qələbə və firavanlığa aparan, xalqımızın sevimli oğlu Prezidenti İlham Əliyevi əmin edirik ki, müstəqilliyimizi qorumaq, ölkəmizin iqtisadi və siyasi qüdrətini daha da yüksəltmək, gənclərimizi vətənpərvərlik ruhunda tərbiyə etmək, işğal olunmuş torpaqlarımızı düşmən tapdağından azad etmək, respublikamızda ictimai- siyasi sabitliyi daha da gücləndirmək sahəsində öz qüvvə və bacarığımızı əsirgəməyəcəyik.





## Respublika Veteranlar Şurasının III Qurultayında Veteranlar Şurasının sədri Baloğlan Rüstəmovun hesabat məruzəsi

Hörmətli Qurultay iştirakçıları!

İcazə verin Sizi qarşıdan gələn 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizmi üzərində Qələbənin 60 illiyi münasibəti ilə ürəkdən təbrik edim. İnşallah, yaşayıb bu günü də görmək bizə nəsib olacaqdır. Bu gün biz Respublika Veteran Şurasının III Qurultayına toplaşmışıq. Qurultayımız əlamətdar bir dövrdə keçirilir, II Qurultaydan sonrakı 4 ildə ümumiyyətlə respublikamızda, o cümlədən Respublika Veteranlar Şurasının həyatında ciddi və əlamətdar yeniliklər əldə edilmişdir. Möhtərəm Prezidentimiz H.Əliyevin rəhbərliyi altında ölkədə müstəqilliyin qorunub saxlanılması və onun bir daha möhkəmlənməsi sahəsində həlledici addımlar atılmışdır. Ölkə, necə deyərlər, “alağ otlarından” təmizlənmiş, ictimai-siyasi vəziyyət daha da sabitləşmişdir. Bir sözlə Azərbaycan xalqının, o cümlədən biz veteranların xöşbəxtliyi onda olmuş ki, bir quruluşdan başqa bir quruluşa keçid dövründə ölkəmizin müqəddəratı Heydər Əliyev kimi bir şəxsiyyətin rəhbərliyi altında olmuşdur. Ataların dediyi kimi, “təzə binanı tikmək, köhnə binanı söküb onun yerində təzə bina tikməkdən daha asandır. Keçid dövrü buna bənzər bir haldır. Heydər Əliyev uzaqgörənliyi, yüksək təcrübəyə malik olması, müsbəti-mənfidən seçmə qabiliyyəti və s. qısa müddətdə düzgün yol seçib, özəlləşdirmə, bazar iqtisadiyyatına keçməkdə onun həyata keçirdiyi daxili və xarici siyasət öz gözəl bəhrələrini vermişdir.

Ölkə rəhbərlərinin ardıcıl və məqsədyönlü daxili və xarici siyasəti nəticəsində Aazərbaycanın dünya birliyində demokratik, hüquqi dövlət kimi tanınması, Avropa Şurasına qəbul olunması, xüsusi nüfuz çəkisinə malik olan beynəlxalq təşkilatlara ölkəmizin üzv qəbul olunması, Prezidentimizin neft strategiyası, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilməsi ölkəmizin iqtisadiyyatına xarici sərmayənin qoyulmasına nail olunması və onun müntəzəm olaraq canlanması, əhalinin sosial müdafiəsi ilə bağlı kompleks tədbirlərin həyata keçirilməsi Azərbaycanın həqiqətləridir.

Buna baxmayaraq respublikamızda əldə edilən nailiyytələr müxalifətin və onun xaricdə oturan, dünənki əməllərindən utanmayan havadarlarının xoşuna gəlmir.

Biz veteranlar həmişə olduğu kimi bu gün də onlara deyirik ki, meydana çıxan və həllini gözləməyə ehtiyac olan problemləri əlinizdə bayraq edib xalqa verdiyiniz əzablardan əl çəkin. Xalq artıq onları tanıyır. Ara qarışdırmağa son qoyulmalıdır.

Əziz Prezidentimiz (Alah ona rəhmət eləsin) respublikamızın qarşısında duran mühüm problemləri həll etməyinə baxmayaraq heç zaman, heç vaxt biz veteranları unutmurdu. Bizim zəruri məsələlərimizin həlli üçün həmişə vaxt və imkan tapırdı.

Lakin bir təsəllimiz var ki, Heydər Əliyev məktəbinin təcrübəsini, işguzarlığını görmüş İlham Əliyev onu əvəz edir və onun qoyduğu yolu layiqincə davam etdirir.

Hesabat dövründə baş verən tədbirlərdən ən yüksək əhəmiyyətə malik olan Prezident seçkiləri olmuşdur. Bu seçki, bildiyiniz kimi Azərbaycanın bu günü və gələcək müqəddəratı demək idi. Bu böyük siyasi əhəmiyyəti olan məsələdə yüksək dünyagörüşünəmalikolanveteranlar, onuntəşkkilatlarıdüzgün yol seçdilər, bilavasitə xalqın içərisində olan bu adamlar geniş miqyasda iş apardılar. Bununla da ölkənin müqəddəratını





dərindən bilən, onu qələbələrə doğru inkişaf etdirməyi bacaran şəxs Prezident seçildi. Bu da təsadüfən yaranmırdı, belə ki, istər müharibə iştirakçıları və istrərsə müharibə illərində arxa cəbhədə fədakarlıq göstərən insanlar bilavasitə özlərinin əmək fəaliyyətini, yüksək bacarığa malik olan Heydər Əliyev cənablarının dövründə olmuşdur. İlham Əliyev onun oğludur, atasının tutduğu yolu davam etdirməyi bilinirdi. Digər tərəfindən biz veteranlar Prezidentliyə namizədliklərini verən adamların qabliyyıtinə, tətəfəkkürlərinə bələd idik.

Müxalifət İkinci Dünya Müharibəsində Qələbə bayramı kimi qəbul edilmiş 9 may bayramını ləğv etdi. Bu siyasətdə korluq deyilmi? Birdən-birə 1 milyon seçicini itirib, başladılar danışmağa ki, seçkilər düz getmədi. Bu əqidəyə sahib olan adamlar ölkəni idarə edə bilərdilərmi? Əlbəttə yox.

Bildiyinizkimi, veterantəşkilatlarınınəsasvəzifələrindən biri də, gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə edilməsidir. Bu sahədə çox iş görməyə ehtiyac var idi. Müxalifət tərəfindən gənc nəsil aldanılırdı, onları xoşa

gəlməyən hərəkətlərə cəlb edilirdilər, orduda fərarilik halları var idi. Respublika Veteranlar Şurası ayrıca tədbirlər planı hazırlayıb rayon, şəhər Veteranlar Şuralarına göndərib, müntəzəm olaraq özünün Plenum, Rəyasət Heyəti və bürolarında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi müzakirə edilib, müsbət nəaliyyətlər əldə edən şəhər, rayon veteran şuralarının iş metodu bütün şuralara yayılıb, onların çoxu, fəxri fərmanla, təşəkkürlərlə təltif edilib və s. Xüsusilə, döyüşlərdə fəallıq göstərən müharibə veteranları müntəzəm olaraq hərbi hissələrdə, cəbhə bölgələrində, ali, orta ixtisas, ümumtəhsil məktəblərində gənclərlə görüşüblər. Gənclər onların söhbət və məsləhətlərini yüksək həvəslə dinləyirdi. Respublika Veteranlar Şurasında yaradılmış hərbi vətənpərvərlik üzrə komissiyanın sədri Zilli Rzayev və onun üzvləri bu işdə fəalliq göstərirlər.

Eləcə də, Naxçıvan MR, Bakı şəhəri, Gəncə, Lənkəran, Göyçay, Qazax, İmişli, Sumqayıt, Sabirabad, Respublika Veteranlar Şurasının yeni hissələrdə xidmət edən hərbi Az ərb aycandiviziyalarınınveteranlarıbölməsi, X a ş m a z , Quba, Neftşala və s. daha yaxşı işləmişlər. Bu və bütünlüklə aparılan tədbirlərin nəticəsində şəhər, rayon və kəndlərdə ordu hissələrində xidmət etməyə gedən gənclər toy-bayramla yola salınır, fərarilik tamamilə götürülüb, güclü, intizamlı, müstəqilliyimizi qorumağa l a y i q ,

lazım gələrsə erməni təcavüzkarları tərəfindən zəbt edilən doğma torpaqlarımızı azad etməyə layiq ordumuz vardır. Prezident İlham Əliyev Naxçıvanda olarkən demişdir: “Onüçüncü ildir ki, Azərbaycan müstəqil dövlət kimi yaşayır. Hər bir müstəqil dövlət üçün onun ordusu müstəqilliyin ən vacib əlamətlərindən biridir. Əfsuzlar olsun ki, müstəqilliyimizin ilk illərində Azərbaycanda ordu, demək olar ki, yox idi. Ayrı-ayrı dəstələrdən ibarət olan birləşmələr, təbii ki, ölkə qarşısında duran çox çətin vəzifənin öhdəsindən gələ bilməzidilər. Azərbaycan çox çətin vəziyyətə düşmüşdü və bunun nəticəsində torpaqlarımız işğal olunurdu. Yalnız Ümummilli liderimiz Heydər Əliyevin

1993-cü ildə xalqın tələbi ilə Azərbaycana qayıdışından, Prezident vəzifəsinə seçildikdən sonra Azərbaycanda ordu quruculuğunda dönüş yarandı. O ildən başlayaraq, son on il ərzində ordumuz gücləndi, inkişaf etdi və bu gün demək olar ki, bizim ordumuz yüksək səviyyədədir. Qarşıda duran bütün vəzifələri həll etməyə qadir bir ordudur. Bu vacib, çətin, ağır işdə Böyük Vətən müharibəsində iştirak etmiş veteranların fəaliyyəti az olmayıb”.

Biz veteranlar həmişə demişik ki, H.Əliyevin Respublikada rəhbərliyə yenidən qayıtması ilə veteranların həyatında yeni bir mərhələ başlanmışdır. Bu gün də biz bunu deməyə haqlıyıq.





Beləliklə, Respublika Veteranlar Şurasının II Qurultayından sonrakı dövr respublikamızda iqtisadiyyatın, mədəni quruculuq işlərinin yeni vüsəti ilə, dövlətçiliyimizin möhkəmlənməsi, ordu quruculuğundakı nailiyyətlər, beynəlxalq miqyasda müstəqil dövlətimizin mövqelərinin möhkəmlənməsi, veteran hərəkatında əldə etdiyimiz uğurlarla səciyyələnir.

Bununla birlikdəAzərbaycan özünün ən kədərli günlərini yaşadı. Xalqımız bütün dövrlərdə yetirdiyi ən əzəmətli, qüdrətli şəxsiyyətlərdən birini – zəmanəmizin görkəmli siyasətiçisi və dövlət xadimini, türk dünyasının fəxri, müstəqil Azərbaycan dövlətçiliyinin qurucusu, öz canını doğma Vətənin inkişafına, xoşbəxt gələcəyinə həsr etmiş dahi şəxsi, Prezident Heydər Əliyevi itirmişdir. O, təkcə rəhbər yox, sözün əsl mənasında, millətin atası idi. Azərbaycanın hər bir bölgəsində, hər bir nailiyyətində Heydər Əliyevin quruculuq siyasətinin silinməz izləri var.

Heydər Əliyev Vətən, xalq qarşısında ən böyük xidməti Müstəqil Azərbaycan dövlətini parçalanmaq, məhv olmaq təhlükəsindən qurtarması, müstəqilliyimizi əbədi və dönməz etməsidir. MəhzonunnəhəngfəaliyyətinəticəsindəAzərbaycan suveren dövlət kimi inkişaf etmiş, möhkəmlənmiş və dünya birliyində layiqli yerini tutmuşdur. Ona görə də biz haqlı olaraq deyirik ki, Heydər Əliyev müstəqil dövlətçiliyinizin qurucusudur, bugünkü güclü, inkişaf edən Azərbaycan dövləti onun şah əsəridir.

Ona görə də nə qədər ki, müstəqil Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev də ürəklərdə yaşayacaqdır.

Biz veteranlar Heydər Əliyevdən xalqa, Vətənə, ölkənin yaşlı nəsli olan veteranlara inam, sədaqət və qayğı görmüşük. Bugünkü yaşlı nəslin fəaliyyətinin ən mühüm çağları Heydər Əliyevlə bağlıdır. Biz uzun illər onun rəhbərliyi altında

işləyib nüfuzlu bir qüvvəyə çevrilmişik. Biz bəyan edirik ki, Azərbaycanın yeganə, sınaqlardan çıxmış özünəməxsus bir yolu vardırsa, o da Heydər Əliyev yoludur. Bu yol bizim üçün həyat yolu, Qələbə yoludur.

Xalqımızın, dövlətçiliyimizin xoş gələcəyi üçün indi bizdə buna dərin inam vardır. Bu ondan irəli gəlir ki, ölkəmizə bacarıqla başçılıq edə biləcək, bizi Herdər Əliyev yolu ilə apara biləcək şəxs vardır, Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, hörmətli Prezidentimiz İlham Əliyev vardır. Əminik ki, o bizi nurlu sabaha aparacaqdır. Qədirbilən veteranlar bu yolda ona arxa, dayaq, köməkçi olacaqdır.

Biz bu gün böyük iftixarla demək istəyirik ki, öz sıralarında bir milyon iki yüz yetmiş mindən çox müharibə, əmək, Silahlı Qüvvələr və hüququ-mühafizə orqanları veteranını və pensiyaçısını birləşdirən Respublika Veteranlar Şurası özünün növbəti – III Qurultayına mütəşəkkil, milli müstəqillik qüruru ilə, hörmətli Prezidentimiz İlham Əliyevin gələcəyə optimist baxışlarla apardığı inamlı, məqsədyönlü daxili və xarici siyasətinə sadiq şəkildə gəlmişik.

Bu gün ölkə veteranları monolit bir təşkilatda birləşmişlər və Respublika Veteranlar Şurasının qarşısında duran ən mühüm məsələrdən biri ölkənin ictimai-siyasi həyatında veteranlarımızınn fəal iştirakını təmin etməkdir. Hazırda ölkəmizdə 2564 ilk veteranlar təşkilatı fəaliyyət göstərir və bu təşkilatla 86 rayon və şəhər veteranlar şuralarının tərkibindədirlər. İlk veteranlar şuraları 2667 bələdiyyə ərazi dairəsində yerləşirlər.

Veteranlardan 23 min 500 nəfərdən çox fəal veteran şu ralarındaictimaiəsaslarlaçalışırlar. Onlarınəksəriyyəti 1941-1945-ci illər müharibəsinin – Böyük Vətən müharibəsinin, müharibədən sonrakı dinc quruculuq illərinin, Silahlı Qüvvələrin, hüquq-mühafizə orqanlarının veteranlarıdırlar və





həmişə doğma Vətənimizin xoş gələcəyi uğrunda çalışırlar. Veteranlarımızın ictimai-siyasi fəallığı yüksəkdir.

Respublikanın Veteranlar Şurası, onun yerli orqanları ölkəmizin həyatında baş verən ictimai-siyasi məsələlərə və öz fikirlərini, istəklərini, arzularını respublika rəhbərliyinə çatdırmışdır.

Bildiyiniz kimi Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurası cəmiyyətdə veteranların layiqli yer tutmasını, onların qanunla müəyyən olunmuş hüquq və mənafelərinin qorunmasını təmin etməyi öz qarşısına məqsəd qoyan ictimai təşkilatdır. O, müstəqildir və özünün Nizamnaməsi vardır. Respublika Veteranlar Şurası bu Nizamnamənin tələblərinin layiqincə yerinə yetirilməsini həmişə diqqət mərkəzində saxlayır. 2002-ci ilin aprel ayının 25-də Respublika Veteranlar Şurasının növbəti – 5-ci Plenum iclasında Şuranın Nizamnaməsində qismən dəyişikliklər edilmişdir ki, bu da veteran təşkilatlarının işinin ahəngini daha da yaxşılaşdırmışdır.

Respublika Veteranlar Şurasının II Qurultayından keçən dörd il müddətində 9 Plenum, 17 Rəyasət Heyəti və büro iclaslarda günün aktual məsələləri müzakirə edilmiş və aktual qərarlar qəbul edilmişdir. Qəbul edilmiş qərarların icrası daima diqqət mərkəzində saxlanılmış və onların yerinə yetirilməsinə ciddi nəzarət olmuşdur. Yeri gəlmişkən, onu da qeyd etmək istəyirəm ki, Respublika Veteranları Şurasının 15 illik yubileyinə həsr olunmuş “Veteranlar Vətənimizin qızıl fondudur” kitabı hazırlanış, nəşr edilmiş və Sizlərə təqdim olunmuşdur. Bu tarixi bir kitabdır və Sizin stolüstü kitabınız olmağa layiqdir, çünki həmin kitabda əsas rəhbər qanunlar, fərmanlar, əsasnamələr, sənədlər, məlumatlar da vardır.

Veteranlar şuralarının əsas vəzifələrindən biri də veteranlara daimi qayğı göstərməkdir, gənc nəslin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasıdır. Respublika

Veteranlar Şurasında, eləcə də rayon (şəhər) veteranlar şuralarında Nizamnamə və onun əsasnamələrin həyata keşirilməsinə əməlli köməklik məqsədilə Daimi Komissiyalar təşkil edilir və onlar da Əsasnaməyə uyğun fəaliyyət göstərirlər. Daimi Komissiyalara fəal veteranlar seçilmişlər. Daimi Komissiyaların sədrləri və müavinləri Respublika Veteranlar Şurasının Rəyasət Heyəti tərəfindən, katibi və üzvləri isə komissiyaların iclaslarında təsdiq olunurlar. Hazırda Respublika Veteranlar Şurasının nəzdində 7 Daimi Komissiya fəaliyyət göstərir. Daimi Komissiyalar öz işlərini yaradıcı və təşəbbüskarlıq əsasında qururlar və öz əməli fəaliyyətlərində qüvvədə olan qanunları rəhbər tutaraq meydana çıxmış iqtisadi və ictimai problemləri öyrənir və onların həlli üçün çalışırlar. Bu məqsədlə Respublika Veteranlar Şurasının Daimi Komissiyalarının rəhbərliyi ilə vaxtaşırı olaraq (hər ildə 2 dəfədən az olmayaraq) bir günlük seminar məşğələləri keçirilir. Bu məşğələlərdə Daimi Komissiyaların sədrləri görülən işlər barədə məlumat verir, qabaqcıl iş təcrübələri öyrənilir və Veteranlar şuralarının işinin təkmilləşdirilməsi sahəsindəki sənədlər müzakirə edilir, təkliflər hazırlanır, Rəyasət Heyətinə təqdim edilir. Daimi Komissiyalar tərtib etdikləri plan üzrə fəaliyyət göstərirlər. Plan ildə 2 dəfə tutulur.

Respublikada gənclərin vətənpərvərlik tərbiyyəsi üzrə Gənclər, İdman və Turizm Nazirliyi xətti ilə Respublika Şurası yaradılmışdır və bu Şura ictimai əsaslarla fəaliyyət göstərir. Şuranın əsas məqsədi uşaq və gənclərin vətənpərvərlik tər biyəsininyüksəldilməsi,onlardaazərbaycançılıq,dövlətçilik, dünyəvilik, prinsipləri əsasında doğma Vətənə məhəbbət, Azərbaycan xalqının tarixinə, milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə, dövlət dilinə və rəmzlərinə hörmət hisslərinin aşılanması, vətənpərvərlik tərbiyyəsinə mənfi təsir göstərən halların qarşısının alınması işinin təşkili, gənclərin həqiqi hərbi xidmətə hazırlanması sahəsində müvafiq dövlət və





qeyri-hökümət təşkilatlarının fəaliyyətini əlaqələndiməkdir. Bu Şuranın tərkibində Azərbaycan Respublikasının Təhsil Nazirliyinin, Müdafiə Nazirliyinin, hərbi komissrlıqların, həm də Respublika Veteranlar Şurasının nümayəndəsi (məsul katib Seyfəddin Abdullayev), digər nazirliklərin çox mötəbər mütəxəssisləri fəaliyyət göstərirlər. Onu da qeyd edirik ki, bu Şuranın əsas vəzifəsi vətənpərvərlik tərbiyəsi işinin müxtəlif sahələri üzrə elmi araşdırmalar və tədqiqatlar aparmaqdır.

Bununla belə, bu sahədə bəzi nöqsanlar hələ də vardır. Gənclər arasında asayışı pozanlara, narkomanlara, digər neqativ hallara hələ də rast gəlirik. Odur ki, veteranlar şuraları gənclər arasında apardıqları tərbiyə işinin forma və üsullarını təkmilləşdirməlidirlər, yeni-yeni üsullar düşünüb tapmalıdırlar. Bu sahədə veteran təşkilatları dərindən düşünməlidirlər.

Xalqımızın qəhrəman oğulları çoxdur, onların xatirəsini əbədiləşdirmək, qəhrəmanlıq yollarını öyrənmək, gənclərimizə çatdırmaq biz veteranların müqəddəs borcudur.

Respublika Veteranlar Şurasının fəaliyyətində Daimi Komissiyalar böyük rol oynayır. Hesabat dövründə "Vətən uğrunda həlak olanların xatirəsini əbədiləşdirmək" (Komissiyanın sədri istefada olan polkovnik Vəli Vəliyevdir) bu sahədə səmərəli iş görmüşdür. Bu gün ölkəmizdə 500-dən çox xatirə abidəsi vardır. Onların ucotu dəqiqləşdirilib başa çatdırılmışdır.

Azərbaycan Respublikası Prezidentinin 1997-ci il 23 dekabr tarixli Fərmanı ilə qüvvəyə minmiş "Vətən ugrunda həlak olanların xatirəsini əbədiləşdirmək haqqında" Qanun əsasında Daimi Komissiyanın gördüyü tədbirlər nəticəsində respublikanınəksərrayonlarındaxatirəabidələrilazımıqayda ya gətirilmişdir. Rayonlarda müxtəlif tədbirlər, o cümlədən də çağırışçıların hərbi xidmətə yola salınması bu abidələrin önündə keçirilir. İctimai-kütləvi işlər üzrə (komissiyanın sədri İsmayılzadə Məbud), Silahlı Qüvvələr və hüquq-mühafizə or

qanlarıveteranlarıiləişüzrə(Komissiyanınsədriistefadaolan polkovnik Məhərrəm Məhərrəmov), social-məişət məsələləri və pensiyaçıların əmək fəaliyyəti üzrə (komissiyanın sədri Yusif İsmayılov), təşkilati-metidiki komissiya (Komissiyanın sədri Seyfəddin Abdullayev) və Beynəlxalq əlaqələr üzrə (Komissiyanın sədri Baloğlan Rüstəmov) daimi komissiyalar da fəaldırlar, əməlli işlər görmüşlər. Veteranların istirahəti sahəsində mühüm işlər görülür və görülən işlər, Şuranın Rəyasət Heyətinin iclaslarında müzakirə olunur.

Vətənimizin azadlığı uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi sahəsində bu gün hərbi kadrlarımızın, alimlərimizin, əmək və incəsənət xadimlərimizin işi tərifəlayiqdir. Bu sahədə Respublika Veteranlar Şurasının, Gəncə və Bakı şəhəri veteranlar şuralarının işini qeyd etmək lazımdır. Ona görə, bu möhtərəm tribunadan Yusif Yusifova Allah rəhmət eləsin, İsrafil İsmayılova, Abumüslüm Baxşiyevə, Seyfəddin Abdullayevə, Aleksandr Aleksandrovicə, Dürrə Məmmədovaya və digər yoldaşlara öz minnətdarlığımızı bildiririk. Eyni zamanda "Xatirə kitab"larının nəşri sahəsində əməli işlərinə görə redaksiyasının kollektivinə (Nəşriyyatş baş redaktoru Nahid Hacızadə) də çox sag olun deyirik.

Azərbaycan milli-atıcı diviziyalarının, eləcə də eyni hərbi hissələrdə xidmət etmiş müharibə veteranlarının sayı, ünvanı, bildiyiniz kimi son 2 ildə ciddi şəkildə dəqiqləşdirilir. Bu sahədə müvafiq işlər görülür.

Respublika Veteranlar Şurası adından Qurultay nümayəndələrinə və iştirakçılarına bildirməliyəm ki, respublika rəhbərliyinin köməyi ilə Vətənimizin azadlığı uğrunda həlak olanların xatirəsini əbədiləşdirmək işinin əsl qayğıkeşi Ümummillilbderimiz Heydər Əliyevolmuşdur. Onun "Vətən uğrunda həlak olanların xatirəsinin əbədiləşdirilməsi haqqında" imzaladığı fərman bu sahədəki işlərimiz üçün başlanğıc və istiqamətverici sənəd oldu.





Respublika Veteranlar Şurası tərəfindən şəhər və rayonlarda mövcud olan bütün abidələr hələ o vaxt pasportlaşdırıldı, onların saxlanması və bərpası işinə nəzarət gücləndi. Yoxlamaların nəticəsi olaraq Bakı, Sumqayıt, Lənkəran, Şəki, Gəncə şəhərində, Cəlilabad, Qusar, Xaçmaz, Masallı və bir çox rayonlarda abidə və dəfn yerləri tam səhmana salınmışdır.

Veteranların sevimlisi Məlik Məhərrəmovun respublikamızda Veteran hərəkatının möhkəmlənməsində xidmətlərini biz yüksək qiymətlərdiririk. Allah ona rəhmət eləsin. Vətənin azadlığı uğrunda həlak olanların, igidlik göstərənlərin xatirəsini əbədiləşdirmək sahəsində Bakı şəhəri Veteranlar Şurası, Eyni Hərbi Hissələrdə xidmət etmiş müharibə veteranları bölməsi, Gəncə şəhər Veteranlar Şurası və bir sıra təşkilatlarımız böyük təşəbbüs göstərərək kitablar, broşürlər, vərəqələr hazırlayıb nəşr etdirmişlər, muzeylər təşkil etmişlər.

Son 4 ildə 7 şəhər və rayon veteranlar şuralarının hesabatları Respublika Veteranlar Şurasında dinlənilmişdir. Yoxlamalar göstərmişdir ki, Abşeron, İsmayıllı, Dəvəçi və bir sıra digər rayonlarda bu sahədə diqqət zəifdir, abidələrdə və onların ətraflarında vaxtında bərpa işləri aparılmır. Bilmək lazımdır ki, hər bir abidə kompleksi ya təşkilata, ya da şəxsə təhkim olunmalıdır. Rayon üzrə baxış keçirilməli, yekunu Şurada müzakirə edilməlidir.

Həlak olan və vəfat edən igid döyüşçülərimizin xatirəsinin əbədiləşdirilməsi sahəsində Respublika "Xatirə kitabı"nın böyük rolu vardır. Hələlik kitabın üç cildli latın dilinə tərcümə edilmiş, 4-cü cild çapa verilmişdir. Kitabın Redalsiya Heyəti, başda baş redaktoru Nahid Hacıyev olmaqla bu sahədə diqqətəlayiq iş aparır. Kitabın hər üç cildi şəhər və rayon veteranlar şuraları sədrlərinə lazımi tədbirlər keçirmək və daimi saxlamaq üçün verilmişdir.

Hesabat dövrü ərzində Respublika Veteranlar Şurasının yaradılmasınını 15 illiyi qeyd edilmişdir. Respublikada ilk dəfə olaraq Respublika Veternalar Şurasının fəaliyyəti əks etdirən "Veteranlar Vətənimizin Qızıl Fondudur" kitabı nəşr edilərək veteran şuralarına çatdırılmışdır. Bundan başqa Şuranın 15 illiynə həsr olunmuş "Mötəbər insanlarımız" adlı telefilm çıkilib dəfələrlə efirdə göstərilmişdir. Bu iki sənəd də veteranlarımızın xatirəsini əbədiləşdirmək sahəsində görülən tədbirlərdir.

Respublikamızın rəhbərliyinin tapşırığına əsasən şəhidlər xiyabanında ucaldılmış "Şəhid" memorial kompleksi Vətənimizin azadlığı və müstəqilliyi uğrunda həlak olanlara böyük xatirə və ehtiramla yad edilən və ediləcək bir əbədi yaddaş olmaqdadır.

Veteranların və pensiyaşıların kurort-sanatoriya müalicəsi də yaxşılaşdırılmışdır. Mərdəkandakı veteranlar xəstəxanasında hər il mindən çox veteran müalicə olunur və baş həkim Vaqif Xanbudayevdən razılıq edirlər.

Veteranların sosial problemləri ilə məşğul olmaq şəhər və rayon veteranlar şuralarının da üzərinə ciddi məsuliyyət qoyur.

Hesabat dövründə aparat işçilərinin iş şəraitinin yaxşılaşdırılmasında əsaslı işlər aparılmışdır. Bina əsaslı təmir edilmiş, maliyyə ehtiyacları aradan qaldırılmış, yazı işləri, iş otaqları lazım olan bütün ləvazimatla təmin edilmişdir.

Plenum qərarı ilə bölmə yaradılmış ki, o da 2-ci Dünya müharibəsində Azərbaycanda yaradılmış diviziyaların veteranları iləməqsədyönüllüişaparılmasınaşəraityaratmışdır. Veteran xəstəxanasının 1-ci müalicə korpusu, yeməkxana əsaslı təmir edilmiş, həyətyani sahədə ciddi abadlıq işləri görülmüşdür. Veteranların ərizə və şikayətlərinə baxılması məsələsi də daimi Respublika Veteranlar Şurasının diqqətində olmuşdur. 2001-2004-cü illər ərzində Respublika Veteranlar





Şurasına 734 ərizə daxil olmuşdur. 917 nəfər veteran qəbul olunmuşdur. Daxil olmuş müraciətlərin əksəriyyəti tibbi yardım, maddi yardım və pulsuz verilən "Oka" maşını almaq ilə əlaqədardır.

Tam məsuliyyətlə bildirirəm ki, bütün ərizə və şikayətlərə diqqətlə, vaxtında baxılmışdır və lazım olan tədbir görülmüıdür.

Respublika Veteranlar Şurasında veteranların qəbulu, onların ərizə və şikayətlərinə baxılması Şuranın əməkdaşları tərəfindən, qəbul cədvəli əsasında təşkil edilir və qəbul kitabında yazılır. Həftə ərzində Şurada hər gün veteranların qəbulu aparılır. Şuraya daxil olmuş məktublara vaxtında cavab verilir. Hesabat dövründə veteranlar 60 (altmış) milyon manat miqdarında, 600 nəfər müharibə əlillərinə, maddi yardım verilmişdir. Əmin olduğumuzu bildiririk ki, gələcəkdə də bu işlərə diqqətlə baxılacaq və bu sahədə rayon, şəhər veteranlar şuraları daha diqqətli olacaqlar.

Veteranlar Şurasının qarşısında duran məsələləri vaxtında və lazımi səviyyədə həll etmək üçün veteran fəallarının köməyindən lazımınca istifadə etmək lazımdır. Bu işə fəal veteranları cəlb etmək vacibdir.

Bildirmək istəyirəm ki, Şuranın Nizamnaməsinə əsasən Respublika Veteranlar Şurasının 106 nəfər Plenum üzvü, 29 nəfər Rəyasət Heyəti üzvü və 15 nəfər büro üzvü seçilmişdir. Onların əksəriyyəti Respublika qarşısında görkəmli xidmətləri olan veteranlardır. Onların arasında 1 nəfər Sovet İttifaqı Qəhrəmanı, 2 nəfər Sosialist Əməyi Qəhrəmanı, 4 nəfər general, 1 nəfər akademik və 8 nəfər elmləri doktoru və elmlər namizədi vardır.

Rəyasət Heyətinin üzvlərindən akademik İsmayıl İbrahimov, Sovet İttifaqı Qəhrəmanı Məlik Məhərrəmov, generallardan Mustafa Nəsirov Şuranın təşkil etdiyi tədbirlərdə, iclaslarda fəal iştirak edirlər, işdə olan nöqsanlara qarşı ciddi

və barışmaz olmaqla yanaşı, həm də yaxşı təkliflərlə Şuranin fəaliyyətinə kömək edirlər.

Respublika Veteranlar Şurasının Nizamnaməsinə əsasən ildə 2 dəfə Plenum iclası, hər rübdə bir dəfə Rəyasət Heyətinin iclası keçirilmişdir. Şuranın büro iclaslarında isə cari məsələlər, yeri gəldikdə lazımi tədbirlərə hazırlıq işləri müzakirə edilmişdir. Keçirilən bütün iclasların qərarlarının yerinə yetirilməsinə xüsusi yer verilmişdir.

Plenumun, Rəyasət Heyətinin, eləcə də büro iclaslarında qəbul olunmuş qərarlar, təkliflər mütamadi olaraq nəzarətdə saxlanılır və qeyd olunmuş hər bir təklifin, qərarın yerinə yetirilməsinə çalışılmışdır.

Plenumlarda 24 məsələ, Rəyasət Heyətinin iclaslarında 84 məsələ müzakirə olunmuşdur. Respublikanın şəhər və rayon, ilk veteranlar təşkilatlarında hesabat-seçki yığıncaqları rayon veteran şuralarında konfranslar müvəffəqiyyətlə başa çatmışdır. Qeyd etmək lazımdır ki, hesabat-seçki yığıncaqları və konfranslara hazırlıq dövründə veteranlar ictimai-siyasi fəallığı xeyli yüksəlmiş, Şura rəhbərliyinə yaşlı nəslin ən layiqli nümayəndələri seçilmişdir. Biz inanırıq ki, gələcəkdə veteranlar şuraları daha fəal olacaq, qarşıda duran vəzifələrin öhdəsindən bacarıqla gələcəklər.

Hörmətli Qurultay nümayəndələri!

Veteran şuralarının qarşılarında duran ən vacib problemlərdən biri də müharibə veteranlarına, əlillərinin, həlak olmuş, sonradan vəfat etmiş hərbi qulluqçuların dul arvadlarının, arxa cəbhə zəhmətkeşlərin, onlara qanunla bərabər tutulan digər şəxslərin sosial müdafiələrinin təmin edilməsi məsələləridir. Respublika Veteranlar Şurası veteranların sosial müdafiəsini gücləndirilməsi məsələləri daima diqqət mərkəzində saxlamışdır. Sonrakı illər hər il Respublika Veteranlar Şurasının Plenumunda bu məsələ bu və ya digər aspektdə başlıca məsələ kimi müzakirə olunmuş və





görüləsi işin canlandırılması üçün qərarlar qəbul edilmişdir. Bu məsələ barədə qəbul edilmiş qərarların gedişatı daima Respublika Veteranlar Şurasının gündəlik diqqət mərkəzində olmuş, büro və Plenum iclaslarında araşdırılmışdır.

Respublika şəhər, rayon şuraları müəssisə, idarə, təşkilatlarının bu dövrdə gördüyü işlərdən biri də veteranlar, onalrın aztəminatlı təbəqələrinə yardım etmələri olmuşdur. Keçən dövr ərzində on minlərlə veterana müxalif mənbələrdən maddiyardımedilmişdir. Təkcə Respublika Veteranlar Şurasının özü tərəfindən bu məqsəd üçün 86.111,2 min. manat vəsait xərclənmişdir. Bu barədə bəzi rayon şuralarının təşkil etdikləri yardım fondlarının rolu xüsusi ilə diqqətəlayiq olmuşdur. Bu sahədə rayon, şəhər şuralarının işini yüngülləşdirmək, hüquqi çərçivəyə salmaq üçün Respublika Veteranlar Şurası, Azərbaycan Respublikası Ədliyyə Nazirliyi ilə birlikdə rayon, şəhər veteran şuralarının Respublika Veteranlar Şurasının bölməsi kimi qəbul edilməsi barədə əsasnamə hazırlanmış və yerlərə göndərilmişdir. Bu qayda həmin şuralara imkan verir ki, onlar özləri yerli banklarda hesab açsınlar və ianələr qəbul edə bilsinlər.

Sizə məlumdur ki, "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanunu artıq 10 ildən çıxdur ki qüvvədədir. Bu dövrdə eyni zamanda veteranların sosial problemləri ilə əlaqədar bir sıra beynəlxalq Sazişlər imzalanmış və bizim respublikamızın parlamenti tərəfindən ratifikasiya edilmişdir. Bununla da veteranların sosial müdafiəsini hüquqi bazası daha da güclənmişdir. Lakin bu normativ aktların icrası prosesində bu aktlar arasında uyğunsuzluq olduğu müəyyən edilmişdir. Hesabat dövründə qarşıda duran vacib məsələ ondan ibarət olmuşdur ki, bu normativ aktlar arasında olan uyğunsuzluqlar, xüsusən beynəlxalq sazişlərlə Azərbaycan Respublikası qanunvericiliyi arasında olan uyğunsuzluqlar Azərbaycan Respublikası Konstitusiyasının 151-ci maddəsinə əsasən

aradan qaldırılsın – Azərbaycan Respublikası Qanunvericiliyi beynəlxalq sazişlərə uyğunlaşdırılsın. Respublika Veteranlar Şurası bu məsələ ilə hesabat dövründə ətraflı məşğul olmuş, Azərbaycan Respublikası Milli Məclisinin Sosial problemlər Daimi Komissiyasının "Veteranlar haqqında" Qanuna əlavə və dəyışıkliklər edilməsi haqqında Qanun layihəsinin Respublika Veteranlar Şurasına gəndərilməsi xahiş edilmişdir. Tanış olarkən layihənin veteranların statusu, sosial problemlərinə aid təkliflərinin qeyri-qənaətbəxş olduğu aşkar edilmiş, layihənin mövcud beynəlxalq sazişlərə uyğun yeni mətnini hazırlanıb Milli Məclidin aidiyyatı komissiyasına təqdim edilmişdir.

15 noyabr 2001-ci ildə Azərbaycan Respublikasının bir sıra qanunvericilik aktlarında, o cümlədən "Veteranlar haqqında" Qanunlara dəyişiklik edilməsi haqqında Milli Məclis tərəfindən Qanun qəbul edilmişdir. Bu dəyişikliklərə veteranların bütün kateqoriyalarına mövcud qanunvericiliklə güzəşt və təminatlarının bəzilərinin ödənişi natura əvəzinə pul ilə müavinat verilməsi nəzərdə tutulmuşdur. Bu Qanun əsasında Azərbaycan Respublikası Prezidenti 26 dekabr 2001-ci ildə fərman imzalamışdır. Keçən Plenumlarda qeyd edilmişdir ki, bu qanun və fərmanla Azərbaycan Respublikası qanunvericiliyi ilə respublikanın qoşulmuş olduğu beynəlxalq sazişlər arasında ziddiyat daha da genişlənmişdir. Respublika Veteranlar Şurası hesabat dövründə bu problemlərin həlli ilə, yəni yerli qanunvericiliklə, beynəlxalq sazişləri arasında olan uyğunsuzluğun veteranların xeyrinə aradan qaldırılması sahəsində ciddi iş aparmışdır.

Əvvələn, bizim bu məsələyə prinsipial yanaşmağımıza görə məsələ Respublika televiziyasında müzakirə olunarkən çıxışımızda öz əksini tapmışdır, daha sonra bəzi güzəştlərin müavinətlərlə əvəz edilməsinə münasibət barədə veteran fəallarının böyük hissəsinin imzası iləAzərbaycan Respublikası Prezidentinə müraciət göndərilmişdir. Üçüncüsü Respublika





Veteranlar Şurasının təkidi əsasında müavinət verilməsi 26 dekabr 2001-ci il tarixli Fərmanda nəzərdə tutulmayan bir qrup veteranlara da müavinət verilməsi haqqında 28 dekabr 2002-ci il tarixdə fərman verilməsinə nail olunmuşdur. Dördüncüsü, qanun və sazişlərlə veteranlara verilmiş güzəşt və imtiyazlar hüquqlarının qüvvədə olduğu barədə rayon, şəhər veteran şuralarına arayış göndərilmişdir. Veteranların sosial müdafiəsi sahəsində onların hüquqları tam bərpa edilmişdir. Belə ki, güzəştlərin müavinətlərlə əvəz edilməsi haqqında Qanuna Azərbaycan Respublikasının qoşulmuş olduğu 15 aprel 1994-cü il, 9 dekabr 1994-cü il, 12 mart 1993-cü il tarixli sazişlər arasında ziddiyətlərin aradan qaldırılmasının zəruriliyi barədə Respublika Veteranlar Şurası Milli Məclisin Sosial problemlər Daimi Komissiyasına əsaslandırılmış müraciət etmişdir. Bizim məktubumuzu rəy üçün Komissiya Nazirlər Kabinetinə, Əmək və Əhalinin Sosial Müdafiəsi, Ədliyyə və Maliyyə nazirliklərinə göndərmiş, bunlardan Əmək və Əhalinin Sosial Müdafiəsi və Ədliyyə nazirlikləri bizim qoyduğumuz məsələnin düzgün olduğu barədə Nazirlər Kabinetinə cavab vermişlər. Maliyyə Nazirliyi isə veteranların sosial müdafiəsinə yönəldilmiş təklifimizə əsasən mənfi cavab vermişdir. Lakin buna baxmayaraq, buraxılmış səhvlərdən bəzilərini düzəltmək üçün 28 dekabr 2002-ci il tarixdə fərman imzalanmışdır.

Respublika Veteranlar Şurası bununla kifayətlənmədi. Bu sahədə əlaqələrin tam bərpa olunması və qanunda dəyişiklik edilməsi məqsədi ilə Respublika Veteranlar Şurası, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının hüquq qanunvericiliyi və ekspertizası şöbəsinin müdiri cənab Ş.Əliyevin ünvanına məktub göndərərək ondan nəqliyyatdan istifadədə güzəştlərdən tam istifadə edilməsi, veteranların dərman və sairə müalicə vasitələri ilə pulsuz təmin edilməsi və kommunal, telefondan istifadə sahəsində güzəştlərin tam təmin edilməsi üçün qanunvericilikdə dəyişiklik edilməsi barədə Milli

Məclis qarşısında vəsadət qaldırmaq xahiş edilmişdir. Guman edirik ki, hörmətli Şahin müəllim məsələnin qanuni həllində bizə kömək edəcəkdir. Məsələnin belə qoyuluşu, sazişlərin düzgün, dolğun, tam icra edilməsi MDV dövlətləri başçılarının 1 iyun 2001-ci il tarixli qərarından irəli gəlir. Həmin qərarla dövlət başçıları hökümət başçılarından tələb etmişlər ki, 15 aprel 1994-cü il tarixli Sazişin 2 saylı əlavəsində veteranların bütün kateqoriyaları üçün nəzəzrdə tutulan güzəştlərin tam icra edilməsini təmin etsinlər.

Hörmətli Qurultay nümayəndələri!

Sizə məlumdur ki, 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 60 illiyi yaxınlaşır. Bu tarixi günün yüksək səviyyəsə keçirilməsinə hazırlıqla əlaqədar olaraq, MDB dövlətləri başçıları 7 oktyabr 2002-ci il tarixdə qərar qəbul etmişlər. Həmin qərarla hökümət başçılarına tapşırılsın ki, 60 illiyi təntənəli qeyd edilməsi və Qələbəni təmin etmiş müharibə iştirakçıları, əlilləri, həlak olanların dul qadınları, arxa cəbhə zəhmətkeşlərinin sosial müdafiəsinin daha da yüksəldilməsi tədbirlərini əks etdirən Milli Proqramı qəbul etsinlər və həmin proqramı 2003-cü ilin may ayınadək MDB dövlətləri qərargahına təqdim etsinlər.

Sizə məlumdur ki, bu proqramın hazırlanmasını biz üzərimizə götürdük, 2002-ci ilin dekabr ayında onun məzmunu barədə Sizə məlumat verdik, Siz də yekdilliklə təsdiq edəndən sonra həmin ayın 9-da Respublika Nazirlər Kabinetinə, Prezident Aparatına təqdim etdik. Proqramın layihəsinin sonrakı müqəddəratı haqqında keçən ilin noyabr ayındakı Plenumda Sizə ətraflı məlumat verilmişdir. Qısa olaraq qeyd edilir ki, Respublika Veteranlar Şurasının qətiyyətli, ardıcıl təkidinəticəsində Proqramınlayihəsinərəyalmaqüçün Nazirlər Kabineti onu bir daha aidiyyatı nazirliklərə göndərmişdir. Bu nazirliklərdən, Maliyyə Nazirliyindən uzun süründürmələrdən sonra layihənin bir sıra maddələrin çıxarılması təklifi ilə cavab daxil olmuşdur.

Biz Maliyyə Nazirliyinin təklifləri ilə tanış olarkən müəyyən oldu ki, layihədə veteranların aidiyyatı kateqoriyalarının sosial müdafiəsinin daha da yüksəldilməsinə həsr edilmiş maddələrinin çıxarılması təklif edilir. Bu təkliflə Respublika Veteranlar Şurası qəti razı ola bilməzdi. Biz Maliyyə Nazirliyinin həmin təkliflərinin əsassız olduğunu, respublikanın qoşulduğu Sazişlərə zidd olduğunu hüquqi cəhətdən əsaslandırıb, onun qəbul edilməsində və həmin maddələrin layihədə saxlanılması barədə məktubla Nazirlər Kabinetinə cavab verdik. Maliyyə Nazirliyinin təkliflrilə bizim cavabımız Nazirlər Kabineti tərəfindən rəy almaq üçün Əmək və Əhalinin Sosial Müdafisi, Ədliyyə və Maliyyə nazirliklərinə göndərilmişdir.

Nəhayət nazirliklər bizim fikrimizin düzgün olduğunu etiraf etmiş, layihə lazımı proseduradan keçib, Respublika Prezidentinə təsdiqə göndərilmişdir.

1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 60 illiyinin hazırlanıb keçirilməsi ilə əlaqədar Proqram hörmətli Prezidentimiz İlham Əliyevin 303 saylı sərəncamı ilə 6 iyul 2004-cü il tarixdə qüvvəyə minmişdir.

İndi artıq biz hər iki Proqram, həm MDV dövlətlərinin ümumi proqramı və Respublika Milli Proqram əsasında 60 illiyə hazırlıq işlərinin aparırıq. Yuxarıda qeyd etdiyimiz kimi, dövlət tərəfindən veteranlara verilmiş güzəşt və imtiyazların yalnız bir hissəsi, yəni cəmi 12 adlı güzəştlərin müavinət qaydası ilə ödənilməsi qanunlaşdırılıb. Qalan güzəşt və imtiyazlar əvvəlki kimi qüvvədədirlər. Bu barədə Sizə vaxtında ətraflı məlum edilmişdir. Onlar “Veteranlara Dövlət Qayğısı” kitabında göstərilən Azərbaycan Respublikası Respublika qanunvericiliyində və beynəlxalq Sazişlərdə əksini tapmışdır. Veteranlar Şuraları bu güzəşt və imtiyazlardan veteranların

istifadə hüquqlarının təmin edilməsi sahəsində öz işlərini canlandırmalıdırlar.

Hər iki proqramda 60 illiyə həsr edilmiş, həll edilməsinə nail olunası çox ciddi məsələlər əksini tapmışdır. Onların ardıcıl həyata keçirilməsi gələcəkdə bizim qarşımızda duran əsas məsələlərdir.

Bununla yanaşı, Respublika Veteranlar Şurası veteranların sosial problemləri ilə məşğul olmalıdır. Xəstə və tənha veteranlarımız daima veteran təşkilatlarının diqqət mərkəzində olmalıdırlar. Respublika Veteranlar Şurası hesabat dövründə beynəlxalq veteran təşkilatları ilə əlaqə yaratmaq üçün bütün mümkün tədbirləri həyata keçirmişdir. Bu işin əsas məqsədi digər veteran təşkilatlarının imkanlarından istifadə edərək müstəqil Azərbaycana qarşı elan edilməmiş müharibəyə başlayan və ölkəmizin ərazisinin 20%-ni işğal edən təcavüzkar Ermənistanın işğalçı siyasətini ifşa etmək olmuşdur. Başqa məqsəd veteranların sosial-iqtisadi problemlərinin həllində millətlərarası dostluğun möhkəmləndirilməsində, nümayəndə heyətlərinin qarşılıqlı fikir mübadiləsində və nəhayət veteran hərəkatında qarşıda duran digər problemlərin həllində olan təcrübəni öyrənib, onlardan istifadə etmək olmuşdur.

Qeyd etmək lazımdır ki, hesabat dövründə Respublika Veteranlar Şurasının nümayəndələri Müstəqil Dövlətlər Birliyi veteranları Əlaqələndirmə Şurasının və Dünya müharibə Veteranlar Birliyinin işlərində fəal iştirak edərək onların iş təcrübəsindən geniş istifadə etmişlər. Hesabat dövründə Rusiya Federasiyası, Gürcüstan və xüsusən Dağıstan Muxtar Respublikası, Ukrayna, Avstriya veteran təşkilatları ilə sıx əməkdaşlığımız olub.Hal-hazırda Şuranın sədri B.Rüstəmov Əlaqələndirmə Şurasının üzvüdür. Məlik Məhərrəmov, Ç.Həsənov, Ə.Baxışov, İ.İbrahimov Əlaqələndirmə Şurasının işində fəal iştirak ediblər və bu Şuranın, eləcə də Dünya Veteranlar Asambleyasının tribunalarından tez-





tez çıxışlar edərək, “Dənizdən-dənizə” Ermənistan yaratmaq arzusunda olan erməni ideologiyasının təcavüzkar niyyətlərini ifşa edirlər. Respublika Veteranlar Şurasının fəalları Nuriyev, Qasımov, Ələkbərov, M.Məhərrəmov, Z.Rzayev, M.Nəsirov və başqaları beynəlxalq veteranlar təşkilatları ilə əlaqə işində yaxından köməklik ediblər.

Qeyd etmək olar ki Azərbaycan Veteranlar Şurası xarici veteran təşkilatları ilə əlaqələrindən bacarıqla istifadə edərək bütün səviyyələrdə regionda millətlərarası münaqişələrin aradan qaldırılması məqsədilə beynəlxalq təşkilatların tribunalarından düzgün istifadə edir, dünya ictimaiyyətinə ölkəmiz haqqında düzgün məlumatın çatdırılmasında, millətlər arasında dostluğun möhkəmləndirilməsində sülhün və beynəlxalq münasibətlərdə sabitliyin təmin olunması işində geniş fəaliyyət göstərirlər.

Bu sahədə biz öz işimizi daha da təkmilləşdirməli və genişləndirməliyik. Xüsusilə terrorçuluğa və narkomaniyaya qarşı tədbirlərdə beynəlxalq əlaqələrimiz genişlənməlidir.

2005-ci il may ayının 9-da Müstəqil Dövlətlər Birliyi ölkələri, bütün antihitler koalisiyasına qoşulmuş ölkələr 1941-1945-ci illər müharibəsində faşizm üzərində Qələbənin 60 illiyini bayram edəcəklər.

Bu münasibətlə Respublika Veteranlar Şurasının bürosu 2002-ci ilin sentyabr ayında tədbirlər planını təsdiq edərək fəaliyyətə başlamışdır. MDB ölkələri Dövlət başçıları 7 oktyabr 2002-ci ildə 1941-1945-ci illər Böyük Vətən müharibəsində faşizm üzərində Qələbənin 60 illiyinin 2005-ci ildə təntənəli bayram edilməsi haqqında qərar qəbul etmişlər. Həmin qərarda 60 illiyin təntənəli qeyd edilməsi və Qələbəni təmin edən müharibə iştirakçılarının, arxa cəbhə əməkçilərinin sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə hər bir MDB ölkəsi üzrə Milli Proqramın 2003-cü ilin birinci yarısında qəbul edilməsi tövsiyə edilmişdir.

Dövlət başçılarının bu qərarını yerinə yetirmək məqsədilə qərara gəlmişlər ki, BVM iştirakçıları, arxa cəbhədə fəaliyyət göstərən veteranlar “1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 60 illiyi” xatirə yubileyi medalı ilə təltif olunsunlar. Bu barədə Respublika Veteranlar Şurasının məktubu bütün şəhər və rayon veteranlar şuralarına göndərilmişdir. Elə etmək lazımdır ki, təltif üçün adlı siyahılar dəqiqləşdirilib icra başçılarının, hərbi komissarlıqların, şəhər və rayon veteran şuraları sədrlərinin imzası ilə Respublika Veteranlar Şurasına çatdırılsın. Nəzərinizə çatdırıram ki, medallar üşün vəsaitin ayrılması təmin edilmişdir.

Qələbə bayramına haqırlıq və onun mütəşəkkil keçirilməsi qarşımızda duran böyük təşkilatı və siyasi məsələlərdən biridir. Hər bir veteran təşkilatı üzrə hazırlanmış tədbirlər planının həyata keçirilməsi işi hamımızın diqqət mərkəzində olmalıdır. Hesabat məruzəsində göstərilən yaxşı işlərimiz ilə bərabər həllini gözlədiyimiz məsələlər də vardır. Respublika Veteranlar Şurasının yeni tərkibi veteran həyatının bütün sahələrinə nüfuz etməli, hərbi vətənpərvərlik tərbiyəsi, veteranların sosial müdafiəsi sahəsində diqqəti daha da artırmalıdır.

Qurultayın Rəyasət Heyəti adından və öz adımdan dəyərli əməklərilə qarşıda duran vəzifələrin həllində Respublika Veteranlar Şurasına yaxından köməklik edən Qurultay iştirakçılarına minnətdarlığımı bildirirəm.

İcazə verin bir daha bəyan edim ki, biz veteranlar Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunun davamçısı İlham Əliyevin ətrafında sıx birləşərək respublikamızda gedən siyasi və quruculuq işlərində daha fəal iştirak edəcəyik.

Sağ olun! Diqqətinizə görə minnətdarlığımı bildirirəm.

Resapublika Veternalar Şurasının sədri B.Rüstəmov”.





## Respublika Veteranlar Şurasının IV Qurultayı

Resapublika Veternalar Şurasının IV Qurultayı 23 dekabr 2008-ci il tarixdə keçirilmişdir. IV Qurultayı Şuranın sədrəvəzi Əlövsət Baxışov açmış, onun müavini Çingiz Həsənov isə sədrlik etmişdir.

Qurultaya ölkənin şəhər və rayon təşkilatlarından, o cümlədən Naxçıvan MR-dən 220 nəfər nümayəndə seçilmiş, onlardan 203 nəfəri Qurultayın işində iştirak etmişdir.

Qurultay Azərbaycan Respublikasının Dövlət Himninin sədaları altında öz işinə başlamış, rəhbər orqanlarını və işçi heyətini müəyyən etmişdir. Qurultayın Rəyasət Heyətində Respublika Veteranlar Şurasının büro üzvləri, Azərbaycan Respublikası Milli Məclisinin deputatı Hadi Rəcəbli, Azərbaycan Respublikası Prezidentinin İcra Aparatının ictimai-siyasi şöbəsinin müdir müavini Ərəstun Mehdiyev və digər qonaqlar dəvət olunmuşlar.

Respublika Veteranlar Təşkilatının III Qurultayından sonra dünyasını dəyişmiş veteranların xatirəsi bir dəqiqəlik sükütla yad edilmişdir.

Qurultayın 5 nəfərdən ibarət Mandat Komissiyası, 3 nəfərdən ibarət katibliyi seçilmişdir.

Qurultayın aşağıdakı Gündəliyi təsdiq edilmişdir. 1.Respublika Veteranlar Şurasının III Qurultayından sonra noyabr 2004-cü ildən 2008-ci ilin dekabrınadək görülən işlər

barədə hesabatı. Məruzəçi: RVŞ-nın sədrəvəzi Ə.Baxışov.

2.Respublika Veteranlar Şurasının Nəzarət-təftiş komissiyasının hesabatı. Məruzəçi: RVŞ-nın Nəzarət Təftiş Komissiyasının sədri Q.Sarıyev.

3.Qurultayın qətnaməsinin qəbul edilməsi. 4.Respublika Veteranlar Şurasının rəhbər orqanlarının

seçilməsi.

5.Əlaqələndirmə Şurasının Konfransına nümayəndələrin seçilməsi.

6.Respublika Veteranlar Təşkilatının IV Qurultayı tərəfindən Respublikanın Prezidenti cənab İlham Əliyevin ünvanına müraciətin qəbul edilməsi.

Reqlament müəyyən edildikdən sonra, Qurultayın ünvanına nazirliklərdən, baş İdarələrdən, Müstəqil Dövlətlər Birliyi Ölkələri Veteranlar təşkilatları Əlaqələndirmə Şurasından və ayrı-ayrı vətəndaşlardan daxil olmş təbriklər oxunur. Bakının Səbail rayonu 186 saylı orta məktəbin şagirdləri Qurultay iştirakçılarını gül-çiçəklə təbrik edirlər.

Şuranın sədrəvəzi Ə.Baxışov və Nəzarət-təftiş komissiyasının sədri Q.Sarıyev məruzə ilə çıxış edirlər. Qurultayın protokolundan məlum olur ki, məruzələr ətrafında çıxış üçün ilk söz Milli Məclisin deputatı Hadı Rəcəbliyə verimişdir. O, Qurultay iştirakçılarını salamlayaraq demişdir: “bu gün veteranlar ölkənin ictimai-siyasi həyatında yaxından iştirak edirlər. Bizim həmişə veteranların ağsaqqal məsləhətinə ehtiyacımız var. Milli Məclisin Daimi Komissiyalarının iclaslarında veteranlar həmişə iştirak edir və öz dəyərli məsələhətlri ilə ümumi işimizə lazımı köməklik edirlər. Mən əminəm ki, bizim veteranlarımız həmişə oldğu kimi bu gündən sonra da ölkəmizin ictimai-siyasi həyatında, yeniyetmə və gənclərimizin vətənpərvərlik tərbiyəsində əllərindən gələni əsirgəməyəcəklər. Bir daha Sizi Qurultay münasibətilə təbrik edir və Sizinlə V Qurultayda bir daha görüşməmizi arzulayıram”.





Qurultayda çıxış edən Naxçıvan MR VŞ-nın sədri Qara Fərzəliyev demişdir: “Naxçıvan MR Veteranlar Şurası adından Sizin hamınızı Azərbaycan Respublikası Veteranlar Şurasının bu gün öz işinə başlayan IV Qurultayı münasibəti ilə təbrik edirəm. Sizə və Qurultaya uğurlar arzulayıram.

RVŞ-nın iyun 2008-ci il Plenumunun qərarına uyğun olaraq Naxçıvan MR-nın, şəhər və rayon ilk veteran təşkilatlarında ehsabat-seçki yığıncaqları keçirilmişdir. Bildirim ki, Naxçıvan MR Veteranlar Şurasının konfransında görülən işlər geniş müzakirə olunmuşdur. Belə ki, hesabat dövründə Şurada 326 yazılı və şifahi şikayətlər qeydə alınmış, onlara Nəzarət-təftiş Komissiyasının üzvləri ilə bir yerdə baxılıb demək olar ki, hamısına qaneedici cavab verilmiş və lazımi köməklik göstərilmişdir.

Yüzlərlə müharibə iştirakçıları, əlilləri 1941-1945-ci illər arxa cəbhə veteranları Naxçıvan MR Səhiyyə Nazirliyinin, Naxçıvan MR Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin, Naxçıvan şəhər poliklinikasının yaxından köməkliyi ilə Mərdəkana, Şaqana və başqa müalicə ocaqlarına müalicəyə göndərilmişdir. Bu işlərin görülməsində, hesabat dövründə Azərbaycan Respublikası Veteranlar Şurasının daima bizə olan köməkliyini və diqqətini hiss etmişik. Mən Naxçıvan MR Veteranlar Şurası adından Azərbaycan Respublikasının Veteranlar Şurasının işinə kafi qiymət verilməsini Qurultay iştirakçılarından xahiş edirəm”.

Daha sonra Bakı şəhər Veteranlar Şurasının sədri Zilli Rzayev, Rza – Gəncə şəhər Veteranlar Şurasının sədri Hacıyev, Müdafiə Nazirliyinin idarə rəisinin müavini polkovnik Abdulla Qurbani, Yardımlı rayon Veteranlar Şurasının sədri Şahbaz Hüseynov çıxış etmişlər.

Söz Respublika Prezidentinin İcra Aparatının ictimai-siyasi məsələlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyevə

verilmişdir. Ə.Mehdiyev Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Qurultay iştirakçılarına təbrikini və salamını çatdıraraq demişdır: "Böyük Vətən müharibəsində faşizm üzərində Qələbədə bizim veteranların böyük əməyi olmuşdur. Həm ön cəbhədə – həm də arxa cəbhədə bizim veteranlarımız böyük sücaətlər göstərmişlər. Təsadüfi deyil ki, Ulu öndərimiz Heydər Əliyev ikinci dəfə xalqımızn təkidli tələbi ilə yenidən hakimiyyətə qayıdanda ilk növbədə müharib veteranlarının hüquqlarını özlərinə qaytardı, onları

«Azərbaycan xalqının qızıl fondu» adlandırdı, veteranlara daim diqqət və qayğı göstərdi.

Bu gün veteranlarımız dövlət quruculuğunda yaxından iştirak edirlər, gənc nəslin vətənpərvərlik tərbiyyəsində öz köməklərini əsirgəmirlər. Bu gün iqtisadiyyatımızın inkişafında, mədəni irsimizin, xalqlar arasında sülhün, dostluğun qorunub saxlanılmasında, şəhər və rayonlarımızın inkişafı proqramının reallaşmasında, ictimai-siyasi həyatımızın daha da yüksəlməsində Siz veteranların böyük əməyi olmuş və bu ənənə bu gün də davam edir. Mən Qurultay iştirakçılarını bir daha Qurultay münasibəti, qarşıdan gələn Dünya Azərbaycanlıların həmrəylik günü və yeni il bayramı münasibəti ilə ürəkdən təbrik edir, Sizlərə cansağlığı, gələcək fəaliyyətinizdə uğurlar arzulayıram".

Protokoldan aydın olur ki, Qurultay nümayəndələri Respublika Veteranlar Şurasının hesabat dövründə gördüyü işə qənaətbəxş qiymət vermişlər. Sonra Gəncə şəhər Veteranlar Şurasının sədri Rza Hacıyev Qurultayın Qətnaməsini oxumuş və Qətnamə müzakirə edilərək əlavələrlə birlikdə yekdilliklə qəbul olunmuşdur. Həmçinin RVŞ Nəzarət-təftiş Komissiyasının hesabatı yekdilliklə təsdiq edilmişdir. Qurultay Respublika Veteranlar Şurasının yeni rəhbər orqanlarını seçmişdir. RVŞ-n Plenum üzvləri 95 nəfər, Nəzarət- təftiş Komissiyasının üzvləri 13 nəfər olması qəbul edilmişdir.





Əlövsət Məmədşah oğlu Baxışov Respublika Veteranlar Şurasının sədri, Əlfayım Əziz oğlu İsmayılov məsul katibi, Çingiz Kərim oğlu Həsənov RVŞ-nın sədr müavini seçilmişdir.

RVŞ-nın yeni seçilmiş sədri Ə.Baxışov Qurultay nümayəndələrinə müraciət edərək demişdir:

"Hörmətli qonaqlar, Əziz Qurultay nümayəndələri. Bu gün bu mötəbər məclisdə məni Respublika Veteranlar Şurasının sədri seçməyinizə görə çox məmunam və Sizə dərin təşəkkürümü bildirirəm. Bildirirəm ki, bu iş çox çətin lakin olduqca şərəfli bir işdir. Ulu öndərimiz Heydər Əliyev demişdir: «Mənim həyat amalım yalnız bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olmuşdur».

Bundan işıqlı, bundan aydın siyasi ideya da ola bilməz. Biz veteranlar bu vəsiyyəti, bu tövsiyyəni, bu istəyi, amalı öz əməli işimizdə yaşadaq. Hər bir Azərbaycan vətəndaşının Prezidenti olmuş İlham Heydər oğlu Əliyevin siyasi kursunu, ölkə quruculuğundakı xeyirxah əməllərini dəstəkləyək, milli dəyərlərimizin, milli adət ənənələrimizin qorunub saxlanmasında, gənc nəslin vətənpərəvərlik tərbiyəsində əlimizdən gələni əsirgəmiyək. Biz bu gündən sonra da çalışmalıyıq ki, ölkədə veteran hərəkatını daha da inkişaf etdirək. Veteranlara qayğı, onların problemlərinin həlli bizim qarşımızda duran ən vacib məsələlərdən biri olmalıdır. Mən bir daha Sizə öz minnətdarlığımı bildirirəm və bütün Qurultay nümayəndələrini əmin edirəm ki, Sizin mənə göstərdiyiniz bu böyük etimadı doğruldacaq, öz işimi günün tələbi səviyyəsində quracağam".

Respublika Veteranlar Şurasının IV Qurultayı yekdilliklə və gürultulu alqışlarla Respublikanın Prezidenti cənab İlham Əliyevə Müraciəti bəyənmiş və qəbul etmişdir.

Bununla da Respublika Veteranlar Şurasının IV Qurultayı öz işini bitirmişdir.

## Respublika Veteranlar Şurasının V Qurultayı

RVŞ-nin 5-ci Qurultay 11 aprel 2013-cü ildə keçirilmişdir. Həmin ilin oktyabr ayında ölkədə növbəti prezident seçkilərinin keçirilməsi gözlənirdi. Belə məsuliyyətli bir ərəfədə veteranlar həm Təşkilatın ötən 5 ildəki fəaliyyətinə yekun vurmalı, həm də növbəti dövr üçün qarşıda duran mühüm vəzifələri müəyyənləşdirməli idilər.

Qurultay nümayəndələri bir ay sonra, may ayının 10-da Azərbaycan xalqı, dünya azərbaycanlılarının Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illikyubileyinin qeyd edilməsi ilə əlaqədar Qurultaydan bir gün əvvəl (10 aprel 2013-cü il) Fəxri Xiyabanda Ulu öndərin məzaranı ziyarət etmiş, öz hörmət və ehtiramlarını bildirmişlər.

Nümayəndələr həmçinin 2 dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun, Azərbaycanın İstiqlaliyyəti uğrunda şəhid olmuş qəhrəman türk əsgər və zabitlərinin, Azərbaycanın şəhid övladlarının məzarlarını da ziyarət etmişlər.

Azərbaycan Respublikasının dövlət Himninin səslənməsi ilə öz işinə başlayan V Qurultaya Respublika Veteranlar Şurasının sədri Əlövsət Baxışov sədrlik etmişdir. Qurultaya Respublika şəhər və rayon təşkilatlarından 280 nəfər nümayəndə seçilmiş, onlardan 261 nəfər nümayəndə Qurultayda iştirak etmişdir. Qurultayın Rəyasət Heyətində RVŞ-nin sədri Əlövsət Baxışov, sədrin 1- ci müavini Surxay Tağızadə, Prezident Aparatı İctimai-siyasi şöbəsi müdirinin müavini Ərəstun Mehdiyev, Sosialist Əməyi Qəhrəmanı İsmayıl İbrahimov, general-mayor Bahadur Hüseynov, general-





mayor Dadaş Rzayev, Nax.MR. VŞ sədri Qara Fərzəliyev və başqaları təmsil olunmuşlar.

Qurultay nümayəndələri Azərbaycan istiqlalı uğrunda şəhid olmuş insanların, eləcə də hesabat dövründə dünyasını dəyişmiş veteranların, Respublika Veteran hərəkatının inkişafında xüsusi xidmətləri olmuş, RVT-nin birinci sədri, general-mayor Mustafa Nəsirovun, RVT-nin sədr müavini, tanınmış ziyalı Çingiz Həsənovun və başqalarının xatirələri bir dəqiqəlik sükutla yad etmişlər.

Qurultayın gündəliyinə aşağıdakı məsələlər daxil edilmişdir:

1.Azərbaycan Respublikası Veteranlar Şurasının Qurultaya hesabat məruzəsi. Məruzəçi - sədrin birinci müavini S.Tağızadə.

2.Respublika Veteranlar Şurasının Nəzarət Təftiş Komissiyasının Qurultaya hesabat məruzəsi. Məruzəçi- NTK sədri Q.Sarıyev.

3.Respublika VeteranlarŞurasının Nizamnaməsinin qədul edilməsi. Məruzəçi- RVŞ sədrinin müavini K. Əliyev.

4.Respublika Veteranlar Təşkilatının Nəzarət Təftiş Komissiyasının Əsasnaməsinin təsdiq edilməsi.

5.Respublika Veteranlar Şurasının V Qurultayının Qətnaməsinin qəbul edilməsi.

6.Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevə Müraciətin qəbul edilməsi.

7.Veteranlar Təşkilatı Şurasının seçilməsi. 8.Nəzarət Təftiş Komissiyasının seçilməsi.

Reqlament müəyyənləşdirildikdən sonra Mandat Komissiyasının Adil Babaşov, Telman Babayev, Cabir Kazımovdan ibarət olmaqla yeni tərkibini və Qurultayın Katibliyi seçmişdir.

Bundan sonar Respublika Veteranlar Şurası sədrinin birinci müavini Surxay Tağızadə və Nəzarət Təftiş

Komissiyasının sədri Qara Sarıyev hesabat məruzələri ilə çıxış etmişlər.

Məruzələr ətrafında müzakirələrdə Naxçıvan MR VŞ sədri Qara Fərzəliyev, Respublika Veteranlar Şurasının Hərbi vətənpərvərlik tərbiyəsi və mənəvi tərbiyə işləri üzrə Daimi Komissiya sədri polkovnik Cəlil Xəlilov, Respublika Milli Elmlər Akademiyasının akademiki, Respublika Veteranlar Şurası Rəyasət Heyətinin üzvü İsmayıl İbrahimov Respublika Veteranlar Şurası Rəyasət Heyətininüzvüyazıçı-jurnalislt Musa Bağırov, RVŞ-nin bölmə rəisi polkovnik Rasim Muxtarov, Sumqayıt şəhər Veteranlar Şurasının sədri Leyla Qasımzadə, Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının sədri Ramiz Axundov, Bakı şəhər Veteranlar Şurasının sədri polkovnik Azad Əsədov, Siyəzən rayon Veteranlar Şurasının sədri Qələmşah Babayev, Mingəçevir şəhər Veteranlar Şurasının sədri Ələm Məmmədov, Qax rayon Veteranlar Şurasının sədri Qədir Hafizov, Ağdam rayon Veteranlar Şurasının sədri Hümbət Sadıqov, Nəsimi rayon Veteranlar Şurasının sədri Sübhi Qazıyev, Sabirabad rayon Veteranlar Şurasının sədri Zülfəli Əliyev çıxış etmişlər.

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İctimai - siyasi işlər şöbəsinin müdir müavini Ərəstun Mehdiyev Qurultay nümayəndələrini təbrik edərək respublikada gedən iqtisadi irəliləyişdən, Prezidentin veteranlara göstərdiyi qayğıdan, Uluöndər Heydər Əliyevin 90 illikvəfaşizmüzərində Qələbənin 70 illik yubiley tədbirlərinə, həmçinin Prezident seçkilərinə hazırlıqdan, 9 may günü veteranların Prezidentlə görüşündən, onlara edilən yardımlardan, hazırlıqdan, Qarabağ probleminin həlli ilə bağlı aparılan işlərdən, MDB ölkələri veteranları ilə görüşlərdən, respublikada keçirilən beynəlxalq miqyaslı tədbirlərdən danışdı. Natiq veteranlara gələcək işlərində bir daha müvəffəqiyyətlər arzulayaraq: "Siz çətin yol keçmiş veteranlar həmişə diqqət mərkəzində olmusunuz,





gənclərin vətənpərvərlik ruhunda tərbiyə olunmasında sizin böyük rolunuz var. Dövlət həmişə Sizlərə qayğı göstərib, bu gündən sonra da göstərəcəkdir. Bu siyasət Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də Prezidentimiz İlham Əliyev bu siyasəti davam etdirilir", demişdir.

Qurultay daha sonar Mandat Komissiyasının sədri Adil Babaşovun hesabatını təsdiq etmiş, Təşkilatın Nizamnaməsinə edilmiş əlavə və dəyişiklikləri və Nəzarət Təftiş Komissiyasının Əsasnaməsini qəbul etmişdir.

Qurultayın Qətnaməsi yekdilliklə bəyənilmiş və qəbul edilmişdir.

Sonda Qurultay nümayəndələri yekdilliklə Azərbaycan Respublikasının Prezidenti, Ali baş Komandan cənab İlham Əliyevə Müraciət qəbul etmişlər. Bununla da Respublika Veteranlar Şurasının V Qurultayı öz işini başa çatdırmışdır.

## Azərbaycan Respublikası Veteranlar Şurasının V Qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə

## Müraciəti

Möhtərəm Prezident, cənab Ali Baş Komandan!

Dövlətimizin qurucusu Uluöndər Heydər Əliyevin layiqli davamçısı kimi Sizin apardığınız ardıcıl və məqsədyönlü siyasət nəticəsində Azərbaycanın iqtisadiyyatı ildən-ilə güclənir, xalqın rifahı və sosial durumu yaxşılaşır, ölkənin hərbi qüdrəti yüksəlir. Biz fəxr edirik ki, Sizin rəhbərliyinizlə milli-mənəvi dəyərlərimizi qoruyub saxlamaq, onları daha da inkişaf etdirməklə bərabər, Avropa birliyinə inteqrasiya etmək yolunu seçmiş ölkəmiz dünyada daha çox tanınır. Beynəlxalq elmi, ictimai-siyasi tədbirlərin, festival, müsabiqə və idman yarışlarının mərkəzinə çevrilmiş Azərbaycan Respublikası İslam Konfransı Təşkilatının, eyni zamanda Avropa Şurasının üzvü olmaqla, Şərqlə-Qərb, müxtəlif dinlər və mədəniyyətlər arasında bir körpü rolunu oynayır.

Biz fəxr edirik ki, Siz obyektivliyi ilə fərqlənən görkəmli dövlət xadimi, xalqlar arasında dostluq və qardaşlığın böyük carçısı kimi, İkinci Dünya müharibəsi hadisələrinin təhrif eldilmiş şəkildə təqdim edilməsi, tarixin saxtalaşdırılması hallarına qarşı kəskin çıxış edib, müharibədə Vətənin azadlığı uğrunda vuruşan bütün xalqların xidmətini, Azərbaycanın və Bakının ümumi Qələbəyə töhfəsini yüksək qiymətləndirmişsiniz. Azərbaycanın müharibə və arxa cəbhə





veteranları, Vətənin azadlığı uğrunda həlak olmuş əsgər və zabitlərin ailələri bundan qürur və fərəh duyur, prinsipial mövqeyinizə görə Sizə öz təşəkkürlərini bildirirlər. Biz çox şadıq ki, Ulu öndər Heydər Əliyevin imzaladığı “Veteranlar haqqında” Azərbaycan Respublikasının Qanununda əksini tapmış müddəalara uyğun olaraq veteranlara göstərilən dövlət qayğısı Sizin tərəfinizdən geniş surətdə davam etdirilir. Bu Sizin müntəzəm olaraq imzaladığınız Qanunlar, Milli proqramlar və Sərəncamlarla müharibə veteranlarının mənzil-məişət şəraitinin yaxşılaşdırılmasında, pensiyadan əlavə onların hamısına hər ay prezident təqaüdü verilməsində, hər il 9 may gününün bayram edilməsi münasibətilə müharibə iştirakçılarının, həmçinin müharibədə həlak olmuş əsgər və zabitlərin dul qadınlarının, arxa cəbhə veteranlarının MDB məkanında ən yüksək birdəfəlik yardımla təmin edilməsində, veteran fəallarının Prezident təqaüdünə , orden və medallara layiq görülməsində və başqa xeyirxah işlərdə öz əksini tapır.

Hörmətli Prezident, cənab Ali Baş Komandan !

Heç kim inkar edə bilməz ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi adlandırılan, əslində isə erməni nasistlərinin Azərbaycan torpaqlarına təcavüzü olmasaydı, respublikamızın nailiyyətləri və xalqımızın rifahı daha yüksək olardı. Biz - Azərbaycan veteranları Sizin bu problemin ədalətli həlli, işğal və soyqırımı nəticəsində öz yurdlarından qaçqın və köçkün düşmüş insanların sosial-məişət vəziyyətinin yaxşılaşdırılması, işğaldan azad olunmuş ərazilərin bərpa eldilməsi sahəsində həyata keçirdiyiniz tədbirləri daim öz əməli işimizlə dəstəkləyirik.

Əziz Prezidentimiz !

Respublika Veteranları onlara göstərdiyiniz böyük qayğıya cavab olaraq bundan sonra da veteran hərəkatının, gənclərin hərbi-vətənpərvərlik tərbiyəsinin gücləndirilməsinə diqqəti artıracaqlar. Bununla bərabər Respublikamızın

qarşısında duran taleyüklü məsələləri- ölkəmizin gələcək inkişafı, xalqımızın rifahı, Dağlıq Qarabağ probleminin tezliklə həll olunması ilə yanaşı, Dünyada təhlükəsizliyin və sülhün təmin edilməsi istiqamətində Sizin özünü doğrultmuş, xalqımız tərəfindən dəstəklənən siyasətinizin davam etdirilməsini vacib bilirik. Məhz buna görə biz, respublikamızın bütün bölgələrindəki veteran təşkilatlarını təmsil edən Qurultay nümayəndələri, qarşıdan gələn seçkilərdə Sizin Prezidentliyə namizədliyinizi irəli sürürük. Bizim hər birimiz öz yerində seçki qabağı tədbirlərdə fəal iştirak edib, Sizin namizədliyinizi müdafiə edəcəyik.

Ölkəmizin gələcək inkişafı və xalqımızın rifahı naminə, əziz Prezident, Sizə möhkəm cansağlığı, fəaliyyətinizdə böyük uğurlar diləyirik.

Azərbaycan Respublikası Veteranlar Şurasının V Qurultayının nümayəndələri.

Bakı şəhəri, 11 aprel 2013-cü il”.

RVT-nin 2008-2013-cü illərdəki fəaliyyəti barədə daha aydın təsəvvür yaradacağını nəzərə alaraq Respublika Veteranlar Şurasının V Qurultayına hesabat məruzəsini və Qətnaməsini oxucuların diqqətinə çatdırmağı məqsədəuyğun sayırıq.





## Azərbaycan Respublikası Veteranlar Şurasının Qurultaya hesabat məruzəsi

“Respublika Veteranlar Şurasının V Qurultayı çox əlamətdar bir vaxtda keçirilir. Bir aydan sonra Ulu öndər, Azərbaycan xalqının Ümummilli Lideri, Heydər Əliyevin anadan olmasının 90 illik yubileyi qeyd ediləcəkdir. Bu ilin payızında isə prezident seçkiləri keçiriləcəkdir. Bu gün Azərbaycanın bir müstəqil dövlət kimi yaşaması Dahi Heydər Əliyevin Azərbaycan xalqının çağırışı, istək və iradəsi ilə ikinci dəfə hakimiyyətə gətirilməsi nəticəsində mümkün olmuşdur. Bunu dərk etmək, dərindən anlamaq üçün müstəqilliyimizin ilk illərini yada salmaq, o vaxtki dövrü nəzərdən keçirmək kifayətdir. Özbaşınalıq, hərcmərclik, xalqın sərvətinin talan edilməsi, ölkənin parçalanması təhlükəsi baş alıb gedirdi. Ölkədə iqtisadiyyat zəifləmiş, dərin siyasi, iqtisadi və sosial böhran hökm sürürdü.

Məhz 20 il bundan əvvəl, 1993-cü ildə iyun ayının 15-də xalqımızın təkidli tələbi ilə Ulu öndər Heydər Əliyevin yenidən hakimiyyətə gəlməsi xalqımızı və ölkəmizi bu

bəlalardan xilas etdi. İyun ayının 15-I günü tariximizə əbədi olaraq Qurtuluş günü kimi daxil oldu, Görkəmli dövlət xadimi Heydər Əliyevin o zaman həyata keçirdiyi fövqəladə tədbirlər, əməli işlər nəticəsində Azərbaycan qısa bir zamanda xalqımızın, hər bir azərbaycanlının rifahına yönəldilmiş iqtisadi və mədəni yüksəliş yoluna qədəm qoydu. Azərbaycanın dünyəvi, müstəqil dövlət kimi yaşamasının, inkişaf etməsinin əsası qoyuldu.

Sələfi Şərqdə ilk demokratik dövlət olan Azərbaycan demokrat Cümhuriyyəti o zaman cəmi 1 il 11 ay yaşamışdısa, Azərbaycan Respublikası bu gün artıq 22 ildir yaşayır, dünyada gedən iqtisadi və maliyyə böhranına, mənfur erməni təcavüzünə baxmayaraq, hörmətli Prezidentimiz İlham Əliyevin Ulu öndərin müəyyən etdiyi strateji kursa və qurduğu möhkəm bünövrəyə əsaslanan düzgün daxili və xarici siyasəti nəticəsində sürətlə inkişaf edir. Şərqlə- Qərb qitələri arasında möhkəm və etibarlı körpü olan Azərbaycanın üç rəngli bayrağı bu gün Dünyanın bütün qitələrindəki səfirlikləri qarşısında dalğalanır. Azərbaycan bütün mötəbər Beynəlxalq təşkilatların və ən ali orqan olan Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurasının üzvüdür.

Bu gün Azərbaycan davamlı inkişaf yolundadır və öz inkişaf tempinə görə dünyanın lider ölkələrindən biridir. İstehsalın bütün sahələrində ən müasir texnikaya və texnologiyaya malik olması nəticəsində ölkəmiz idxal edən ölkədən, ixrac edən ölkəyə çevrilmişdir, özü də bu proses təkcə neft sektorunda deyil, qeyri neft sektorunda da sürətlə gedir. Məhsul satışından, üstəlik turizmin inkişafından əldə edilən gəlir Azərbaycanın valyuta ehtiyatlarını artırır, ölkəmizin iqtisadi və hərbi qüdrətini yüksəldir. Bu gün Avropa, Afrika, Mərkəzi Asiya, Qafqaz ölkələri və Yaxın Şərq regionu səmalarında Azərbaycanın süni peykinin fırlanması ölkəmizin sürətli inkişafını təsdiq edən, onun qüdrətini nümayiş etdirən ən bariz nümunədir.

Azərbaycan xalqının sosial durumunun, maddi rifahının yaxşılaşdırılmasına yönəldilmiş geniş əhatəli dövlət proqramları şəklində həyata keçirilən tədbirlərin nəticələri də bu gün göz qabağındadır. Bütün bunları biz təkcə paytaxtımız Bakı deyil, şəhər və kəndlərimizin, yollarımızın, aydan-aya dəyişən simasında, ən müasir istehsal sahələrinin, səhiyyə, mədəni-maarif ocaqlarının sayının artmasında, bunların





nəticəsində, dünyada baş verən kəskin işsizlik probleminin əksinə olaraq, ölkəmizdə yeni iş yerlərinin yaradılmasında, əhalinin işlə təmin edilməsində, əmək haqlarının, pensiya və təqaüdlərin artırılmasında görürük.

Hörmətli nümayəndələr !

Bütün bu müsbət dəyişikliklər 1960-cı ildə, 53 il bundan əvvəl yaradılmış Veteranlar Təşkilatına da öz müsbət təsirini göstərmişdir. Belə ki,bu tarixin böyük bir hissəsi xalqımızın Ümummilli lideri Ulu öndər Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi dövrlərə düşür. Təşkilatımız bilavasitə Ulu öndərin qayğısı sayəsində inkişaf etmiş, veteranlara diqqət və hörmət artmış, veteranlar təşkilatı material-texniki cəhətdən möhkəmlənmişdir. 28 iyun 1994- cü ildə Ulu öndərin qayğısı və imzası ilə möhürlənmiş "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanununda veteran təşkilatının fəaliyyət istiqamətləri, veteranların həyat və fəaliyyətlərini təmin edən bütün məsələlər öz hüquqi əsaslarını tapmışlar.

Bilirsiniz ki, veteranlar ordusunun ən qocaman nəslini 1941-1945-ci illər Böyük Vətən müharibəsi veteranları təşkil edir. Buna görə Ulu öndər Heydər Əliyev onlara həmişə daha çox diqqət yetirmiş, öz qayğısını əsirgəməmiş və hamıdan da veteranlara belə münasibətin göstərilməsini tələb etmişdir.

Ulu öndərin heç bir zaman unudulmayan : "Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin, Böyük Vətən müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətin və hər bir dövlət orqanının, hər bir namuslu Azərbaycan vətəndaşının borcudur" sözləri bu gün dövlətimiz, hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən layiqincə yerinə yetirilir və bütün ictimaiyyətimiz üçün bir örnəkdir. Hesabat dövrü ərzində, faşizm üzərində qələbənin 65 illiyinin qeyd edilməsi münasibətilə və bundan sonrakı

illərdə də Prezident lham Əliyevin sərəncamları ilə, Böyük Vətən müharibəsi veteranlarına pensiyalarından əlavə hər il may ayının 9-da 500 manat, onların dul qadınlarına və arxa cəbhə veteranlarına 200 manat məbləğində birdəfəlik yardım edilməsi, onu da qeyd edim ki, MDB ölkələrinin heç birində bu məbləğdə yardım göstərilmir, müharibə veteranlarının hamısına pensiyadan əlavə hər ay 55-99 manat məbləğində Prezident təqaüdü verilməsi, müalicəyə getmək üçün onlara dəmir yol xərclərinin ödənilməsi, növbədə olanlara pulsuz avtomaşınlar verilməsi, mənzillə təmin edilməsi, veteran təşkilatlarının maddi-texniki bazasını möhkəmlətmək üçün Prezidentinehtiyatfondundanmaliyyəvəsaitininayrılmasıvə.s. Heydər Əliyev tövsiyələrinin bu gün hörmətli Prezidentimiz İlham Əliyev tərəfindən inamla həyata keçirilməsinin parlaq sübutudur.

Hörmətli nümayəndələr !

Respublika Veteranlar Şurası hesabat dövründə "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanunundan irəli gələn və Nizamnamədə əksini tapmış veteranlara qayğı və gənclərin vətənpərvərlik tərbiyəsini yüksəltmək vəzifələrini yerinə yetirməyi təmin etmək üçün, özünün bütün fəaliyyətini təşkilati işin daha da güclənməsinə yönəltmişdir. Rayon və şəhər Veteranlar Şuralarının, onların rəyasət heyətinin tərkibində əhəmiyyətli keyfiyyət dəyişikliklərinə nail olunmuşdur. Rəhbərliyə nisbətən cavan, təşkilatı işi yaxşı bilən, rayon, ərazi, idarə və müəssisələrdə nüfuz qazanmış insanlar seçilmişlər. 23 rayon və şəhər təşkilatında və yaxud mövcud veteran təşkilatlarının 26,4 faizində rəhbərliyə yeni veteran fəalları seçilmişlər.

Hesabat dövründə həm respublika, həm də yerli veteran şuralarının əsas aparıcı qüvvəsi olan daimi komissiyaların işinin canlanması üçün köklü və gərgin iş aparılmışdır. Əvvəllər mövcud olan və paralel fəaliyyət göstərən komissiyaların sayı





2 dəfə azaldılmış, onların rəhbərliyi möhkəmləndirilmiş, daha işgüzar veteran fəalları ilə əvəz edilmişdir.

Respublika Veteranlar Şurasının Rəyasət heyətinin iclasında təsdiq olunmuş Əsasnaməyə uyğun olaraq hazırda həm Respublika və Naxçıvan Muxtar respublikası, həm də şəhər və rayon veteran şuralarının hər birində müxtəlif istiqamətlərdə 5 daimi komissiya fəaliyyət göstərir.

Respublika Veteranlar Şurası Bürosunun qərarı ilə yerlərdə veteran hərəkatının gücləndirilməsinə bilavasitə kömək göstərmək məqsədi ilə daimi komissiyaların sədrləri öz iş istiqamətlərindən əlavə bütün şəhər və rayon veteran şuralarına hami (kurator) təhkim edilmişlər. Büronun bu barədə qərarı bütün İcra Hakimiyyətlərinin İctimai -siyasi şöbələrinə göndərilmişdirki, onlarınbundanməlumatıolsun. Bundanəlavə Daimikomissiyalar Respublika Veteranlar Şurasınınhazırladığı layihə-proqram əsasında Azərbaycan Respublikası Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dəstək Şurasının maliyyə yardımı ilə 2011 və 2012-ci illərdə Bakı şəhərində Sumqayıt şəhəri və Abşeron rayonu daxil olmaqla, Bakı şəhəri və onun rayonlarının, Gəncə şəhərində Gəncə-Qazax zonası rayonlarının, Lənkəran şəhərində Lənkəran-Astara zonası rayonlarının, Salyan şəhərində Muğan zonası rayonlarının, Xaçmaz şəhərində Quba-Xaçmaz zonası rayonlarının və Şəki şəhərində Şəki- Zaqatala zonası rayonlarının veteran fəalları üçün geniş əhatəli seminar məşğələlər keçirmişlər. Cari ilin iyun ayında bu tədbir Şirvan şəhərində Şirvan zonası və Ağcabədi şəhərində Qarabağ zonasını əhatə edən rayonların veteran fəalları üçün də keçiriləcəkdir.

Görülən əməli işlər nəticəsində vaxtilə SSRİ Veteranlar Komitəsinin Bakı filialı kimi fəaliyyətə başlayan Azərbaycan Veteranlar təşkilatı bu gün ölkənin vətəndaş cəmiyyətinin ən nüfuzlu təmsilçisi kimi 1742 ilk təşkilatı, 86 rayon və şəhər təşkilatını, Naxçıvan Muxtar respublikası və 3 iri peşə sahəsi

veteran təşkilatını özündə birləşdirir. Respublika Veteranlar Şurası bu gün iki mötəbər Beynəlxalq təşkilatın – Müstəqil Dövlətlər Birliyi Veteranlar Təşkilatının Əlaqələndirmə Şurasının və mənzil qərərgahı Paris şəhərində yerləşən Dünya Veteranlar Federasiyasının üzvü kimi, bu təşkilatların işində fəal iştirak edir.

Həyata keçirilən təşkilat tədbirləri bir daha göstərir ki, hansı rayon və şəhər veteran təşkilatında İcra Hakimiyyətləri, onların İctimai-Siyasi şöbələri, başqa dövlət və ictimai qurumları ilə möhkəm və işgüzar əlaqə yarada bilmişlərsə, o təşkilatlarda veteranlara göstərilən qayğı, onların sosial, məişət və əmək məsələləri, veteran təşkilatlarının iş otaqları ilə təmin edilməsi, material-texniki təchizat məsələləri müvəffəqiyyətlə həll edilir. Bir sıra rayonlarda İcra Hakimiyyəti orqanları rayon veteranlar təşkilatlarına öz binalarında hər cür şəraitlə təmin edilmiş iş otaqları vermişlər.

Bakının Yasamal, Səbail, Binəqədi, Qaradağ rayonlarında, Gəncə və Şəki şəhərlərində, Qusar, Oğuz, Ağsu rayonlarında, Naxçıvan Muxtar Respublikasında və bir çox başqa rayonlarda veteran təşkilatları dövlət idarələri ilə birgə apardıqları iş, Respublika Veteranlar Şurasının Bürosunda və Rəyasət heyətində baxılmış, onların bir çoxunun İcra Hakimiyyəti başçıları və veteran şuralarının sədrləri əldə etdikləri müvəffəqiyyətlərə görə Respublika Veteranlar Şurasının “ Fəxri fərman” ları ilə mükafatlandırılmışlar.

Hesabat dövrü bütünlüklə ölkəmiz və təşkilatımız üçün ictimai və siyasi hadisələrlə zəngin olmuşdur. Respublikanın Veteranlar təşkilatları həmin hadisələrin fəal iştirakçıları olmuş, onlar Respublika və yerli Veteran Şuralarının plenum və rəyasət heyətlərinin iclaslarında, həyata keçirdikləri tədbirlərdə, bəyanat və müraciətlərində öz əkslərini tapmışlar. Hesabat dövründə Respublika Veteranlar Şurasının 9 plenumu, Bürosunun və Rəyasət heyətinin 77 iclası olmuşdur.





Adları çəkilən iclaslarda 1941-1945-ci illərdə Böyük Vətən müharibəsində Qələbənin 65 illiyi ilə əlaqədar Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 22 iyun 2009-cu il tarixli, 314 nömrəli Sərəncamı ilə təsdiq edilmiş “ Milli Proqram”ın yerinə yetirilməsi, “ Biz qələbənin varisləriyik” Beynəlxalq aksiyanın keçirilməsinə hazırlıqla əlaqədar Respublika Veteranlar təşkilatları qarşısında duran vəzifələr, Respublika Veteranlar Şurası nümayəndələrinin Moskvada Müstəqil Dövlətlər Birliyi ölkələri Əlaqələndirmə Şurası Rəyasət Heyətinin 13 oktyabr 2010-cu il tarixli iclasında və Parisdə Dünya Veteranları Federasiyasının 24-26 noyabr 2010-cu il tarixli Konfransında iştirakları və fəaliyyətləri barədə hesabatları, Respublika Daxili İşlər Nazirliyinin Veteranlar Şurasının nazirlik rəhbərliyi ilə birgə iş təcrübəsi, Respublika Veteranlar Şurası Hüquq, Sosial müdafiə məsələləri üzrə Daimi komissiyanın sədri Əliş Əliyevin veteranların sosial müdafiəsinə həsr olunmuş beynəlxalq elmi- praktik konfransda və İnsan Hüquqları üzrə Müvəkkilin (Ombutsmanın) təşkil etdiyi dəyirmi stolda iştirakı və fəaliyyəti barədə, Respublikada Veteranlar hərəkatının gücləndirilməsinə yönəldilmiş əlavə tədbirlər haqqında, bir sıra təşkilatlarla birgə fəaliyyət barədə bağlanılmış müqavilələrin təsdiqi barədə və sair məsələlər müzakirə edilmişdir.

Hörmətli nümayəndələr !

Təəssüflər olsun ki, Sovetlər İttifaqı dağıldıqdan sonra 1941-1945-ci illər Böyük Vətən müharibəsindəki qələbəni gözdən salmaq, tarixi saxtalaşdırmaq meylləri olmuşdur. Belə meyillər bir sıra ölkələrdə bu gün də davam edir. Bunları görən və onlara qarşı ciddi mübarizə aparan Ulu öndər Heydər Əliyev hələ 1995-ci il may ayının 2-də MDB ölkələri dövlət başçıları Şurasının qəbul etdiyi qərardan 11 il əvvəl 9 mayın Faşizm üzərində Qələbə bayramı günü kimi qeyd edilməsi barədə Qanun imzalamışdır.

Hörmətli Prezidentimiz İlham Əliyev 2011-ci il dekabr ayının 20-də MDB ölkələri hökumət başçıları Şurasının iclasındakı tarixi nitqində yenidən bu məsələyə toxunaraq demişdir: " Mən bütün veteranlarımızı salamlayıram. Onlar Vətənin azadlığı uğrunda öz sağlamlıqlarını veriblər, çoxları həyatlarını itiriblər. Bu hamı üçün Vətən müharibəsi idi. Azərbaycanın İkinci Dünya müharibəsində iştirak edən hər iki sakinindən biri geri qayıtmayıb, Azərbaycanın və Bakının ümumi qələbəyə töhvəsi isə kifayət qədər əhəmiyyətli olub. Bu bizim ümumi tariximizdir. Biz tarixi saxtalaşdırmağa yol verməməliyik. İkinci Dünya müharibəsi hadisələrinin təhrif edilmiş şəkildə təqdiminə yol vermək olmaz".

Ölkə başçısının Böyük Qələbəyə verdiyi qiymət onun hər 5 ildən bir imzaladığı 1941-1945-ci illər müharibəsində Qələbənin qazanılmasının yubileylərinin keçirilməsi ilə əlaqədar qəbul edilən "Milli Proqram" larda öz əksini tapır.

Hesabat dövründə Prezidentimizin 22 iyun 2009-cu il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Milli Proqram"a uyğun olaraq Veteranlar Şurası respublikamızın bütün rayonlarında həyata keçirdiyi tədbirlər müharibə dövründə Azərbaycan xalqının vətənpərvərliyini, Qələbənin qazanılmasında misilsiz xidmətlərini göstərən elmi-praktik konfranslardan, gənc zabit və əsgərlərlə keçirilən görüşlərdən, müharibə veteranlarının xatirə komplekslərinin, abidə və məzarlıqların bərpa edilib səliqə-səhmana salınmasından və başqa kütləvi tədbirlərdən ibarət olmuşdur.

Görülən işlərin əhəmiyyətini nəzərə alaraq onların miqyasını genişləndirmək üçün Respublika Veteranlar Şurası çalışmışdır ki, gənclərin hərbi vətənpərvərlik məsələlərinə həsr olunmuş tədbirləri başqa nazirlik və idarələrlə birlikdə icra etsin. Minnətdarlıq hissi ilə bildiririk ki, bu işdə bizə ən yaxından kömək edən, tədbirlərin keçirilməsinə şərait yaradan, onların təşkilində bilavasitə iştirak edən Respublikanın





Müdafiə Nazirliyi, onun Baş Tərbiyə idarəsi olmuşdur. Cəmşid Naxçıvanski adına hərbi liseydə, Heydər Əliyev adına Ali Hərbi Məktəbdə, Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzində, Hərb Tarixi Muzeyindəki çoxsaylı görüşlər, elmi-praktik konfranslar belə tədbirlərdən olmuşlar. Bakı şəhərində MDB ölkələri nümayəndələrinin iştirak etdikləri " Biz Qələbənin varisləriyik" beynəlxalq konfrans və görüş, Zərdab rayonunda "Azərbaycan Respublikaısına xidmət edirəm" devizi altında keçirilən hərbi-vətənpərvərlik bayramı, ayrı-ayrılıqda Milli Elmlər Akademiyası, Dövlət Neft Şirkəti, Dillər Universiteti və başqa təhsil ocaqları ilə birlikdə 1941- 1945-ci illər müharibəsində Qələbənin təmin edilməsində Azərbaycan xalqının, onun alim və mütəxəssislərinin rolu barədə elmi-praktik konfranslar, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun Bakıda və qəhrəmanın doğma şəhəri Lənkəranda anadan olmasının 100 illiyinə, Sovet ittifaqı Qəhrəmanı Ziya Bünyadovun Hərb Tarixi muzeyində, Sovet İttifaqı Qəhrəmanı təyyarəçi Adil Quliyevin Aviasiya Akademiyasında, habelə respublikada veteran hərəkatının təşkilatçıları general Mustafa Nəsirovun, general Bahadur Hüseynovun, tanınmış ictimai xadim Çingiz Həsənovun anadan olmalarının 90 illik yubileyləri bu qəbildən olan tədbirlərdəndir. Şuranın Ehtiyatda olan Zabitlər Assosasiyası və Rusiya Federasiyasının Bakıdakı Mədəniyyət Mərkəzi ilə birlikdə keçirdiyi Stalinqrad uğrunda döyüşlərin 70 illiyinə həsr edilmiş elmi-praktik konfransda qəbul eıdilmiş Müraciət Volqoqrad ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilmiş, oradakı vilayət qəzetində dərc edilmişdir.

Xüsusi qeyd etmək isltəyirəm ki, Şuranın Müdafiə Nazirliyi, başqa nazirlik və təşkilatlarla birlikdə keçirdiyi geniş əhatəli "Heydər Əliyev ideyaları əsasında müstəqil Azərbaycan Respublikası gənclərinin vətənpərvərlik tərbiyəsinin aktual məsələləri " mövzusundakı elmi-praktik

konfrans bu tədbirlərin zirvəsi olmuşdur. Konfransın yekununda Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə Müraciət qəbul edilmiş və Müraciət KİV-lərdə dərc edilmişdir. Mövzunun böyük ictimai-siyasi və tərbiyəvi əhəmiyyəti olduğunu nəzərə alaraq konfransda toxunulan məsələlər Respublika Veteranlar Şurasının Plenumunda müzakirə edilmiş, plenumun qəbul etdiyi geniş əhatəli qərar icra edilmək üçün rayon, şəhər və Naxçıvan MR Veteranlar Şuralarına göndərilmişdir.

Hörmətli nümayəndələr !

Torpaqlaırımızın 20 faizi 23 ildir ki, döşmən tapdağı altındadır. İşğal olunmuş rayonlardan qaçqın və köçkün düşmüş ailələrdə doğulmuş uşaqlar hazırda öz gənclik dövrlərini yaşayırlar. Onların heç biri doğma evlərini, el-obalarını, kənd və şəhərlərini görməmişlər. Düşmənin də münaqişəni uzatmaqda məqsədi bir də, budur ki, yeni nəsl öz doğma vətənini tanımasın. Məhz buna görə də Veteranlar Şurası, rayon və şəhər təşkilatları, xüsusilə qaçqın və məcburi köçkün rayonlarınveterantəşkilatları hesabat dövründə yeniyetmələrin, məktəblilərin vətənpərvərlik məsələləri ilə bağlı tədbirlərin genişləndirilməsini daim diqqət mərkəzində saxlamış, Gənclər və İdman nazirliyi, Könüllü Hərbi Vətənpərvərlik Cəmiyyətinin Şurası ilə birlikdə xüsusi hazırlanmış proqram və layihələr üzrə geniş əhatəli tədbirlərin, yarışların, hərbi-vətənpərvərlik oyunlarının təşkilində və keçirilməsində iştirak etmişlər.

Hesabat dövründə Respublika Veteranlar Şurasının Eyni Hərbi Hissədə xidmət edən veteranlar bölməsinin Bakı şəhər ümumtəhsil və hərbi məktəblərini əhatə edən 225 sinifdə və 10 hərbihissədəkeçirdiyi tədbirlərdə, yarışvəmüsabiqələrdə vətənimizə, torpağımıza, xalqımızın qəhrəmanlığına, rəşadətli oğullarına həsr edilmiş ən yaxşı yazıların, rəsmlərin müəlliflərini, mahnı ifaçılarını təmsil edən 45 sinif, 80 şagird





və kursant “ Fəxri fərman” lara lalyiq görülmüşlər. Qaliblərə veteran müəlliflərin yazdıqları, xalqımızın, rəşadətli əsgər və zabitlərimizin qəhrəmanlıqlarından bəhs edən kitablar təqdim edilmişdir. Qeyd etmək lazımdır ki, belə kitablar, yazılar və məqalələr hesabat dövründə daha çox dərc edilmişdir. Respublika Veteranlar Şurası Rəyasət heyətinin üzvləri “Şöhrət” ordenli Aleksandr Qritçenkonun, Respublikanın əməkdar incəsənət xadimi, polkovnik Abdulla Qurbaninin, professor Musa Bağırovun bu sahədə xidmətləri diqqətə layiqdir. Ümumiyyətlə Şuranın apardığı bu və ya digər tədbirin respublika mətbuatında işıqlandırılması daim diqqət mərkəzində olmuş, müntəzəm olaraq bu barədə xəbərlər, məqalə və yazılar dərc eçdilmişdir. Bu həm görülən işin geniş yayılmasına, həm də yerlərdə işin canlanmasına müsbət təsir etmişdir. Yeri gəlmişkən bi işdə bizə yaxından kömək edən “AzərTac” ın, “Respublika”, “Xalq qəzeti”, “Bakinski raboçi” qəzetlərinin redaksiyalarına öz minnətdarlığımızı bildiririk.

Bilirsiniz ki, son zamanlaradək, veteranlarla bağlı məqalələr “Dövlət və Qanun” qəzetində dərc edilirdi. İndi isə artıq veteranların öz qəzeti “ Azərbaycan Veteranı” qəzeti işıq üzü görmüşdür ki, bu da Veteranlar Şurasının həyata keçirdiyi vacib tədbirlərdən biridir. Hər bir veteranın stolüstü qəzeti olacaq bu mətbuat orqanının məqsədi respublikada veteran hərəkatını, bu sahədə əldə edilmiş qabaqcıl təcrübəni, veteranl arınhəyatvəfəaliyyətini, adgünlərini, onlaragöstərilən qayğını, gənclərin vətənpərvərlik tərbiyəsində veteranların rolunu geniş işıqlandırmaqdır. Respublikaımızda veteran işinin canlanmasında heç şübhəsiz qəzetin böyük rolu olacaqdır. Hazırda “ Azərbaycan Veteranı” qəzeti özünün kövrək addımlarını atır. Rayon və şəhər veteranlar təşkilatlarının, hər bir veteran fəalının borcudur ki, doğma qəzetlərinin inkişafına, ona abunə yazılışının genişləndirilməsinə yaxından kömək etsinlər. Respublika Veteranlar Şurasının Bürosu bu yaxınlarda

2013-cü il üçün qəzetə abunə yazılışının gedişi barədə məsələyə baxmışdır. Müəyyən edilib ki, qəzetin səhifələrindəki çağırışlara, yerlərə göndərilmiş məktublara baxmayaraq bir sıra rayonlarda bu mühüm işə hələ isti münasibət yaranmamışdır. Məlum məsələdir ki, öz doğma qəzetinə belə münasibət olan rayonda ümumiyyətlə veteran işi də lazımi səviyyədə ola bilməz və bundan ciddi nəticə çıxarılmalıdır.

Hörmətli nümayəndələr !

Azərbaycan Veteranlar Şurasının MDB ölkələri Veteranlar Təşkilatları Əlaqələndirmə Şurasının və Dünya Veteranlar Federasiyasının üzvü olması, bu mötəbər Təşkilatların işində fəal iştirak etməsi Şuranın Beynəlxalq əlaqələrini müəyyən edir. Bundan əlavə Şura bilavansitə bir sıra ölkələrin Veteranlar təşkilatları ilə də əməkdaşlıq edir. Azərbaycan milli diviziyalarının, əsgər və zabitlərinin 1941-1945-ci illər Böyük Vətən müharibəsində Rusiya Federasiyası, Ukrayna və Belorus respublikalarını, Şərqi Avropa ölkələrini faşist işğalından azad etmələri bu ölkələrlə əməkdaşlığın əsasını qoymuşdur. Azərbaycan əsgər və zabitlərinin əksəriyyəti məhz bu ölkələrdə göstərdikləri rəşadətə görə yüksək Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşlər. Hesabat dövründə Respublika Veteranlar Şurasının adları çəkilən respublikalardakı həmkarları, həmin respublikaların Bakıdakı səfirlikləri ilə qarşılıqlı əməkdaşlıqları nəticəsində üzərindən 70 il keçməsinə baxmayaraq itkin düşmüş əsgər və zabitlərimizin taleyi müəyyən edilmiş, onların adı “Respublika Xatirə” kitabına yazılmışdır, müharibə dövründə Azərbaycandakı qospitallarda vəfat etmiş əsgərlərinin qəbiristanlıqları səliqə-səhmana salınmış, Azərbaycanın müharibə veteranları göstədikləri qəhrəmanlıqlara görə dost ölkələrin yubiley medalları ilə təltif edilmişlər. Azərbaycan və Ukrayna veteran təşkilatlarının 2010-cu il sentyabr ayının 14-dən 20-dək Bakıda, Quba və Siyəzən rayonlarında “Qələbəni





birlikdə qazanmışıq” devizi altında keçirdikləri tədbir daha əlamətdar olmuşdur. Veteranlar Ukraynada faşistlərlə döyüşlərdə qəhrəmanlıq göstərən və “Rəşadət ordeni” nin bütün 3 dərəcəsi ilə təltif edilən, orada şərəfinə büstü ucaldılan, xiyaban salınan və məktəb adlandırılan Qonaqbəy Novruzəliyevin və döyüşlər zamanı həlak olan, tədbirdən bir neçə gün əvvəl qalıqları tapılaraq Siyəzən rayonunda doğma Saadan kəndində dəfn edilən Ziyafət Məlikovun xatirəsinə həsr edilmişdi.

Tədbirin yekunları Rusiyanın RİA-Novosti agentliyinin Bakı şöbəsində keçirilən mətbuat konfransında geniş müzakirə edilmişdir.

Respublika Veteranlar Şurasının nümayəndələri 1941- 1945-ci illər Böyük Vətən müharibəsində azərbaycan diviziyalarının keçdiyi döyüş yolu ilə gedərək Rusiyanın, Ukraynanın, Belorusun, Serbiya və Sloveniyanın faşistlərdən azad edilmiş şəhər və kəndlərində olmuş, orada keçirilən tədbirlərdə iştirak etmişlər. Belə əlaqələr Sumqayıt şəhər Veteranlar Şurası ilə Almaniya, Şimali Kipr respublikası veteranlar təşkilatları arasında da yaradılmışdır.

Məlumat üçün bildirirəm ki, Şuranın Beynəlxalq Əlaqələr Daimi komissiyasının keçmiş sədri, hazırda ailə vəziyyətinə görə Moskva şəhərində yaşayan və daim Şura ilə işgüzar əlaqə saxlayan Vyaçeslav Əhmədovun təklifi ilə RVŞ-nin bürosu onu Moskva şəhərində ictimai əsaslarla özünün daimi nümayəndəsi təsdiq etmişdir. Bu yeni və çox faydalı təşəbbüsdür. Büro Şuranın Beynəlxalq əlaqələr daimi komissiyasının sədri Zahiddin Abbasova tapşırmışdır ki, bu təşəbbüsün başqa ölkələrdə də həyata keçirilməsinə çalışsın.

Hörmətli nümayəndələr !

Bir an da unutmaq olmaz ki, respublikamızın bütün sahələrdə dünyanın lider ölkələri sırasına çıxması, tək paytaxtımız Bakı deyil bütün Azərbaycanın bu gün geniş

əhatəli, müxtəlif beynəlxalq tədbirlərin mərkəzinə çevrilməsi Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi adlandırılan, əslində münaqişə deyil, bütün tarix boyu ölkəmizə, xalqımıza düşmən kəsilən, havadarlarının köməyi ilə Azərbaycan ərazisində özünə dövlət quran bu gün də torpaqlarımızın 20 faizini işğal edən, 1 milyondan artıq vətəndaşımızı öz doğma yurdlarından didərgin salan, erməni nasistlərinin ölkəmizə yaratdıqları ağır problemlər şəraitində əldə edilmişdir.

2010-cu il oktyabr ayının 6-da Şuranın Rəyasət heyətinin iclasında bu məsələ geniş müzakirə edilmiş və bu barədə qəbul edilmiş Bəyanat MDB ölkələri Veteranlar Təşkilatının Əlaqələndirmə Şurasının 2010-cu il oktyabr ayının 13-də keçirilən iclasına və Dünya Veteranlar Federasiyasının 2010-ci il noyabr ayının 24-25 də keçirilən konfransına təqdim edilmişdir. Veteranlar Şurasının rəhbərləri hər iki tədbirdə iştirak etmiş, çıxış edərək Ermənistanın Azərbaycana təcavüzü və faşist cinayətləri barədə tədbir iştirakçılarına ətraflı məlumat vermişlər. Sonra yuxarıda göstərildiyi kimi adları çəkilən yığıncaqların yekunları Veteranlar Şurasının Plenumunda geniş müzakirə edilmişdir.

Hitler faşizmini ittiham edən Nyurnberq prosesinin 65-ci ildönümü münasibətilə 2011-ci il sentyabr ayının 29-da Bakı şəhərində - Böyük Vətən müharibəsi veteranlarının ümumrespublika toplantısında "İkinci Dünya müharibəsi, Nyurnberq prosesi və Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi" məsələsi geniş müzakirə edilmişdir. Toplantı iştirakçıları ATƏT-in Minsk qrupu həmsədr ölkələrinin prezidentlərinə erməni nasistlərinin Azərbaycana və xalqımıza qarşı törətdikləri faşist cinayətlərini təkzibedilməz faktlarla ifşa edən Müraciət göndərmişlər. Müraciət kütləvi informasiya vasitələrində dərc edilmiş və ATƏT-in rəhbərlərinə də göndərilmişdir. Veteranlar Şurası ATƏT-in





Minsk qrupu həmsədrlərinə, Fransa prezidenti N.Sarkoziyə, ABŞ-ın Dövlət katibi H.Klintona, Rusiyanın Xarici İşlər naziri S.Lavrova müraciət edərək Bakıda olduqları dövrlərdə məsələ ilə əlaqədar veteranlarla görüşməyi təklif etmişlər. Lakin, heç şübhəsiz, veteranlara cavab verə bilməyəcəklərinə görə adları çəkilən cənablarla görüş baş tutmamışdır. Veteranların ümumrespublika toplantısından 1 il keçıdikdən sonra Minsk qrupu ölkələrinin Bakıdakı səfirliklərinə yenidən müraciət olunmuşdursa da, yalnız Rusiya səfirindən cavab gəlmişdir ki, Rusiya dövləti bu məsələ ilə ciddi məşğuldur. Nəhayət bu yaxınlarda Şuranın bu barədə ABŞ-ın yeni təyin edilmiş Dövlət katibi C.Kerriyə göndərdiyi müraciət AzərTac vasitəsilə mətbuatda geniş yayımlanmışdır.

Lakin münaqişənin uzanmasına çalışan Ermənistanın bütün səylərinə baxmayaraq, ölkəmizin başçısı İlham Əliyevin düşünülmüş, düzgün daxili və xarici siyasəti, onun xalqla birliyi nəticəsində ən mötəbər beynəlxalq qurumların da təsdiq etdikləri kimi, Azərbaycanın maliyyə və iqtisadi-sosial durumu dünya miqyasında böyük sürətlə inkişaf edir, Azərbaycanın dünyada nüfuzu artır, Ermənistanın isə ildən-ilə bu gösətəriciləri aşağı düşür, bir dövlət kimi iflasa gedir. Ötən ayın 18-19 -da Azərbaycan Hökumətinin, BMT və İseskonun təşkilatçılığı ilə "Terrorizmin qarşısının alınmasında əməkdaşlığın gücləndirilməsi" mövzusunda Bakıda keçirilən 50-dən artıq ölkənin nümayəndələri iştirak edən Beynəlxalq konfransda hörmətli Prezidentimiz İlham Əliyev Dağlıq Qarabağ probleminə toxunaraq demişdir: "Azərbaycan siyasi və iqtisadi inkişaf baxımından güclənir, Azərbaycanın qlobal miqyasda oynadığı rol artır. Buna görə mən tam əminəm ki, biz ərazi bütövlüyümüzü bərpa edəcəyik. Biz buna mümkün qədər tez nail olmaq istəyirik. Çalışırıq ki, bunu sülh yolu ilə edək".

Hörmətli nümayəndələr !

Bəlkə də dünya tarixində yeganə və yolverilməz haldır ki, Azərbaycan torpaqlarının erməni işğalından qeydşərtsiz azad olunması barədə Dünyanın ən mötəbər Təşkilatlarının qərarlarının, bütün dünya dövlətlərinin Azərbaycan ərazisinin bütövlüyünü tanımalarına, Azərbaycan Dövlətinin, onun Prezidenti cənab İlham Əliyevin məsələnin sülh yolu ilə həll edilməsinə çalışmalarına baxmayaraq, münaqişə hələ də davam edir. Ermənistanın cinayətkar işğalçı rəhbərliyi, onların havadarları və Azərbaycanın sürətli inkişafına, güclənməsinə həqarətlə baxan, bu inkişafı görmək istəməyən, Azərbaycana düşmən kəsilmiş qüvvələr hər vasitə ilə münaqişəni uzatmaqla, ölkə daxilində sabitliyi pozmağa da çalışırlar.Bu məqsədlə onlar ağı-qaradan seçə bilməyən, gördükləri işin nə ilə nəticələyəcəyini dərk etməyən, yeniyetmələri və gəncləri yoldan çıxarmağa cəhd edirlər. Belə meyillər Respublika parlamentinə seçkilər, xüsusilə Prezident seçkiləri ərəfəsində daha da güclənir. Bu yaxınlarda Fəvvarələr meydanında ixtişaş törətməyə göstərilən cəhd buna misal ola bilər.

Veteranlar Şurası Respublika Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının veteran professor və müəllimləri ilə birlikdə həmin hadisə ilə əlaqədar keçirdiyi dəyirmi stolda deyilən sözləri təkrar etmək istəyirəm : onlar dünən çiçəklənən, inkişaf edən, bu gün isə viran olan, xarabalığa çevrilən, milyonlarla adamları həlak olmuş, evsiz-eşiksiz qalmış Afrika və Ərəb ölkələrini görmürlərmi ? Görürlər, lakin bunlara laqeydliklə, kinofilmlərdəki kadrlar və ya başqa ölkələrdə baş verən hadisələr kimi baxırlar, başa düşmürlər ki, törətmək istədikləri ixtişaşlar sabah Azərbaycanı da həmin ölkələrin vəziyyətinə sala bilər. Bu gənclər müstəqilliyimizin ilk illərində başımıza gələn bəlalardan da xəbərsizdirlər. Heç şübhə yoxdur ki, bu gənclərin hər biri lazım gələrsə vətən yolunda canlarını əsirgəməzlər. Bu yeniyetmələrlə işləmək, bunu onlara başa salmaq lazımdır.





Unutmamalıyıq ki, marıtda, puskuda dayanan düşmən hər an Azərbaycanı parçalamağa, dağıtmağa çalışır, buna yol verməmək üçünayıqvəsayıqlığımızıdahadagüclləndirməliyik. Veteranlar təşkilatı böyük və güclü təşkilatdır. Hər bir ailədə veteran var. Vətənpərvərlik tərbiyəsi işinə uşaq anadan olduğu gündən başlamaq lazımdır. Buna diqqət yetirməli, rayon və şəhər təşkilatları bunu öz gündəlik işlərinə çevirməlidirlər. Burda fasiləyə, arxayınçılığa yol vermək olmaz !

Azərbaycan, bütün tarixi, keçmişi, bu günü və gələcəyi ilə hamımızın müqəddəs ana vətənimizdir. Azərbaycan bu gün özünün inkişaf dövrünü yaşayır. Əsası Dahi Heydər Əliyev tərəfindən qoyulmuş bu inkişafı bu gün ölkəmizə ləyaqətlə başçılıq edən görkəmli dövlət xadimi, peşəkar diplomat, bütün varlığı, yüksək mədəniyyəti, alicənablığı, qayğıkeşliyi, sadəliyi və səmimiliyi ilə xalqına bağlı olan cənab İlham Əliyev yaratmışdır. Azərbaycan veteranları, bütün xalqımız kimi, bunları görür və cənab İlham Əliyevin ətrafında sıx birləşərək, onun simasında öz gələcəklərinə böyük ümid və inamla baxırlar.

Bunu Qurultayqabağı günlərdə veteran fəallarının, ayrı-ayrı veteranların bizə etdikləri müraciətlərdən, Respublikanın müxtəlif rayonlarından edilən telefon zənglərindən də görürük. Onlar xahiş edirlər ki, Qurultay qarşıdan gələn Prezident seçkisində cənab İlham Əliyevin namizədliyini irəli sürsün və onlar yekdilliklə İlham Əliyevə səs verəcəklər.

Ölkəmizin bu günkü inkişafı hörmətli Prezident İlham Əliyevin əvəzedilməz xidmətlərini, onun başladığı xeyirxah işlərin davam etdirilməsinin zəruriliyini, respublikanın qarşısında duran taleyüklü məsələlərin həllinin vacibliyini və veteranların istəklərini nəzərə alaraq Respublikanın Veteranlar Şurasının Bürosu da qarşıdan gələn Prezident seçkilərində cənab İlham Əliyevin namizədliyinin irəli sürülməsini Qurultaya təklif etmişdir. İnanırıq ki, Qurultay bu təklifi

yekdilliklə qəbul edəcək və Respublikanın veteran təşkilatları seçki kompaniyasında fəal iştirak edib cənab İlham Əliyevin yenidən Prezident seçilməsi üçün bütün imkanlarını səfərbər edəcəklər.

Qarşıda böyük vəzifələr durur, icazə verin yeni seçiləcək Respublika Veteranlar Şurasına onların yerinə yetirilməsində uğurlar diləyim.

Sağ olun".





## Azərbaycan Veteranlar Şurası V Qurultayının Qətnaməsi

Azərbaycan Veteranlarının V Qurultayı əlamətdar vaxtda keçirilir. May ayının 10-da Ulu öndər, Azərbaycan xalqının Ümummilli Lideri, dahi Heydər Əliyevin anadan olmasının 90 illiyi geniş qeyd ediləcək, bir neçə aydan sonra isə ölkəmizdə prezident seçkiləri keçiriləcəkdir.

Qurultay qeyd edir ki, Azərbaycan Veteran hərəkatının inkişaf tarixi, həm Sovetlər dövründə, həm də Respublikamızda müstəqillik bərpa edildikdən sonra, bütünlüklə Ulu öndər Heydər Əliyevin adı ilə bağlıdır. Veteran Təşkilatlarının fəaliyyət istiqamətlərinin, veteranların sosial, əmək, mədəni-məişət qayğılarının həlli Ulu öndərin 28 iyun 1994-cü ildə imzaladığı "Veteranlar haqqında" Qanunda öz əksini tapmış, 2 may 1995-ci ildə imzaladığı Qanunda isə " 9 may-faşizm üzərində Qələbə günü" elan edilərək respublikamızın bayramları sırasına daxil edilmişdir.

Qurultay razılıq hissi ilə qeyd edir ki, əsası Ulu öndər Heydər Əliyev tərəfindən qoyulmuş veteranlar haqqında dövlət siyasəti Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu, dövlət başçısının müntəzəm olaraq imzaladığı Qanunlarda, Milli proqramlarda və Sərəncamlarda öz əksini tapır.

Qurultay qeyd edir ki, Respublika, Naxçıvan Muxtar Respublikası, şəhər və rayon Veteranlar Şuraları Dövlətin veteran təşkilatlarına yaratdığı səmərəli şəraitdən istifadə edərək, "Veteranlar haqqında" Qanundan və öz Nizamnamələrindən irəli gələn vəzifələri yerinə yetirərək, hesabat dövründə öz fəaliyyətlərini əhəmiyyətli dərəcə

gücləndirmiş, Dövlət Qanunlarının yerinə yetirilməsinin səmərəliliyinin artırılması məqsədilə, dövlət idarələri və başqa ictimai qurumlarla əlaqələri genişləndirməklə veteran təşkilatlarının möhkəmləndirilməsinə, onların rəhbərliyinə nisbətən cavan, ictimai işdə özünü doğrultmuş, cəmiyyətdə nüfuz və hörmət qazanmış müharibə, əmək, silahlı qüvvələr və hüquq-mühafizə orqanları veteranlarının gətirilməsinə, ilk veteran təşkilatlarının şəbəkəsinin genişləndirilməsinə, veteran fəallarının təhsilinin artırılmasına, qabaqcıl təcrübənin yayılmasına, gənclərin mənəvi, vətənpərvərlik və hərbi-vətənpərvərlik tərbiyəsində müxtəlif forma və üsullardan istifadə edilməsinə, veteran hərəkatının aparıcı qüvvəsi olan daimi komisiyaların işinin təkmilləşdirilməsinə diqqəti artırmışlar.

Bununla birlikdə Qurultay qeyd edir ki, heç də bütün veteran təşkilatları öz işlərini Nizamnamənin və Respublika Veteranlar Şurasınınqəbuletdiyiqərarlarəsasında qurmamışlar. Bəzi rayon veteranlar şuralarının rəyasət heyətləri veteranlara qayğı, gənclərin vətənpərvərlik ruhunda tərbiyə edilməsi ilə əlaqədar Respublika Veteranlar Şurasının qərarlarının və öz qərarlarının yerinə yetirilməsi işində səthiliyə, formalizmə yol verirlər, nəzarət-təftiş komissiyaları isə adları çəkilən qərarların icrasına zəif nəzarət edir, işdə olan nöqsanların aşkar edilməsi və onların aradan qaldırılması ilə kifayət dərəcədə məşğul olmurlar.

Qurultay Respublika Veteranlar Şurasının hesabatını dinləyib, müzakirə edərək Şuranın ümumilikdə səmərəli fəaliyyət göstərməsini qeyd edir və qarşıdakı dövrdə Respublikada Veteran hərəkatının daha da gücləndirilməsi üçün aşağıdakı tədbirlərin həyata keçirilməsini zəruri hesab edir:

- Bütün səviyyələrdə təşkilat işinin keyfiyyətini yaxşılaşdırmaq, təşkilatın yeni qəbul edilmiş Nizamnaməsinin





hər bir veterana ( pensiyaçıya) çatdırılması üçün kütləvi-izahat işlərini genişləndirmək;

- Veteran hərəkatına rəhbərliyə daha çox nisbətən cavan, silahlı qüvvələr, hüquq-mühafizə, dövlət orqanlarında özünü doğrultmuş , təşəbbüskar, ictimaiyyət arasında hörmət və nüfuza malik olan veteran fəallarını cəlb etmək;

- Veteranların ( pensiyaçıların) ictimai işə daha çox cəlb edilməsinə nail olmaq məqsədilə hərəkatın əsası olan ilk təşkilatların sayının artırılmasına, hər bir dövlət idarəsində, müəssisədə, kənd və qəsəbədə, mənzil istismar idarələrinin xidmət göstərdiyi ərazilərdə ilk veteran təşkilatlarının yaradılmasına nail olmaq;

- Veteran təşkilatlarının daimi komissiyalarının işini bundan sonra da gücləndirmək, həyata keçirilən tədbirlərin əhatə dairəsini genişləndirmək və onların nəticəliliyinə nail olmaq üçün daimi komissiyaların Respublikanın nazirlik və idarələri, yerli icra hakimiyyəti orqanları ilə işğüzar əlaqələrini daha da genişləndirmək. Respublika Veteranlar Şurası Daimi komissiyalarının rayonların veteran Şuralarına hamilik fəaliyyətlərini davam etdirmək;

- Təşkilatın Nizamnaməsində və Nəzarət-təftiş kom issiyalarınınƏsasnaməsindənəzərdətutulmuşmüddəaların yerinə yetirilməsini təmin etməklə bütün səviyyələrdə Veteran Şuraları nəzarət-təftiş komissiyalarının işini canlandırmaq,

- Təşkilat işini və veteran təşkilatları ilə əlaqələri gücləndirmək, hesabat və uçot işlərini qaydaya salmaq, veteran hərəkaıtında qabaqcıl təcrübəni öyrənib geniş yaymaq məqsədilə informasiya-kommunikasiya texnologiyalarının tətbiq edilməsinə ciddi fikir vermək.

- İlk addımlarını atan “ Azərbaycan Veteranı” qəzetinin respublikamızda veteran hərəkatının inkişafında mühüm rolu olduğununəzərəalaraq, qəzetəabunəyazılışınıgenişləndirməyi hər bir veteran təşkilatının əsas vəzifəsi hesab etmək ;

- Respublika Veteranlar Şurasının MDB ölkələri Veteran Təşkilatlarının Əlaqələndirmə Şurası, Dünya Veteranlar Federasiyası və ayrı-ayrı ölkələrin veteran təşkilatları ilə beynəlxalq əlaqələrini davam etdirmək ;

- Qurultay Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə, beynəlxalq Qanunlar çərçivəsində ədalətli həll olunması yolunda apardığı siyasəti öz əməli işi ilə dəstəkləyən Respublika Veteranlar Şurasının fəaliyyətini müsbət qiymətləndirir. Qurultay Ermənistanın Azərbaycan torpaqlarını 20 ildənartıqbirmüddətdəişğalaltındasaxlamasını BMT Təhlükəsizlik Şurasının öz Qətnamələrinin yerinə yetirilməsi üçün əməli tədbir görməməsində və münaqişənin həlli ilə uzun illər məşğul olan ATƏT-in işğalçı dövlətlə, işğal edilən dövlətə bir gözlə baxmasında görür. Qurultay bu iradın və bununla bağlı olan məsələlərin Respublika Xarici İşlər Nazirliyi vasitəsilə adları çəkilən qurumların rəhbərlərinə çatdırılmasını Respublika Veteranlar Şurasına tapşırır.

- Qurultay Veteran təşkilatlarına tövsiyə edir ki, Ulu öndər Heydər Əliyevin ideyaları əsasında gənclərin, gənc əsgər və zabitlərin hərbi-vətənpərvərlik təbiyəsində xalqımızın qəhrəmanlıq tarixinə daha çox diqqət yetirsinlər, gəncləri Ana Vətənə Sədaqət, cəsarətlilik, məğlubedilməzlik, qələbəyə inam ruhunda tərbiyə edib, canlarını vətən yolunda fəda etmiş Babəkin, Cavanşirin, Şah İsmayıl Xətainin, Cavad xanın, Həzi Aslanovun, Mehdi Hüseynzadənin, Mübariz İbrahimovun qəhrəmanlıq nümunələrini gənc nəslə geniş təbliğ etsinlər.

- Qurultay Veteran təşkilatlarının və fəallarının Azərbaycan xalqının Ümummilli Lideri, müasir Azərbaycan Respublikasının memarı, Ulu öndər Heydər Əliyevin 90 illik yubileyinə hazırlıqla əlaqədar gördükləri işləri bəyənir, qarşıdan gələn Prezident seçkiləri münasibətilə onların Prezident İlham Əliyevə ünvanladığı Müraciəti dəstəkləyir".





Respublika Veteranlar Şurasının V Qurultayından sonra, RVŞ-nin 2014-cü il yanvar ayının 28-də keçirilən Plenumunun qərarı ilə Şuranın yeni Nizamnaməsi 2-ci redaksiyada qəbul edilmiş və 2014-cü il aprel ayının 9-da Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatından keçirilmişdir.

RVŞ-nin 2014-cü il avqust ayının 01-də keçirilən Plenumunun qərarı ilə təşkilatın Nizamnaməsinə edilmiş əlavə və dəyişikliklər 2014-cü ilin oktyabr ayının 27-də Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatından alınmışdır. Həmin əlavə və dəyişikliklərə əsasən təşkilatın adı Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranlar Təşkilatı İctimai Birliyi kimi müəyyənləşmiş və buna uyğun olaraq Nizamnamənin bütün bəndələrində "Şura" sözü "Təşkilat" sözü ilə əvəz edilmişdir.

**AZƏRBAYCAN RESPUBLİKASININ ƏDLİYYƏ NAZİRLİYİ**

**QEYRİ-KOMMERSİYA QURUMLARININ VƏ TƏHSİL MÜƏSSİSƏLƏRİNİN DÖVLƏT REYESTRİNDƏN ÇIXARIŞ**

1.Qurumun adı: Azərbaycan Respublikası Müharibə ,Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı

2.Qeydiyyatın tarixi: 10.03.1992-ci il

3. Qeydiyyatın №-si: 163

4. Təşkilati- hüquqi forması: ictimai birlik
5.Maliyyə ili: 1 yanvar-31 dekabr
6.Hüquqi ünvanı: Bakı, lermontov küçəsi 68
7.Fəaliyyət ərazisi: Azərbaycan Respublikası
8.Fəaliyyət predmeti və öz üzvlərinin maraqlarının qorunmasına kömək etmək məqsədi
9.Əvvəlki qanuni təmsilçisi: Baxışov Əlövsət Məmmədşah oğlu
10.Hazırki qanuni təmsilçisi: Rzayev Dadaş Qərib oğlu
11.Qeydiyyata alınmanın Plenumun 28.01.2014-cü il tarixli qərarı və
hüquqi əsasları: digər sənədlər

12.Dəyişikliyin qeydiyyat tarixi: 09.04.2014-cü il

09.04.2014

(çıxarışın verildiyi tarix)

№ 11 / 754

Qeydiyyat və notariat
baş idarəsinin rəisi





## RVT-nin 2016-cı ilin yanvarından 2017- ci ilin martına qədərki fəaliyyəti

Respublika Veteranlar Təşkilatının tarixində mühüm yer tutan Təşkilatın son ilyarımda, 2016-cı ilin yanvarından 2017-ci ilin mart ayına qədərki fəaliyyətindən də bəhs etməklə, 30 illik tarixə qısa baxışı tamamlamaq istəyirik. Yəqin gələcəkdə Respublika Veteranlar Təşkilatının fəaliyyəti barədə yazacaq müəlliflər ötən 15 illik dövrdən daha geniş bəhs edəcək, onu daha geniş şəkildə araşdırılmaqla yeni kitablar yazacaq, digər mətbu nəşrlər hazırlayacaqlar.

Respublika Veteranlar Təşkilatının 2016-cı il və 2017-ci ilin 3 ayı üzrə fəaliyyətinin ilkin təhlili göstərir ki, bu mərhələdə Təşkilatın işi səmərəli qurulmuş, keçirilən tədbirlərin sadəcə sayı artmamış, səviyyəsi də yüksəlmişdir. Bu dövrdə Respublika Veteranlar Təşkilatı dövlət orqanları və ictimai təşkilatlarla sıx əlaqədə işləmiş, xarici əməkdaşlıq əlaqələrini daha da genişləndirmiş, bütövlükdə fəaliyyətinin səmərəsinin yüksəldilməsinə nail olmuşdur.

Respublika Veteranlar Təşkilatının 2016-cı il üzrə İş planının necə yerinə yetirildinin əksini tapdığı hesabat bu baxımdan əhəmiyyətli sayıla bilər. Bunu nəzərə alaraq, Təşkilatın sədr müavininin Respublika Veteranlar Təşkilatının 6-cı Plenumundakı çıxışı əsasında hazırlanmış həmin sənədi qısa ixtisarla diqqətinizə çatdırırıq.

"Əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş, hazırda Azərbaycan Respublikası Prezidentinin uğurla davam etdirdiyi veteranlara qayğı siyasətinin

başlıca məqsədi vətənpərvər insanların xidmətlərinin qiymətləndirilməsi, cəmiyyətdəki mövqeyinin, sosial müdafiəsinin gücləndirilməsidir. İnamla deyə bilərik ki, bu zümrəyə aid edilən insanların, problemlərinin vaxtında həlli dövlətin həyata keçirdiyi ardıcıl və məqsədyönlü xətdir. Hər il İkinci dünya müharibəsi iştirakçılarına, bu müharibədə həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövürdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə verilən birdəfəlik maddi yardımın həcminin artırılması (2016-cı ildə bu məbləğ 1000 və 500 manat olmuşdur), eləcə də veteranların sosial müdafiəsinin gücləndirilməsi sahəsində yalnız 2016-cı ildə imzalanan fərmanlar bu qayğının əyani sübutlarıdır.

Respublika Veteranlar Təşkilatı bu qayğı və diqqəti yüksək qiymətləndirir və ona layiqincə cavab vermək üçün fəaliyyətinin səmərəliliyini ildən-ilə artırmağa çalışır.

Bunu fəaliyyət istiqamətləri üzrə hesabat dövründə həyata keçirilən tədbirlər də aydın göstərir. 2016-cı il üzrə Tədbirlər Planına və Rəyasət Heyətinin qərarlarına uyğun olaraq Respublika Veteranlar Təşkilatının 01 yanvar-22 noyabr 2016-cı il ərzindəki fəaliyyəti əsasən bir neçə istiqamət üzrə təşkil olunmuşdur. Bunlardanənbaşlıcası İkincidünyamüharibəsində alman faşizmi üzərində Qələbənin 71 illiyimünasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin həmin müharibənin iştirakçılarıilə görüşünün təşkili və 71 illiyə hazırlıq istiqamətində həyata keçirilən tədbirlərlə bağlı olmuşdur. Bu barədə istiqamətlər üzrə danışılarkən geniş məlumat çatdırılacaqdır.

**Gənclərin hərbi vətənpərvərlik tərbiyəsi istiqaməti**

**1.Rayon səviyyəli tədbirlər:**





Gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onların Azərbaycan dövlətinə və xalqına sədaqət ruhunda yetişmələri məqsədi ilə İkinci dünya, Qarabağ, Əfqanıstan müharibələri, əmək, Silahlı Qüvvələr veteranlarının iştirakı ilə ölkənin bütün rayonlarda, o cümlədən Bakı şəhərinin Səbail, Nəsimi, Yasamal, Nərimanov, Nizami, Suraxanı, Sabunçu, Binəqədi rayonlarında, eləcə də 2 Liseydə tədbirlər keçirilmişdir.

Bu tədbirlərdə Təşkilatın rəhbərliyi, şöbə müdirləri, baş mütəxəssislər, mütəxəssislər, "Azərbaycan Veteranı" qəzetinin əməkdaşları, rayon Veteran Təşkilatılarının sədrləri, yerli icra orqanlarının, ictimaiyyətin və medianın nümayəndələri iştirak etmişlər.

2.Respublika səviyyəli tədbirlər

Yanvarın 15-də Naxçıvanski adına Hərbi Liseydə, 24 fevralda isə Kaspi Təhsil Mərkəzinin Kaspi liseyində Təşkilatın və liseylərin rəhbərliyinin iştirakı ilə tədbir keçirilmişdir.



Mart ayının 3-də Təşkilatın inzibati binasında Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin bir qrup nümayəndəsi ilə ölkə veteranlarının geniş tərkibdə görüşü keçirilmişdir.

Tədbirdə Azərbaycan Respublikası Sosial Müdafiə Fondunun sabiq sədri, YAP Gənclər Birliyinin rəhbərliyi, ziyalılar və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

11 mart 2016-cı il tarixdə Təşkilatın inzibati binasında“Multikulturalizmin Azərbaycan nümunəsi: Multikulturalizmin inkişafı və beynəlxalq platformaya çevirilməsi başlıca məqsəddir” mövzusunda elmi – praktik konfrans keçirilmişdir. Konfransda Azərbaycan Respublikasının Millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyinin nümayəndəsi, elmi ictimaiyyətin nümayəndələri,veteranlar, ziyalılar iştirak etmişlər.

Qələbəbayramıərəfəsindəvəondansonra, xüsusiləmart-aprel-may aylarında Azərbaycan Xalça Muzeyində Dövlət Uşaq Filarmoniyası, Bakı Slavyan, Qərb, Dövlət İqtisad, Odlar Yurdu Universitetlərində, Səttar Bəhlulzadə adına Xarici dillər təmayüllü gimnaziyada, Dövlət Təhlükəsizlik Xidmətinin Akademiyası, Müdafiə Nazirliyinin Hərbi Akademiyası, Dövlət Sərhəd Xidmətinin Akademiyası və Milli Qvardiyada İkinci Dünya müharibəsi veteranları ilə görüşlər keçirilmişdir. Görüşlərdə Təşkilatın rəhbərliyi və nümayəndələri, həmin təhsil ocaqları və idarələrin rəhbərliyi iştirak etmişdir.

08 aprel 2016-cı il tarixində Respublika Veteranlar Təşkilatında Azərbaycan və Ermənistan qoşunlarının təmas xəttində ermənilərin təxribatının qarşısını alınması ilə əlaqədar “Biz Azərbaycan əsgərinə, Ali Baş Komandanımıza və parlaq qələbəmizə inanırıq” mövzusunda tədbir keçirilmişdir.

04 may 2016-cı il tarixində Respublika Veteranlar Təşkilatında Azərbaycan xalqının Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 93-cü ildönümünə həsr edilmiş tədbir keçirilmişdir.7 may 2016-cı ildə AR Müdafiə Nazirinin müavini general-leytenant Kərim Vəliyevlə İkinci Dünya müharibəsi veteranlarının görüşü təşkil olunmuşdur.





9 may 2016-cı ildə faşizmi üzərində Qələbənin 71 illiyimünasibətilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin İkinci dünya müharibəsi iştirakçılarılə görüşü baş tutmuş, dövlət başçısının adından veteranlara böyük ziyafət verilmişdir. Həmçinin Qələbənin 71 illiyi münasibətilə icra hakimiyyətlərində keçirilən tədbirlərdə veteranların iştirakı təşkil edilmişdir.

Səfərbərlik və hərbi xidmətə çağrış üzrə Dövlət Xidmətinin Respublika üzrə təşkil etdiyi “Vətənin Müdafiəsinə Hazıram” adlı silsilə tədbirlər çərçivəsində Daşkəsən, Qazax, Abşeron, Qaradağ, Suraxanı, Yasamal rayonlarında keçirilən tədbirlərdə iştirak edilmişdir.

Mayın ayının 19-20-də Respublika Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev və Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov cəbhə bölgəsinə səfər edərək N saylı hərbi hissənin şəxsi heyəti ilə görüşüblər. Görüşdə veteranlarımızın yaşlarının ixtiyar çağlarında Qarabağ uğrunda döyüşlərə atılmağa hazır olduqları, RVT-nin gənclərin vətənpərvərlik tərbiyəsində, onların orduya hazırlanmasında bundan sonra da səylərini əsirgəməyəcəyi vurğulanmışdır. Eləcə də, Təşkilat nümayəndələri və veteranların Bərdə, Tərtər, Qazax, Horadiz istiqamətində döyüş rayonlarında hərbi hissələrin şəxsi hüyəti ilə görüşləri təşkil olunmuşdur.

Mayın ayının 26-da RVT-nin inzibati binasında Bakı Slavyan Universitetinin tələbələrinin iştirakı ilə Respublika günü münasibətilə “Gənclərdə milli ruhun gücləndirilməsi” mövzusunda ədəbi-bədii gecə keçirilib.

02 iyun 2016-cı il tarixdə Təşkilatın inzibati binasında ermənilərin II dünya müharibəsində alman faşizminə xidmət etmiş, ermənilərdən ibarət qisasçı legionun yaradıcıları general Dronun və Qaregen Njdenin MDB məkanında genişmiqyaslı təbliğatına, onların qəhrəman kimi təqdim

edilməsinə, barələrində filmlərin çəkilməsinə, Yerevanda abidələrinin qoyulmasına etiraz olaraq tədbir keçirilmiş və MDB dövlətlərinin başşılarına, parlamentlərinə, beynəlxalq təşkilatlara, veteran təşkilatlarına müraciət qəbul edilmişdir.

Bu il Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə "Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq" adlı layihə çərçivəsində ölkənin 4 regionunda və Bakı şəhərində seminar-müşavirələr keçirdik. Bu tədbirlərin əsas məqsədi xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqına, dövlətinə sədaqət, tarixinə hörmət hissi aşılanması, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin, bu istiqamətdə dövlət orqanlarının apardığı işə dəstək verilməsidir.

6 sentabr 2016-cı ildə AR Konstitusiyasına dəyişikliklərlə əlaqədar referendumla bağlı tədbir keçirilmişdir. Eləcə də, referendumla əlaqədar "Vətəndaş cəmiyyəti" təşviqat qrupunda fəal iştirak edilmişdir.

"Bakinskiy raboçiy" və "Kaspi" qəzetlərində yubiley münasibəti ilə keçirilən tədbirlərdə RVT-nin nümayəndələri iştirak etmişlər.

Təşkilatın inzibati binasında oktyabrın 14-də Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü, 21 oktyabrda isə Respublika Veteranlar Təşkilatının ilk sədri, general-mayor Mustafa Nəsirovun 95 illik yubileyi ilə bağlı tədbirlər keçirilmişdir.

27 oktyabr 2016-cı ildə Respublika Veteranlar Təşkilatının inzibati binasında İkinci dünya müharibəsində Moldova Respublikasında həlak olmuş və itkin düşmüş sayılan azərbaycanlı döyüşçülərdən 206 nəfərinin taleyinin aydınlaşması münasibətilə tədbir keçirilmişdir. Tədbirdə





Moldova Respublikasının Azərbaycan Respublikasındakı səfiri, Türkiyənin Müharibə Veteranları Dərnəyinin Qars vilayəti üzrə rəhbərləri iştirak etmişlər.

Bir qayda olaraq bizm tədbirlərdə İkinci Dünya müharibəsi veteranları, Təşkilatın rəhbərliyi və nümayəndələri, rayon Veteran Təşkilatılarının sədrləri, yerli icra orqanları və ictimaiyyətin, eləcə də media nümayəndələri iştirak edirlər.

## II.Veteranların sosial müdafiəsi istiqaməti

Hesabat dövrü ərzində veteranların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində bir sıra işlər görülmüşdür. Veteranların yaşayış səviyyəsinin yüksəldilməsi, mənzil-məişət və maddi şəraitinin yaxşılaşdırılması, onların müəyyənləşdirilmiş güzəşt və imtiyazlardan faydalanmalarına, ölkənin ictimai-siyasi həyatında fəal iştirak etmələrinə diqqət göstərimişdir. Bu istiqamətdə fəaliyyət Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi, şəhər və rayon icra hakimiyyətləri, bələdiyyə orqanları və digər dövlət və qeyri-hökümət təşkilatları ilə qarşılıqlı əlaqədə həyata keçirilir.

Təşkilata daxil olmuş 50-dən çox ərizəyə baxılmış və onlarla bağlı ünvanlara, o cümlədən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə, Qaçqınların və Məcburi Köçkünlərin işləri üzrə Dövlət Komitəsinə, Daxili İşlər Nazirliyinin Baş Pasport, qeydiyyat və miqrasiya idarəsinə, Veteranlar Təşkilatına, "Azərbaycan Dəmir Yolları" QSC-yə, Respublika Mərkəzi Bankına, Parabank-a Nəsimi, Yasamal, Şəki, Goranboy rayon icra hakimiyyətlərinə, "Silk Way Helicopter Services" MMC-yə və digər təşkilatlara məktublar göndərilmiş və ərizəçilərə görülmüş tədbirlər barədə məlumatlar verilmişdir.

Xarici İşlər naziriliyindən 4/39-093/03/16 saylı 02.03.2016-cı il tarixli və Azərbaycan Respublikasının Rusiya

Federasiyasındakı səfirliyi tərəfindən 031-2 saylı 29.02.2016-cı il tarixli daxil olmuş məktublarla (Smolensk vilayətinin Yartsevskiy rayon bələdiyyəsi ərazisində nəşi tapılmış əslən azərbaycanlı təyyarəçi İsrafilov Əziz Abdulağa oğlunun qohumlarının tapılmasına kömək barədə) əlaqədar yazışmalar aparılmış, təyyarəçinin qohumları tapılmış və Xarici İşlər Nazirliyinə, ölkəmizin Rusiya Federasiyasindakı səfirliyinə məlumat verilmişdir.

Bu il möhtərəm prezidentin Veteranlar Təşkilatına ayırdığı yarım milyon manat vəsaitin xeyli hissəsinin yataq xəstəsi olan İkinci Dünya müharibəsi veteranlarına çatdırılması ilə bağlı lazımi sənədləşdirmə işləri yekunlaşmışdır. Artıq Bakı şəhərinin rayonları üzrə ayrılmış müvafiq maddi yardımlar əməkdaşlarımızın və yerli icra hakimiyyəti nümayəndələrinin iştirakı ilə RVT Rəyasət Heyəti adından veteranlara çatdırılmışdır. Digər rayonlar üzrə bu işlər ilin sonunadək yekunlaşacaqdır. Ölkənin 4 regionunda və Bakı şəhərində şəhid ailələrinə maddi yardımlar da eyni qaydada çatdırılmışdır.

Veteranların ümumi, eləcə, də ayrı-ayrı qruplar üzrə say tərkibi dəqiqləşdirilmişdir. Hazırda arxa cəbhə veteranları, onların dul qadınları ilə bağlı məlumatlar dəqiqləşdirilir.

Təşkilatda 100-dək veteran qəbul edilmiş, həmçinin telefon vasitəsilə müraciət etmiş veteranlara problemlərinin həllində mümkün köməklik göstərilmişdir. Bununla yanaşı, Veteranlar Təşkilatına digər məsələlərlə əlaqədar müraciət edən veteranlar qəbul edilmiş, onların qaldırdıqları problemlərin həlli üçün mümkün tədbirlər görülmüş, köməklik göstərilmişdir.

Moldova Respublikası ərazisində Böyük Vətən müharibəsində həlak olmuş Azərbaycanlıların xatirəsini əks etdirən "Xatirə kitabı" Bakı və Sumqayıt şəhərlərindən orduya göndərilmiş 40 nəfər Azərbaycan vətəndaşının qohumlarının





tapılması məqsədilə siyahı tərtib edilərək, axtarış işləri aparılmış, 4 nəfərin qohumları aşkarlanaraq, onlardan Sumqayıt şəhəri və Xəzər rayonunda yaşayan 2 nəfərin 27 oktyabr 2016-cı il tarixində keçirilən tədbirdə iştirakı təmin olunmuşdur. Kitabda adları keçən digər döyüşçülərin qohumlarının axtarışı davam etdirilir.

Veteranların yubileylərinin keçirilməsi, sağlamlıqlarının qorunması, asudə vaxtlarının səmərəli təşkili də diqqətdə saxlanılmış, bir qrup veteran ölkənin sanatoriya-kurort müalicəsi almış, Şahdağa, Qobustana səfərləri təşkil edilmişdir. Biz ümumi rəyi və veteranların çoxsaylı müraciətlərini nəzərə alaraq, veteranların bəzi imtiyazlarının bərpası barədə müvafiq dövlət orqanlarına müraciət etməyi qərar almışıq. Zənnimcə, bu məsələnin müsbət həlli veteranların sosial müdafiəsinin daha da gücləndirilməsinə əlavə dəstək olacaqdır.

## III Təşkilati iş istiqaməti

2016-cı ildə Quba, Qax, Şəmkir, İsmayıllı və Kürdəmir rayon veteranlarının növbədənkənar konfransları keçirilmiş, həmin təşkilatların yeni sədrləri seçilmişdirlər. Yeri gəlmişkən, bəzi rayon təşkilatlarının sədrlərinin səhhətində yaranmış problemlərlə əlaqədar və öz xahişləri nəzərə alınaraq, həmin rayonlarda da kadr dəyişiklikləri planlaşdırılır.

Respublika Veteranlar Təşkilatı 20 yanvar faciəsi və Xocalı soyqırımı şəhidlərinin əziz xatirəsinin yad edilməsi mərasimlərində fəal iştirak etmişdir.

Respublika Veteranlar Təşkilatının əməkdaşları və bir qrup veteran əlamətdar günlərdə Ümummilli lider Heydər Əliyevin məzarını və "Şəhidlər Xiyabanı"nı onların xatirəsinin yad edilməsi məqsədilə ziyarət etmişlər.

Qax, Mingəçevir, Lənkəran, Masallı, Biləsuvar və Şəmkir rayon təşkilatlarının iş şəraiti və fəaliyyətləri öyrənilmiş, onlara müvafiq tövsiyələr verilmişdir.

Şabran rayonunda yaşayan Böyük Vətən Müharibəsi veteranı Əhmədov Məhəmməd Seyfəs oğlunun 98 illiyi, Şamaxı rayonunda yaşayan Ağayev Hacı Firudin oğlunun 90 illiyi, Sabunçu rayonunda yaşayan Məmmədov Əliş Muxtar oğlunun 80 illiyi, Binəqədi rayon veteranlar təşkilatının sədri ehtiyatdaolanpolkovnik Telman Hətəmovun 70 illikyubileyləri keçirilmişdir. Biz bu ənənəni, veteranlarımıza mənəvi diqqəti növbəti illərdə də davam etdirmək əzmindəyik. Təşkilatın nümayəndələri "Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələri" İctimai Birliyinin 15 illik, "Çernobl əllilləri ictimai birliyi"nin 30 illik yubiley mərasimilərində, xalq şairi Zəlimxan Yaqubun xatirəsinə həsr olunmuş tədbirdə, Qarabağ müharibəsi veteranı Vəli Məmmədovun 85 illik yubiley gecəsində, Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilmiş dövlət tədbirində vəs. tədbirlərdə iştirak və çıxış etmişlər.

Respublika Veteranlar Təşkilatının 30 illik yubileyininin qeyd edilməsi məqsədilə müvafiq tədbirlər planı hazırlamışdır. Həmin plana əsasən yubiley münasibətilə ayrı-ayrı təşkilat və müəssisələrdə, xüsusilə təhsil ocaqlarında tədbirlərin keçirilməsi, ölkə KİV-də, o cümlədən elektron KİV-də müvafiq məqalə, veriliş və çıxışların təşkili, Respublika Veteranlar Təşkilatının tarixinə aid kitabın yazılıb çap etdiriməsi, sənədli filmin çəkilməsi, mədəni-kütləvi və müxtəlif ölkələrin veteran təşkilatları ilə əlaqələr çərçivəsində birgə tədbirlərin təşkili və s. işlər görüləcəkdir. Yubileylə bağlı növbəti ilin oktyabr ayınadk bütün tədbirlərin "Respublika Veteranlar Təşkilatı - 30" devizi altında keçirilməsi qərara alınmışdır.





## IV Beynəlxalq əlaqələr istiqaməti

Respublika Veteranları Təşkilatının beynəlxalq və ictimaiyyətlə əlaqələrinin daha da genişlənməsi, bu əlaqələrin yeni keyfiyyət səviyyəsinə qaldırılması zərurəti nəzərə alınaraq, 2016-cı ildə Respublika Veteranlar Təşkilatının ştat strukturunda dəyişiklik edilmiş, beynəlxalq və ictimaiyyətlə əlaqələr şöbəsi yaradılmışdır. Təşkilatın beynəlxalq əlaqələrinin daha da genişləndirilməsi məqsədilə MDB dövlətlərinin veteran təşkilatlarına məktubla müraciət edilmiş, təkliflər verilmişdir. Artıq Rusiya Federasiyası, Qazaxstan, Moldova, Belarus, Gürcüstan Respublikalarının Veteran Təşkilatlarından razılıq məktubları alınmışdır. Bu təşkilatların tədbirlərinə RVT daim dəvət alır.

İkinci dünya müharibəsində alman faşizmi üzərində Qələbənin 71 illiyi ilə əlaqədar Müstəqil Dövlətlər Birliyinin veteran təşkilatlarının rəhbərlərinə təbrik məktubları göndərilmiş,MDB dövlətlərinin Bakıdakı səfirliklərinin keçirdikləri tədbirlərdə Təşkilatın rəhbərliyi iştirak etmişdir. Rusiya Federasiyası, Ukrayna və Belarus Respublikalarının səfirliklərində Azərbaycanın Böyük Vətən müharibəsi veteranlarına Qələbənin 71 illiyinə həsr olunmuş xatirə medalları təqdim edilmişdir. Eləcə də, mayın 13-də Respublika Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində Böyük Vətən Müharibəsində Ukraynanın faşizm işğalından azad olunmasında iştirak edən azərbaycanlı döyüşçülərə xatirə medalları təqdim edilmişdir. Mərasimdə çıxış edən Ukraynanın Azərbaycandakı səfiri cənab Aleksandr Mişenko bildirib ki, Ukrayna Prezidenti P.Poroşenkonun sərəncamı ilə 316 nəfər azərbaycanlı veteran döyüşçü medallarla təltif olunmuşlar. Bayramlar, o cümlədən ümumi və milli bayramlar, həmçinin ayrı-ayrı tanınmış veteranların yubileyləri ilə

əlaqədar qarşılıqlı təbriklərin göndərilməsi mütəmadi xarakter almışdır. Qələbənin 71 illiyinə həsr olunmuş “Память и По-бе-да” kitabının nəşrində fəal iştirak edilmiş və həmin kitab 9 may Qələbə günündə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə təqdim olunmuşdur.

Təşkilatın beynəlxalq əlaqələrinin genişləndirilməsi məqsədi ilə dövlət orqanları, xüsusilə Xarici İşlər Nazirliyi ilə əlaqələr intensivləşmişdir.

Bu ilin iyun ayında RVT-nin sədr müavini Ukrayna veteranları təşkilatının dəvəti ilə Kiyev şəhərində olmuşdur. Təşkilatın sədr müavini polkovnik Viktor Şmaraya və Ukraynanın keçmiş Müdafiə Naziri Valeriy Şmakova RVT-nin “Veteran həmrəyliyi” medalını təqdim etmişdir. Görüşlər zamanı Ukrayna və Azərbaycan veteranlar təşkilatlarının qarşılıqlı səfərləri razılaşdırılmışdır.

## Beynəlxalq tədbirlərdə iştirak

Sentyabrın 29-30-da Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində Ümumrusiya Veteranları İctimai Təşkilatlarının 60 illik yubileyi ilə bağlı konfrans keçirilmişdir.

22 ölkədən nümayəndələrin qatıldığı tədbirdə Azərbaycanı Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov təmsil etmişdir.

Yubiley Konfransının iştirakçıları Sovet İttiifaqı marşalı G.K.Jukovun abidəsini ziyarət etmiş, abidə önünə əklil qoymuşlar.

Yubiley Konfransını giriş sözü ilə Rusiya Veteranlar Təşkilatının sədri ordu generalı Mixail Alekseyeviç Moiseyev açmışdır. Yubiley Konfransında təbrik nitqi ilə çıxış edən Cəlil Xəlilov İkinci Dünya müharibəsində faşizm üzərində





böyük qələbənin əldə olunmasında Azərbaycanın yaxından iştirakından, azərbaycanlıların qəhrəmancasına vuruşaraq ən yüksək fəxri adlara, orden-medallara layiq görülməsindən, qanlı döyüşlərdə 300 mindən çox soydaşımızın həyatlarını itirməsindən danışmış, bəşəriyyətin dəhşətli bəladan xilasında xalqların birgə nailiyyətinə verilən digər töhfələrdən bəhs etmişdir. Ölkəmizdə 9 may Qələbə gününün hər il böyük təntənə ilə qeyd edildiyini, veteranlara dövlət tərəfindən xüsusi qayğı göstərildiyini bildirən C.Xəlilov tədbir iştirakçılarınn diqqətini İkinci Dünya müharibəsinin tarixinin, ümumən tarixin ermənilər tərəfindən məqsədli şəkildə saxtalaşdırılmasına, belə münasibətin yolverilməzliyinə yönəltmiş, Azərbaycanın bu məsələlərdə tutduğu qəti və obyektiv mövqeyi çatdırmışdır.



O demişdir: “Bu gün 20 faizdən çox Azərbaycan ərazisini işğal altında saxlayan Ermənistan tərəfi özünün təcavüzkarlıq siyasətini daha açıq və arxayın şəkildə davam etdirməklə də qalmır, alman faşizminə xidmət göstərmiş erməni cəlladları general Dronun, Qaregen Njdenin bəraətinə çalışır. Biz Azərbaycan veteranları, ümumən cəmiyyəti bu cinayətləri birmənalı şəkildə qınamış və rədd etmiş, dünya ictimaiyyətini

ermәni faşizminin ifşasına biganә qalmamağa sәslәmişik. Bununla bağlı müraciәt hazırlanaraq Azәrbaycan veteranları adından MDB ölkәlәrinin dövlәt vә hökumәt başçılarına, hәmin ölkәlәrin parlament üzvlәrinin elektron ünvanlarına, veteran tәşkilatlarına, beynәlxalq tәşkilatlara göndәrilmişdir. Mәn hәmin müraciәtin vә öz çıxışımın mәtnini bugünki yubiley Konfransının Rәyasәt Heyәtinә tәqdim edirәm".

Cәlil Xәlilov çıxışınında hәmçinin Azәrbaycanın İkinci Dünya müharibәsindә iştiraki ilә әlaqәli ucaldılmış abidәlәrin, komlekslәrin, muzeylәrin vә ayrı-ayrı döyüşçülәrlә bağlı xatirә yerlәrinin qorunmasından, daim qayğı ilә әhatә olunmasından danışmışdır.

Cәlil Xәlilov elәcәdә,Azәrbaycan Veteranlar Tәşkilatının xüsusilә MDB ölkәlәrinin müvafiq tәşkilatları ilә әmәkdaşlıq әlaqәlәrinә mühüm әhәmiyyәt verdiyini, ötәn illәrdә Tәşkilatın bu istiqamәtdә fәaliyyәtinin daha sәmәrәli qurulduğunu vurğulamış, göstәrilәn mәsәlәlәrdә fәallığı xalqlarımızın birgә tarixi keçmişi, bu әnәnәlәrin yaşadılmasının mühüm әhәmiyyәt kәsb etmәsi ilә әlaqәlәndirmişdir.

Respublika Veteranlar Tәşkilatının sәdr müavini, ehtiyatda olan polkovnik Cәlil Xәlilov 60 illik yubiley münasibәtilә Rusiya Veteranlar Tәşkilatının muzeyinә Azәrbaycanda qәhrәmanlıq rәmzi sayılan qılınc vә 2 dәfә Sovet İttifaqı Qәhrәmanı Hәzi Aslanovun barelyefi işlәnmiş qiymәtli çini qab hәdiyyә etmiş, Rusiya Veteranlar Tәşkilatının sәdri ordu generalı Mixail Alekseyeviç Moiseyevә Azәrbaycan Respublikası Müharibә, Әmәk vә Silahlı Qüvvәlәr Veteranları Tәşkilatı Rәyasәt Heyәti adından "Veteran hәmrәyliyi" medalını tәqdim etmişdir.

Yubiley Konfransında digәr ölkәlәrin tәmsilçilәri dә çıxış etmişlәr".

Ümumrusiya Veteranlar Tәşkilatının 60 illik yubileyi. Sentyabr ayında Rusiya Federasiyasının Silahlı Qüvvәlәri





Veteranları Tәşkilatının sәdri, ordu generalı Viktor Yermakov RVT-dә olmuşdur. RVT-nin sәdri D.Rzayev Azәrbaycanda veteranlara göstәrilәn diqqәt vә qayğıdan, onların sosial problemlәrinin hәll edilmәsindәn qonağı әtraflı mәlumatlandırmışdır. Ordu generalı Viktor Yermakov RVT-yә yaradılan şәraitdәn, veteranlara göstәrilәn qayğıdan bütün MDB ölkәlәrinin nümunә götürmәli olduğunu bildirmişdir.

26-30 oktyabr 2016-cı il tarixlәrindә Türkiyәnin Müharibә Veteranları Dәrnәyinin Qars vilayәti üzrә nümayәndә heyәtinin Bakıya sәfәri tәşkil edilmişdir. Qonaqların Tәşkilatın rәhbәrliyi, Müdafiә Nazirliyinin vә Türkiyәnin ölkәmizdәki sәfirliyinin rәsmlәri ilә görüşlәri tәşkil olunmuş, qonaqlarla Müdafiә Nazirliyinin H.Әliyev adına Hәrbi Mәktәbindә görüş keçirilmiş, onlar Bakı şәhәrinin tarixi yerlәri vә ölkәnin muzeylәri ilә tanış edilmişlәr.

15 noyabr 2016-ci il tarixindә Moskva şәhәrindә Müharibә vә Silahlı Qüvvәlәr veteranları evindә "Müstәqil Dövlәtlәrin Veteranlar (pensiyaçılar) İctimai Tәşkilatları İttifaqı"nın VI Beynәlxalq qurultayı keçirilmişdir.

Qurultayda Azәrbaycanı Müharibә, Әmәk vә Silahlı Qüvvәlәr Veteranları Tәşkilatını sәdr müavini, ehtiyatda olan polkovnik Cәlil Xәlilov tәmsil etmişdir. C.Xәlilov әn mәhsuldar illәrini vәtәnә xidmәtә hәsr etmiş veteranları Azәrbaycan veteranları adından salamlayaraq, Tәşkilatın Rusiya Federasiyası, Ukrayna, Belarus, Moldova Respublikası icmaları, MDB ölkәlәrinin sәfirliklәri ilә sıx әmәkdaşlıq әlaqәlәri saxladığını qeyd etmiş, son illәrdә MDB ölkәlәrinin müvafiq qurumları ilә әmәkdaşlıq әlaqәlәrinin güclәndiyini, әmәkdaşlığın daha da inkişaf etdirilәcәyini vurğulamışdır.

O, İkinci Dünya müharibәsindә faşizm üzәrindә qәlәbәnin әldә olunmasında Azәrbaycanın yaxından iştirakından, azәrbaycanlıların qәhrәmanlığından, qanlı döyüşlәrdә 300 mindәn çox soydaşımızın hәyatlarını

itirməsindən danışmış, bəşəriyyətin dəhşətli bəladan xilasında xalqların birgə nailiyyətinə verilən digər töhfələrdən bəhs etmişdir. C.Xəlilov həmçinin tədbir iştirakçılarının diqqətini İkinci dünya müharibəsinin tarixinin ermənilər tərəfindən məqsədli şəkildə saxtalaşdırılmasına, belə münasibətin yolverilməzliyinə yönəltmiş, Azərbaycanın bu məsələlərdə tutduğu qəti və obyektiv mövqeyi çatdırmışdır.

Sonda C. Xəlilov Azərbaycan Veteranlar Təşkilatı tərəfindən nəşr olunmuş "Победа и память» ("Qələbə və yaddaş") kitabını İttifaqın Rəyasət Heyətinə hədiyyə etmişdir.

Qurultayda Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Rzayev və Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov "Müstəqil Dövlətlərin Veteranlar (pensiyaçılar) İctimai Təşkilatları İttifaqı"nın Rəyasət Heyətinə yenidən üzv seçilmişlər.

Hər il 9 may ərəfəsində Avstriyanın paytaxtı Vyanada yerləşən beynəlxalq "Qara Xaç" cəmiyyətinin üzvləri və Almaniyadan gələn qonaqlar Bakı, Sumqayıt, Mingəçevir, Şirvan şəhərlərində İkinci dünya müharibəsində əsir düşmüş və vəfat etmiş insanların dəfn edildikləri qəbirstanlıqlara ziyarətləri təşkil olunur.

## V. Təbliğati iş istiqaməti

Hesabat dövründə Təşkilatın orqanı olan "Azərbaycan Veteranı" qəzetinin 18 sayı dərc olunmuş, qəzetə yerlərdən müəllif məqalələrinin təşkili və 2016-cı ilin II yarımilliyində qəzetə abunə yazılışının təşkili sahəsində iş aparılmışdır. Artıq 6 aydır ki, Təşkilatın "veteran. az" saytı yaradılmış və fəaliyyət göstərir.

Tədbirlərimiz haqqında ölkə KİV-lərində, dövlət və müstəqil informasiya agentliklərində geniş məlumatlar





verilmiş, "Azərbaycan", "Respublika", "Ədalət", "Xalq qəzeti", "İki sahil" və s. qəzetlərdə, Azərbaycan TV, İctimai TV, Lider TV, ATV-də yayimlanmışdır. Eləcə də, Respublika Veteranlar Təşkilatının əməkdaşları "Azərbaycan", "Respublika", "Ədalət" və s. qəzetlərdə məqalələrlə çıxış etmiş, müxtəlif televiziyaların hazırladığı verilişlərdə iştirak etmişlər.

Rusiya Federasiyası telekanallarının Bakıda yerləşən daimimüxbirpostları, həmçinindigərölkələrinAzərbaycandakı media qurumları ilə əlaqələrdən də təbliğati işin qurulmasında səmərəli istifadə olunmuşdur.

Hesabat müddətində fəaliyyətin səmərəli qurulmasında Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi altında veteranlara göstərilən qayğı və diqqətin mühüm rol oynadığını bir daha xüsusi vurğulamaq istərdim. Plenum iştirakçıları və veteranlar adından yaradılmış şəraitə görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə dərin minnətdarlığımızı çatdırır, Respublika Veteranlar Təşkilatının həmişə dövlətin, xalqın yanında olduğunu, möhtərəm Prezidenti dəstəklədiyini bildirirk".

Eyni zamanda, gələcək tədqiqatların aparılmasında faktoloji əhəmiyyətini nəzərə alaraq, Respublika Veteranlar Təşkilatının 2016-cı ildə keçirdiyi bəzi tədbirlər barədə daha geniş məlumatları oxucuların diqqətinə çatdırmaq istərdik. Pərakəndəliyə yol verilməməsi və daha asan mənimsənilməsi məqsədi ilə həmin tədbirləri mövzu baxımından ayırmağı məqsədəuyğun hesab etdik.

Oxucularda daha aydın təsəvvür yaratmaq üçün haqqında bəhs edilən təqribən son bir il üç aylıq dövrdə keçirilmiş bəzi tədbirlər barədə bir qədər geniş məlumat verməyi məqsədəmüvafiq hesab edirik. Qeyd edək ki, Təşkilatın uğurlu fəaliyyətinin göstəricisi olan həmin tədbirlərin bir

çoxu haqqında Respublika Veteranlar Təşkilatının“veteran. az” saytındagenişməlumatlarverilmişdir. Saytda əksini tapmış həmin məlumatları müəyyən ixtisarlarla kitaba daxil etməyi məqsədəuyğun hesab edirik. Tədbirləri şərti olaraq aşağıdakı mövzular üzrə bölmək mümkündür.





## Ermənistanın təcavüzünə, erməni təbliğatına qarşı mübarizə

“2016-cı il iyun ayının 2-də Respublika Veteranlar Təşkilatında II Dünya müharibəsində alman faşizminə xidmət göstərmiş, ermənilərdənibarətqisasçılegionunrəhbərləriolmuş general Dronun, Qaregen Njdenin ermənilər tərəfindən MDB ölkələrində, xüsusilə Rusiya Federasiyasında genişmiqyaslı təbliğatına, onların qəhrəman kimi təqdim edilməsinə, barələrində filmlərin çəkilməsinə, abidələrinin qoyulmasına etiraz olaraq tədbir keçirilmişdir. Erməni faşizminin mənfur simasının bir daha geniş ictimaiyyətə çatdırılması məqsədi güdən tədbirdə müharibə, əmək və Silahlı Qüvvələr veteranları, ictimai təşkilatların nümayəndələri, ziyalılar, gənclər və




media nümayəndələri iştirak edirdilər.Tədbiri giriş sözü

ilə açan Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Rzayev açaraq, ermənilərin türklərə,xüsusən Azərbaycan xalqına qarşı son iki əsrdə həyata keçirdikləri məfur siyasətdən, törətdikləri qırğınlardan, bu siyasətin digər ağır nəticələrindən danışmışdır.

Dadaş Rzayev demişdir: "Artıq bir neçə ildir ki, müasir erməni faşistləri öz sələflərinin, II Dünya müharibəsində alman faşizminə xidmət göstərmiş cəlladlar, erməni qisasçı legionlarına rəhbərlik etmiş Qaregen Njde və general Dronun genişmiqyaslı təbliğatı ilə məşğul olurlar. Ermənilər bədnam niyyətlərinin həyata keçirilməsində Rusiya mediasının, kino sənətinin imkanlarından istifadə edir, məqalələr, kitablar yazır, tanınmış rus sənətçilərinin iştirakı ilə sənədli filmlər çəkir, təqdimatlar keçirirlər. Vaxtılə Qarabağda və Zəngəzurda azərbaycanlı qırğınları törətmiş, Hitlerin, Gimlerin dostu olmuş Njde kimi faşist başkəsənlərinin bəraətinə xidmət edən bu təbliğatda o dərəcədə ifrata varılır ki, cəlladlar qəhrəman səviyyəsinə yüksəldilir. Bu yolverilməz əməllərlə bağlı II dünya müharibəsində faşizm üzərində Qələbənin 70 illiyi ərəfəsində biz Respublika Veteranlar Təşkilatının adından bir qrup veteran Rusiya Federasiyasının Prezidenti Vladimir Putinə, eləcə də MDB-nin digər dövlət və hökumət başçılarına, veteran təşkilatlarına, beynəlxalq təşkilatlara müraciət göndərmişdik. Bizim müraciətimizə operativ cavab verən Rusiya Prezidenti bunu yolveriməz hesab etmiş və Rusiya hüddudlarında ermənilərin mənfur təbliğatının dayandırılması barədə tapşırıqlar vermişdi.

Ancaq öz iyrənc xislətlərinə sadiq qalan ermənilər yenidən bədnam təbliğat maşınlarını işə salmış, faşist cəlladı Njde haqqında yazılmış kitabın Moskvada təqdimatını keçirmişlər. Ermənistanda isə bu qatı faşistə abidə qoyulmuş, onun açılışında erməni faşizminin bugünki dəstəkçiləri, o cümlədən prezident S.Sarkisyan iştirak etmişlər.





Bu gün 20 faizdən çox Azərbaycan ərazisini işğal altında saxlayan Ermənistan tərəfi özünün təcavüzkarlıq siyasətini daha açıq və arxayın şəkildə davam etdirməklə də qalmır, alman faşizminə xidmət göstərmiş cəlladların bəraətinə çalışır. Biz veteranlar, ümumən Azərbaycan cəmiyyəti bu cinayətləri birmənalı şəkildə qınayır və rədd edir, dünya ictimaiyyətini erməni faşızminin ifşasına biganə qalmamağa səsləyirik.

Bununla bağlı müraciət hazırlanaraq Azərbaycan veteranları adından MDB ölkələrinin dövlət və hökumət başçılarına, həmin ölkələrin parlament üzvlərinin elektron ünvanlarına, veteran təşkilatlarına, beynəlxalq təşkilatlara göndəriləcəkdir".

Həmin müraciətin oxunması üçün söz Azərbaycan Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilova verilmişdir.

Cəlil Xəlilov müraciətin mətnini (rus dilində) tədbir iştirakçılarının diqqətinə çatdırmışdır.

**Обращение**

В связи с 75 годовщиной начала войны

Со стороны немецких фашистов против Советского Союза, мы повторно направляем в Ваш адрес обращение ветеранов Азербайджана и надеемся, что с пониманием отнесетесь к нашей обеспокоенности данным событием.

С болью в сердце мы хотим обратить Ваше внимание на то, как Армения пропагандирует известных как гене- ра- лы Дро и Нжде глав армянского карательного легиона СС Драстамата Канаяна и Гарегина Тер-Арутюняна. На стра- ницах известных СМИ Нжде, пособник нацистско- го ре- жима, друг Гитлера и Гиммлера, приравнивается к героям. А известные российские актеры Ч.Хаматова (роль супру- ги Нжде) и Михаил Ефремов (Петко Христов) сня-

лись в фильме «Гарегин Нжде». Мы, по-прежнему, уверены, что и Ч. Хаматова, и М. Ефремов были введены в заблужде-ние, не зная о том, что Нжде был нацистским головорезом. Но факт остается фактом. Вышеназванный фильм все же демонстрировался по всей России. Кроме того, в Москве была презентована книга «Беседы с Гарегином Нжде, или Памятник к 125-летию Нжде». Парадокс в том, что орга- низаторы мероприятия считают, что «идеи Нжде сегодня актуальны как никогда и должны активно пропагандиро- ваться в современном обществе». Не лишним будет вновь упомянуть, что в 1948 году Нжде, как военный преступ- ник, был приговорен к 25 годам заключения и скончался в 1957 году во Владимирском централе. Он так и не был реабилитирован. Суд оставил в силе приговор, вынесен- ный ранее.

В Армении через две недели после празднования 71-ой годовщины Победы над фашистской Германией в самом центре Еревана состоялась торжественная церемония открытия памятника Гарегину Нжде. На церемонии увековечения памяти фашистского преступника присутствовал лично президент Армении Серж Саргсян, который еще год назад находился рядом с лидерами стран, пострадавших от фашизма, на Параде Победы в Москве. Руководство Российской Федерации неустанно подчеркивает недопустимость переписывания и искажения итогов Великой Отечественной войны. Именно по инициативе России 17 декабря 2015 года Генеральная Ассамблея ООН приняла Резолюцию 70/139 под названием «Борьба с героизацией нацизма, неонацизмом и другими видами практики, которые способствуют эскалации современных форм расизма, расовой дискриминации, ксенофобии и связанной с ними нетерпимости». В пункте 4 документа говорится, что ГА ООН «выражает глубокую озабоченность по поводу прославления в любой форме нацистского движения, неонацизма и бывших членов организации «Ваффен СС», в том числе путем сооружения памятников и мемориалов и проведения публичных демонстраций в целях проявления нацистского прошлого, нацистского движения и неонацизма, а также посредством объявления или попыток объявить таких членов и тех, кто боролся против антигитлеровской коалиции и сотрудничал с нацистским движением, участниками национально-освободительных движений». В Армении же, присоединившейся к данной Резолюции и позиционирующей себя в качестве стратегического союзника России, создается масштабный культ вокруг лиц, присягнувших фашистскому режиму, на совести которых гибель советских солдат и мирных жителей, в том числе и представителей самого армянского народа.

Причем нас удивляет отсутствие какой-либо реакции. Нам не понятно особое право на такое поведение Армении, где в честь нацистских преступников Дро и Нжде в Армении чеканят памятные монеты, снимают фильмы. Именем Гарегина Нжде в Ереване названы площадь и станция метро. Есть улица, носящая и имя Драстамата Кананяна. Теперь, рядом с комплексом правительственных зданий и штаб-квартирой правящей партии Армении возвышается еще и памятник Нжде.

Всего три недели назад мы отмечали 71-ю годовщину со Дня Победы над фашизмом. Эта Победа, достигнутая благодаря единству всех населяющих СССР народов, золотыми буквами вписана в мировую историю.

Плечом к плечу с сыновьями русского и других народов на фронт отправились 700 тысяч наших соотечественников, более половины, из которых героически пали в боях. За подвиги, совершенные в годы Великой Отечественной войны, почетного звания Героя Советского Сою-

за были удостоены около 130 азербайджанцев.В Азербайджане и сегодня высоко чтят светлую па- мять о великом подвиге советского народа, 9 мая по-преж- нему остается самым почитаемым государственным праздником.

Нам, людям, пережившим все боли войны с фашиз-мом, потерявшим в боях товарищей, с болью в сердце приходится наблюдать за тем, как создается ореол героев вокруг нацистских преступников. Мы возмущены действиями Армении, являющимися откровенным неуважением памяти павших за некогда общую Родину и ко всему миролюбивому человечеству.

Уверены, что, будучи верными светлой памяти павших в Великой Отечественной Войне, мы вновь объединим свои усилия в борьбе против общего зла в лице культивируемой Арменией фашистской идеологии.

Tədbirdə II Dünya müharibəsi veteranları və digər şəxslər çıxış etmişlər.

### Xocalı soyqırmının 24-cü ildönümü

“Respublika Veteranlar Təşkilatında Xocalı soyqırmının 24-cü ildönümünə həsr edilmiş tədbir keçirilmişdir. Tədbirdən əvvəl veteranlar və digər tədbir iştirakşıları Xocalı soyqrımı abidəsini ziyarət edərək, onun önünə tər qərənfillər düzmüşlər. Respublika Veteranlar Təşkilatının akt zalında baş tutmuş tədbirdə İkinci dünya, Qarabağ, Əfqanıstan müharibələri, əmək, Silahlı Qüvvələr veteranları veteranlar, ziyalılar iştirak etmişlər.

Tədbir Xocalı soyqırımı qurbanlarının və şəhidlərin ölməz xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlamışdır.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədri e.o general-mayor Dadaş Rzayev açmışdır. Xocalının





xalqımızın başına gətirilmiş faciələrin ən dəhşətlisi olduğunu qeyd edən D.Rzayev demişdir. “Erməni vandallarından və Rusiyaya məxsus 366-cı motoatıcı alayın törətmiş olduğu bu soyqırım dünya tarixində ən amansızlarından hesab edilir. Heç bir günahı olmayan dinc əhalinin vəhşicəsinə öldürülməsi, cəsədlərinin təhqir edilməsi erməni riyakarlığının, erməni xislətinin əsl simasını ortaya qoydu. Zori Balayan və onun kimi mənfur və xəstə təfəkkürlü ermənilərin törətdiklərini insanlığa sığmır. Uşaqların amansızcasına qətlə yetirilməsi bu əsl canilik, əsl faşizm və cinayətdir. Lakin çox təssüf olsun ki, ermənilərin törətmiş olduqları bu cinayətlər cəsasız qalmışdır. Həm torpaqlarımız işğal altındadır, həmdə Xocalını törədənlər öz layiqli cəzasını almamışdırlar.



Amma artıq bir neçə ildir aparılan “Xocalıya Ədalət” kompaniyasında dünya içtimayyətinə həqiqətlər çatdırılır. Dünya dövlətləri Xocalıda baş verənlərin insanlıqdan uzaq olduğunu və bunun əsl soyqırım olması faktını qəbul edirlər. Bu gün dünyanın bir sıra dövlətləri Xocalı soyqrımını tanıyır, eləcə də Amerika Birləşmiş Ştatlarının 20 ştatı Xocalı soyqrımını tanıyır. Əlbətdə bütün bunlar gərgin zəhmətin

nəticəsidir, düzgün siyasətin nəticəsidir. Ölkə prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasətin nəticəsidir.

Biz inanırıq ki, heç zaman biz belə bir faciə ilə rastlaşmayacağıq çünki bizim güclü ordumuz var. Düşməni məhv etməyə qadirik. Günü-gündən qüvvətlənən ordumuz torpaqlarımızı azad edəcəkdir. Lakin bilməliyik ki, bizim erməni kimi mənfur qonşumuz var və onlar hər fürsətdə qara niyyətlərini həyata keçirməyə çalışırlar.

Xocalıda ölənlərə və bütün şəhidlərimizə bir daha Allahdan rəhmət diləyirik".

Daha sonra çıxış edən digər veteranlar da Xocalı soyqrımı haqqında öz fikirlərini bölüşdülər. Tarixin dəfələrlə erməni mənfurluğunu təsdiqlədiyi və bu faciənin heç bir zaman unudulmayacağı diqqətə çatdırıldı.

**ORT-nin qərəzli mövqeyi təkzib olunmalıdır**

Rusiyanın ORT televiziyası «Время покажет»("Zaman göstərər" verilişinin 4 aprel 2016-cı il tarixli buraxılışını son vaxtlar Azərbaycan Ermənistan qoşunlarının təmas xəttində atəşkəsin pozulması nəticəsində baş verən hadisələrə həsr etmişdir. Əsasən erməni millətindən olan və ermənipərəst mövqedən çıxış edən ekspertlərin dəvət edildiyi verilişdə Azərbaycan Respublikasına qarşı açıq qərəzə və saxtakarlığa yol verilmişdir. Verilişin aparıcısı və iştirakçıları Azərbaycan əleyhinə kəskin və əsassız ittihamlar səsləndirmiş, bununla da kifayətlənməyib, Dağlıq Qarabağın sırf ermənilərə məxsus olduğunu "sübut etməyə" çalışmışlar. Telekanalın yaydığı yanlış xəritədə Azərbaycanın Laçın və Kəlbəcər rayonları Dağlıq Qarabağın tərkibində göstərilməklə, Ermənistanla heç bir sərhədi olmayan Dağlıq Qarabağın Ermənistana bitişik olduğu iddia edilmişdir.





Faktların saxtalaşdırıldığı, birtərəfli və qərəzli məlumatların yer aldığı, bir sözlə erməni mövqeyindən hazırlanmış verilişdə Azərbaycan tərəfini ekspert kimi yalnız 2 nəfər, Fuad Abbasov və Heydər Camal təmsil etmişlər. Ancaq Azərbaycanın haqlı mövqeyinin müdafiəsi üçün onlara müvafiq şərait yaradılmamış, çıxışları tez-tez kəsilmişdir. Həmçinin verilişdə faktlar təhrif edilərək baş verən hadisələrdə Türkiyə günahlandırılmış, Azərbaycan və Türkiyənin ünvanına böhtan xarakterli ifadələr işlədilmişdir.

ORT televiziyasının yanaşması nəinki həqiqətə, təmsil etdiyi Rusiya Federasiyasının rəsmi mövqeyinə də ziddir. Onların da bildiyi, ancaq etiraf etmədikləri həqiqətsə bundan ibarətdir ki, Ermənistan 20 faizdən çox Azərbaycan ərazisini işğal edib və bugünədək də işğal altında saxlayır. Atəşkəs rejimini mütəmadi şəkildə pozmaqla təcavüzkarlıq siyasətini və beynəlxalq hüquqa zidd hərəkətlərini açıq və arxayın şəkildə davam etdirən Ermənistan Azərbaycan ərazilərinin erməni işğalından azad olunması ilə bağlı dünya birliyinin iradəsini əks etdirən BMT Təhlükəsizlik Şurasının 4 qətnaməsini, nüfuzlu beynəlxalq təşkilatların qərar və qətnamələrini icra etməkdən də boyun qaçırır.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Azərbaycanın 1 milyon 300 minlik veteranı adından ORT televiziyasının "Zaman göstərər" verilişinə öz etrizanı bildirir və telekanal rəhbərliyindən qərəzli mövqeyə görə təkzib verilməklə Azərbaycan xalqından üzr istənilməsini tələb edir.

Respublika Veteranlar Təşkilatının sədri e/o general-mayor Dadaş Rzayev".

Bu bəyanat Respublika Veteranlar Təşkilatı Mərkəzi Aparatının 9 aprel 2016-cı il tarixli iclasında qəbul edilmişdir.

## Gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik ruhunda tərbiyəsi

“Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!”

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı tərəfindən Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının maliyyə dəstəyi ilə “Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!” adlı layihənin icrasını təmin etmək məqsədi ilə 02 sentyabr 2016-cı il tarixdə Şəki şəhərində seminar–müşavirə keçirilmişdir.

Layihənin rəhbəri - Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Dadaş Qərib oğlu Rzayevdir.

Seminar-müşavirəni Respublika Veteranlar Təşkilatının sədr müavini polkovnik Cəlil Malik oğlu Xəlilov açaraq layihə haqqında məlumat vermişdir.

Layihə Qarabağ uğrunda müharibədə şücaət göstərərək Azərbaycanın Milli Qəhrəmanları adına layiq görülmüş, eyni zamanda, 2016-cı ilin aprel ayında erməni təxribatlarının qarşısının alınması zamanı şəhid olan hərbçilərimizin həyatından və döyüş yolundan bəhs edir.

Layihənin əsas mahiyyəti xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqına, dövlətinə sədaqət,





tarixinə hörmət, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin onlar arasında milli-mənəvi dəyərlərimizin, dövlətçilik ənənələrimizin təbliği istiqamətində dövlət orqanlarının apardığı işə dəstək verilməsidir.

Həmçininməqsədlərdənbiriölkədəyeniyetməvəgənclərin vətənpərvərlik tərbiyəsi sahəsində görülən işlərdə yaxından iştirak etmək, Azərbaycan dövlətinin həyata keçirdiyi Dövlət Gənclər siyasətinə dəstək vermək, gənc nəslə hərb tariximiz, döyüş ənənələrimiz, milli qəhrəmanlarımız, tarixi abidələrimiz haqqında geniş bilgilər çatdırmaqla maarifləndirmə işləri aparmaq, gənc nəslin Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına hər an hazır olmaq ruhunda yetişmələri məqsədilə müvafiq təbliğat işləri aparmaq, yeniyetmə və gənclərə ən ağır problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı Azərbaycanın dövlət mövqeyinin çatdırılması ilə onları hərtərəfli məlumatlandırmaqdır.

Seminar-müşavirədə Şəki, Balakən Qəbələ, Qax, Oğuz, Zaqatala, Mingəçevir şəhər (rayon) veteran təşkilatlarının sədrləri, eyni zamanda Şəki şəhər Veteranlar Təşkilatının əməkdaşları, həmin rayonun fəal gəncləri, veteranları, şəhid ailələri, müvafiq dövlət və ictimai təşkilatlarının nümayəndələri iştirak etmişdir.

Seminar-müşavirədə RVT nümayəndələri tərəfindən “Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsinin parlaq səhifəsidir”, “Qəhrəmanlar unudulmur”, “Xalqı qəhrəmanlar ucaldır”, “Şəki qəhrəmanlar diyarıdır” mövzularında məruzələr dinlənilmiş, çıxışlar olmuşdur.

Tədbirin sonunda Azərbaycan Milli Qəhərmanlarına həsr olunan film nümayiş etdirilmiş, bir neçə şəhid ailəsinə ərzaq yardımı göstərilmişdir.

# “Qarabağ uğrunda döyüşlərin qəhrəmanlarını tanıyaq və tanıdaq!

(Bakı 8 noyabr 2016-cı il)

2016-cı ilin 8 noyabrında Respublika Veteranlar Təşkilatının akt zalında növbəti seminar–müşavirə keçirilmişdir.

Tədbiri Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov giriş sözü ilə açaraq tədbir haqqında məlumat vermişdir.

Tədbir Qarabağ uğrunda müharibədə şücaət göstərərək Azərbaycanın Milli Qəhrəmanları adına layiq görülmüş, eyni zamanda, 2016-cı ilin aprel ayında şəhid olan hərbçilərimizin həyatından və döyüş yolundan bəhs edir.




Tədbirin əsas mahiyyəti xalqımızın qəhrəmanlıq tarixində mühüm xidmətləri olan Azərbaycan övladlarının keçdiyi şərəfli həyat yolunun yeniyetmə və gənclərə daha yaxından tanıdılması, onlarda xalqına, dövlətinə sədaqət, tarixinə hörmət, vətənpərvərlik ruhunun gücləndirilməsi, həmçinin onlar arasında milli-mənəvi dəyərlərimizin, dövlətçilik ənənələrimizin təbliği istiqamətində dövlət orqanlarının apardığı işə dəstək verilməsidir.





Tədbirin əsas məqsədi ölkədə yeniyetmə və gənclərin vətənpərvərlik tərbiyəsi sahəsində görülən işlərdə yaxından iştirak etmək, Azərbaycan dövlətinin həyata keçirdiyi Dövlət Gənclər siyasətinə dəstək vermək, gənc nəslə hərb tariximiz, döyüş ənənələrimiz, milli qəhrəmanlarımız, tarixi abidələrimiz haqqında geniş bilgilər çatdırmaqla maarifləndirmə işləri aparmaq, gənc nəslin Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına hər an hazır olmaq ruhunda yetişmələri məqsədilə müvafiq təbliğat işləri aparmaq, yeniyetmə və gənclərə ən ağır problemimiz olan Dağlıq Qarabağ münaqişəsinin ədalətli həlli ilə bağlı Azərbaycanın dövlət mövqeyinin çatdırılması ilə onları hərtərəfli məlumatlandırmaqdır.

Seminar-müşavirəyə Binəqədi, Xəzər, Xətai, Nərimanov, Nəsimi, Nizami, Sabunçu, Səbail, Suraxanı, Yasamal, Abşeron, Sumqayıt, Qaradağ şəhər (rayon) veteran təşkilatlarının sədrləri dəvət olunmuşdular.

Eyni zamanda, seminar-müşavirədə Respublika Veteranlar Təşkilatının əməkdaşlarının, fəal gənclər, veteranlar, müvafiq dövlət və ictimai təşkilatlarının nümayəndələri, şəhid ailələri, o cümlədən Azərbaycan Respublikasının Milli qəhrəmanı Rafiq Alıcanovun ailə üzvləri iştirak ediblər.

Həm Bakı şəhərində, həm də ölkənin 4 regionunda (Şəki, Masallı, Xaçmaz, Şirvan) keçirilən seminar-müşavirələrdə RVT-nin şöbə müdirləri ehtiyatda olan polkovniklər Lətif Babayev, Adil Haqverdiyev, baş mütəxəssislər Nəbi Hacıyev və İradə İbadova, “Azərbaycan Veteranı” qəzetinin məsul katibi Səidə Abdullayevanın “Azərbaycan qəhrəmanlar diyarıdır”, “Aprel döyüşləri xalqımızın qəhrəmanlıq salnaməsinin parlaq səhifəsidir”, “Torpaq - uğrunda ölən varsa, Vətəndir!”, “Milli qəhrəmanlarımız” mövzularında məruzələr dinlənimişdir.

Tədbirin sonunda bir neçə şəhid ailəsinə maddi yardım edilmiş, Milli Qəhrəmanlara həsr olunmuş film nümayiş etdirilmişdir.





## Gənclərdə milli ruhun gücləndirməsi

2016-cı il 26 may tarixində Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Respublika gününə həsr edilmiş "Gənclərdə milli ruhun gücləndirməsi" şüarı altında keçirilən konsert proqramının təşəbbüskarları Bakı Slavyan Universiteti (BSU) tələbələri idi.

Tədbir Azərbaycan Respublikasının dövlət himninin səslənməsi ilə başlanmışdır. Daha sonra Azərbaycan uğrunda canlarını fəda etmiş şəhidlərimizin xaritəsi bir dəqiqəlik sükutla anılmışdır.



Tədbiri giriş sözü ilə Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının əməkdaşı Səidə Abdullayeva açaraq, qonaqları salamladı və iki nəslin Şərqdə ilk demokratik ölkə olan Azərbaycanımızın yaranma gününü qeyd etməsinin simvolik məna daşıdığını vurğuladı.

Sonra çıxış üçün söz Respublika Veteranlar Təşkilatının sədri, e.o. general-mayor Dadaş Rzayevə təqdim olundu. O, veteranları və gəncləri salamlayaraq, Respublika gününün əlamətdar bir hadisə olduğunu qeyd etdi və müstəqillik uğrunda canından keçmiş şəxslərə və vetranlara göstərilən dövlət qayğısından danışdı. Gənclərin bu təşəbbüsünü alqışlayaraq, onlara təhsildə və ictimai həyatda uğurlar arzuladı.

Ardınca söz alan tələbə - layihə təşkilatçılarından biri, Xanım Bünyatova 28 may Respublika günü munasibətilə hər kəsi təbrik etdi, təşkilata, veteranlara proqramın təqdimatına yaratdıqları şəraitə görə təşəkkürünü bildirdi. Gənclərdə milli ruhun güclənməsində veteranların rolundan danışdı.Sonra sözü BSU pedaqoji kollektivini təmsil edən, dosent Lalə Mikayılovayatəqdimetdi. Laləxanım, gənclərinvətənpərvərlik tərbiyəsinin onların təhsilində böyük əhəmiyyəti olduğunu vurğuladı.

Çıxışlardan sonra bədii hissə musiqisi bəstəkar Sevinc Tofiqqızının vətənpərvəlik mövzusunda çəkilmiş “İgidlər yurdusan, ey Azərbaycan” adlı klip nümayişi ilə başlandı. Bəstəkar Sevinc xanım musiqinin ərsəyə gəlməsindən danışdı və bu musiqinin Qarabağda səslənməsini arzuladı”.

## Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümü

14 oktyabr 2016-cı il tarixində Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilmiş tədbir keçirilmişdir.

Tədbirdə Bakı şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, Azərbaycan Respublikası Prezident Adminstrasiyası İctimai-siyasi şöbəsinin əməkdaşı Rasim Mirzəyev, İctimai Televiziya və Radio yayımları





Şirkətinin baş direktoru Cəmil Quliyev, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitunun şöbə müdiri, filologiya elmlər doktoru professor, Qarabağ müharibəsiveteranı Bədirxan Əhmədov, Silahlı Qüvvələrin Ehtiyatda olan Zabitlər Konfederasiyasının sədri general-mayor Məmmədhüseyn Sarıyev, Hüquq elmləri doktoru, professor, Qarabağ müharibəsiveteranı Bəhram Zahidov, İkinci dünya, Qarabağ, Əfqanıstan müharibəsi, əmək və Silahlı Qüvvələr veteranları, ziyalılar, gənclər, media nümayəndələri iştirak etmişlər.

Tədbir başlamazdan əvvəl Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edilmişdir.




Tədbiri giriş sözü ilə açan Respublika Veteranlar Təşkilatının sədr müavini, e/o polkovnik Cəlil Xəlilov demişdir: Bu gün biz burada Azərbaycan Respublikasının dövlət müstəqilliyinin bərpasının 25-ci ildönümünə həsr edilmiş tədbirin keçirilməsi məqsədi ilə toplaşmışıq. İcazə verin tədbirə başlamazdan öncə Azərbaycan xalqının tarixi nailiyyətim olan Dövlət müstəqilliyinin bərpasının 25 illiyi

münasibəti ilə hamınızı ürəkdən təbrik edim, Sizə cansağlığı, Azərbaycan naminə fəaliyyətinizdə uğurlar, ailələrinizə firavanlıq arzulayım.

Məlum olduğu kimi Azərbaycan Respublikasının Dövlət Müstəqilliyinin bərpasının iyirmi beşinci ildönümü haqqında Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyev oktyabr ayının 11-də Sərəncam imzalamışdır. Həmin Sərəncama əsasən müvafiq tədbirlər planı hazırlanmış və artıq icrasına başlanılmışdır. Respublika Veteranlar Təşkilatının hazırkı tədbiri də Prezident Sərəncamından irəli gələn vəzifələrin icrası ilə əlaqədardır.

1918-ci il may ayının 28-də qurulmuş Azərbaycan Xalq Cümhuriyyəti cəmi 23 ay yaşadı. Xalqımız 70 ildən artıq müddətdə Sovet imperiyasının tərkibində azadlıq, müstəqillik arzusu ilə yaşadı. Nəhayət 20-ci əsrin sonlarında SSRİ-nin süqutu müstəqilliyin bərpasına tarixi imkan yaratdı.

Həmin ərəfədə Dağlıq Qarabağda baş verən hadisələr, qədim Azərbaycan torpaqlarına erməni təcavüzünün qarşısının alınması zəminində, 1988-ci ilin fevralından başlanan meydan hərəkatı qısa müddətdə Azərbaycan xalqının əzəli arzusu olan dövlət müstəqilliyinə qovuşmaq ideyası ilə daha geniş vüsət almışdı. 20 Yanvar qırğınından sonra xalqın kükrəyən qəzəbi aydın göstərdi ki, İmperiyanın tankları da azadlığa gedən yolun qarşısını kəsməyə qadir deyil. Ulu öndər Heydər Əliyevin 20 Yanvar hadisələrinin ertəsi günü Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyində keçirdiyi mətbuat konfransında xalqımıza qarşı törədilən qanlı faciəyə siyasi qiymət verməsi müstəqillik uğrunda mübarizəyə yeni təkan verdi. Azərbaycan daha böyük inad və inamla müstəqilliyə doğru irəlilədi. 1991-ci il oktyabrın 18-də Respublika Ali Sovetinin sessiyasında

«Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı» qəbul olundu. Xalqımız uzun illərdən bəri can atdığı azadlığına, müstəqilliyinə qovuşdu.





Ancaq müstəqillik əldə olunsa da, ölkədə daxili və xarici pozucu qüvvələrin fəallaşması, hakimiyyətə gəlmiş komandanın səriştəsizliyi və davam etməkdə olan erməni təcavüzü respublikada vəziyyətin gərginləşdirmişdi. Bəzi silahlı dəstələrin başıpozuq hərəkətləri, daxildə qardaş qırğını və vətəndaş müharibəsinə zəmin yaranması bu gərginliyi daha da artırmışdı. 1993-cü ilin əvvəllərindən ayrı- ayrı bölgələrdə separatçılıq və parçalanma meyllərinin baş qaldırması Azərbaycanın bir dövlət kimi varlığına birdəfəlik son qoyulması təhlükəsi ilə üzləşdirdi. 1993-cü ilin ortalarına doğru hakimiyyət böhranı daha kəskin xarakter alımış, Azərbaycanın müstəqilliyi üçün təhlükə yaranmışdı".

Cəlil Xəlilov daha sonra demişdir: 1993-cü il iyunun 4-də Gəncədə başlanan qiyam Bakıya doğru geniş miqyas almışdı. Bu təhlükəli proseslərin qarşısını ala bilməyən iqtidar son anda kömək üçün Naxçıvan Ali Məclisinin sədri Heydər Əliyevə müraciət etdi.

Azərbaycanın görkəmli oğlu, böyük vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz onun yanında olmalı idi. O, xalqın və respublikanın hakim dairələrinin təkidli dəvətini qəbul edib Bakıya gəldi və bununla da daxili, xarici düşmənlərimizin bütün planları iflasa uğradı. Xilaskarlıq missiyasını öz üzərinə götürən ulu öndər vətəndaş qarşıdurmasının genişlənməsinin qarşısını aldı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Ümummilli lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra «olum, ya ölüm» ayrıcında qalmış Azərbaycan gələcəyə inamla baxan qüdrətli bir dövlətə çevrilmək yoluna qədəm qoydu".

Məruzəçi daha sonra Azərbaycanın bu gün siyasi, iqtisadi sahədə qazandığı böyük uğurlardan, Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyevin rəhbərliyi ilə regionun qüdrətli dövlətinə

çevrilməsindən,dünyanın sürətlə inkişaf edən ölkələri sırasına çıxmasından danışmışdır. Tədbirdə Bakı şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, filologiya elmlər doktoru professor Bədirxan Əhmədov, hüquq elmləri doktoru, professor Bəhram Zahidov və başqaları çıxış edərək Azərbaycan xalqının tarixi nailiyyəti olan dövlət müstəqilliyinin bərpasından və onun qorunub saxlanması üçün görülən böyük işlərdən danışmışlar. Tədbirin sonunda ölkənin ictimai-siyasi həyatında, veteran hərəkatında fəal iştiraklarına və gənclərin hərbi- vətənpərvərlik ruhunda tərbiyəsindəki rollarına görə Bakı şəhər İcra Hakimiyyəti başçısının müavini Fidumə Hüseynova, filologiya elmlər doktoru professor, Qarabağ müharibəsiveteranı Bədirxan Əhmədov, Nərinmanov rayon Veteranlar Təşkilatının sədr müavini Sevil İsrafilova, Xəzər rayon Veteranlar Təşkilatının sədri Nüsrət İbrahimov, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Rəyasət Heyəti adından medalla təltif olunmuşdur".





## İkinci Dünya müharibəsində xarici ölkələrin ərazisində həlak olmuş və itkin düşmüş sayılan azərbaycanlı döyüşçülərin taleyinin aydınlaşması

2016-cı il oktyabr ayının 27-də Respublika Veteranlar Təşkilatında İkinci Dünya müharibəsində Moldova Respublikasında həlak olmuş və itkin düşmüş sayılan azərbaycanlı döyüşçülərin taleyinin aydınlaşması münasibəti ilə tədbir keçirilmişdir.

Tədbirdə, Moldova Respublikasının Azərbaycandakı səfiri cənab George Luka, Türkiyənin Müharibə Veteranları Dərnəyinin Qars vilayəti üzrə rəhbərləri Yüksəl Öztürk, Munis Acay və Mevlud Kara, Azərbaycanın Moldova Respublikasındakı sabiq səfiri Namiq Əliyev, Azərbaycan Respublikası 2 saylı İnzibati İqtisad məhkəməsinin sədri Çingiz Bəşirov, Azərbaycan Milli Elmlər Akademiyası Tarix İnstitunun direktor müavini, professor Cəbi Bəhramov, Respublika Hərbi Prokurorluğunun şöbə rəisi, ədliyyə polkovniki Toğrul Hüseynov, İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibəsi, əmək və Silahlı Qüvvələr veteranları, ziyalılar, gənclər, media nümayəndələri iştirak etmişlər.

Tədbir başlanmazdan əvvəl Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədr müavini Cəlil Xəlilov açaraq demişdir: "Azərbaycanın hərb tarixində İkinci dünya müharibəsində azərbaycanlıların göstərdiyi qəhrəmanlığın xüsusi yeri vardır. Ancaq alman

faşizmi üzərində tarixi qələbədən 71 ildən artıq vaxt keçməsinə baxmayaraq, həmin müharibədə iştirak etmiş azərbaycanlıların bir hissəsinin taleyi bugünədək aydınlaşmamış qalır. Onlar arasında keçmiş SSRİ-nin bir sıra ərazilərində, o cümlədən Moldovada döyüşənlər də olmuşdur. Moldova Respublikasında Azərbaycanın bu ölkədəki səfirliyinin yaxından iştirakı ilə aparılan araşdırmalar nəticəsində vaxtilə itkin düşmüş sayılan soydaşlarımızdan 206 nəfərinin taleyinə aydınlıq gətirilmiş, onların kimlikləri, təvəllüd tarixləri, rütbələri, hərbi xidmətə çağrıldıqları tarix, məntəqələr, dəfn yerləri müəyyən olunmuş, sənədlərinin saxlandığı arxivlər dəqiqləşdirilmişdir”.



B. Xəlilov daha sonra demişdir: “İkinci Dünya müharibəsində faşizm üzərində qələbəyə Azərbaycan böyük töhfə vermişdir. Azərbaycanlılar bu müharibədə əsl rəşadət, igidlik göstərmiş, onlardan 127 nəfəri Sovet İttifaqı qəhrəmanı adına, on minlərlə soydaşımız orden və medallara layiq görülmüşlər. Azərbaycanlıların döyüş yolu həm də Moldovadan, bu torpaqların faşist işğalından





azad Azərbaycanın Moldova Respublikasındakı səfirliyinin yaxından iştirakı ilə aparılan araşdırmalar nəticəsində vaxtılə itkin düşmüş sayılan soydaşlarımızdan 206 nəfərinin taleyinə aydınlıq gətirilməsi çox böyük hadisədir.

Respublika Veteranlar Təşkilatı İkinci Dünya, Qarabağ, Əfqanıstan müharibələrində döyüşmüş, həlak olmuş, itkin düşmüş əsgər və zabitlərimizin taleyinə aydınlıq gətirilməsi istiqamətində ardıcıl iş aparır. Ötən il Moldova Respublikasında və Rusiya Federasiyası ərazisində həlak olmuş azərbaycanlı döyüşçülərin dəfn edildikləri yerlərin müəyyən olunması bizi olduqca sevindirdi. Artıq qələbə günündə, digər bayramlarda həmin ərazilərdə yaşayan soydaşlarımız, eləcə də yerli ictimaiyyətin nümayəndələri həmin məzarları ziyarət edirlər, üzərinə gül dəstəsi qoyurlar. Onların ruhlarının şad olması həmin insanların doğmaları, yaxınları ilə yanaşı bizim hər birimizin qəlbini sevindirir. Allah onlara rəhmət eləsin”.

Azərbaycanın Moldova Respublikasındakı sabiq səfiri Namiq Əliyev öz çıxışında soydaşlarımızdan 206 nəfərinin taleyinə aydınlıq gətirilməsində Moldova Respublikasının dövlət orqanlarının göstərdiyi köməklikdən, səfirliyin bu istiqamətdəki fəaliyyətindən danışdı. Bu insanların taleyinin aydınlaşdırılmasının doğurduğu hisslərin əvəzedilməz olduğunu vurğuladı.

Çıxış edən İkinci dünya müharibəsi veteranı Aleksandr Qritçenko cəbhə xatirələrini yada saldı, döyüşçülərimizin şücaətindən, rəşadətindən danışdı. Bildirdi ki, Azərbaycanın öz döyüşçü oğullarını unutmaması, onların taleyinə gec də olsa aydınlıq gətirilməsi təqdirəlayiq işdir. Respublika Veteranlar Təşkilatının bu fəaliyyətlərə yaxından dəstək verməsi, belə tədbirlər keçirməsinin gənclərin hərbi vətənpərvərlik tərbiyəsində çox böyük rolu vardır.

Moldova Respublikasında döyüşlərdə həlak olmuş Sumqayıt şəhərindən cəbhəyə yola düşmüş Rzayev Oruc

Şirin oğlunun, Xəzər rayonundan cəbhəyə getmiş Abbasov Villi Abbas oğlunun yaxınları (Rzayev Oruc Şirin oğlunun bacısı oğlu Sərxan, Abbasov Villi Abbas oğlunun qardaşı oğlu Abbasov Əfqan) çıxış edərək doğmalarının taleyinə aydınlıq gətirilməsinə, xeyirxah işə görə Azərbaycanın Moldova Respublikasındakı səfirliyinin əməkdaşlarına öz minnətdarlığını çatdırdılar, bunun Vətən qarşısında həqiqi xidmət olduğunu bildirdilər.

Daha sonra çıxış edənlər Azərbaycanın İkinci dünya müharibəsində iştirakından, azərbaycanlıların keçdiyi döyüş yolundan bəhs etdilər, Moldova Respublikasında Azərbaycanın bu ölkədəki səfirliyinin yaxından iştirakı ilə aparılan araşdırmalar nəticəsində vaxtilə itkin düşmüş sayılan soydaşlarımızdan 206 nəfərinin taleyinə aydınlıq gətirilməsini böyük hadisə kimi qiymətləndirərək bu xeyirxah işdə, eləcə də "Xatirə kitabı"nın hazırlanmasında əməyi olanların hamısına dərin təşəkkürlərini bidirdilər.

Tədbirin sonunda bir neçə şəxs Respublika Veteranlar Təşkilatının təsis etdiyi yubiley medallarları ilə təltif edildilər".





## Gənclər Günündə görüş

2017-ci il fevral ayının 1-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Azərbaycan gənclərinin bir qrup fəal nümayəndəsiilə veteranların görüşünə həsr edilmiş tədbir keçirilmişdir.

Tədbir başlamazdan əvvəl Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsini bir dəqiqəlik sükutla yad edilmişdir.

Bu gün Azərbaycanın dünyanın qabaqcıl dövlətləri ilə bir sırada dayanmasında, dinamik surətdə inkişaf edən ölkə imici qazanmasında gənclərin rolu danılmazdır. Gənclərin uğurlarının təməlində dövlətin ardıcıl və məqsədyönlü şəkildə həyata keçirdiyi gənclər siyasəti dayanır.

Respublika Veteranlar Təşkilatı gənclərin hərbi vətənpərvərlik tərbiyəsinin gücləndirilməsi, onların milli-mənəvi dəyərlərimizə sədaqət ruhunda yetişmələri üçün ardıcıl iş aparır. Müntəzəm surətdə gənclərlə müxtəlif yerlərdə görüşlər keçirir, Azərbaycanın şanlı tarixi, döyüş ənənələri və gənclər gününün hərtərəfli təbliğində bilik və təcrübəsini əsirgəmir. Bu tədbirlərin əsas məqsədi gənclərimizi hazırda erməni hərbi birliklərinin işğalı altında olan Vətən torpaqlarını azad etməyə hər an hazır olmağa ruhlandırmaqdır.

Bu fikirlər Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında yanvarın 31-də veteranlarla Azərbaycan gənclərinin bir qrup fəal nümayəndəsi ilə keçirilən görüşdə səslənib.

Əvvəlcə Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov bildirib ki, gənclərin zəngin həyat təcrübəsinə malik veteranlardan öyrənmək, veteranlarınsa gənc nəslin nümayəndələrinə öz tövsiyələrini vermək baxımından belə görüşlərin əhəmiyyəti böyükdür.



C.Xəlilov hazırda Azərbaycan əhalisinin təqribən üçdəbirini gənclərin təşkil etdiyini, onların xalqına, dövlətçiliyinə sədaqətli, vətənpərvər, yüksək mənəvi və əxlaqi keyfiyyətlərə malik insanlar olduqlarını qeyd edib. O, Azərbaycanın ictimai-siyasi həyatında, müxtəlif sahələrdə qazanılan yüksək nəticələrdə gənclərin yaxından iştirakından danışaraq deyib: "Azərbaycanda müasir gənclər siyasətinin əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulub. Ulu öndər Heydər Əliyev gənclərin potensialının üzə çıxarılması, onların təhsilli, geniş dünyagörüşünə malik vətənpərvə insanlar kimi yetişməsinə mühüm əhəmiyyət verirdi. Ümummilli Lider ölkənin inkişafında gənclərin iştirakını zəruri sayır, onları mühüm vəzifələrə irəli çəkirdi. Gənclər Günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk





dəfə Azərbaycanda qeyd olunmağa başlanıb. Ulu öndər Heydər Əliyevin gəncliyə göstərdiyi qayğının təzahürü kimi, fevralın 2-si respublikamızda Azərbaycan Gəncləri Günü elan olunub. 1997-ci ildən bəri hər il fevralın 2-də respublikamızın gəncləri bu günü qeyd edirlər. Bütün bunlar gənclərin təşkilatlanmasına, hərtərəfli formalaşmasına şərait yaradıb".

Bildirilib ki, bu strateji xəttin Prezident İlham Əliyev tərəfindən inamla və müasir dövrün tələblərinə uyğun davam etdirilməsi öz bəhrələrini verib. Azərbaycan gənclərinin intellektual inkişafı, sosial, mədəni problemlərinin həlli ilə bağlı müxtəlif dövlət proqramları icra olunub. Bu gün ölkədə gənclərin qarşısında geniş imkanlar yaradan fondlar, şuralar, ictimai birliklər və sair təşkilatlar fəaliyyət göstərir. Sevindirici haldır ki, gənclər onlara göstərilən etimadı doğruldurlar. Gənclər bütün istiqamətlərdə fəaldırlar və gələcəkdə daha da fəal olmalıdırlar. Bu isə onların bilikli, geniş dünyagörüşlü, intellektual, vətənpərvər insanlar kimi yetişmələrindən asılıdır. Ölkədə həyata keçirilən gənclər siyasətinin məqsədi budur.

Ehtiyatda olan polkovnik qeyd edib ki, bu gün ordu sıralarında xidmət edən, müxtəlif sahələrdə çalışan, təhsil alan gənclərimizin hərbi vətənpərvərlik ruhunda yetişməsi bizi sevindirir. Torpaqlarımızın işğaldan azad edilməsi yönündə Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev tərəfindən ardıcıl iş aparılır. Azərbaycanın güclü ordusunun formalaşdırılması, müharibə əlillərinin, şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, veteranlarımıza göstərilən qayğı bunun nəticələridir. Ötən ilin aprel hadisələri Ordumuzun gücünü, döyüş əzmini aydın şəkildə nümayiş etdirdi. Bütün bunlar Azərbaycanın ərazi bütövlüyünün təmin ediləcəyinə, üçrəngli bayrağımızın Şuşada və işğal altındakı digər ərazilərimizdə qaldırılacağına inamımızı daha da artırır. Tədbirdə gənclər və idman nazirinin müavini İntiqam Babayev, Milli Məclisin deputatı

Adil Əliyev, Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin sədri Seymur Orucov, Böyük Vətən müharibəsi iştirakçısı, “Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu” ilə təltif edilən Fatma Səttarova, veteranlar və digərləri çıxış edərək Gənclər Günü münasibətilə gəncləri təbrik edib, belə görüşlərin, nəsillərarasında əlaqələrin vacibliyindən, gənclərimizə dövlət səviyyəsində göstərilən diqqət və qayğıdan, Azərbaycan həqiqətlərinin dünyada təbliğində gənclərin rolundan, könüllülük hərəkatında gənclərin iştirakından, ölkədə gənclərin təşkilatlanmasından, Azərbaycan gənclərinin ölkə həyatındakı rolundan, onların vətənpərvərliyindən, rəşadət və mərdliyindən söhbət açıb, müxtəlif sahələrdə qazandıqları uğurlardan və qarşıda duran vəzifələrdən danışıb, gəncləri Vətəni sevməyə, onu müdafiə etməyə, işğalçılardan azad etməyə hər zaman hazır olmağaçağırıblar.

Sonra veteranlar adından Azərbaycan gənclərinə müraciət qəbul edilib.

**Azərbaycan veteranlarının ölkə gənclərinə Müraciəti**

Azərbaycan xalqı keşməkeşli, şərəfli bir tarix yaşayıb. Bu tarixin hər səhifəsi onun qəhrəman oğul və qızlarının qanı, canı bahasına yazılıb. 3 min ildən artıq dövlətçilik təcrübəsi olan xalqımız bu gün tarixinin ən şərəfli, həm də məsuliyyətli dövrlərdən birini yaşayır. Artıq 25 ildən çoxdur ki, biz müstəqil dövlətimizi bərpa etmişik. Müstəqilliyin ilk illərində çox çətin vəziyyətlər yaşamağımıza, hətta vətəndaş müharibəsi təhlükəsi ilə üzləşməyimizə baxmayaraq, xalqımız öz ümummilli liderinin rəhbərliyi altında bu təhlükələri adlada bildi. 1993-cü ilin iyununda xalqın tələbi ilə Azərbaycanda yenidən hakimiyyətə qayıdan Heydər Əliyev bütün daxili və xarici təhlükələri dəf etməklə ölkəni inkişaf və tərəqqi yoluna çıxartmağı bacardı.





Azərbaycanda müasir gənclər siyasətinin əsası da ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuşdur. Ulu öndər gənclərin potensialının üzə çıxarılması, onların təhsilli, geniş dünyagörüşünə malik, vətənpərvər insanlar kimi yetişməsinə mühüm əhəmiyyət verirdi. Məhz ulu öndərin gəncliyə göstərdiyi diqqət və qayğının bariz nümunəsi idi ki, 1996-cı ildən başlayaraq MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Azərbaycanda Gənclər günü qeyd olunmağa başlandı. 1997-ci ildə isə Heydər Əliyevin sərəncamı ilə 2 fevral tarixi ölkədə Gənclər günü müəyyən edildi.



Sonrakı illərdə bu siyasəti uğurla və müasir dövrün tələblərinə uyğun davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev gənclərin ölkənin ictimai-siyasi, sosial-iqtisadi, mədəni həyatında daha geniş təmsil olunmasına şərait yaratdı. Azərbaycan gənclərinin intellektual inkişafı, sosial, mədəni problemlərinin həlli ilə bağlı müxtəlif dövlət proqramları qəbul və icra olundu. Artıq inamla deyə bilərik ki, bu gün Azərbaycanın regionun lider dövlətinə çevrilməsində gənclərin fəal iştirakı olmuşdur. Hazırda bütün çətinliklərə baxmayaraq, ölkə inkişaf və tərəqqi yolu ilə inamla irəliləyir.

Əlbəttə, düzgün strateji xəttin gətirdiyi uğurlarımız göz qabağındadır. Ancaq bizi daha çox ölkənin sabahı, nail olduğumuz inkişafın davamlılığı düşündürür. Bu isə ilk növbədə Siz gənclərin üzərinə düşən vəzifələrdir. Buna görə də Sizlərə üz tutaraq, bu gün xalqımızın və dövlətimizin qarşısında duran ciddi problemlərin həllində gənclərin üzərinə böyük məsuliyyət düşdüyünü qeyd edirik. İlk növbədə, gənclər bilməlidirlər ki, müasir dünyada iqtisadi və maliyyə sistemində yaranmış böhranın dərinləşməsi ilə ekstremizm və beynəlxalq terrorizm daha da genişlənmiş, ümumi sülh və təhlükəsizliyə, dövlətlərin suverenliyinə, ölkələrin və xalqların gələcəyinə real təhlükə yaranmışdır.

Bu şəraitdə ölkələrin  qarşısında duran sosial-iqtisadi və humanitar problemlərin həllinin xeyli çətinləşməsinə baxmayaraq, gənclərin əsas problemləri olan: layiqli təhsil almaq, peşə seçimi, əmək və mənzil hüququ, hərtərəfli mədəni inkişaf, yaradıcılıq, turizm, idman və s. hüquqlarının təminatı üçün Azərbaycan dövləti imkanlardan maksimum istifadə etməyə çalışır. Buna görə də gənclər ölkənin inkişafı naminə öz potensiallarını tam səfərbər etməli, Azərbaycanın etibarlı gələcəyinqurulmasındadahayaxındaniştiraketməlid irlər. Eyni zamanda, hazırkı mürəkkəb geosiyasi vəziyyəti nəzərə alaraq onlar daha sayıq olmalı, yad təsirlərə məruz qalmamalı, dost- düşməni seçməyi, proseslərdən baş çıxarmağı bacarmalıdırlar. Sizlər çox böyük tarixə malik olan xalqın övladları olduğunuzu unutmamalısınız. Babalardan, atalardan əmanət olunmuş Vətəni, müstəqil dövləti qorumaq, daha da inkişaf etdirmək sizlərin ən ümdə borcunuzdur. Sizlər bü gün Azərbaycanın qarşısında duran ən ümdə problem olan ölkənin ərazi bütövlüyünün təmin edilməsi, torpaqlarımızın erməni hərbi birləşmələrinin işğalından azad edilməsinə öz töhfənizi verməyə hər an hazır olmalısınız. Ölkə Prezidentinin daim diqqət mərkəzində saxladığı bu məsələnin Azərbaycan xalqının





milli maraqlarına uyğun həll ediləcəyinə biz veteranların böyük inamı var. Son vaxtlar ölkədə güclü ordu qurulması istiqamətində həyata keçirilən ardıcıl tədbirlər, xüsusilə ötən ilin aprel ayında düşmənə ağır zərbə vurulması bu inamımızı daha da artırmışdır.

Biz müharibəni öz həyatında yaşamış insanlar kimi hər bir ordunun gücünün silah, texnika ilə yanaşı şəxsi heyətin peşəkarlıq və mənəvi-psixoloji hazırlığından da birbaşa asılı olduğunu yaxşı bilirik. Azərbaycan Ordusunun ruh yüksəkliyi, əsgər və zabitlərimizin vətənpərvərliyi qələbə əzminə köklənməsi bizi ruhlandırır. Biz veteranlar da Qələbə gününün daha da yaxınlaşdırılması üçün bütün qüvvəmizlə ordumuza, əsgərlərimizə hərtərəfli dəstək olmağa, onlarla bir sırada düşmən üzərinə yeriməyə həmişə hazırıq. Biz respublika veteranlar Təşkilatının ölkə gənclərinin vətənpərvərlik tərbiyəsinin daim gücləndirilməsi istiqamətində apardığı ardıcıl və səmərəli fəaliyyəti də onların Qələbə əzminin başlıca mənbələrindən biri hesab edirik.

Sizin arxanızda Azərbaycanın şanlı və şərəfli tarixi, qarşımızda isə işıqlı və uğurlu gələcəyi durur. Nə vaxtsa birinci sıraya öz adınızı yazdırmaq üçün, Sizlər ikincinin həyata keçməsinə öz töhfənizi verməyi bacarmalısınız!

Biz əksər gənclərimizin məhz bu ruhda yetişdiyinə və bu amallarla yaşadığına inanırıq.

01 fevral 2017-ci il.

Sonda ölkənin ictimai-siyasi həyatında səmərəli fəaliyyətinə, veteran hərəkatında fəal iştiraklarına və gənclərin hərbi vətənpərvərlik ruhunda tərbiyəsindəki xidmətlərinə görə bir neçə şəxs Respublika Veteranları Təşkilatının yubiley medalları ilə və fəxri fərmanlarla təltif olunublar.

Tədbir bədii hissə ilə davam edib.

Tədbirin sonunda ölkənin ictimai-siyasi həyatında fəal iştiraklarına, veteran hərəkatında iştiraklarına və gənclərin

hərbi-vətənpərvərlik ruhunda tərbiyəsindəki rollarına görə bir neçə şəxs Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Rəyasət Heyəti adından yubiley medalları və fəxri fərmanlarla təltif olunmuşlar.





## Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla veteranların görüşü

2017-ci il fevral ayının 18-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında AzərbaycanRespublikası Prezidentinin köməkçisi, Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla veteranların görüşü keçirilmişdir.



Əli Həsənov öncə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin veteranlara xüsusi salamlarını və ən xoş arzularını çatdırmış, dövlət başçısının veteranlarla bağlı məsələləri daim diqqət mərkəzində saxladığını və bu gün də məhz Prezidentin tapşırığı ilə onlarla görüşə gəldiklərini bildirmişdir.

Prezidentin köməkçisi bu il yanvar ayının 3-ü və 25-də 95 yaşları tamam olmuş İkinci dünya müharibəsi veteranları, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvləri Aleksandr Aleksandroviç Qritçenkonun və Səttarova Fatma Hüseyn qızının Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin sərancamı ilə 30 yanvar 2017-ci il "Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə təltif olunduqlarını xatırlatmışdır. O, hər iki qocamanveteranınbuyüksəkdövlətmükafatınaölkəninictimai həyatında səmərəli fəaliyyətlərinə və gənclərin vətənpərvərlik tərbiyəsindəki xidmətlərinə görə layiq görüldüklərini vurğulayaraq, veteranların daim fəal olmalarından qürur duyduqlarını, onların yalnız mənsub olduqları ailələrin deyil, bütün xalqın ağsaqqalı, ağbirçəyi olduqlarını qeyd etmişdir.

Azərbaycanda müharibə əlillərin və veteranlarına yüksək dövlət qayğısı göstərildiyindən danışan Ə.Həsənov Respublikada bu siyasətin əsasının Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulduğunu, Ulu Öndərin Azərbaycana yenidən rəhbərliyə qayıtması ilə Veteranlar Təşkilatının fəaliyyətinin canlandığını, veteranlara münasibətin kardinal şəkildə dəyişməsinin şəxsən şahidi olduğunu bildirmişdir. O, xüsusilə 1994-cü ildən etibarən bu istiqamətdə ardıcıl və məqsədyönlü addımların atıldığını, Ümummilli lider Heydər Əliyevin imzaladığı ilk Qanunlardan birinin məhz veteranların hüquqlarının bərpası ilə bağlı "Veteranlar haqqında" Azərbaycan Respublikası Qanunu (1994-cü il 28 iyun) olduğunu qeyd etmişdir. Bunula da yüksək səviyyəyə qaldırılan veteranlara dövlət qayğısının hazırda Azərbaycan Respublikası Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirildiyini, bu məqsədlə təkcə cari ilin əvvəlləindən artıq bir neçə sərancamın imzalandığını bildirən Ə.Həsənov bugünki təqdimatların da bu sahədə növbəti addım sübutu olduğunu vurğulamışdır.





Prezidentin köməkçisi Azərbaycan Respublikası Prezidentinin fəxri diplomlarını İkinci Dünya müharibəsi veteranları Səttarova Fatma Hüseyn qızına və Aleksandr Aleksandroviç Qritçenkoya təqdim etmiş, onlara cansağlığı, gələcək işlərində uğurlar arzulamışdır.

Fatma Səttarova və Aleksandr Qritçenko çıxış edərək yüksək təltifə və diqqətə görə Azərbaycan Respublikası Prezidentinə öz dərin minnətdarlıqlarını buildirmiş, İkinci Dünya müharibəsi cəbhələrində qazandıqları yaraların bu gün göstərilən belə yüksək qayğıdan sonra sanki sağaldığını vurğulamış, ölkənin ictimai həyatında və gənclərin vətənpərvərlik tərbiyəsində bundan sonra da səmərəli fəaliyyət göstərəcəklərinə əmin etmişlər. Hər iki veteran dövlət başçısı, Ali Baş Komandana, şanlı ordumuza, eləcə də bütün xalqımıza Azərbaycan torpaqlarının erməni işğalından azad edilməsi istiqamətindəki fəaliyyətlərdə uğurlar arzulamışlar. Onlar bütün veteranlar adından Azərbaycan xalqının qələbə gününün uzaqda olmadığına inandıqlarını ifadə etmişlər.

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxış edərək Azərbaycan Respublikası Prezidentinin ölkə veteranlarını həmişə diqqət mərkəzində saxlamasından, onların problemlərinin birinci növbədə həll olunmasından danışmış, müharibə iştirakçılarının, əlillərinin sosial müdafiəsini gücləndirmək istiqamətində ardıcıl sərancam və fərmanlar imzalandığını qeyd etmişdir. O, bildirmişdir ki, Azərbaycan veteranları bu baxımdan bütün MDB məkanında ən çox qayğı və diqqətlə əhatə olunmuşlar və Ulu öndərin dediyi kimi veteranlara sözün həqiqi mənasında Azərbaycanın xəzinəsi kimi yanaşılır.

C.Xəlilov veteranların maddi rifah halının yaxşılaşdırılması və sosial müdafiəsinin gücləndirilməsinin onları daim ruhlandırdığını, özlərini daim sırada hiss

etdiklərini vurğulamışdır. Azərbaycan veteranlarının dövlət başçımızın həyata keçirdiyi daxili və xarici siyasəti birmənalı dəstəklədiklərini və bu siyasətin gələcəkdə də uğur qazanması üçün bütün bilik və bacarıqlarını sərf edəcəklərini bildirmişdir.



Görüşün sonunda Əli Həsənov Veteran Təşkilatının qarşısında duran vəzifələri bundan sonra da layiqincə yerinə yetirəcəyinə inandığını, və bu gün də Təşkilatın fəaliyyətinin ümumən ölkə ictimayyəti tərəfindən razılıqla qarşılandığını qeyd etmişdir. O, Azərbaycan dövlətinin bütövlükdə ölkə vətəndaşlarının, xüsusilə veteranların sosial-maddi vəziyyətinin yaxşılaşması istiqamətində ardıcıl proqramlar həyata keçirdiyini, cari ildə də bu məsələlərin xususi diqqətdə saxlandığını ifadə etmişdir.





## “Xatirə kitabı”nın 15-ci cildinin təqdimatı

Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında 2017-cı il 9 mart tarixində “Azərbaycan Respublikası Xatirə kitabı”nın 15-ci cildinin təqdimatına həsr olunmuş tədbir keçirilmişdir.

Tədbir başlamazdan əvvəl İkinci dünya, Qarabağ, Əfqanıstan müharibələrində həlak olmuş, həmçinin, Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbirdə, Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri, akademik Ziyad Səmədzadə, Azərbaycan Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, Azərbaycan Milli Elmlər Akademiyası Nizami adına Ədəbiyyat İnstitunun şöbə müdiri, filologiya elmlər doktoru professor Bədirxan Əhmədov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası Tarix kafedrasının müdiri, dosent Firdovsiyə Əhmədova, Yeni Azərbaycan Partiyası Yasamal rayon təşkilatının sədri Tağı Əhmədov, “Xatirə kitabı” redaksiyasının baş redaktoru Nəzkət Məmmədova, İkinci dünya, Qarabağ, Əfqanıstan müharibəsi, əmək və Silahlı Qüvvələr veteranları, ziyalılar, gənclər, media nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov açaraq demişdir: “Respublika Veteranlar Təşkilatı yarandığı gündən Azərbaycanın İkinci dünya müharibəsində iştirakı ilə bağlı məsələlərə xüsusi əhəmiyyətli iş kimi yanaşmış, bu istiqamətdə çoxsahəli fəaliyyət planları işlənib həyata keçirilmişdir.

Azərbaycanlıların bu müharibədə göstərdiyi qəhrəmanlıqlar, xüsusilə milli-atıcı diviziyaların şanlı döyüş salnaməsi, Azərbaycanın faşizm üzərində qələbəyə verdiyi böyük töhfələr, ayrı-ayrı soydaşlarımızın şərəfli döyüş yolunun təbliği və s. məsələlər daim diqqət mərkəzində saxlanılmışdır. Bu sahədə mühüm əhəmiyyət kəsb edən işlərdən biri "Respublika Xatirə kitabı"nın yaradılması olmuşdur.




Təsadüfi deyil ki, Respublika Veteranlar Təşkilatının ilk sədri istefada olan general-mayor Mustafa Nəsirov "Respublika Xatirə kitabı"nın Redaksiya Heyətinin sədr müavini olmuşdur. "Xatirə kitabı" işçi qrupunun o zamankı rəhbəri Kamil Muxtarovun bu istiqamətdə respublikada görülən işlər, nəzərdə tutulan tədbirlərlə bağlı arxivimizdə Veteranlar Təşkilatının sədrinə ünvanladığı məktub və məlumat saxlanılır.

"Xatirə kitabı"nın hazırlanması ilə əlaqədar Redaksiya SSRİ-nin digər müttəfiq və müxtar respublikaların Xatirə kitabı redaksiyaları ilə yazışmalar aparmış, həmin respublikaların arxivlərindən müharibədən qayıtmayan Azərbaycan vətəndaşları haqqında məlumatlar məlumatlar almışdır. Eləcə də, Respublika Hərbi Komissarlığının köməyi ilə Azərbaycan





SSR ərazisindəki rayon (şəhər) hərbi komissarlıqlarının arxivlərində saxlanılan, Böyük Vətən müharibəsində həlak olan (itkin düşən) yüz min nəfərə yaxın döyüşçü haqqında məlumatlar alınmışdır.

1941-1945-ci illər Böyük Vətən müharibəsində həlak olan və itkin düşən Azərbaycan övladları haqqında məlumatların axtarışını və toplanmasını mütəşəkkil keçirmək "Respublika Xatirə kitabı" redaksiya heyəti və onun işlək qrupu olan "Xatirə" redaksiyası əməkdaşları həqiqətən də müqəddəs vəzifə kimi yanaşmışlar.

Ancaq Azərbaycanda 1980-ci illərin sonları və 1990-cı illərin əvvəllərində yaşanan xaos, hərc-mərclik Veteranlar Təşkilatının fəaliyyətinə, o cümlədən "Xatirə kitabı"nın hazırlanmasına da mənfi təsir göstərmişdir. Ümumiyyətlə, bu işlər nəinki mühüm əhəmiyyət kəsb edən məsələlərin sırasından çıxarılmış, hətta bir müddət tamamilə unudulmuşdur. Digər istiqamətlərdə olduğu kimi "Xatirə kitabı"nın hazırlanması sahəsində növbəti tədbirlərin görülməsinə də yalnız ümummilli lider Heydər Əliyevin ikinci dəfə Azərbaycanda hakimiyyətə qayıtmasından sonra başlanmışdır.

Məhz bunun nəticəsi olaraq 1997-ci ildə "Xatirə kitabı"nın birinci cildi buraxılmışdır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin xalqımızın tarixi və mədəniyyəti ilə bağlı məsələlərə diqqəti və yaxından dəstəyi nəticəsində artıq "Xatirə" kitabının 15 cildi hazırlanaraq, Azərbaycan xalqına çatdırılmışdır. Hazırda bu iş "Xatirə kitabı" redaksiyası tərəfindən uğurla davam etdirilir. Biz inanırıq ki, kitabın növbəti cildləri daha qısa müddətdə ölkə ictimaiyyətinə çatdırılacaqdır. Bu böyük işdə redaksiya kollektivinə uğurlar arzulayıyırıq".

Tədbirdə akademik, millət vəkili Ziyad Səmədzadə, Mətbuat Şurasının sədri, millət vəkili Əflatun Amaşov, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik

Akademiyası Tarix kafedra¬sının müdiri, dosent Firdovsiyə Əhmədova, Xatirə" kitabı" redaksiyasının baş redaktoru Nəzkət Məmmədova və başqaları çıxış edərək "Xatirə" kitabı"nın yaradılmasının əhəmiyyətindən, respublikada bu işə göstərilən diqqətdən, müharibələrdə iştirak etmiş insanlarımızın xatirəsinin əbədiləşdirilməsinin vacibliyindən danışmışlar.

Tədbirin sonunda "Xatirə" kitabı"nın hazırlanmasında və ölkənin ictimai-siyasi həyatında fəal iştiraklarına görə bir neçə şəxs Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatı Rəyasət Heyəti adından medal və fəxri fərmanla təltif olunmuşlar.





## Cəbhə bölgəsinə səfərlər

"Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin və xanımı Mehriban Əliyevanın mayın 1-də Ermənistan silahlı qüvvələri ilə təmas xəttində yerləşən Tərtər, Ağdam və Bərdə rayonlarında yerli əhali və hərbçilərimizlə görüşərək, Ermənistan ordusunun vəhşilikləri nəticəsində yaranmış vəziyyətlə, xidməti şəraitlə tanış olmaları və yerindəcə öz tapşırıqlarını verməsi biz veteranların da qəlbini sonsuz fərəhlə doldurmuşdur. Bu səfər bir daha göstərdi ki, ölkə rəhbəri cəbhə bölgəsində yaşayan insanların problemlərinə həssaslıqla yanaşır, onların müdafiəsini gücləndirmək, həyat və iş şəraitini, güzəranını yaxşılaşdırmaq üçün bütün lazımi tədbirləri görür.

Dövlət başçısı və xanımının cəbhə xəttinin 200 metrliyində yerləşən Tərtər rayonunun Qapanlı, Ağdam rayonunun Mahrızlı kəndində və qoşunların təmas xəttindəki digər məntəqələrdə sakinlərlə görüşləri, Bərdə şəhərindəki Müalicə-Diaqnostika Mərkəzində yaralılara baş çəkmələri həm də dövlət başçısının bütün məsələləri şəxsi nəzarətində saxlaması, vəziyyətlə bağlı operativ qərarlar qəbul etməsinin göstəricisidir.

Ali Baş Komandanın bütün təhlükələrə baxmayaraq, təmas xəttindəki yaşayış məntəqələrinə baş çəkməsi əhalinin, əsgər və zabitlərin əhval-ruhiyyəsini daha da yüksəltmiş, onların qələbə əzmini artırmışdır. Öz liderlik, prinsipiallıq və mərdlik nümunəsini bütün cəmiyyətə təqdim edən Azərbaycan Prezidenti bir daha sübut etdi ki, cəbhə bölgəsində yaşayan hər bir vətəndaşın, səngərdə dayanan hər bir əsgər və zabitin yanındadır, onlar dövlət başçısının diqqət və qayğısı ilə əhatə

olunmuşlar. Ordu və əhali də bu dəstəyi və qayğını yüksək qiymətləndirir.

Biz veteranlar da inanırıq ki, Azərbaycan əsgəri Ali Baş Komandanın rəhbərliyi altında bundan sonra da düşmənə layiqli cavab verəcək, torpaqlarımızın müdafiəsi və işğaldan azad olunması uğrunda yeni şücaətlər göstərəcəkdir.

Respublika veteranları adından:

Respublika Veteranlar Təşkilatının sədri e/ogeneral-mayor Dadaş Rzayev".

İkinci Dünya müharibəsi veteranları cəbhə bölgəsində olublar Azərbaycan Ordusunun şəxsi heyətinin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının və vətənpərvərlik hissinin daha da yüksəldilməsində Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının üzvləri yaxından iştirak edirlər.



Təşkilatın sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilovun rəhbərliyi ilə bir qrup Böyük Vətən müharibəsi ve teranıcəbhəbölgələrinəsəfəredərəkşəxsiheyətləgörüşüblər. Veteranlar hərbi hissə komandanlığı tərəfindən səmimiyyətlə qarşılanıblar. Xalqımızın ümummilli lideri, müasir, mütəşəkkil





ordumuzun baş memarı Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyularaq xatirəsi hörmət və ehtiramla yad edilib.

Veteranlara hərbi hissənin yaranma tarixi, keçdiyi döyüş yolu, şəhid və qəhrəmanları haqqında ətraflı məlumat verilib.

Veteranlarhərbi hissənin xidmət şəraiti ilə tanış olub, əsgər, zabitlərin qayğı və problemləri ilə maraqlanıb, Vətən müdafiəçilərinə ağsaqqal öyüd-nəsihəti verib və işğal edilmiş torpaqlarımızın tezliklə düşmən tapdağından azad edilməsi naminə onlara uğurlar arzulayıblar.

Eləcədə, veteranlar Müdafiə Nazirliyininzabitipolkovnik Abdulla Qurbaninin müşayiəti ilə Beyləqan rayonunun Birinci Şahsevən kəndinə gedərək Sovet İttifaqı Qəhrəmanı Gəray Əsədovun ev muzeyini ziyarət edib, 90 yaşlı bacısı ilə görüşüb və onun qəhrəman qardaşı haqqında xatirələrini dinləyiblər.

Döyüşçülərlə ilk görüş aprel döyüşləri zamanı düşmən tapdağından azad edilən Lələtəpə zirvəsində reallaşıb.

Zabit Rəşad Piriyev dövlətimizin və ordumuzun gücünü, xalqımızın həmrəyliyini, vətənpərvərliyini nümayiş etdirən aprel döyüşləri və onun qəhrəmanları haqqında danışıb. Şəhidlərin xatirəsi yad edilib. Bir neçə gün əvvəl irimiqyaslı təlimlər ərəfəsində Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bu zirvəyə gəlişi, döyüşdə fərqlənən bir qrup hərbi qulluqçunu mükafatlandırması, döyüşçüləri mübarizəyə səsləyən qətiyyətli çıxışı və düşmənə tutarlı mesajları bir daha xatırlanıb.

Döyüşlərdə göstərdiyi şəxsi şücaətə görə hələ aprel ayında Prezidentin sərəncamı ilə «Hərbi xidmətlərə görə» medalı, bir neçə gün öncə isə Prezidentin şəxsi hədiyyəsi ilə mükafatlandırılan əsgər İmran Remixanov hər an Ali Baş Komandanın əmrlərinə hazır olduqlarını bildirib. Qeyd edib ki, yaşları 90-ı çoxdan ötmüş veteranları azad etdikləri strateji yüksəkliklərdə görməkdən böyük qürur duyur və aprel döyüşlərindəki Qələbəni hər an yeniləməyə qadirdirlər.

Respublika Veteranlar Təşkilatının sədr müavini polkovnik C.Xəlilov hər bir Azərbaycan vətəndaşının, eləcə də hər bir veteranın ordumuzun uğur və nailiyyətlərindən fərəhləndiyini, Azərbaycan əsgərinə həmişə arxa-dayaq olduqlarını diqqətə çatdırıb. Müdafiə Nazirliyinin rəhbərliyinə veteranlara göstərilən diqqət və qayğıya, bu kimi tədbirlərin keçirilməsi üçün yaradılan şəraitə görə respublika veteranları minnətdarlığını bildiriblər.

Xalqımız üçün, o cümlədən Azərbaycan Ordusunun şəxsi heyəti üçün həmişə əziz və dəyərli olan insanların, bəşər üçün ən böyük fəlakət sayılan faşizm taunu ilə üz-üzə dayanıb mübarizə apararaq ölümün caynağından qurtulmuş veteranların keçdikləri şanlı döyüş yolundan söhbət açılıb.



97 yaşlı müharibə veteranı Bəkir Məmmədov, Berlinədək döyüş yolu keçmiş bombardmançı təyyarəçi Daməd Vəliyev çıxış edərək ön səngərdə Azərbaycan əsgəri ilə bir yerdə olduqlarını, Lələtəpə zirvəsinə qalxdıqlarını, həyatlarının ən xoş anı hesab edib və tezliklə Şuşada, Xankəndində, Laçında, Kəlbəcərdə və digər yolumuzu gözləyən yurd yerlərimizdə





qalib Azərbaycan əsgəri ilə görüşəcəklərinə əminliklərini bildiriblər.

Xidmətdə fərqlənən bir qrup hərbi qulluqçuya Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının təsis etdiyi yubiley medalları təqdim edilib.

Çay süfrəsi arxasında səmimi söhbət həm əsgərlərdə, həm də qonaqlarda xoş duyğular oyadıb. Xatirələr veteranları gənclik illərinə qaytarıb, əsgərlərimizisəbabalarınqəhrəmanlıq ənənələrini şərəflə davam etdirəcəklərinə söz veriblər.

Cəbrayıl, Füzuli, Xocavənd, Ağcabədi, Beyləqan rayonları istiqamətində Vətən, xalq və dövlət qarşısında əsgəri borclarını layiqincə yerinə yetirən Vətən müdafiəçiləri ilə biri-birindən maraqlı görüşlər keçirilib.

Veteranlar əsgərlərlə bir yerdə nahar edib, eyni yataqxanada gecələyib, onların təlimlərini izləyib, silah və hərbi texnikalarla tanış olub və cəbhə bölgəsindən xoş təəssüratlarla ayrılıblar.

## Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsində (referendumda) iştirak

2016-cı il avqust ayının 2-də Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatında Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsində (referendumda) təşviqat qrupu qismində iştirak etmək üçün Respublika Veteranlar Təşkilatı tərəfindən təşəbbüs qrupunun yaradılması məqsədilə təşəbbüsçülərin yığıncağı keçirilib.

Yığıncaqda 250 ilkin təşəbbüsçünü təmsil edən 90 nümayəndə iştirak edib.

Tədbiri giriş sözü ilə açan Respublika Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov Prezident İlham Əliyevin sərəncamına uyğun olaraq referendumun 2016-cı il sentyabrın 26-na təyin edilməsi, Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına ümumxalq səsverməsinin bu Sərəncamda göstərilən tarixdə keçirilməsinin təmin edilməsi ilə əlaqədar zəruri tədbirlərin həyata keçirilməsinə başlandığını və bununla əlaqədar ölkənin ictimai təşkilatlarında, idarə və müəssisələrdə Təşəbbüs qruplarının yaradılmağa başlandığını bildirib. Respublika Veteranlar Təşkilatının öz sıralarında veteranlar ordusu kimi böyük bir qüvvəni birləşdirən ictimai təşkilat olaraq referendumda fəal iştirak edəcəyinə əminliyini ifadə edən Cəlil Xəlilov bunun üçün müvafiq Təşəbbüs qrupunun yaradəlmasını təklif etmişdir.





Tədbirdə şıxış edən Respublika Veteranlar Təşkilatının şöbə müdiri ehtiyatda olan polkovnik Adil Haqverdiyev, təşkilatın nümayəndəsi Əliş Əliyev, Nəsimi rayon veteranlar təşkilatının sədri, İkinci dünya müharibəsi iştirakçısı İsmayıl Fərəcov və başqaları referendumun Azərbaycanda siyasi islahatlar, ölkənin daha etibarlı sabahı baxımından əhəmiyyətindən danışmış Təşəbbüs qrupunun fəal iş aparması üçün əllərindən gələni əsirgəmiyəcəklərini bildirmişlər.

Təşəbbüsçülərin yığıncağında Seçki Məcəlləsinin tələblərinə uyğun olaraq təşəbbüs qrupunun 20 nəfər səlahiyyətli nümayəndəsi təyin olunmuşdur. Eynii zamanda yaradılan Təşəbbüs qrupunun qeydiyyatdan keçməsi məqsədilə Mərkəzi Seçki Komissiyasına bildiriş təqdim edilməsi barədə qərar qəbul olunmuşdur”.

## Beynəlxalq əlaqələr çərçivəsində keçirilən tədbirlər

### Türkiyənin Müharibə Veteranları Dərnəyi ilə əlaqələr genişlənir

2016-cı il oktyabr ayının 26-30-da Türkiyənin Müharibə Veteranları Dərnəyinin Qars vilayəti üzrə nümayəndələri Bakı şəhərində səfərdə olmuşlar. Qonaqların səfər müddətində Azərbaycanla bağlı dolğun məlumat və təəssürat almaları, ölkənin rəsmi təşkilatlarında görüşlərinin təşkili məqsədi ilə AR Müdafiə Nazirliyinin Beynəlxalq Əməkdaşlıq İdarəsi ilə birlikdə aşağıdakı görüş və tədbirlər keçirilmişdir.

2016-cı il oktyabr ayının 27-də Türkiyəli qonaqlarla Respublika Veteranlar Təşkilatında görüş keçirilmişdir. Görüşdə Türkiyənin Müharibə Veteranları Dərnəyinin Qars vilayəti üzrə rəhbərləri Yüksəl Öztürk, Munis Acay və Mevlud Kara, İkinci dünya, Qarabağ, Əfqanıstan müharibəsi, əmək və Silahlı Qüvvələr veteranları, Respublika Veteranlar Təşkilatının və Müdafiə Nazirliyinin nümayəndələri iştirak etmişlər.

Azərbaycan Veteranlar Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil XəlilovTürkiyənin Müharibə Veteranları Dərnəyinin Qars vilayəti üzrə nümayəndələrinə Təşkilatın fəaliyyəti, veteranların sosial müdafiəsi sahəsində ölkə rəhbərliyinin həyata keçirdiyi siyasət, Azərbaycanın əsas problemi olan Dağlıq Qarabağın və ətraf rayonların Ermənistan Silahlı Qüvvələri tərəfindən 24 ilə yaxın bir müddətə işğal





altında saxlanması ilə bağlı danışmış, RVT-nin qarşısında duran məsələlərdən bəhs etmişdir.

Türkiyəli qonaqlar onların səmimi qarşılanmaları və yaradılan şəraitə görə öz minnətdarlıqlarını bildirmiş, onlar üçün nəzərdə tutulan görüş və planlaşdırılan tədbirlərdən razı qaldıqlarını bildirmişlər.

Türkiyəli qonaqlarla Müdafiə Nazirliyində rəsmi görüş, Müdafiə Nazirliyinin Heydər Əliyev adına Ali Hərbi Məktəbində xüsusi tədbir keçirilmiş, qonaqları Bakı şəhərində yerləşən bir neçə muzeylə tanış etmişdirlər.

Türkiyəli qonaqların səfəri ölkə KİV-ində işıqlandırılmış, bu səfər barədə “Azərbaycan Veteranı” qəzetində müvafiq məqalələr hazırlanaraq, dərc olunmuşdur.

### “Qaliblərin Balı”

2016-cı il dekabr ayını 3-də Rusiya Federasiyasının paytaxtı Moskva şəhərində yerləşən Böyük Vətən Müharibəsi Mərkəzi muzeyində M.Liepa və Birləşmiş metallurgiya kompaniyasının təşkilatçılığı və MDB ölkələrinin İkinci Dünya Müharibəsi veteranlarının iştirakı ilə “Qaliblərin Balı” adlanan geniş tədbir keçirilmişdir.

Moskva uğrunda döyüşlərin 75 illik yubileyinə həsr olunmuş Qaliblərin sayca 11-ci “Balı”ında Azərbaycanı İkinci dünya müharibəsi veteranları Bəkir Məmmədov, Seyfulla Baxışov, Leninqrad mühasirəsi (blokada) iştirakçıları İrina Qədimova, Yekaterina Sadıxova, Respublika Veteranlar Təşkilatının şöbə müdiri, ehtiyatda olan polkovnik Lətif Babayev, baş mütəxəssisləri Nəbi Hacıyev və Azər İsmayılov təmsil etmişlər.

Qaliblərin 11-ci Balı İkinci Dünya müharibəsinin gedişivə keçmiş SSRİ-nin bu müharibədə iştirakına həsr olunmuş geniş kompozisiyanın nümayişi ilə başlanmışdır. Alman faşizmi üzərində qələbəyə aparan yolun bütün mühüm mərhələlərinin,

eləcə də arxa cəbhənin həmin qələbənin əldə olunmasında iştirakının əksini tapdığı kompozisiya müharibənin od-alovundan çıxmış, bu gün yaşı 100-ü haqlamaqda olan insanlar tərəfindən böyük maraqla qarşılanmışdır. Sonra Rusiya TV-lərinin canlı yayımladığı bayram tədbiri - "Qaliblərin Balı"başlanmışdır. Müharibənin canlı şahidləri, RF-nin rasmi dövlət və ictimai təşkilatlarının nümayəndələrinin çıxışlarının yer aldığı, rəsmi təbriklərin oxunduğu tədbirdə Rusiya və digər ölkələrin tanınmış incəsənət xadimlərinin ifasında vətənpərvərlik, o cümlədən, torpaq, ana, müharibə, qələbə haqqında mahnılar səsləndirilmişdir.



Azərbaycan nümayəndə heyətinin üzvləri, veteranlar Bəkir Məmmədov və İrina Qədimova Rusiya TV-lərinə müsahibə vermişlər. Həmin müsahibələrdə ölkəmizin İkinci dünya müharibəsində yaxından iştirakı, azərbaycanlıların qəhrəmancasına vuruşaraq ən yüksək fəxri adlara, orden-medallara layiq görülmələrindən, qanlı döyüşlərdə 300 mindən çox soydaşımızın həyatlarını itirməsindən, Azərbaycan xalqının bəşəriyyətin dəhşətli bəladan xilası naminə arxa cəbhədəki fədakar əməyindən bəhs etmişlır. Azərbaycan





nümayəndə heyətinin üzvləri digər ölkələrin nümayəndələri ilə tədbir çərçivəsində, eləcə də kular söhbətlərində Azərbaycanda 9 may Qələbə gününün hər il böyük təntənə ilə qeyd edilməsi, veteranlara dövlət tərəfindən xüsusi qayğı göstərilməsi, Azərbaycan Veteranlar Təşkilatının qarşılıqlı əməkdaşlıq əlaqələrinə mühüm əhəmiyyət verdiyi barədə danışmışlar.

Respublika Veteranlar Təşkilatının Rəyasət Heyəti adından Azərbaycanla, xüsusilə veteran təşkilatları arasında əlaqələrin inkişafında yaxından iştiraklarına görə, Rusiya- Azərbaycan Parlamentlərarası dostluq qrupu press-mərkəzinin rəhbəri Krasovskaya Natalya Rudolfovnaya və RF Dövlət Dumasının deputatı D.İ.Savelyevin köməkçisi, Parlamentlərarası dostluq qrupunun mədəni və elm-təhsil proqramları rəhbəri Qolubev Sergey Leonidoviçə RVT-nin yubiley medalları təqdim edilmişdir".

## Respublika Veteranlar Təşkilatının sədrləri

### Mustafa Cəfər oğlu Nəsirov

1987-2003-cü illərdə Respublika Veteranlar Təşkilatınınsədri ehtiyatda olan general- mayor Mustafa Cəfər oğlu Nəsirov olmuşdur.Mustafa Cəfər oğlu Nəsirov 25 oktyabr 1921-ci ildə Dərbənd şəhərində anadan olmuşdur. 1938-ci ildə



Dərbənd pedaqoji məktəbini, 1940-cı ildə isə Dağıstan Dövlət Müəllimlik İnstitutunu bitirmişdir. Həmin ildə Sabnova kəndinin natamam orta təhsil məktəbində müəllim və təhsil hissəsinin müdiri işləmişdir.

1942-ci ilin yanvar ayında hərbi xidmətə çağırılıb. Xidmətini 1941-ci ilin 15 oktyabrından Moskva altında döyüşən 194-cü atıcı alayında əsgər kimi başlamışdır. 1942- ci ilin avqust ayında Saratov sərhəd qoşunlarının hərbi məktəbinə göndərilmişdir. 1943-cü ilin aprel ayında leytenant hərbi rütbəsində DİXK-nın sərhəd qoşunlarının Qırğızıstan dairəsində komandir vəzifələrində xidmətini davam etmişdir. 1947-ci ilin fevral ayından Frunze səhərində DİN qoşunları üzrə qarnizon komendaturasının komendantı olmuşdur. 1947- ci ildə bu vəzifədə olaraq ekstern yolu ilə Qırğızıstan Dövlət Pedaqoji İnstitutuna daxil olmuş və onun tam kursunu 1948-ci ildə bitirmişdir.





1948-ci ilin oktyabr ayından SSRİ DTN-nin Hərbi İnstitutunun müdavimi olmuşdur. İnstitutu fərqlənmə diploma ilə bitirdikdən sonra 1952-ci ilin sentyabrından Azərbaycan və Zaqafqaziya sərhəd dairələrinin gərargahlarında hərbi hazırlıq bölmələrində xidmət etmişdir.

1961-ciilinoktyabrından 1962-ciilinaprelinəqədər SSRİ DTK-nin Ali Məktəbi nəznində təkmilləşdirmə kurslarının dinləyicisi olmuşdur. Sonralar isə xidmətini Azərbaycan sərhəd dairəsinin Göytəpə sərhəd dəstəsinin gərargah rəisi, Neftçala sərhəd dəstəsinin rəisi vəzifələrində davam etdirmişdir.

1962-ci ilin noyabrından 1968-ci ilin oktyabrına qədər Naxçıvan sərhəd dəstəsinə komandanlıq etmişdir, eyni zamanda SSRİ-nin sərhəd komissarı, Araz çayında İran ilə birgə «Araz» və «Mil-Muğan» hidroqurğuların tikilməsində SSRİ səlahiyyətli sərhəd nümayəndəsi olmuşdur.

1964-cü ildə polkovnik rütbəsi almış, 1968-ci ilin oktyabr ayında Azərbaycan SSRİ nəzdində DTK-nin sədri general-mayor Heydər Əliyevin təşəbbüsüilə Bakıda SSRİ DTK-nin Zaqafqaziya sərhəd dairəsinin hərbi-əməliyyat söbəsinin rəis müavini vəzifəsinə təyin edilmişdir. 1972-ci ilin dekabrından Bakıda HƏŞ-nin rəisi, SSRİ DTK-nın Zaqafqaziya sərhəd dairəsi ordusunun rəis müavini, dairənin Hərbi Şurasının və Azərbaycan Respublikası DTK-nin kolleqiyasının üzvü olmuşdur. 1977-ci ildə SSRİ-nin Hərbi Qüvvələrinin baş qərargahı nəznindəki akademiyada rəhbər heyətinin təkmilləşdirilməsi üzrə ali akademik kurslarında oxumuşdur.

Mustafa Cəfər oğlu bütün yuxarıda göstərilən vəzifələrdə sovet dövründə sərhəd qoşunlarında ilk azərbaycanlı-zabit olmuşdur.

General-mayor Nəsirov M.C. 1987-ci ilin iyununda 65 yaşında istefaya çıxmışdır.

Mustafa Nəsirov 1987-ci ilin mart ayında Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının ilk sədri seçilmişdir.

1993-cü ilin avqustunda Mustafa Nəsirov Azərbaycan Respublikası Milli Təhlükəsizlik Nazirliyinin sərhəd məsələləri üzrə baş məsləhətçisi təyin olunmuş və bu vəzifədə 1995-ci ilin iyuluna qədər işləmişdir.

Mustafa Nəsirov Naxçıvan MR Ali Sovetinin 6-cı və 7-ci çağırışı deputatı (1963-1971), Azərbaycan Respublikasının Ali Sovetinin 9, 10, 11, və 12-ci çağırış deputatı (1975-1995) seçilmişdir. 1990-1995-ci illərdə Azərbaycan Respublikasının Ali Sovetinin Rəyasət Həyətinin üzvü olmuşdur.

1994-cü ildən 1995-ci ilə qədər MDB ölkələri iştirakçılarının parlamentlərarası Assambleyasının üzvü, mühafizə və təhlükəsizlik məsələləri üzrə onun daimi komissiyasının sədri olmuşdur.

Mustafa Nəsirov «Qırmızı Bayraq» (1967), «Qırmızı Əmək Bayrağı» (1977) və «Vətən müharibəsi» (1985) ordenləri,18 medal ilə təltif olunmuşdur. O, həmçinin dəfələrlə SSRİ DTK-nin sədri (18.04.1973, 07.12.1978), SSRİ DTK-nin sərhəd qoşunları rəisi (04.05.1967, 07.05.1980), Zaqafqaziya və Azərbaycan sərhəd dairələrinin SQ rəisləri, ÜLKGİ MK, Qırğızıstan və Azərbaycan LKGİ MK tərəfindən, SSRİ-nin Neft Sənayesi Nazirliyi, Energetika və elektrifikasiya Nazirliyi, və digər dövlət orqanlarının fəxri fərmanları ilə, Bolqarıstan, Macarıstan, Çexoslovakiya SQ-nınfərqlənmə döş nişanları ilə təltif olunmuşdur.

Azərbaycan Respublikası Prezidentinin 24 oktyabr 2011-ci il tarixli Sərəncamı ilə Mustafa Cəfər oğlu Nəsirov

«Şöhrət» ordeni ilə təltif edilmişdir.

Ona «Azərbaycan Respublikasının əməkdar hüquqşünası» (1984), «Dövlət təhlükəsizliyinin fəxri





əməkdaşı» (1980), «Dərbənd şəhərinin fəxri vətəndaşı» (1996) fəxri adları verilmişdir.

Dərbənd şəhərində bir küçəyə «General Nəsirov M. C.» adı verilmişdir. O, Naxçıvan MR Ali Sovetinin Rəyasət Heyəti tərəfindən iki dəfə (1968 və 1972-ci illərdə) və Azərbaycan Respublikası Ali Sovetinin Rəyasət Heyəti tərəfindən dörd dəfə fəxri fərmanlarla təltif olunmuşdur (1958 və 1964, 1978 may və 1978 oktyabr).

4 iyul 2012-ci də Bakıda Mustafa Nəsirovun xatirəsinə həsr olunmuş "Ölməzlik" kitabının təqdimat mərasimi keçirilmişdir.

Mustafa Cəfər oğlu Nəsirov 27 may 2012-ci ildə Bakıda vəfat etmişdir.

## Bahadur Məmmədqulu oğlu Hüseynov

1993-2001-ci illərdə Respublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayorBahadur Məmmədqulu oğlu Hüseynov olmuşdur.



Bahadur Məmmədqulu oğlu Hüseynov 1921-ci il dekabr ayının 15-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda kəndli ailəsində anadan olmuşdur. Ağır iqtisadi həyat şəraitini yüngülləşdirmək məqsədilə 1924-cü ildə ailəsi Naxçıvandan Gəncəyə köçməli olmuşdur. 1934-cü ildə yeddiillik təhsilini başa vuran Bahadur Gəncə Toxuculuq Texnikumuna qəbul olur və 1938-ci ildə həmin texnikumu müvəffəqiyyətlə bitirərək Toxuculuq Kombinatında işə düzəlir. Həmin vaxtlar Xarkov şəhərində təhsil alan böyük qardaşı Əhməd Bahaduru da təhsilini davam etdirmək üçün öz yanına çağırır. Təhsilini davam etdirmək və ürəyinə daha çox yatan işlə məşğul olmaq istəyən Bahadur Hüseynov bu istəklə 1939-cu ilin mayında Xarkov şəhərinə gedir və burada Elektrotexnika İnstitutunun hazırlıq şöbəsinə daxil olur. Həmin şöbəni bitirdikdən sonra təhsilini çoxdan arzusunda olduğu F.E.Dzerjinski adına Xarkov sərhədçilər məktəbində davam etdirir.





Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar Bahadur da təhsilini vaxtından əvvəl başa vuraraq, kiçik leytenant rütbəsində, tağım komandiri kimi cəbhəyə yollanır. Onun ilk döyüşü 1941-ci ildə Smolensk istiqamətində vuruşan 246-cı diviziyanın 908-ci alayının tərkibində olur. Düşmənlə amansız ölüm-dirim savaşında kiçik leytenant B.Hüseynov üç dəfə ağır yaralanır. Qorki şəhərində bir müddət müalicə olunduqdan sonar, yenidən cəbhəyə yola düşmək üçün Gürcüstan ərazisində yerləşən ehtiyat briqadasına göndərilir. Ancaq Bahadur Hüseynovun Sərhəd Məktəbini bitirdiyini bilən briqada komandanlığı onun cəbhəyə getmə xahişini qəbul etmir və Gürcüstanda — Sərhəd qoşunlarında xidmətə yollayır.

Gənc zabit 1942-ci ildən 1948-ci ilə kimi Gürcüstanın müxtəlif bölgələrində tərcüməçi, zabit, böyük zabit vəzifələrində qulluq edir. 1948-1963-cü illərdə Sərhəd Qoşunlarının Azərbaycan dairəsinin 43-cü sərhəd dəstəsində əvvəlcə bölmə rəisi, kəşfiyyat bölmə rəisi vəzifələrində xidmət edir. 1960-cı ildə polkovnik-leytenant rütbəsi alır və az sonra xidmət etdiyi hissənin rəis müavini təyin edilir. Elə həmin dövrdə, 1961-ci ildə xidmətdən ayrılmadan Azərbaycan Dövlət Universitetinin hüquq fakültəsinə qəbul olur və 1967-ci ildə universiteti ali təhsilli hüquqşünas ixtisası almaqla bitirir.

Polkovnik-leytenant Bahadur Hüseynovun biliyi, intizamlılığı, bacarığı nəzərə alınıb, onun xidmətini Dövlət Təhlükəsizlik orqanlarında davam etdirməsi tövsiyə olunur. 1963-cü ildə baş tutan bu təyinatda həmin vaxt Təhlükəsizlik orqanlarında rəhbər vəzifədə çalışan ulu öndər Heydər Əliyevin rolu olmuşdur. B.Hüseynov az sonra məhz Heydər Əliyevin təqdimatı ilə Dövlət Təhlükəsizlik Komitəsində bölmə müdiri vəzifəsinə təyin edilir. Xüsusi xidmət orqanlarında vəzifə pillələrində inamla irəliləyən Bahadur Hüseynov 1969-cu ildə Naxçıvan Muxtar Respublikasının Dövlət Təhlükəsizlik

Komitəsinə sədr təyin olunur. B.Hüseynov bu məsuliyyətli vəzifədə 7 il şərəflə, ləyaqətlə xidmət edir.

1976-cı ildə Azərbaycan KP MK-nın Birinci Katibi Heydər Əliyevin təklifi və təqdimatı ilə polkovnik Bahadur Hüseynov Azərbaycan DTK-sına sədr müavini təyin edilir. Həmin vaxt o, rəhbər vəzifəli şəxs, təvazökar və sadə insan kimi artıq respublikada kifayət qədər tanınırdı. Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsində sədr müavini Bahadur Hüseynovun xidmətləri nəzərə alınaraq, ona 1978-ci ildə general-mayor rütbəsi verilmişdir. 1986-cı ildə təhlükəsizlik orqanlarından ehtiyata buraxılan Bahadur Hüseynov yenə də ölkənin ictimai-siyasi həyatından kənarda qalmır, Azərbaycan naminə bütün bilik və bacarığını sərf edirdi. Həqiqi vətənpərvər insan və ictimai xadim kimi xidmətləri yüksək qiymətləndirilərək, Bahadur Hüseynov Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının məsul katibi, sədrin müavini vəzifələrinə seçilmiş, 1992-ci ildən 2001-ci ilə kimi isə Təşkilatın sədri vəzifəsində seçilmşdir. O, 1987-ci ildə fəaliyyətə başlayan bu Respublika Veteranlar Təşkilatının yaradıcılarından biri olmuşdur. Təşkilatın sədri olduğu müddətdə də Bahadur Hüseynovun bütün fəaliyyəti Azərbaycanın tərəqqisi, gənclərin Vətənə, xalqa layiq insanlar kimi yetişmələrinə həsr edilmişdir. O, sədr olduğu dövrdə Azərbaycan Veteranlar Təşkilatının xarici əlaqələri xeyli genişlənmişdir. Məhz Bahadur Hüseynovun təşəbbüsü ilə Azərbaycan Veteranlar Təşkilatı Ümumdünya Veteranlar Federasiyasının tərkibinə daxil olmuş və həm də o, bu təşkilatın Rəyasət Heyətinin üzvü seçilmiş ilk azərbaycanlı olmuşdur.

Bahadur Hüseynov ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etməklə, dəfələrlə Cəlilabad rayon Zəhmətkeş Deputatları Sovetinə, Naxçıvan Muxtar Respublikası Ali Sovetinə deputat seçilmişdir. O, Azərbaycan KP-nin





qurultaylarının nümayəndəsi, Bakı şəhər Partiya Komitəsinin üzvü seçilmişdir. Onu ölkədən kənarda, xüsusilə MDB məkanında yaxşı tanıyır, peşəkarlığına, bacarığına hörmətlə yanaşır, xidmətlərini nəzərə alırdılar. Bahadur Hüseynov 1991-2001-ci illərdə MDB ölkələri veteranlar təşkilatının Əlaqələndirmə Şurası Rəyasət Heyətinin üzvü olmuşdur.

Bahadur Hüseynovun əməyi dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. İki dəfə Qırmızı Əmək Bayrağı, I və II dərəcəli Vətən müharibəsi ordenlərinə, həmçinin 30-a yaxın medala layiq görülmüşdür. Müharibə veteranları arasında fəal beynəlmiləlçi fəaliyyətinə görə, Bahadur Hüseynov MDB ölkələrinin və Monqolustan Xalq Respublikasının də mükafatları ilə də təltif edilmişdir.

Bahadur Hüseynov Azərbaycan Respublikasının Əməkdar hüquqşünası, keçmiş SSRİ-nin fəxri çekisti idi. Respublikanın ictimai-siyasi həyatında fəal iştirak etdiyinə və xidməti fəaliyyətində əldə etdiyi nəticələrə görə, iki dəfə Azərbaycan Respublikasının, üç dəfə Naxçıvan MR-nin fəxri fərmanları ilə təltif edilmiş, SSRİ və Azərbaycan DTK-nın qiymətli hədiyyələri ilə mükafatlandırılmışdır.

Bahadur Məmmədqulu oğlu Hüseynov 29 dekabr 2016-cı ildə Bakıda vəfat etmişdir.

## Baloğlan Əmrah oğlu Rüstəmov

2001-ci ilin may ayından 2007-ci ilədək Respublika Veteranlar Təşkilatının sədri Baloğlan Əmrah oğlu Rüstəmov olmuşdur.



Baloğlan Rüstəmov 1922-ci il iyun ayının 22-də Naxçıvanın indiki Culfa rayonunun Qazançı kəndində anadan olmuşdur. 1939-cu ildə orta məktəbi bitirdikdən sonra Naxçıvan İkiillik Müəllimlər İnstitutuna daxil olmuş, lakin burada təhsilini başa vurmadan 1940-cı ildə Bakıya köçərək, 15 nömrəli fabrik-zavod məktəbinin şagirdi olmuş və eyni zamanda neft mədənlərində çalışmışdır. 1941-ci ildə könüllü olaraq ordu sıralarına yollanan Baloğlan Rüstəmov hərbi desant məktəbinə göndərilmişdir. O, müharibədən sonra – 1952-ci ildə Bakı partiya məktəbini bitirmiş, 1978-ci ildə isə Moskva Ali Həmkarlar İttifaqı Məktəbinin məzunu olmuşdur. 1941-1945-ci illər müharibəsi dövründə Baloğlan Rüstəmov Qafqazdan başlayaraq Berlinədək şərəfli döyüş yolu keçmişdir. O, alman-faşist işğalçılarına qarşı ağır döyüş əməliyyatlarının iştirakçısı olmuş, qəhrəmanlıqlar nümayiş etdirmişdir.

Baloğlan Rüstəmov müharibədən sonra bir sıra sahələrdə uğurla çalışmışdır. O, 1946-1948-ci illərdə Naxçıvan şəhərində





sərhəd mühafizə hissəsində köməkçi təsərrüfat müdiri, 1948-1950-ci illərdə Culfa və Naxçıvan rayonlarında komsomol komitələrində birinci katib, 1952-1956-cı illərdə Kür-Araz su tikinti idarələrində siyasi şöbənin rəisi olmuşdur. 1956-1967-ci illərdə Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası Daxili İşlər Nazirliyi sistemində müxtəlif vəzifələr tutmuş Baloğlan Rüstəmov 1967-1968-ci illərdə Araz çayı üzərində İran-Sovet müştərək su elektrik stansiyasının tikintisində kadrlar şöbəsinin rəisi, 1968-1971-ci illərdə həmin tikintinin birləşmiş həmkarlar təşkilatının sədri kimi fəaliyyət göstərmişdir. O, 1971-1973-cü illərdə Naxçıvan mineral sular bazasında direktor, 1973-1977-ci illərdə Naxçıvan Vilayət Həmkarlar İttifaqı Şurasında şöbə müdiri, 1977-1981-ci illərdə Naxçıvan yüngül sənaye istehsalat kombinatında direktor, 1981-1984-cü illərdə Naxçıvan Muxtar Respulikasının yerli sənaye naziri işləmişdir. Tükənməz enerjisi, qurub-yaratmaq əzmi, insanlarısəfərbəretməkbacarığıçalışdığıbütünsahələrdə Baloğlan Rüstəmova böyük nüfuz və hörmət qazandırmışdır.

Təqaüdə çıxdıqdan sonra Baloğlan Rüstəmov 1984-cü ildən etibarən öz fəaliyyətini gənclərin hərbi vətənpərvərlik tərbiyəsiişinəhəsredərək, Naxçıvan Şəhər Veteranlar Şurasında təşkilat-metodik komissiyasının sədri, şəhər Veteranlar Şurası sədrinin müavini və sədri, 1987-1993-cü illərdə Naxçıvan Muxtar Respublikası Veteranlar Şurasının sədri olmuşdur. 1994-cü ildə o, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının məsul katibi və sədr müavini, 2001-ci ildən ömrünün sonunadək sədri kimi fəaliyyət göstərmişdir. O, Ümumdünya Müharibə Veteranları Baş Assambleyasının üzvü olmuşdur.

Baloğlan Rüstəmovun döyüş rəşadəti gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında parlaq nümunə təşkil edir. Tutduğu vəzifələrdən, gördüyü işlərdən asılı olmayaraq, Baloğlan Rüstəmov daim yüksək peşəkarlıq,

fədakarlıq və təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir. O, bir sıra nüfuzlu toplantılarda Azərbaycanın rəsmi nümayəndə heyətinin tərkibində ölkəmizin veteranlarını təmsil etmişdir.

Baloğlan Rüstəmovun xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. O, İkinci dünya müharibəsi illərində göstərdiyi hərbi rəşadətə görə 3-cü və 2-ci dərəcəli "Şöhrət" ordeni, iki dəfə 2-ci dərəcəli "Vətən müharibəsi" ordeni və bir sıra medallarla təltif edilmişdir. 2002-ci ildə Baloğlan Rüstəmov müstəqil Azərbaycan Respublikasının ali mükafatına – "Şöhrət" ordeninə layiq görülmüşdür.

Tanınmış ictimai xadim, İkinci dünya müharibəsinin veteranı, Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Şurasının sədri, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü Baloğlan Əmrah oğlu Rüstəmov 2007-ci il oktyabrın 9-da Bakıda vəfat etmişdir.





## Əlövsət Məmmədşah oğlu Baxışov

2008-2013-cü illərdə Respublika Veteranlar Təşkilatına Əlövsət Məmmədşah oğlu Baxışov sədrlik etmişdir.

Əlövsət Baxışov 1923-cü il martın 3-də Quba



rayonunun Amsar kəndində anadan olmuşdur 1942-ci ildə orta məktəbi və müəllimlik kurslarını bitirdikdən sonra bir müddət Qubanın Xanəgah kənd məktəbində dərs demişdir. O, 1943-cü ildə hərbixidmətə çağırılmış İkinci Dünya müharibəsindən sonra 1950-ci ilin mart ayınadək ordusıralarındaqulluq etmişdir.

Əlövsət Baxışov 1952-ci ildə Müəllimlər İnstitutunun tarix fakültəsini, 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin tarix fakültəsini, 1958-ci ildə Bakı Ali Partiya Məktəbini, 1978-ci ildə isə Azərbaycan Kənd Təsərrüfatı İnstitutunun aqronomluq fakültəsini bitirmişdir.

Ordudan tərxis olunduqdan sonra Əlövsət Baxışov 1950-1951-ci illərdə Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi sistemində çalışmışdır. 1951-1952-ci illərdə Quba Rayon Komsomol Komitəsinin birinci katibi olmuşdur.

Sonrakı dövrlərdə o, partiya və sovet orqanlarında müxtəlif vəzifələr tutmuşdur. 1952-1953-cü illərdə Quba Rayon Partiya Komitəsinin katibi, 1953-1954-cü illərdə Quba Rayon Xalq Deputatlar Soveti İcraiyyə Komitəsinin sədri, 1958-1959-cu illərdə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin təlimatçısı və məsul təşkilatçısı olmuşdur. O, 1959-1979-cu illərdə Dəvəçi, Şamaxı, Masallı və Gədəbəydə Rayon Partiya Komitəsinin birinci katibi seçilmişdir. 1979-cu ildən etibarən kənd təsərrüfatı sahəsində çalışmağa başlayan Əlövsət Baxışov 1992-ci ilədək Azərbaycan Respublikası Kənd Təsərrüfatı Nazirliyində baş idarə rəisi vəzifəsində işləmişdir.

1992-ci ildən etibarən Əlövsət Baxışov öz həyatını Azərbaycan Respublikası Veteranlar Şurası ilə bağlamışdır. O, burada ayrı-ayrı vəzifələri tutmuş, o cümlədən daimi komissiya sədri, məsul katib və sədrin birinci müavini kimi çalışmış, 2008-ci ildə isə həmin təşkilatın IV qurultayında Şuranın sədri vəzifəsinə seçilmişdir. Onun sədrlik dövrü gənclərin vətənpərvərlik tərbiyəsi işinə xüsusi diqqətin göstərilməsi, Şuranın həm ölkədaxili fəallığı, həm də MDB və dünya veteranlar şuraları üzrə əlaqələrinin genişləndirilməsi ilə səciyyələnmişdir. Əlövsət Baxışov harada işləməsindən, hansı vəzifəni tutmasından asılı olmayaraq, öz işinə böyük məsuliyyət hissi ilə yanaşmış, yüksək işgüzarlıq və gözəl təşkilatçılıq qabiliyyəti nümayiş etdirmişdir.

Əlövsət Baxışov daim ölkəmizin ictimai-siyasi həyatında fəal iştirak etmiş, dörd çağırış Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur.

Əlövsət Baxışovun fəaliyyəti dövlət tərəfindən həmişə layiqincə qiymətləndirilmişdir. O, müxtəlif orden və medallarla təltif edilmiş, müstəqil Azərbaycan Respublikasının «Şöhrət» ordeninə layiq görülmüşdür.

Əlövsət Məmmədşah oğlu Baxışov 2013-cü il iyun ayının 3-də Bakıda vəfat etmişdir.





## Dadaş Qərib oğlu Rzayev

2014-cü ilin yanvar ayındanRespublika Veteranlar Təşkilatının sədri ehtiyatda olan general-mayor Rzayev Dadaş Qərib oğludur.

Rzayev Dadaş Qərib oğlu 1935-ci ildə Goranboy



rayonunun Dəliməmmli qəsəbəsində anadan olub. Orta məktəbi bitirdikdən sonra Azərbaycan Sənaye İnstitutuna daxil olan D.Rzayev 1954-cü ildə Sovet Ordusunda hərbi xidmətə çağırılır. Hərbi Hava Qüvvələrində nümunəvi hərbi xidmət keçən D.Rzayev ali hərbi təhsil almaq məqsədilə yeni yaradılan Hərbi Hava Desantçıları Məktəbinə (Qazaxıstan SSR) göndərilir. Yaxşı oxuduğuna görə, ikinci kursda taqım komandirinin müavini təyin edilir. 400 məzunun içərisində hamıdan öncə "Qızıl Ulduz" ordeni ilə təltif olunur. Məktəbi bitirdikdən sonra leytenant rütbəsi alaraq Yefremov şəhərinə taqım komandiri vəzifəsinə göndərilir. D.Rzayev bir il sonra hərbi qulluğunu öz doğma vətənində, Azərbaycanda, Zaqafqaziya Hərbi Dairəsində, Gəncə şəhərində yerləşən 104-cü diviziyada davam etdirir. hissələrinə bağlayan Dadaş Rzayev 1970-ci ildə Moskvada M.F.Frunze adına Ali Hərbi Akademiyaya daxil olaraq təhsilini desant qoşunları sahəsində

davam etdirir. Sovet totalitar rejimində azərbaycanlıların burada təhsil alması təsadüfi bir hadisə idi. Hərbi Akademiyada təhsil alan 350 nəfərin içində D.Rzayev yeganə azərbaycanlı idi. 1973-cü ildə Ali Hərbi Məktəbi əla qiymətlərlə bitirən D.Rzayev Sovet Ordusunda 5 min nəfər şəxsi heyəti, 120-yə yaxın vertolyotu olan əlahiddə qırıcı hərbi-hava desantçıları briqadasının komandiri kimi yüksək hərbi vəzifədə xidmət edir. D.Rzayev yeganə azərbaycanlıdır ki, əlahiddə desant-paraşüt briqadasının komandiri olarkən general vəzifəsində çalışıb. 90-cı illərin əvvəllərində ölkədə çətin və gərgin anlar yaşanırdı. Qarabağda vəziyyət get-gedə gərginləşirdi. Ermənistan silahlı qüvvələri torpaqlarımıza hücum edir, dinc əhaliyə divan tuturdu. Məhz belə bir ağır məqamda Azərbaycan hökumətinin çağırışı ilə keçmiş SSRİ- də yüksək bilik və təcrübə qazanaraq müxtəlif hərbi hissələrdə şərəfli xidmət yolu keçən D.Rzayev Sovet Ordusunda hərbi xidmətdən istefa verir və 1991-ci ilə qədər Qarabağa Xalq Yardımı Komitəsində çalışır. Və həmin dövrdə ermənilərdən xeyli sayda silah-sursatın götürülməsinə nail olur. Elə həmin illərdə general-mayor Dadaş Rzayev bütün çətinliklərə baxmayaraq, Milli Ordunun yaradılması ilə də məşğul olur, təcrübəli zabitləri də bu işə cəlb edirdi. 1991-ci ildə Dadaş Rzayev müdafiə nazirinin müavini təyin olunur. Birinci ordu korpusunun komandiri olan Rzayevin Başkəndi ermənilərdən almaq qətiyyətinə o zamanlar heç kim inanmırdı. Hətta ona mane olmaq belə istəyirdilər. Lakin sözündə və əməlində hər zaman bütöv olan Dadaş müəllim Qazax, Tovuz və Gədəbəy rayonlarının strateji yüksəkliklərində mühəndis istehkam qurğuları düzəldərək bu istiqamətlərdə bütün mövqeləri möhkəmləndirir. Qısa müddət ərzində həyata keçirilən döyüş əməliyyatları nəticəsində avqustun 8-də ermənilərin “Kiçik Qarabağ” adlandırırdıqları Başkənd ermənilərdən geri alınır. Başkənd əməliyyatından sonra D.Rzayev müdafiə naziri təyin edilir.





Əlində silah döyüşən general-mayor Dadaş Rzayev bütün çətinliklərə sinə gərərək vətənin müdafiəsini təşkil edir və ordu quruculuğu ilə də məşğul olurdu. Zabit şərəfini hər şeydən yüksək tutaraq peşəsinə məsuliyyətlə yanaşırdı. Hərbi biliyi, təcrübəsi və cəsarəti sayəsində az qüvvə ilə hazırladığı əməliyyatların, demək olar ki, hamısını uğurla başa çatdırırdı. Azərbaycan Ordusunun gücü və döyüş qüdrətinin inkişafı üçün gənclərimizin hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunmasında mühüm işlər görür. General-mayor Dadaş Rzayev cəbhə bölgələrində olur, əsgər və zabit heyəti ilə görüşür, onların məişət şəraiti ilə tanış olur, düşmənlə üz-üzə xidmət dayanan əsgərlərimizlə söhbət edir, gündəlik qayğıları ilə maraqlanır. Onlara cəsarətli, vətənin keşiyində ayıq-sayıq dayanmağı, nizam-intizamlı, özlərinə qarşı tələbkar olmağı tövsiyə edir.

Azərbaycan Respublikası Veteranlar Təşkilatının sədri, ehtiyatda olan general-mayor Dadaş Qərib oğlu Rzayev 1959-cu ildə SSRİ Hərbi Hava Desantçıları Məktəbini,1973-cü ildə M.F.Frunze adına Ali Hərbi Akademiyanı fərqlənmə ilə bitirmiş, keçmiş SSRİ-nin müxtəlif hərbi hissələrində şərəflə xidmət etmişdir. O, Sovet Ordusunda hərbi xidmətini əlahiddə qırıcı hərbi-hava desantçıları briqadasının komandiri kimi yüksək hərbi vəzifədə başa vurmuşdur.

D.Rzayev 90-cı illərin əvvəllərində xüsusilə Qarabağda hərbi əməliyyatların intensivləşməsi ilə əlaqədar vətənə dönmüş və 1992-ci ildə təcrübəsi və ilk hərbi hissələrin yaradılmasında fəal iştirakı nəzərə alınaraq, Birinci Ordu Korpusunun komandiri, Müdafiə Nazirinin müavini, 1993-cü ilin 20 fevral - 17 iyununda Azərbaycan Respublikasının Müdafiə Naziri vəzifəsinə təyin olunmuşdur.

D.Rzayev hərbi xidmətdən ehtiyata buraxıldıqdan sonra da ölkənin ictimai-siyasi həyatında yaxından iştirak etmişdir. Xalqımızın ümmumilli lideri Heydər Əliyevin Azərbaycan

Ordusunun formalaşdırılması, ölkənin müdafiə qabiliyyətinin möhkəmləndirilməsi istuiqamətində gördüyü genişmiqyaslı işlərdə keçmiş hərbçi və Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ehtiyatda olan Zabitlər Konfederasiyasının sədri kimi təcrübəsini, bilik və bacarığını əsirgəməmişdir.

Ehtiyatda olan general-mayor Dadaş Rzayev 2014-cü il yanvar ayının 28-də Azərbaycan Respublikası Veteranlar Təşkilatının sədri seçilmişdir. Təşkilat onun rəhbərliyi altında ölkə gənclərinin azərbaycançılıq, hərbi-vətənpərvərlik ruhunda tərbiyə olunması istiqamətində mühüm işlər görür. Azərbaycanda veteranlarla bağlı dövlət siyasətinin uğurla həyata keçirilməsi, veterenların ölkənin ictimai-siyasi həyatında fəal iştiraklarına nail olunması, xarici ölkələrin müvafiq təşkilatları ilə əməkdaşlıq əlaqələrinin qurulması və inkişafında əməyi danılmazdır. Əfqanıstan və Qarabağ müharibəsi veteranıdır.

D.Rzayev həyatı boyu xalqına, Vətəninə, dövlətinə sədaqətlə xidmət etmişdir. 45 ildən artıq hərbi xidmət yolu keçən bir insan kimi o, bu gün də sırada olmasından qürur duyur.





## *Mündəricat*

***Ön söz ------------------------------------------ 3***

***Azərbaycan xalqının ümmumilli lideri Heydər Əliyevin Veteranlar haqqında müdrik fikirləri --------------------------------7***

***Keçmiş beynəlmiləlçi döyüşçülərlə görüşdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin çıxışı 4 noyabr 1993-cü il- 8***

***Heydər Əliyevin faşizm üzərində Qələbənin 50 illiyinə hazırlıqla əlaqədar müharibə, əmək və silahlı qüvvələrin veteranları ilə görüşdə çıxı şı---------------------------------12***

***Azərbaycan Prezident Heydər Əliyevin tank qoşunları general-mayoru, iki dəfə Sovet İttifaqı Qəhrəmanı Həzi Aslanovun Bakıdakı məzarı yanında xatirə mitinqində çıxışı ---29***

***Azərbaycan Prezidenti Heydər Əliyevin Böyük Vətən Müharibəsində - İkinci Dünya müharibəsində faşizm üzərində qələbənin 53-cü ildönümü münasibəti ilə təntənəli mərasimdə nitqi ----------------------------- 31***

***Stalinqrad vuruşmasında qələbənin 60***

*illiyinə həsr olunmuş təntənəli yığıncağın iştirakçılarına --------------------------------35*

*Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin faşizm üzərində qələbənin 58-ci ildönümü münasibətilə Azərbaycan xalqına müraciəti -----------------------------37*

*Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Veteranlar haqqında müdrik fikirləri ---------------------------------------- 40*

*Böyük Vətən müharibəsində Qələbənin 60 illik yubileyinə həsr olunmuş mərasim keçirilmişdir Azərbaycan Prezidenti İlham Əliyevin nitqi -------------------------------- 43*

*Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının yeni inzibati binasının açılışındakı nitqi ------- 47*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin çıxışı ------------------------ 50*

*İkinci Dünya müharibəsində faşizm üzərində Qələbənin 71-ci ildönümü münasibətilə Bakıda təntənəli mərasim keçi rilib--------------------------------------------61*

*Veteran hərakatı tarixindən Qədim Romada veteran hərakatı-------------------------------67*

*Veteranların statusu---------------------------68*





*Ветеранские движения после первой мировой войны (Память о войне)---------76*

*Azərbaycanda veteran hərakatı----------81*

*Azərbaycan Respublikası Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının tari xi------------------------------------------84*

*Respublika Veteranlar Şurasının III Konfransı - 1-ci Qurultay-------------------141*

*Respublika Veteranlar Şurasının II K onfransından sonra görülən işlər barədə Respublika Veteranlar Şurasının sədri B.Hüseynovun hesabat məruzə si”-------148*

*Azərbaycan Respublikası Veteranlar ŞurasınınIIPlenumu------------------------159*

*RVŞ-nin 28 noyabr 2000-ci ildə keçirilmiş II Qurultayının Qətnaməsi--------------------215*

*Azərbaycan Respublika Veteranlar Şurasının III Qurultayının Qətnaməsi-----------------31*

*Respublika Veteranlar Şurasının III Qurultayında Veteranlar Şurasının sədri Baloğlan Rüstəmovun hesabat məruzəsi-239*

*Respublika Veteranlar Şurasının IV Qurulta yı ---------------------------------------------261*

*Respublika Veteranlar Şurasının V Qurulta yı---------------------------------------------266*

***Azərbaycan Respublikası Veteranlar Şurasının V Qurultayı nümayəndələrinin Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyevə Müraciəti-------------------------------------------270***

***Azərbaycan Respublikası Veteranlar Şurasının Qurultaya hesabat məruzəsi--273***

***Azərbaycan Veteranlar Şurası V Qurultayının Qətnaməsi------------------------------------291***

***RVT-nin 2016-cı ilin yanvarından 2017- ci ilin martına qədərki fəaliyyəti-------------297***

***Ermənistanın təcavüzünə, erməni təbliğatına qarşı mübarizə--------------------------------315***

***Gənclərin vətənpərvərlik, azərbaycançılıq, dövlətçilik ruhunda tərbiyəsi----------------324***

***Gənclərdə milli ruhun gücləndirməs-----329***

***İkinci Dünya müharibəsində xarici ölkələrin ərazisində həlak olmuş və itkin düşmüş sayılan azərbaycanlı döyüşçülərin taleyinin aydınlaşm ası---------------------------------335***

***Gənclər Günündə görüş---------------------339***

***Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənovla veteranların görüşü--------------------------347***

***“Xatirə kitabı”nın 15-ci cildinin təqdimatı351***





***Cəbhə bölgəsinə səfərlər--------------------355***

***Azərbaycan Respublikasının Konstitusiyasına əlavə və dəyişikliklərlə bağlı ümumxalq səsverməsində iştirak---360***

***Beynəlxalq əlaqələr çərçivəsində keçirilən tədbirlər--------------------------------------362***

***Respublika Veteranlar Təşkilatının sədrləri ----------------------------------------------366***

“Azərbaycan veteranı - Böyük yolun 30 ili” Bakı, “Vətən” nəşriyyatı 2017

Kompüter dizayneri:ü
Korrektoru:

Yığılmağa verilmiş 02.03.2017. Çapa imzalanmış

.

Fiziki çap vərəqi Nəşrin formatı: Şərti çap vərəqi.

Uçot nəşr vərəqi Ofset kağız №1. Sifariş № . Tiraj: .

“Vətən” nəşriyyatında çap olunmuşdur.